# ƏDƏBİYYAT

DƏRSLİK

10



LAYİHƏ





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

SOLTAN ƏLİYEV, BİLAL HƏSƏNOV, AYNUR MUSTAFAYEVA

# ƏDƏBİYYAT 10

Ümumi təhsil müəssisələrinin 10-cu sinifləri üçün Ədəbiyyat fənni üzrə
DƏRSLİK

©Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **bn@bakineshr.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

LAYİHƏ

10

# Ədəbiyyat

## Başlıqlar


Söz sənətimiz – mənəvi sərvətimiz . . . . . . . . . . . 6

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI** . . . . 9
Azərbaycan şifahi xalq yaradıcılığı . . . . . . . . . . . 9

**QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI** . . . . 15
“Kitabi-Dədə Qorqud” eposu . . . . . . . . . . 18
Salur Qazanın evinin yağmalandığı boy . . . . . . . 21

**İNTİBAH DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI** . . . 33
*Nizami Gəncəvi.* Həyatı, yaradıcılıq yolu . . . . . . . 36
İskəndərnamə . . . . . . . . . . . . . . 39
*Əfzələddin Xaqani.* Eyləsəm səfər... (qiymətləndirmə materialı) . 52

**ORTA ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI** . . . 53
*İmadəddin Nəsimi.* Həyatı, yaradıcılıq yolu . . . . . . . . 57
Sığmazam . . . . . . . . . . . . . . . 60
*Şah İsmayıl Xətayi.* Həyatı, yaradıcılıq yolu . . . . . . 65
Dəhnamə . . . . . . . . . . . . . . . 68
*Həbibi.* Mənim... (qiymətləndirmə materialı) . . . . . . 75
*Məhəmməd Füzuli.* Həyatı, yaradıcılıq yolu . . . . . . . . 76
Məni candan usandırdı... . . . . . . . . . . 78
Leyli və Məcnun . . . . . . . . . . . . . 80
*Məhəmməd Əmani.* Seyr elə... (qiymətləndirmə materialı) . . . 87

**ERKƏN YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI** . 88
“Koroğlu” eposu . . . . . . . . . . . . . . . . 92
Həmzənin Qıratı qaçırması . . . . . . . . . . . . 95
*Molla Pənah Vaqif.* Həyatı, yaradıcılıq yolu . . . . . . . 102
Pəri . . . . . . . . . . . . . . . . . . . 105
*Vidadi.* Könlümü... (qiymətləndirmə materialı) . . . . . . 108


LAYİHƏ

**AZƏRBAYCAN ƏDƏBİYYATINDA MAARİFÇİ-REALİZM DÖVRÜ** . . . . . . . . 109

*Qasım bəy Zakir.* Həyatı, yaradıcılıq yolu . . . . . . . . 115
Badi-səba, mənim dərdi-dilimi... . . . . . . . . . 117

*Mirzə Fətəli Axundzadə.* Həyatı, yaradıcılıq yolu . . . . . 120
Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur . . . . . . . . 123
Aldanmış kəvakib . . . . . . . . . . . . 135

*Baba bəy Şakir.*
Quberniya bina olandan bəri... (qiymətləndirmə materialı) . . 148

*Aşıq Ələsgər.* Həyatı, yaradıcılıq yolu . . . . . . . . 149
Dağlar . . . . . . . . . . . . . . 152

*Seyid Əzim Şirvani.* Həyatı, yaradıcılıq yolu . . . . . . 156
Guş qıl... . . . . . . . . . . . . . . 159

*Nəcəf bəy Vəzirov.* Həyatı, yaradıcılıq yolu . . . . . . 163
Müsibəti-Fəxrəddin . . . . . . . . . . . 165

*Seyid Əbülqasim Nəbati*
Səba, məndən söylə... (qiymətləndirmə materialı). . . . . 189

İfadəli oxuda istifadə edilən şərti işarələr . . . . . . . 190
Lüğət . . . . . . . . . . . . . . . . 191
Qısa ədəbiyyatşünaslıq terminləri lüğəti . . . . . . . 198
Oxumağı məsləhət görürük . . . . . . . . . . 207
Mənbələr . . . . . . . . . . . . . . . 208

LAYİHƏ



# SÖZ SƏNƏTİMİZ – MƏNƏVİ SƏRVƏTİMİZ...

• **Araşdırmaya hazırlaşın**

**1. Mətni fərdi olaraq oxuyun, məlumatları aşağıdakı işarələrlə nişanlayıb qruplaşdırın:**

\+ tanış olan məlumatlar;
– əvvəl öyrənilmiş bilik və məlumatlara zidd olanlar;
**!** maraqlı və yeni olan məlumatlar;
**?** açıqlanmasına, daha əhatəli öyrənilməsinə ehtiyac duyulan məlumatlar.

**2. Gəldiyiniz nəticəni aşağıdakı cədvəldə qısaca yazın.**

| + | – | ! | ? |
|---|---|---|---|
| Bilirdim | Bildiklərimə ziddir | Mənim üçün yeni və maraqlı məlumatdır | Bu barədə daha çox bilmək istəyirəm |
| | | | |

**3. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün. Ümumiləşdirmə apararaq təqdimata hazırlaşın.**
**4. Təqdimatlar əsasında məlumat mübadiləsi və müzakirə aparın.**

Bu sinifdə qədim və zəngin ədəbiyyatımızı tarixi-ədəbi prinsip əsasında öyrənəcəksiniz. Başqa sözlə, araşdırma aparmaqla söz sənətimizin müxtəlif tarixi dönəmlərdə inkişafı və görkəmli nümayəndələrinin yaradıcılığı barədə yeni bilik və bacarıqlara yiyələnəcəksiniz. Araşdıracağınız problem və suallarla bağlı dərslikdə geniş məlumat verilməmişdir. Dərslikdəki yığcam məlumatları hər mövzu üzrə göstərilmiş mənbələrdən əldə etdiklərinizlə zənginləşdirəcək və tamamlayacaqsınız. Həmin mənbələrin sırasında göstərilmiş *elektron vəsait* sizin üçün hazırlanmışdır. Öyrənəcəyiniz mövzularla bağlı oradakı məlumatı mənimsəməyiniz digər mənbələrlə işinizi asanlaşdıracaqdır. Bu mənbələr Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə latın qrafikası ilə nəşr olunaraq ölkəmizin bütün kitabxanalarına yayılmış kitablardan seçilmişdir.

Mənbə qismində göstərilən kitabların dili aydın, məzmunu anlaşıqlı olduğu üçün onlardan istifadə edərkən çətinlik çəkməyəcəksiniz. *Müxtəlif mənbələrdəki məlumatları öyrənmək, təhlil və müqayisə etmək, ümumiləşdirmə aparmaq müstəqil düşüncənizin dərinləşməsinə, bacarıqlarınızın inkişafına müsbət təsir edəcəkdir.* Vəsaitə X sinifdə öyrənilən bədii əsərlər də daxil edilmişdir. Bu, vaxt



LAYİHƏ

itkisinin qarşısını alacaq, bütün bədii əsərləri bir mənbədən oxumağınıza imkan yaradacaqdır. Unutmayın ki, bədii əsərlərin hər birini hələ sinifdə öyrənməyə başlamazdan əvvəl müstəqil oxumalısınız. Klassik ədəbiyyatla bağlı lüğətlər, şərh və izahlar oxuda köməyinizə gələcəkdir.

Xalq yaradıcılığı nümunələri ilə zəngin olan ədəbiyyatımız öz mənşəyini türk xalqları üçün ortaq olan qədim türk, yaxud ümumtürk ədəbiyyatından almışdır. Ulu babalarımızın – qədim türklərin bir neçə min il ərzində yaratdığı ortaq ədəbiyyat ən qədim zamanlardan islam dininin qəbuluna qədər olan dövrü əhatə edir. Ortaq türk ədəbiyyatının əsasında tanrıçılıq dünyagörüşünü, milli-etnik düşüncəni əks etdirən qədim türk eposu dayanır. İlk yazılı ortaq ədəbi-tarixi abidələr isə VII yüzilliyin məhsulu olan Orxon-Yenisey kitabələri hesab edilir.

İslamiyyətdən öncə Azərbaycanda yaradılmış qədim dövr yazılı abidələrinin mükəmməl nümunəsi "Avesta" təkcə xalqımızın deyil, Ön və Orta Asiya xalqlarının da ortaq dini-fəlsəfi, ədəbi abidəsi sayılır. Atəşpərəstlik dinini təbliğ edən bu əsər Azərbaycan ərazisindəki tayfa birləşmələri üçün əsrlər boyu müqəddəs kitab olmuşdur.

Türklərin islam dinini qəbul etməsi ictimai-mədəni həyatın bir çox sahələri kimi, ədəbiyyatın da mövzu, ideya, dil, üslub, janr, vəzn xüsusiyyətlərinə öz təsirini göstərmişdir. İslamiyyətdən sonra türklərin yaratdığı divan ədəbiyyatı əsrlər boyu davam etmişdir

M.Kaşqarlının türk dünyasının ilk ensiklopediyası sayılan "Divani lüğat-it türk" kitabına ortaq türk ədəbiyyatı nümunələri daxil edilmişdir. Türk dünyasının böyük gələcəyini görən Məhəmməd peyğəmbərin aşağıdakı hədisi kitabın başlanğıcında əks etdirilmişdir: "Türk dilini öyrənin, onların uzun sürən hakimiyyəti vardır". Əsər bu gün də qiymətli abidə kimi araşdırılır və öyrənilir.

Ərəb dilində yazıb-yaradan şairlərimizin əsərləri ideya-məzmunu, bədii sənətkarlıq xüsusiyyətləri, eləcə də azərbaycanlı-türk təfəkkürü, milli ruhu ilə dövrün ərəb poeziyasından seçilirdi. IX əsrdən başlayaraq, fars dili Şərq ölkələrində poeziya dili kimi geniş yayılmağa başladı. Azərbaycan ədəbiyyatında XI əsrdən başlayan farsca yazmaq ənənəsi bir neçə əsr davam etmişdir.

**XI–XII əsrlərdə** yaranan ədəbiyyatımız *intibahı dövrü* Azərbaycan ədəbiyyatı mərhələsi kimi dəyərləndirilir. Farsdilli Azərbaycan poeziyasının ilk görkəmli nümayəndəsi olan Qətran Təbrizinin yaradıcılığı ilə şeirimizin yeni inkişaf mərhələsi başlanır. XII əsrdə yazıb-yaratmış Əfzələddin Xaqaninin, Məhsəti Gəncəvinin və digər sənətkarların yaradıcılığı ideya istiqamətinə, ictimai motivlərinin genişliyinə, bədii keyfiyyətinə görə ədəbiyyatımızda dərin iz buraxmışdır.

İntibah poeziyasının zirvəsi olan dahi sənətkarımız Nizami Gəncəvinin yaradıcılığı, onun sənət incisi sayılan "Xəmsə"si həmin dövrdə və sonralar yaranan ədəbiyyatın inkişafında misilsiz rol oynamışdır.

**XIII–XVI** yüzilliklər orta əsrlər Azərbaycan ədəbiyyatı mərhələsi hesab olunur. Bu dövrdə ən mühüm hadisə farsca yazmaq ənənəsinin getdikcə zəifləməsi, ana dilində yaranan ədəbiyyatın güclənməsidir. Bu mərhələdə ədəbiyyatımızın inkişafı ilk növbədə Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Şah İsmayıl Xətayi kimi görkəmli sənətkarların adı ilə bağlıdır. XIII əsrdə yazıb-yaratmış Şeyx İzzəddin Həsənoğlunun qəzəlləri ana dilində bizə çatan ilk nümunələrdir. Lakin bu nümunələrin yüksək bədii keyfiyyəti onlardan çox-çox əvvəl ana dilimizdə əsərlərin yazıldığını deməyə əsas verir. Müəllifi məlum olmayan "Dastani-Əhməd Hərami" poeması isə ana dilində ilk epik poeziya örnəyidir.

XIV əsrin son rübündə Azərbaycanda yeni cərəyan – *hürufizm* yaranmışdır. Hürufilik fəlsəfi təlimi İmadəddin Nəsiminin yaradıcılığında yüksək bədii ifadəsini tapmışdır.



LAYİHƏ

XV–XVI əsrlərdə Azərbaycan ərazisində müxtəlif sülalələrin hakim dairələrinin Azərbaycan dilinə böyük dəyər verməsi, ana dilində yazan sənətkarlara qayğı göstərməsi anadilli ədəbiyyatın inkişafına səbəb olmuşdur.

Orta əsr türk dünyasının poeziya zirvəsini öz yaradıcılığı ilə Məhəmməd Füzuli fəth etmişdir. Onun lirikasının ən dəyərli inciləri məhəbbət və gözəlliyi tərənnüm edən qəzəlləridirsə, süjetli əsərləri içərisində möcüzə sayılanı "Leyli və Məcnun" poemasıdır.

**XVII–XVIII əsrlərdə** Azərbaycan ədəbiyyatı *erkən yeni dövr* mərhələsinə qədəm qoyur. Bu dövrdə ədəbiyyatda realizm ilk dəfə olaraq ardıcıl və davamlı xarakter almışdır. Həmin yüzilliklərdə iqtisadi və siyasi vəziyyətin ağırlaşmasına baxmayaraq, söz sənətimiz inkişafını dayandırmamış, ənənələrdən faydalanmaqla yanaşı, yeni keyfiyyətlərlə də zənginləşmişdir.

XVI əsrin sonu XVII əsrin əvvəllərində real tarixi hadisələr əsasında yaranmış "Koroğlu" eposu mühüm ədəbi hadisə idi. Bu dastanda xalqımızın haqq, ədalət uğrunda mübarizəsi, döyüşlərdə göstərdiyi igidlik və qəhrəmanlıqlar öz bədii ifadəsini tapmışdır.

XVII–XVIII əsrlərdə aşıq sənəti sürətlə inkişaf etmiş, maraqlı məhəbbət dastanları yaradılmışdı. "Aşıq Qərib", "Abbas və Gülgəz", "Şah İsmayıl" kimi məhəbbət dastanlarında məhəbbət, sədaqət, dostluq hissləri ilə yanaşı, ictimai ədalətsizliklərə etiraz motivləri də mühüm yer tuturdu.

Bu dövrdə Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Saib Təbrizi, Məsihi və digər sənətkarların yaradıcılığı ədəbiyyatımızın yeni yüksəlişinə təkan verdi.

**XIX əsrdə** Azərbaycan ədəbiyyatında maarifçilik ideyaları genişlənmiş, ədəbiyyat maarifçi realizm mərhələsinə qədəm qoymuşdur. Klassik poeziya ənənələri əsasında yaranan romantik poeziya, folklor üslubu bu yüzillikdə də davam etdirilmiş, satirik şeir istiqamətli olmuşdur.

XIX əsrdə maarifçiliyin təşəkkülü, inkişafı, milli teatr və mətbuatın yaranması mühüm hadisə idi. Maarifçilik ideyalarının geniş yayılması və mükəmməl şəkil alması M.F.Axundzadənin adı ilə bağlıdır. Onun yaradıcılığı ilə Azərbaycanda və Yaxın Şərq xalqlarının bədii fikrində yeni bir maarifçi-realist ədəbi cərəyanın əsası qoyulur, milli ədəbiyyatımız öz inkişafında yeni zirvələrə yüksəlir.

Görkəmli maarifçi və ictimai xadim Həsən bəy Zərdabinin redaktorluğu ilə "Əkinçi" qəzetinin nəşrə başlaması ölkənin sosial-mədəni həyatında bir canlanma əmələ gətirmiş, demokratik ideyaların yayılmasına əhəmiyyətli təsir göstərmişdir.

**Evdə iş** **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. Cədvəldən istifadə edin.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın qısa məzmunu |
|---|---|
| | |

**2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**


1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 clddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 10-12; II cild, səh. 5-7; III cild, səh. 4-6.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
3. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh. 5-6, 8, 12-13.


LAYİHƏ

# AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI

## AZƏRBAYCAN ŞİFAHİ XALQ YARADICILIĞI

**Araşdırmaya hazırlaşın**

1. **Şifahi xalq ədəbiyyatı barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**
   *Ədəbiyyat dərslərindən, digər mənbələrdən öyrəndiyiniz biliklərdən istifadə edin.*
2. **Mətnkənarı sualların sayı qədər kiçik qruplar yaradın (qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər). Sualların cavablarını – dərslikdəki mətni oxuyun. Cavablarda daha mühüm hesab etdiklərinizi, onlara nələri əlavə etməyin vacib olduğunu qısaca yazın.**
3. **Digər qruplara vermək üçün oxuduğunuz mətnlə bağlı bir neçə sual müəyyənləşdirin.**

| Müəyyənləşdirilmiş suallar | Onların cavabları |
|---|---|
| | |

4. **Qənaətlərinizi bölüşün, təqdimatlara hazırlaşın.**
5. **Təqdimatlar etməklə gəldiyiniz nəticələr barədə fikir mübadiləsi və müzakirə aparın.**

Şifahi xalq ədəbiyyatı nümunələrinin əhəmiyyətini nədə görürsünüz?

Xalqımızın zəngin şifahi ədəbiyyatı vardır. Söz sənətimizin ilk örnəkləri qədim dövrlərdə yaranmış, dildən-dilə, ağızdan-ağıza keçərək yaşamış və zənginləşmişdir. Şifahi xalq ədəbiyyatına *folklor* da deyilir. İngilis dilindən götürülmüş bu termin – **folk** – xalq, **lore** isə bilik, hikmət (xalq müdrikliyi) anlamındadır.

Azərbaycan xalqının yüzillər boyu yaratdığı şifahi xalq ədəbiyyatı onun tarixi, mədəniyyəti, mənəviyyatı, həyat tərzi, adət-ənənələri haqqında zəngin məlumat verən əsas qaynaqlardan hesab olunur. Folklor nümunələri xalq zəkasının qüdrətini, bədii təfəkkürünün gücünü parlaq əks etdirən, məzmun cəhətdən maraqlı, ideya baxımından zəngin, əsrlərin sınağından çıxmış əsərlərdir. Bu sənət inciləri janr əlvanlığı, dil-üslub aydınlığı, poetik tutumu və xəlqiliyi ilə seçilir. Şifahi ədəbiyyatda xalqımızın insan taleyi ilə bağlı düşüncələri, vətənpərvərliyi, humanizmi, arzu və istəyi, sevgisi, nifrəti, müxtəlif tarixi dönəmlərdə üzləşdiyi mühüm ictimai-siyasi hadisələrə münasibəti geniş bədii əksini tapmışdır.

Xalqın tarixi ilə sıx bağlı olan folklor onun öyrənilməsi üçün etibarlı mənbədir. Məsələn, ölməz ədəbi-tarixi abidə olan "Kitabi-Dədə Qorqud" dastanları xalqımızın, dilimizin tarixinin çox qədim olduğunu sübut edir. Dastandakı obrazların konkret tarixi şəxsiyyətlərlə bağlılığı haqqında fikirlər vardır. Əsərdə qədim oğuzların tarixinin, coğrafiyasının izləri açıq-aydın görünməkdədir.



LAYİHƏ

Azərbaycan folkloru öz kökləri, tarixi etibarilə ümumtürk folklorunun mühüm tərkib hissəsi olub, türk xalqlarının yaratdıqları ilə ortaq cəhətlərə malikdir. Qədim türk bədii təfəkkürünün, dildə gerçəkləşən mədəniyyətinin nümunəsi olan miflər, dastanlar və s. türk xalqlarının vahid bir kökə bağlılığını göstərən ortaq dəyərlər sayılır.

> Lirik folklor nümunələrini janr, mövzu, problem baxımından səciyyələndirən əsas xüsusiyyətlər hansılardır?

Azərbaycan folklorunun həyatı əksetdirmə üsulu baxımından *lirik, epik, dramatik* növləri vardır. Bu ədəbi növlərin hər birinə məxsus janrlar yaranmış, zaman-zaman zənginləşmişdir. Lirik və epik folklor nümunələri daha geniş yayılmışdır. Müxtəlif ədəbi növlərin janrlarında folklora xas olan ortaq cəhətlərlə yanaşı, məzmun və forma baxımından fərqli xüsusiyyətlər də vardır. Həyatı tərənnüm və təsvir yolu ilə əks etdirən lirik növün janrları, əsasən, aşağıdakılardır: *nəğmələr (əmək nəğmələri: holavar, sayaçı sözləri; mövsüm nəğmələri; mərasim nəğmələri: toy və yas nəğmələri; məişət nəğmələri: layla, oxşama; qəhrəmanlıq nəğmələri), bayatılar, mahnılar*.

Holavarlar və sayaçı sözləri şifahi xalq ədəbiyyatının ən qədim janrları hesab olunur.

*Holavarlar* əkinçiliklə, *sayaçı sözləri* heyvandarlıqla, qoyunçuluqla bağlıdır. Əkinçi, cütçü öz ağır əməyini yüngülləşdirmək üçün müəyyən ritmi, ahəngi olan nəğmələr demişdir. Cütçü əkin-biçin zamanı holavar səsləndirərək öküzə müraciət edir, iş prosesində ona güvəndiyindən söz açır:

Öküz, öküz, xan öküz,
Dırnaqları qan öküz,
Sən kotana güc eylə,
Mən də deyim can öküz.

*Sayaçı sözləri* qoyunçuluqla məşğul olan insanların nəğmələridir. Sayaçı sözlərində kəndli həyatında qoyunçuluğun böyük əhəmiyyəti göstərilir. Çoban ailəsinin rifahını təmin edən qoyuna müraciət edir, onun xeyir, bərəkət gətirməsindən rəğbətlə danışır:

Nənəm, a nazlı qoyun,
Qırqovul gözlü qoyun,
Pendiri kəsmə-kəsmə,
Qatığı üzlü qoyun.

*Mövsüm nəğmələri* ilin müxtəlif fəsilləri ilə bağlı olub, yaz, yay, payız, qış haqqında təsəvvürləri əks etdirir. Məsələn, günəşi çağırmaq məqsədilə "*Gün çıx*" mövsüm nəğməsi ifa edilib. "*Qodu-qodu*" nəğməsi isə uzun zaman yağan yağışın kəsməsi üçün keçirilən mərasimdə ifa edilirmiş. İl quraqlıq keçəndə isə yağışçağırma mərasimi qurular, nəğmələr oxunarmış. Yazın gəlişi el bayramına çevrilmiş, el şənliklərində Novruzla bağlı nəğmələr ifa edilmişdir.

Xalqın məişəti, güzəranı ilə bağlı olan *mərasim nəğmələri* qədim insanlar tərəfindən müxtəlif mərasimlərdə ifa edilmişdir. Elçilik, nişanlanma və toy zamanı şadlıq nəğmələrinin oxunması, yas mərasimlərində ağıların söylənilməsi adəti indi də qalmaqdadır. *Toy nəğmələrində* xalqımızın ailə, məhəbbət, sədaqət kimi mənəvi dəyərlərindən söz açılır, yeni qurulan ailənin xoşbəxtliyi ilə bağlı diləklər ifadə olunur:

Zülf töküb üzə dilbər,
Çıxıbdı düzə dilbər,
Duvaq salın üzünə
Gəlməsin gözə dilbər.



LAYİHƏ

Mərasim nəğmələrinin bir növü olan *ağılar* insan ölümü, faciəsi ilə bağlı nəğmələrdir. Bu nəğmələrdə yaxın, doğma adamların ölümündən doğan dərin kədər, qəm hisləri ifadə olunur:

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi,
Xəzəl ollam, tökülləm,
Viranə bağlar kimi.

*Məişət nəğmələri* olan *laylalar* və *oxşamalar* folklorun geniş yayılmış janrlarıdır. Layla və oxşamalarda ananın körpəsinə məhəbbəti, övladının gələcəyi ilə bağlı ümid və arzuları əksini tapır:

Laylay dedim, yatasan,
Qızılgülə batasan.
Qızılgülün içində
Şirin yuxu tapasan.
Balam, layla, a layla,
Körpəm, layla, a layla.

*Oxşamalar* körpəsini əyləndirən, əzizləyib-oynadan ananın oxuduğu nəğmələrdir. Oxşamaya bəzən *nazlama* da deyilir. Oxşamalar ikilik və dördlük şəklində olur:

Balama qurban inəklər,
Balam haçan iməklər.
Tüstüsüz damlar,
Sarı badamlar,
Tənbəl adamlar,
Bu balama qurban.

*Qəhrəmanlıq nəğmələri* xalqın igid oğullarını düşmənlə döyüşə, qəhrəmanlığa, mərdliyə səsləyir. "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi qəhrəmanlıq dastanlarında sərkərdə, xalq qəhrəmanı bu nəğmələr vasitəsilə öz silahdaşlarını tərifləyir, onları bahadırlığa, düşmənlə döyüşdə əzm, mətanət, igidlik nümayiş etdirməyə səsləyir:

Dəlilərim, bu gün dava günüdür,
Müxənnət ordusu talanmaq gərək...

*Bayatılar* kövrək, həzin duyğuları, səmimiyyəti, məhəbbəti, insanın könül dünyasını əks etdirən lirik folklor nümunələridir. Həcmcə kiçik olan bayatılarda dərin mənalı fikir ifadə olunur. Bu yığcam poetik nümunələrdə vətənin müqəddəsliyi, insanın məhəbbət, vüsal, ayrılıq, həsrət duyğuları, ümid və nisgili ifadə olunur. Mövzu, məzmun baxımından bayatıların, əsasən, aşağıdakı növləri var:
– vətən sevgisi, vətən həsrətindən bəhs edən bayatılar;
– məhəbbət, ayrılıq, həsrət haqqında bayatılar;
– mərdlik, mübarizlik, qorxmazlıq haqqında bayatılar.

4 misradan ibarət olan bayatının hər misrasında 7 heca olur. Birinci, ikinci, dördüncü misralar həmqafiyə, üçüncü misra sərbəst olur. Birinci, ikinci misralar sonrakı iki misrada söylənilək fikir üçün zəmin olur:



LAYİHƏ

Əzizim, vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qürbət ölkə,
Ölməyə vətən yaxşı.

Lirik növün *mahnı* janrı nəğmədən özünəməxsus musiqi havası olması ilə fərqlənir. O, nisbətən sonrakı dövrlərdə yaranmışdır. *"Qaragilə"*, *"Apardı sellər Saranı*, *"İrəvanda xal qalmadı"* və digər mahnılarda xalqın ruhu, sevinci, kədəri, ən zərif duyğuları, təbiətə məhəbbəti və s. əksini tapır:

Evimizin qabağından bu gələn arxdı,
Qaragilə, yar gələn vaxtdı.
Yarım gəlib çıxmayır, ovqatım talxdı,
Qaragilə, ovqatım talxdı.
Dərbənd aralı,
Könlüm yaralı.
Bir qız sevmişəm, Qaragilə
Ellər maralı.

Epik folklor janrlarının hansı səciyyəvi xüsusiyyətləri vardır?

Epik növün janrları, əsasən, *əfsanə, rəvayət, lətifə, atalar sözü və məsəllər, tapmaca, yanıltmac, nağıllardır.*

Folklorun qədim janrlarından olan *əfsanələrdə* ağlasığmaz, möcüzəli, fantastik səciyyəli qeyri-adi hadisələrdən söz açılır. İnsanın daşa, heyvana çevrilməsi, dağların, güllərin dil açıb danışması və s. əfsanələri digər epik əsərlərdən fərqləndirən səciyyəvi cəhətlərdir. Əfsanələrdə müxtəlif planetlər, əşyalar, heyvan və quşlar insana xas olan əlamətlərə malik olur. Əfsanələrin müxtəlif növləri var. Heyvan və quş adları ilə bağlı əfsanələr *zoonimik,* yer adları ilə bağlı əfsanələr *toponimik*, tayfa, xalq, nəsil adları ilə bağlı əfsanələr *etnonimik,* səma cisimləri haqqında əfsanələr *kosmoqonik* əfsanələr adlanır.

*"Səməndər quşu"* əfsanəsində oda inam, quşa tapınma motivləri öz əksini tapıb. Əfsanəyə görə, Səməndər quşu balalarının qanad açıb uçduğunu görəndə sevincindən polad dimdiyini çaxmaq daşı olan caynağına vurur. Bu zaman onun qovdan olan tükü alışır və o yanaraq külə dönür.

*Rəvayətlər* əfsanələrdən fərqli olaraq, tarixən baş vermiş, bu və ya digər şəxsiyyətlə bağlı real həyat hadisələri zəminində yaranır. Tarixi şəxsiyyətlər və yer adları ilə bağlı rəvayətlər geniş yayılıb. *"Nuh peyğəmbər"*, *"Astiaq"*, *"Tomris" və s.* rəvayətlərdə tarixi və əfsanəvi şəxsiyyətlərin həyatı, fəaliyyəti ilə bağlı hadisələr əks olunub.

*Lətifə* cəmiyyətdə, ailə və məişətdə, insan xarakter və əməllərində müşahidə olunan nöqsanları tənqid edən əsərlərdir. Lətifələrdə yumorla yanaşı, satira, sarkazm da mühüm yer tutur. Xalq arasında Molla Nəsrəddin, Bəhlul Danəndə ilə bağlı lətifələr geniş yayılıb.

*Atalar sözü və məsəllər* ibrətli, müdrik məzmun ifadə edən yığcam, bitkin ifadələrdir. Bu nümunələr xalqın əsrlər boyu qazandığı həyat təcrübəsinin ümumiləşmiş ifadəsidir. Onlara "müdrik sözlər", "qanadlı sözlər" və s. deyilməsi də bu hikmətli xalq örnəklərinə verilən yüksək qiymətlə bağlıdır. Həm atalar sözü, həm də məsəllər müdrik ifadələr olsalar da, onların arasında fərq də vardır. Atalar sözündə fikir ümumiləşmiş, bitkin şəkildə ifadə edilir. Buna görə də onların izahına ehtiyac duyulmur. Məsələn, *"İş insanın cövhəridir"*, *"Bu günün işini sabaha qoyma"*, *"Yüz ölç, bir biç"* və s. Atalar sözlərindən fərqli olaraq, məsəllər müəyyən əhvalatla bağlı olur. Məsəl müəyyən əhvalatın, hadisənin nəticəsi, yekunu



Layihə

kimi meydana çıxır. Onun mənasını başa düşmək üçün bağlı olduğu əhvalatı bilmək lazımdır. Məsələn, "*Dava yorğan davasıdır*" məsəli Molla Nəsrəddin lətifəsi ilə bağlıdır. Bu məsəldən, adətən, münaqişənin, mübahisənin əsl səbəbini göstərmək üçün istifadə olunur.

Epik folklorun geniş yayılmış janrlarından olan *tapmacalarda* müəyyən əşya, hadisə haqqında üstüörtülü şəkildə məlumat verilir. Burada əşyanın məcazi təsviri, onun səciyyəvi əlamətlərinin təqdimi əsas yer tutur. Tapmacanı hərfi mənada anlamaq, dərk etmək mümkün deyildir. Bu, sadəcə, səhv yoldur. Tapmacanın cavabını tapmaq üçün obrazlı təfəkkür, məntiqi düşüncə tələb olunur.

Epik folklorun janrlarından olan *yanıltmaclar* səs oyunu üzərində qurulmuşdur. Həm nəzm, həm də nəsr şəklində olan yanıltmaclar eyni səsin, oxşar səslənən sözlərin, söz birləşmələrinin sırası, əvəzlənməsi prinsipinə əsaslanır. Bu janrda olan nümunələr yumoristik məzmuna malik olub, uşaqların nitqinin, tələffüzünün inkişafına kömək edir: *Aşpaz Abbas aş asmış, asmışsa da, az asmış.*

Epik folklorun ən qədim janrlarından biri də *nağıllardır.* İnsanların qədim dövrlərdən yaratdığı nağıllar dildən-dilə keçərək dəyişmiş, zənginləşmiş, dövrümüzə gəlib çatmışdır. Nağılların özəl xüsusiyyətləri vardır. Bu nümunələrdə bütün hadisələr əsas qəhrəmanla bağlı olur. Qəhrəman əksər hallarda ideallaşdırılır. Nağılın müsbət qəhrəmanı qarşılaşdığı bütün çətinlikləri dəf edir, şər qüvvələrə qalib gələrək öz arzusuna çatır.

Nağıllar mövzu, məzmun etibarilə, əsasən, üç yerə bölünür: *heyvanlar haqqında nağıllar, sehrli nağıllar* və *məişət nağılları.* Onların hər birinin səciyyəvi xüsusiyyətləri vardır. *Heyvanlar haqqında* nağıllarda haqsızlıq, ədalətsizliklə mübarizə motivləri mühüm yer tutur. Bu nağıllarda xeyiri və şəri təmsil etməklə, heyvanlar iki qrupa bölünür.

*Sehrli* nağıllarda qəhrəman öz arzusuna çatmaq üçün adi şər qüvvələrlə deyil, cin, div, əjdaha, ifritə kimi sehrli qüvvələrlə mübarizə aparmalı olur. Bu mübarizədə nağılın qəhrəmanına xeyirxah sehrli qüvvələr (simurq quşu, uçan xalça və s.) kömək edir.

*Məişət* nağıllarında həyatda baş verən real hadisələr təsvir edilir. Bu nağılların qəhrəmanları çox zaman sadə, təvazökar, xeyirxah və fərasətli olurlar. Onlar həyatda çətinliklərlə qarşılaşır, yoxsulluq içində yaşayırlar. Belə nağılların qəhrəmanları öz arzularına çatmaq üçün mübarizə aparır, dara düşən insanların köməyinə yetişir, çətin sınaqlardan üzüağ çıxaraq ağıl və bacarıqları ilə şər qüvvələrə qalib gəlirlər.

*Aşıq yaradıcılığı* xalq ədəbiyyatının mühüm, həm də zəngin hissəsi olub, tarixin çox qədim zamanlarından baş alıb gəlir. Müəllifin məlum olması aşıq şeirini şifahi xalq ədəbiyyatının digər sahələrindən fərqləndirən əsas cəhətlərdəndir. Qədim dövrlərdə *dədə*, bəzən də *ozan*, *varsaq* adlandırılan aşıqlar yaşadıqları zəmanənin mühüm hadisələrinə əsərlərində münasibət bildirmiş, elin-obanın dərdinin, arzu-istəyinin ifadəçisi olmuşlar. Qoşma, gəraylı, bayatı aşıqların daha çox müraciət etdikləri janrlardır.

Aşıqlar iki qrupa bölünür: bir qismi *yaradıcı* olub, şeir qoşur, dastan yaradır və onları ifa edir; bir qismi isə daha çox mövcud əsərlərin ifası ilə məşğul olur. Beləlləri *ifaçı aşıq* adlandırılır. *Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Şəmşir, Aşıq Hüseyn Cavan* kimi sənətkarlar aşıq sənətinin inkişafına, zənginləşməsinə böyük töhfə vermiş yaradıcı aşıqlardır.

*Aşıq Əmrah, Aşıq Kamandar, Aşıq Hüseyn Saraclı* və digərləri ifaçılıq yolunu tutmuş, aşıq sənətinin yaşamasına, yayılmasına əhəmiyyətli xidmət göstərmişlər.



LAYİHƏ

Aşıq yaradıcılığının məhsulu olan *dastan* epik-lirik əsər sayılır. Dastanda nəsrlə nəzm, epik təhkiyə ilə lirik təqdimat vəhdətdə olur. Aşıq dastandakı əhvalatı nağıl edərkən saz havasının müşayiəti ilə qəhrəmanın hiss və həyəcanlarını əks etdirən şeirlər də söyləyir.

*"Kitabi-Dədə Qorqud"*, eləcə də *"Koroğlu"da* vətənin müdafiəsi, azadlıq, ədalətsizliyə qarşı mübarizə geniş əks olunduğundan onlar *qəhrəmanlıq dastanları* adlanır.

*"Şah İsmayıl"*, *"Aşıq Qərib"* kimi *məhəbbət dastanlarında* isə azad məhəbbətdən, bir-birini sevən gənclərin dözüm, sədaqət, ağıl və cəsarət sayəsində qovuşmasından bəhs olunur. Məhəbbət dastanları *ustadnamə* ilə başlayıb *duvaqqapma* ilə bitir. Bəzi məhəbbət dastanları faciə ilə bitir, sevgililər şər qüvvələrin yaratdığı maneələri aşa bilmir, bir-birinə qovuşmur. Belə dastanlarda duvaqqapma olmur.

> Dramatik növün janrlarının özəl xüsusiyyətləri hansılardır?

Dramatik növün janrlarına *xalq oyunları*, *xalq tamaşaları*, *şəbihlər* daxildir. Onların hər birinə aid nümunələr dövrümüzə çatmışdır. Məsələn, *"Xan oyunu"* xalq oyunları növünə aid nümunə hesab edilir. Xalq tamaşalarına *meydan tamaşaları* da deyilir. *"Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş"* tamaşasında tənbəlliyin tənqidi, əməyə rəğbət hissinin oyadılması ön plana çəkilir. Şəbihlər dini tamaşalardır. Bu tamaşalar daha çox məhərrəmlik mərasimləri ilə bağlı olur.

Dramatik növün janrlarından olan *oyunlar* uşaq orqanizminin hərəkətə, fəaliyyətə olan ehtiyacından yaranmışdır. Lakin oyunlar uşaqlarda təqlidlə yanaşı, düzüb-qoşmaq, yaratmaq bacarığını da üzə çıxarır. O, sənətin bir neçə sahəsini – musiqini, rəqsi, şeiri, aktyorluğu özündə birləşdirir. Kollektiv şəkildə həyata keçirilən uşaq oyunları *oturaq* və *hərəkətli* olmaqla iki yerə bölünür. *"Lal-dinməz"*, *"Əl üstə kimin əli"*, *"Uçdu, uçdu"* və s. uşaq oturaq oyunlarına aiddir.

Hərəkətli (mütəhərrik) oyunlarda uşaqların fiziki hərəkətləri əsas yer tutur. Bu oyunlarda əşyalardan istifadə edilir. *"Dəsmalı ver"*, *"Xəndəyədüşmə"*, *"Dəyirman"* və s. bu qəbildəndir.

## Evdə iş — Araşdırmanı davam etdirin

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) Şifahi xalq ədəbiyyatının məzmunca zəngin, formaca rəngarəng olmasına səbəb nədir?
   b) Şifahi xalq yaradıcılığı ilə yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsi hansı məzmunda və istiqamətlərdə olur?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## Mənbələr


1. Azərbaycan folkloru. (Məktəblilər üçün seçmələr). Bakı: Şərq-Qərb, 2005, səh. 5-12.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.




LAYİHƏ

## QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

**Araşdırmaya hazırlaşın**

1. **Qədim dövr Azərbaycan ədəbiyyatı, onun uğurları barədə ədəbiyyat dərslərində öyrəndiklərizi yada salıb yığcam müzakirə aparın.**
Həmin dövrdə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş vermiş mühüm dəyişikliklər haqqında tarix dərslərindən, əlavə mənbələrdən mənimsədiyiniz biliklərdən istifadə edin.

2. **BİBÖ cədvəlinin ilk iki sütununda qeydlər edin.**

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

3. **Mətnkənarı sualların sayı qədər kiçik qruplar (qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər) yaradın. Sualların cavabını – dərslikdəki mətni oxuyun. Cavablarda daha mühüm hesab etdiklərinizi, onlara nələri əlavə etməyin vacib olduğunu qısaca yazın.**
4. **Aşağıdakı fikirlərin üzərində düşünün, müzakirədə onlara münasibət bildirin.**
   – Qədim dövrdə, erkən və orta yüzilliklərdə (lap elə çağımızda belə) bir sıra ictimai-siyasi səbəblər üzündən ana dilində deyil, başqa dillərdə də yazıb-yaradan, lakin soykökü ilə Azərbaycan türkü olan yüzlərlə sənətkarlarımız vardır. Klassiklərimiz hansı dildə gəlib bizə çatıbsa – fərqi yoxdur, onu məhz Azərbaycan ərazisinin və etnosunun mədəni hadisəsi kimi eyni diqqətlə qəbul etməyə, öyrənməyə borcluyuq.
   *(Azadə Rüstəmova)*

   – Qədim türk, yaxud ümumtürk ədəbiyyatı bütün türk xalqlarının ortaq mənəvi sərvəti olub, ilk orta əsrlərdən başlayaraq öz tarixi inkişafını müxtəlif türk xalqlarının ədəbiyyatlarında davam etdirir. Bir kökdən, bir mənbədən gəldiklərinə, demək olar ki, eyni bir dildə yarandıqlarına görə türk ədəbiyyatları XVI-XVII əsrlərə qədər bütöv bir sistem təşkil etmiş, ideya-məzmun, ifadə-forma baxımlarından sıx qarşılıqlı əlaqədə olmuşdur.
   *(Nizami Cəfərov)*

5. **Təqdimatlar etməklə gəldiyiniz nəticələr barədə fikir mübadiləsi və müzakirə aparın. BİBÖ cədvəlinin sonuncu sütununda müvafiq qeydlər edin.**

Qədim dövrlərdə geniş coğrafi ərazidə yayılmış türk xalqlarının ədəbiyyatı ortaq səciyyə daşımış, Azərbaycan ədəbiyyatı ümumtürk ədəbiyyatının tərkib hissəsi kimi yaranmışdır. Qədim dövrlərə getdikcə türk ədə-

> Türk xalqlarının qədim dövrlərə aid ortaq ədəbiyyat nümunələri hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?



LAYİHƏ

biyyatları arasında dil, üslub, obraz baxımından ümumiliyin, əlaqənin daha güclü olduğunu görmək olur. Qədim türk bədii düşüncə nümunələrini bizə ilk tanıdan Çin qaynaqlarıdır. Çin dilinə tərcümə olunmuş, eradan əvvəl II əsrə aid nümunələr – şeir parçaları ideya-məzmununa görə bugünkü türkü düşündürür, onda həzin, hüznlü ovqatın yaranmasına səbəb olur. Bu parçalarda ifadə olunmuş hiss-düşüncə min il sonra Orxon-Yenisey abidələrində təkrar olunur, türkün öz dilindən eşidilir, türkün öz əlifbasında, yazısında oxunur.

Qədim türklərin ortaq ədəbiyyatının əsasında duran epos yaradıcılığı – "Dünyanın yaranması", "Türklərin törəyişi", "Oğuz xaqan", "Alp Ər Tonqa", "Ərgənəkon", "Köç" onların tarixini, qəhrəmanlığını əks etdirən qiymətli bədii nümunələrdir. Ortaq məkanda, coğrafiyada, mənəvi mühitdə yaradılmış bu əsərlərdə ulu babalarımızın təfəkkürü, dünyaya, həyata baxışı, mədəni ənənələri bədii ifadəsini tapmışdır. Bizə çatan nümunələrdən məlum olur ki, onlar məzmunca fərqli, rəngarəng olmuşdur. Məsələn, "Yaradılış" dastanında qədim türklərin əvvəllər kainatın mənzərəsinin necə olması barədəki təsəvvürləri öz əksini tapıb. Əsərdə Tanrı Qara xan obrazı yaradılıb. Dünya Tanrının iradəsinə tabedir. Dünyada xeyirxahlıqla yanaşı, bədxahlıq da mövcuddur. Tanrı bədxahlığın xeyirxahlığı üstələməsinə, dünyanı idarə etməsinə imkan vermir. Göyün yeddinci qatında oturub kainatı idarə edən Tanrı türklərin yaşadığı torpağın da, cəmiyyətin də taleyini müəyyənləşdirir.

> Xalqımızın qədim inanc və təsəvvürləri, bədii düşüncəsi "Avesta"da əksini necə tapmışdır?

Qədim türklər Yaxın Şərqdə yaşayan xalqlarla sıx iqtisadi, mədəni əlaqədə olmuşlar. Təsadüfi deyildir ki, dini baxışları əks etdirən məşhur abidə – "Avesta", eləcə də, digər söz sənəti nümunələri bu coğrafi ərazidə geniş yayılmış, ədəbiyyatımızın ortaq başlanğıc dövrünə aid mənbə kimi dəyərləndirlmişdir. "Avesta"nın müəllifi Zərdüşt peyğəmbərdir. Əsərin özəyi sayılan, bədii təfəkkürün məhsulu olan "Qatlar"da ilk insanın yaranması, insan həyatının müxtəlif məqamları, insanla təbiət arasında mübarizə, müharibədə qələbə və məğlubiyyətin doğurduğu hisslər bədii dillə əks etdirilir. Əsərdə Xeyir allahı Ahura Məzda (Hörmüz) ilə Şər allahı Əhrimənin (Anqramanyu) mübarizəsindən söz açılır. Xeyir allahı Hörmüz bütün yaxşılıqların – işığın, sağlamlığın, odun, həyatın yaradıcısıdır. Yalan, zülmət, ölüm, xəstəlikləri isə Şər allahı Əhrimən yaratmışdır. Onların mübarizəsi işığın qaranlıq, xeyirin şər üzərində qələbəsi ilə nəticələnir. "Avesta"da insanlar humanizmə, xeyirxah əməllərə, həyatda bolluğun əsası hesab edilən əkinçiliyə, maldarlığa çağırılırdı. Atəşpərəstlər müqəddəs saydıqları oda sitayiş edir, onun vasitəsilə pisliklərdən qurtulmağın mümkünlüyünə inanırdılar. Atəşpərəstliyin bir sıra adətlərinin dövrümüzə gəlib çatdığı da məlumdur.

> "Kitabi-Dədə Qorqud" dastanının möhtəşəm ədəbi-bədii hadisə sayılmasına səbəb nədir?

Eposun yaranma tarixi kimi, nə vaxt yazıya alınması da fərqli şəkildə izah olunur. Azərbaycan türklərinin qədim qəhrəmanlıq salnaməsi, bədii söz sənətimizin ilk mükəmməl ədəbi hadisəsi olan "Kitabi-Dədə Qorqud" islamdan çox-çox öncəki "Oğuznamələr" silsiləsinə daxil olsa da, ana dilimizin abidəsidir. Onun şifahi ifadan yazıya alınması yazılı ədəbiyyatımızın yalnız ərəb, yaxud fars dilində deyil, həm də doğma dilimizdə inkişaf etdiyini göstərirdi. Bu qiymətli abidə təkcə dilimizi, tariximizi yox, bütövlükdə xalqımızın mənəviyyatını, psixologiyasını, həyata baxışını və s. öyrənmək, dəyərləndirmək üçün mötəbər mənbədir.

> VII–X əsrlər ədəbiyyatının hansı səciyyəvi xüsusiyyətləri vardır?

VII əsrin ortalarından Ərəbistanda yaranan güclü islam dövləti bir çox ölkələri islam bayrağı altında istila etdi. Azərbaycan da kənarda qalmadı. Ölkəmizə hücum edən ərəblər



LAYİHƏ

xalqın ciddi müqaviməti ilə qarşılaşdılar. İslamın qəbulundan sonra müxtəlif bölgələrdə mədrəsələr açıldı. Məqsəd islam dininin əsaslarını və ərəb dilini mənimsətmək idi.

VII–X əsrlərdə ana dilində yazıb-yaradan sənətkarlar və əsərləri barədə məlumat əldə etmək mümkün olmamışdır. Lakin bu qəbildən sənətkarların və onların yaratdıqlarından nümunələrin mövcud olduğunu deməyə ciddi əsaslar vardır.

Qədim və zəngin türk mədəniyyəti ərəb-islam mədəniyyəti ilə yanaşı, qoşa yaşamalı oldu. Ərəb dilində yazıb-yaradan Azərbaycan türk sənətkarları keşməkeşli, fərqli tale yaşasalar da, ümumşərq ədəbiyyatının zənginləşməsinə əvəzsiz töhfələr vermiş və qüdrətli qələm sahibi kimi tanınmışlar. Doğma vətənlərində yaşamış və ərəb dilində əsərlər yaratmış sənətkarların bir qismi barədə məlumat vardır. Onlardan Cəfər ibn Məhəmməd Marağai, Bərəkəveyh Zəncani, Əli Abdulla Mülğəçi və b. şeirlərində xalq ruhunu, milli-mənəvi gerçəkliyi aydın müşahidə etmək olur.

Müxtəlif səbəblər üzündən ərəb ölkələrində yaşayan həmvətənlərimiz də olmuşdur. Onların içində parlaq istedadı ilə təkcə yaşadığı ölkədə deyil, şərqdə tanınmış sənətkarlar çoxdur. Dövrün siyasi hadisələrinə münasibətlərinə, qələmə aldıqları mövzulara görə fərqlənən bu sənətkarları doğma yurdalarına – Azərbaycana bəslədikləri məhəbbət birləşdirirdi. Ərəb dilində mükəmməl sənət əsərləri yaradan *Musa Şəhəvat, İsmayıl ibn Yəsar* kimi sənətkarlarımızın yaradıcılığında vətənpərvərlik, doğma yurda bağlılıq hisslərinin ifadəsinə geniş yer verilirdi. Ədalət – zülm qarşıdurması, ictimai mühitdəki yaramazlıqlara etiraz onların əsərlərində əksini tapan məsələlərdən idi. Bu sənətkarların təbiət mövzusunda yazılmış əsərlərində yenilik axtarışları, səmimilik, lirizm özünü aydın göstərirdi.

## Evdə iş — Araşdırmanı davam etdirin

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. Cədvəldən istifadə edin.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sualları cavablarını da əhatə etməyə çalışın:**
   a) Qədim türk dastanları və "Dədə Qorqud" eposu üçün ortaq olan hansı cəhətlər vardır?
   b) Saray şeirinin ədəbiyyat tarixində tutduğu mövqeyi necə qiymətləndirmək olar?

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## Mənbələr

1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 6-7, 9-14.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com

LAYİHƏ



Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli mənəvi dəyərlərimiz “Kitabi-Dədə Qorqud” eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir.

*Ulu Öndər Heydər Əliyev*

## “KİTABİ-DƏDƏ QORQUD” EPOSU

**• Araşdırmaya hazırlaşın**

1. **“Kitabi-Dədə Qorqud” dastanları ilə bağlı ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın.**
   Tarix, coğrafiya fənlərindən, eləcə də digər mənbələrdən öyrəndiyinz biliklərdən istifadə edin.
2. **Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin.**
   Beş kiçik qrup yaradılır. Qruplar onlara təklif edilmiş sualın dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:
   a) İlk mətnkənarı sualın cavabını əhatə edən mətni qruplardan birinin üzvü ucadan və aydın səslə oxuyur.
   b) Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
   c) Mətnə aid bir neçə sual verir. Cavablandırmada mənsub olduğu qrupun üzvləri ilə yanaşı, bütün sinif iştirak edir.
   d) Səthi qavranılmış çətin məqamlara aydınlıq gətirməyə çalışır.
   e) Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.
3. **Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların üzvləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.**

“Kitabi-Dədə Qorqud” eposu nə vaxt yaranmışdır? Onun yaranma tarixinin mübahisəli olmasına səbəb nədir?

Eposun hansı dövrdə yaranması ilə bağlı fərqli fikirlər vardır. Onun məzmununa əsaslanan bir sıra tədqiqatçılar eposun yaranma tarixinin islamiyyətdən çox-çox əvvələ aid olduğunu tutarlı dəlillərlə sübut edirlər. Dastanın VI–VII yüzilliklərdə yaranıb formalaşdığını bildirən alimlər də vardır.

Epos əsrlər boyu xalq arasında şifahi olaraq yaşadılmış, sonralar yazıya köçürülərək “Kitabi-Dədə Qorqud” adlandırılmışdır. Eposun yaradıcısı və ilk



LAYİHƏ

söyləyəni ozanlar ozanı Dədə Qorqud olmuşdur. Canlı ifadan yazıya alınmış dastan yazılı epos hesab edilir. Oğuz elinin böyük bilicisi kimi hörmət və nüfuz sahibi olan Dədə Qorqud tarixi şəxsiyyət sayılsa da, onun haqqında çoxlu əfsanə və rəvayətlər də yaradılmışdır.

Azərbaycan türklərinin ulu babalarının – oğuzların ən möhtəşəm sənət abidəsi "Kitabi-Dədə Qorqud" məhz onların həyatını, məişətini, inancını, həyata baxışını, mübarizəsini əks etdirir. Eposu yaradan da, onun qəhrəmanları da Oğuz türkləridir.

> Epos hansı mövzudadır? Onun ədəbiyyat tariximiz üçün əhəmiyyəti nədir?

Bu qiymətli abidə təkcə dilimizi, tariximizi yox, bütövlükdə xalqımızın mənəviyyatını, psixologiyasını, həyata baxışını və s. öyrənmək, dəyərləndirmək üçün mötəbər mənbədir.

Epos hər birinin ayrıca süjet xətti olan *boylardan* ibarətdir. Lakin dastanın ümumi ideyası və məzmunu onları bir-biri ilə bağlayır.

> Dastanda əksini tapmış mühüm problemlər və başlıca ideyalar hansılardır?

Oğuz elinə Bayandır xan başçılıq edir. Dastanda onun yalnız adı çəkilsə də, müdrik və qüdrətli hökmdar olduğu anlaşılır. Qazan xan başçı və sərkərdə olmaqla, Bayandır xandan sonra ikincidir. Vətənin toxunulmazlığı, xalqın müdafiəsi Qazan xan başda olmaqla, oğuz igidlərinin qarşısında duran birinci problem, ən mühüm vəzifədir. Tez-tez düşmənlərin – "qara donlu kafirlər"in basqınına, talanına məruz qalan Oğuz eli silaha sarılmağa, döyüşməyə məcbur olur. Oğuz igidlərinin birliyi sayəsində hiyləgər və amansız düşmənin öhdəsindən gəlmək mümkün olur.

Vətənə, el-obaya layiq, düşmən qabağında dayana bilən gənclərin tərbiyə edilməsi, doğma yurda sevgi hissinin və dövlətçilik düşüncəsinin yaradılması, adət-ənənələrin qorunub-saxlanması və s. dastanda bədii həlli verilmiş mühüm problemlərdəndir.

Dastanın hər boyunda bu gün üçün də əhəmiyyəti olan problemlər qoyulmuş, onlara münasibət bildirilmişdir.

> Eposdakı obrazların hansı səciyyəvi xüsusiyyətləri var? Onlardan hansılarını bir-biri ilə müqayisə etmək olar?

Eposda davranış və əməllərinə, mühakimələrinə, başqalarına münasibətlərinə görə bir-birindən fərqlənən onlarla obraz yaradılmışdır. Fərdi xüsusiyyətləri ilə diqqəti dərhal cəlb edən bu obrazlar real insan təsiri bağışlayır, oxucunun hiss və düşüncəsinə güclü təsir edir. Qazan xan, Dirsə xan, Aruz Qoca, Bəkil, Bamsı Beyrək, Səgrək, Qanturalı, Basat, Dəli Dondar, Uruz, Qaraca çoban və digər oğuz igidləri ilə yanaşı, Burla xatun, Banıçiçək, Selcan xatun kimi ağıllı, tədbirli, vəfalı, qorxmaz qadın surətləri də diqqəti cəlb edir, yaddaşlardan silinmir. Eləcə də Dirsə xan xeyirxah və yumşaqtəbiətli olması ilə seçilir, Beyrək dözümlü, iradəli, sədaqətli qəhrəman kimi diqqəti cəlb edir, Səgrək isə ailə münasibətlərinə böyük rəğbəti ilə fərqlənir.

Dastanda anaya, qadına böyük ehtiram ifadə olunur, ana haqqı tanrı haqqına bərabər tutulur. Oğuz elində ananın, qadının ailədə, cəmiyyətdə mövqeyi yüksək və şərəflidir. Yeri gələndə at minib qılınc çalan, igidlərə arxa duran nəcib oğuz xanımları vəfalı və sədaqətlidirlər.



LAYİHƏ

Eposda düşmən obrazları da yaradılmışdır. Onlar fürsət düşən kimi Oğuza xaincəsinə basqın edir, elin-obanın var-dövlətini talayır, dinc insanları əsir aparırlar. Şöklü Məlik, Qara Məlik və b. oğuzlarla üzbəüz döyüşə cəsarət etməyən qarətçi və zalım düşmən obrazlarıdır.

Dastanın mükəmməl bədii gözəlliyini necə əsaslandırmaq olar?

Eposun yaranmasından və yazıya köçürülməsindən yüzillər keçməsinə baxmayaraq, o, bu gün də rəğbətlə qarşılanır, maraqla oxunur. Bunun bir mühüm səbəbi onun mükəmməl bədii gözəlliyidir. Ulu babalarımızın – oğuz türklərinin poetik düşüncəsinin əlvanlığı, zənginliyi çağdaş oxucunu valeh edir, onun zövqünü oxşayır. Bu qiymətli tarixi abidə, bənzərsiz sənət nümunəsi bir müqəddimə, on iki boydan ibarətdir. Hər boyun, deyildiyi kimi, müstəqil süjet xətti və mükəmməl kompozisiyası vardır. Bütün obrazlar xarakter, davranış və əməllərinə görə bir-birindən fərqlənir. Onların danışıq tərzi, işlətdikləri söz və ifadələr də müxtəlifliyi ilə seçilir.

Dastanlarda bol-bol işlənmiş orijinal bədii təsvir və ifadə vasitələri qədim oğuzların zərif hiss və düşüncələrindən xəbər verir. Xalq yaradıcılığı nümunəsi olan bu qəhrəmanlıq dastanında mübaliğəyə daha geniş yer verilməsi isə təbiidir. Bu, oğuzların ağlagəlməz igidliyi, döyüş hünəri, əzəməti barədə təsəvvür yaratmağa xidmət edir. Qazan xan yeddibaşlı əjdahanı öldürür, Qanturalı üç qorxunc heyvanı qılıncdan keçirir, Buğac nəhəng, güclü buğanı ram edir və s.

Oğuz igidləri sevdiklərinə bənzətmələrlə müraciət edirlər: qar üstündə qan dammıştək qızıl yanaqlım, güz almasına bənzər al yanaqlım, qurulu yaya bənzər çatma qaşlım.

Dastanın bədii xüsusiyyətləri dərindən araşdırılmış, sanballı elmi-tədqiqat əsərləri çap edilmişdir.

## Evdə iş — Araşdırmanı davam etdirin

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) "Dədə Qorqud" eposu tarixi-ədəbi mənbə olaraq hansı cəhətlərinə görə qiymətlidir?
   b) Epos incəsənətin hansı növləri üçün mənbə olmuşdur?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## Mənbələr

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. Kitabi-Dədə Qorqud. Bakı: Öndər, 2004, səh. 5-7.



LAYİHƏ



**SALUR QAZANIN EVİNİN YAĞMALANDIĞI BOY**
(i x t i s a r l a)

## I dərs • Məzmun üzrə iş

**1. Tapşırıqları fərdi olaraq yerinə yetirin.**

a) Müstəqil oxuduğunuz boydan aşağıdakı parçanı nəzərdən keçirin.

b) Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

c) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?

| Əsərdən seçilmiş məcazlar | Onların növü | Daha maraqlı hesab etməyimin səbəbi |
|---|---|---|
| | | |

d) Oxuduğunuz parçada diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə qeyd edin.

| Əsərdə diqqətimi daha şox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

e) Suallara cavab hazırlayın:
- Qazan xan haqqında ilkin təəssüratınız nə oldu?
- Qaraca Çobanın nitqi-danışığı üçün səciyyəvi olan cəhətləri müəyyənləşdirib, yığcam qeyd edin.
- Obrazların xarakter, davranış və əməllərində diqqətinizi daha çox çəkən nə oldu?
- Oxuduğunuz parça hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**2. Kiçik qruplarda birləşərək fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**

**3. Təqdimatlar etməklə yerinə yetirdiyiniz bütün işlərlə bağlı fikir mübadiləsi və müzakirə aparın.**



LAYİHƏ

Bir gün Tulu quşun balası, yazıqların ümidi, Amit soyunun aslanı, Qaracığın qaplanı, Qonur atın yiyəsi, Uruz xanın ağası, Bayandır xanın kürəkəni, Qalın Oğuzun dayağı, igidlərin arxası Ulaş oğlu Salur Qazan yerindən durmuşdu. Doxsan otaqlı uca evlərini qara yer üzərində tikdirmişdi. Doxsan yerdə böyük ipək xalı döşətmişdi. Doqquz qara gözlü, göyçək üzlü, saçı arxada düyünlənmiş, köksü qızıl düyməli, əlləri biləyindən xınalı, barmaqları naxışlı, gözəl kafir qızları Qalın Oğuz bəylərinə şərab paylayırdılar.

Ulaş oğlu Salur Qazan içdi-içdi, axırda şərabın təsiri başına vurdu. O, qaba dizləri üstünə çökdü, dedi: “Sözümü dinləyin, səsimə səs verin, bəylər! Yata-yata yanımız ağrıdı. Dura-dura belimiz qurudu. Duraq gedək, a bəylər! Ov ovlayaq, quş quşlayaq, sığın-keyik yıxaq, qayıdıb otağımıza düşək, yeyib-içək, günümüzü xoş keçirək!”

Qıyan Səlcik oğlu Dəli Dondaz dedi: “Bəli, xan Qazan, məsləhətdir”.

Qaragünə oğlu Qarabudaq dedi: “Ağam Qazan, məsləhətdir”. Onlar belə dedikdə at ağızlı Aruz Qoca iki dizi üstünə çöküb dedi: “Ağam Qazan, sası dinli Gürcüstan sərhədinə gedirsən, qərargahının üstündə kimi qoyursan?”

Qazan dedi: “Oğlum Uruz üç yüz igidlə evimin keşiyində dursun”. Qonur atını çəkdirdi, mindi, Dəli Dondaz Təpəlqaşqa ayğırını mindi. Qazan bəyin qardaşı Qaragünə Göy bədəvi atını tutdurub mindi.

Bayandır xanın düşmənini məğlub edən Şir Şəmsəddin Ağ atını çəkdirib mindi.

Parasarın Bayburd hasarından sıçrayıb aşan Beyrək Boz ayğırına mindi.

Qonur atlı Qazana “keşiş” deyən Yeynək Duru ayğırına mindi. Saymaq istəsəm, tükənən deyil. Qalın Oğuz bəyləri atlandılar. Böyük qoşun Ala dağa ova çıxdı.

Kafirlərin casusu bunu gördü, çuğul gedib Şöklü Məliyə xəbər verdi. Yeddi min qaftanının arxası cırıq, kəsik qara saçlı, sası dinli, din düşməni, alaca atlı kafir mindi çapdı, gecə yarısı Qazan bəyin düşərgəsinə gəldi. Kafirlər onun qızıl tağlı evlərini çalıb-çapdılar, qaza bənzər qız-gəlinlərini çığırışdırdılar. Tövlə-tövlə atlarını mindilər. Qatar-qatar qızılı dəvələrini yedəkləyib apardılar. Qiymətli xəzinəsini, bol pulunu talan etdilər. Qırx incə belli qız ilə Boyu uzun Burla xatun əsir getdi. Qazan bəyin qarımış anası qara dəvə boynundan asılı getdi.

Qazan xanın oğlu Uruz bəy üç yüz igidlə əli bağlı, boynu bağlı getdi. İlək qoca oğlu Sarı Qalmaş Qazan bəyin evi üstündə döyüşdə şəhid oldu.

Qazanın bu işlərdən xəbəri yox idi.

Kafir dedi: “Bəylər, Qazanın tövlə-tövlə şahanə atlarını minmişik, qızıl-gümüşünü talan etmişik, qırx igidlə oğlu Uruzu dustaq etmişik. Qatar-qatar dəvələrini gətirmişik, qırx incə belli qızla Qazan xanın arvadını tutmuşuq. Biz bu heyifləri Qazana vurmuşuq”.

Kafirlərdən biri dedi: “Qazan bəydə bir heyfimiz qaldı”.

Şöklü Məlik dedi: “Ədə, aznavur, nə heyfimiz qaldı?”

Kafir: “Qazanın Qapılı Dərbənddə on min qoyunu vardır. O qoyunları da götürsək, Qazana çox böyük ziyan vurarıq”, – dedi. Şöklü Məlik: “Altı yüz kafir getsin, qoyunu gətirsin”, – dedi.

Altı yüz kafir atlandı, qoyun üzərinə yürüş etdi.

Gecə yatarkən Qaraca çoban yuxuda qara qayğılı əhvalat gördü. Hövlnak ayağa durdu. Qabangücü və Dəmirgücü adlı iki qardaşını yanına çağırdı. Ağılın qapısını bərkitdi. Üç yerdə təpə kimi daş yığdı, ala qollu sapandını əlinə aldı.

Qaraca çobanın üstünü qəflətən altı yüz kafir aldı. Kafir dedi:

Qaranlıq axşam olanda qayğılı çoban!
Qar-yağış yağanda od-ocaqlı çoban!
Südü, pendiri bol, qaymaqlı çoban!
Qazan bəyin qızıl tağlı uca evlərini biz yıxmışıq.
Tövlə-tövlə şahanə atlarını biz minmişik.



LAYİHƏ

Qatar-qatar qızıl dəvəsini biz yedəkləmişik.
Qarıcıq anasını biz gətirmişik.
Qiymətli xəzinəsini, bol pulunu biz talan etmişik.
Qaza bənzər qız-gəlinini biz əsir etmişik.
Qırx igidlə Qazanın oğlunu biz tutmuşuq.
Qırx incə belli qızla Qazanın arvadını biz gətirmişik.

Ay çoban, uzaqdasan-yaxındasan, bəri gəl! Baş endirib təzim et! Bizə salam ver, öldürməyək! Səni Şöklü Məlikin yanına aparaq, bəylik alıb verək.

Çoban dedi:

Boş-boş danışma, itim kafir!
İtimlə bir yalaqdan yal içən, azğın kafir.
Altındakı alaca atını nə öyərsən?
Ala başlı keçimcə görünməz mənə!
Başındakı dəbilqəni nə öyərsən, ay kafir?
Başımdakı börkümcə görünməz mənə!
Altmış tutam nizəni nə öyərsən, murdar kafir?
Qırmızı dəyənəyimcə görünməz mənə!
Qılıncını nə öyərsən, ay kafir?
Əyri başlı çovkanımca görünməz mənə!
Belində doxsan oxunu nə öyərsən, ay kafir?
Ala qollu sapandımca görünməz mənə!
Uzaqdasan-yaxındasan, bəri gəl!
İgidlərin zərbəsini gör, sonra get!

Kafirlər təklifsiz at təpdilər, ox səpdilər. İgidlər igidi Qaraca çoban sapandının ağzına daş qoydu, atdı. Birini atanda ikisini-üçünü yıxdı. İkisini atanda üçünü-dördünü yıxdı. Kafirlərin gözünə qorxu düşdü. Qaraca çoban kafirin üç yüzünü sapand daşı ilə yerə yıxdı. İki qardaşı isə oxlandı, şəhid oldu.

Çobanın daşı tükəndi, qoyun demir, keçi demir, sapandın ağzına qoyur atır, kafiri yıxırdı.

Kafirin gözü qorxdu, dünya-aləm başına qaranlıq oldu. Dedilər: “Arzusu gözündə qalsın, bu çoban birdən bizim hamımızı qırar?!” Daha durmayıb qaçdılar.

Çoban şəhid olan qardaşlarını dəfn etdi. Kafirlərin leşindən bir böyük təpə düzəltdi, çaxmaq çaxıb od yandırdı. Yapıncısından kəsib yandırdı, qurumunu yarasına basdı. Yolun əyrisini tutub oturdu. Ağladı, sızladı. Dedi: “Salur Qazan, bəy Qazan! Ölüsənmi, dirisənmi? Bu işlərdən xəbərin yoxdumu?”

Sən demə, xanım, o gecə Qalın Oğuzun dayağı, Bayandır xanın kürəkəni, Ulaş oğlu Salur Qazan yuxuda qarma-qarışıq əhvalat gördü, hövlnak ayağa durdu. Dedi: “Qardaşım Qaragünə, bilirsənmi yuxumda nə göründü? Qara-qayğılı əhvalatlar gördüm. Gördüm ki, yumruğumda bir şahin çırpınıb quşumu əlimdən alır. Hündür evimin üzərinə göydən ildırım çaxdığını gördüm. Qatı, qara dumanın düşərgəmin üstünü bürüdüyünü gördüm. Quduz qurdların evimi dəldiyini gördüm. Qara dəvənin ənsəmdən qapdığını gördüm. Gördüm ki, qara saçım qarğı kimi uzanır, uzandıqca gözümü örtür. Əllərimdə on barmağımı qan içində gördüm. Bu yuxunu görəndən bəri ağlımı-huşumu yığa bilmirəm. Xan qardaşım, mənim bu yuxumu yoz mənimçin!”

Qaragünə dedi: “Qara bulud dediyin sənin taleyindir. Qar ilə yağmur dediyin sənin qoşunundur. Saç qayğıdır, dərdi-sərdir. Qan – qaranlıqdır. Qalanın yoza bilmərəm, Allah yozsun”.

Belə dedikdə Qazan dedi: “Mənim ovumu pozma, qoşunumu dağıtma! Mən bu gün Qonur atı çapıb, üç günlük yolu bir gündə gedərəm, yurduma baş çəkərəm.



LAYİHƏ

Əgər salamatlıqdırsa, axşam olmadan yenə sənin yanına gələrəm. Oradakılar sağ-salamat deyilsə, başınıza çarə edin. Mən daha getdim".

Qazan bəy Qonur atını mahmızladı, yola çıxdı. Gəlib-gəlib yurduna çatdı. Gördü ki, yurdunda bir tazı qalıb, quzğun dolaşır. Qazan bəy burada yurdu ilə xəbərləşib, görək, xanım, necə xəbərləşib, nə demişdir:

Qohum-qəbiləli komam-yurdum!
Qulanla sığına-keyikə qonşu yurdum!
Səni düşmən haradan talayıb, gözəl yurdum!
Uca evimin tikilisi, yurdu qalmış,
Qoca anamın oturduğu yer də qalmış.
Oğlum Uruzun ox atdığı nişan qalmış...

Bu halı gördükdə Qazanın qara qıyıq gözləri qan-yaş doldu. Qanı damarlarında dayandı. Qara bağrı sarsıldı. Qonur atını dizləri ilə vurub, kafirin keçdiyi yola düşdü, getdi. Qazanın qarşısına bir su çıxdı. Qazan dedi: "Su Allahın üzünü görmüşdür. Mən bu su ilə xəbərləşim!" Görək, xanım, necə xəbərləşdi.

Qazan dedi:

Çağlayaraq qayalardan çıxan su!
Ağac gəmiləri atıb-tutan su!
Həsən ilə Hüseynin həsrəti su!
Bağ ilə bostanın zinəti su!
Ayişə ilə Fatimənin baxışı su!
Şahanə atların içdiyi su!
Qızıl dəvələrin gəlib keçdiyi su!
Çevrəsində ağ qoyunların yatdığı su!
Yurdumdan bir xəbər bilirsənsə, de mənə!
Dərdli başım qurban olsun, suyum, sənə!

Su necə xəbər versin?! Sudan keçdi, bu dəfə bir qurda rast gəldi. "Qurd üzü uğurludur, qurdla bir xəbərləşim", – dedi. Görək, xanım, necə xəbərləşdi:

Qaranlıq axşam olanda günü doğulan!
Qarla yağış yağanda ər kimi duran!
Qaracıq atları kişnəşdirən!
Qızıl dəvə gördükdə inləşdirən!
Ağca qoyun görəndə quyruğuyla qamçı çəkən!
Arxasıyla vurub, bərk ağılın ardını sökən!
Burma-axta kök qoçları alıb-tutan!
Qanlı quyruq üzüb şap-şap udan!
Ulaşması köpəkləri təşvişə salan!
Əldə məşəl çobanları gecə vaxtı yüyürdən!
Yurdumdan bir xəbər bilirsənsə, de mənə!
Dərdli başım qurban olsun, qurdum, sənə! – dedi.

Qurd necə xəbər versin?! Qurddan da ötüb keçdi. Qaraca çobanın qara köpəyi Qazanın qarşısına gəldi. Qazan qara köpəklə xəbərləşdi, görək, xanım, necə xəbərləşdi:

Qaranlıq axşam olanda hav-hav hürən!
Turş ayran töküləndə şap-şap içən!
Gələn yadı, oğrunu qorxudan!
Hürməyiylə qorxudaraq hürküdən!
Yurdumun xəbərini bilirsənsə, de mənə!
Dərdli başım sağ olduqca
Yaxşılıqlar edim, köpək, sənə! – dedi.



LAYİHƏ

Köpək Qazanın atının ayağına atılıb-düşür, zing-zing zingildəyir. Qazan qamçı ilə köpəyi vurdu. Köpək çəkildi, gəldiyi yolla getdi. Qazan köpəyi qovlayıb Qaraca çobanın yanına gəldi. Çobanı gördükdə xəbərləşdi, görək, xanım, necə xəbərləşdi:

Qaranlıq axşam olanda qayğılı çoban!
Qarla yağış yağanda od-ocaqlı çoban!
Səsimi anla, sözümü dinlə!
Evimin buradan keçdiyini gördünmü, de mənə!
Dərdli başım qurban olsun, çoban, sənə! – dedi.

Çoban dedi:

Ölmüşdünmü, itmişdinmi, a Qazan?!
Harda gəzirdin, haradaydın, a Qazan?!
Dünən yox, o biri gün evin buradan keçdi.
Qoca anan qara dəvə boynundan asılı keçdi.
Qırx incə belli qızla arvadın –
Boyu uzun Burla xatun ağlayıb burdan keçdi.
Qırx igidlə oğlun Uruz başı açıq, ayağı yalın
Kafirlərin yanınca dustaq getdi.
Tövlə-tövlə atlarını kafir minmiş.
Qatar-qatar qızıl dəvələrini kafir yedəkləmiş,
Qızıl-gümüş, pul xəzinəni kafir talamışdır!..

Çoban belə deyərkən Qazan ah çəkdi, ağlı başından çıxdı. Dünya-aləm başına qaranlıq oldu. Dedi: “Ağzın qurusun, çoban! Dilin çürüsün, çoban! Allah sənin alnına bəla yazsın, çoban!”

Qazan belə deyəndə çoban dedi:

Nə danlayırsan məni, ağam Qazan?
Yoxsa heç köksündə yoxmudur iman?

Altı yüz kafir də mənim üstümə gəldi. İki qardaşım şəhid oldu. Üç yüz kafiri öldürdüm, cəzasına çatdırdım. Sənin qapından bir kök qoyun, arıq toğlu da kafirlərə vermədim. Üç yerdən yaralandım, dərdli başım dumanlandı, yalqız qaldım. Günahım budurmu?

Sonra çoban dedi:

Qonur atını mənə ver!
Altmış tutamlıq nizəni mənə ver!
Ap-alaca qalxanını, mənə ver!
Böyük, iti, polad qılıncını mənə ver!
Oxqabından səksən oxunu mənə ver!
Ağ tozluca tutacaqlı bərk yayını mənə ver!
Gedim kafirin qolundakı şahinini öldürüm.
Paltarımın qolu ilə alnımın qanını silim.
Ölərsəm, qoy sənin uğrunda mən ölüm!
Allah qorarsa, evini mən xilas eləyim!

Çoban belə dedikdə Qazan qəhərləndi. Yola düzəlib götürüldü. Çoban da Qazanın ardından yetişdi. Qazan dönüb baxdı, soruşdu: “Oğul çoban, hara gedirsən?” Çoban dedi: “Ağam Qazan, sən evini-ailəni xilas etməyə gedirsən, mən də qardaşımın qanını almağa gedirəm”.



LAYİHƏ

Belə dedikdə Qazan soruşdu: “Oğul çoban, qarnım acdır. Yeməyə bir şeyin vardırmı?” Çoban dedi: “Bəli, ağam Qazan, gecədən bir quzu bişirib qoymuşam. Gəl bu ağacın dibində oturaq, yeyək”.

## Evdə iş

1. **Aşağıdakı parçanı – boyun ardını nəzərdən keçirin.**
2. **Bu parçada ifadə olunmuş başlıca fikirləri müəyyənləşdirməyə çalışın.**
3. **Düşmən obrazları üçün səciyyəvi olan cəhətləri müəyyənləşdirməyə çalışın.**
4. **Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
5. **Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**
6. **Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
7. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

Endilər. Çoban dağarcığını çıxardı. Yedilər. Qazan fikirləşdi, dedi: “Əgər çobanla getməli olsam, Qalın Oğuz bəyləri bunu başıma qaxınc edərlər. Çobanla olmasaydı, Qazan kafirləri məğlub etməzdi deyərlər”.

Qazana qeyrət gəldi. Çobanı bir böyük ağaca sarıya-sarıya möhkəm bağladı. Atlandı, getdi. Çobana dedi: “Ədə, çoban! Qarnın acmamış, gözün qaralmamışkən bu ağacı qopar! Yoxsa səni burda qurd-quş yeyər”.

Qaraca çoban güc elədi, iri ağacı yeriylə-yurduyla qopardı, arxasına alıb Qazanın ardınca düşdü. Qazan baxıb gördü, çoban ağacı arxasına alıb gəlir. Qazan soruşdu: “Ədə, çoban, bu ağac nədir?” Çoban dedi: “Ağam Qazan, bu ağac ona görədir ki, sən kafiri basarsan, qarnın acar, mən də sənə bu ağacla yemək bişirərəm”.

Bu söz Qazana xoş gəldi. Atından endi, çobanın əllərini açdı. Bir dəfə alnından öpüb dedi: “Allah mənim evimi bəladan qurtararsa, səni bütün ilxılarıma başçı qoyaram”. İkisi birlikdə yola düzəldi.

Bu yanda Şöklü Məlik keyfi kök, kafirlərlə yeyib-içib oturmuşdu. Dedi: “Bəylər, bilirsinizmi, Qazana necə heyif vurmaq lazımdır? Boyu uzun Burla xatununu gətirdək, badə paylasın!”

Boyu uzun Burla bunu eşitdi, ürəyinə-canına od düşdü. Qırx incə belli qızın içinə girib, məsləhət verdi, dedi: “Qazan bəyin xatunu hansınızdır?” – deyə hansınıza yapışarlarsa, qırx yerdən səs verərsiz”.

Şöklü Məlikdən adam gəldi: “Qazan bəyin xatunu hansınızdır?” – deyə soruşdu. Qırx yerdən səs gəldi. Hansıdır, bilmədilər. Kafirə xəbər verdilər: “Birinə yapışdıq, qırx yerdən avaz gəldi. Bilmədik, hansıdır”, – dedilər.

Kafir dedi: “Ədə, gedin Qazanın oğlu Uruzu dartıb çəngəldən asın. Ağ ətindən, qıyma-qıyma çəkin, qara qovurma bişirib, qırx bəy qızına aparın. Hər kim yedi, o deyil, hər kim yemədi, odur. Götürün gəlin, şərab paylasın!”

Boyu uzun Burla xatun oğlunun yanına gəldi: – Kafirlər fikirlərini dəyişiblər; deyiblər ki, Qazan oğlu Uruzu həbsdən çıxarıb, örkənlə boğazından asın. İki kürəyindən çəngələ sancın, qıyma-qıyma ağ ətindən çəkin; qara qovurma edib, qırx bəy qızına aparın. Hər kim yedi, o deyil. Hər kim yemədi, o, Qazanın xatunudur; çəkin-gətirin, şərab paylatdıraq! Sənin ətindən, ay oğul, yeyimmi? Yoxsa ağan Qazanın namusunu tapdayımmı? Neynəyim, ay oğul?! – dedi.

Uruz dedi: “Ağzın qurusun, ana! Dilin çürüsün, ana! Ana haqqı – tanrı haqqı deyilməsəydi, qalxıb yerimdən durardım, yaxandan-boğazından tutardım. Qaba dizimin altına salardım. Ağ üzünü qara yerə çırpardım. Ağzından-üzündən qan şoruldayardı. Can şirinliyini sənə göstərərdim. Bu nə sözdür? Saqın, xanım ana! Mənim üzərimə gəlməyəsən! Mənim üçün ağlamayasan! Qoy məni, xanım ana, çəngələ sancsınlar! Qoy ətimdən çəksinlər; qara qovurma edib, qırx bəy qızının önünə



LAYİHƏ

aparsınlar. Onlar bir yeyəndə, sən iki dəfə ye. Kafirlər duymasınlar, səni tanımasınlar. Onlara şərab paylayıb, atam Qazanın namusunu sındırmayasan. Saqın!"

Oğlan belə deyəndə gözünün yaşı gildir-gildir axdı. Boyu uzun, beli incə Burla xatun boyun-qulağını tutdu. Yıxıldı. Payız alması kimi al yanağını yırtdı-dağıtdı. Qarğı kimi qara saçını yoldu. "Oğul!", "Oğul!" deyib, zar-zar ağladı. Uruz dedi:

Xanım ana! Qabağımı kəsib nə inləyirsən?
Niyə zarıyırsan, niyə ağlayırsan?
Bağrımı, ürəyimi nə dağlayırsan?
Keçmiş günlərimi nə andırırsan?
Ay ana! Ərəb atları olan yerdə bir qulunu tapılmazmı?
Ağca qoyunlar olan yerdə bir quzusu tapılmazmı?
Sən sağ ol, xanım ana! Atam sağ olsun!
Bir mənim kimi oğul tapılmazmı?

Belə dedikdə anası dözə bilmədi. Ana gedib, qırx incə belli qızın arasına girdi. Kafirlər Uruzu tutub qənarə dibinə gətirdilər. Uruz dedi: "Ay kafir, amandır, tanrının birliyinə şübhə yoxdur! Qoyun məni, bu ağacla danışım".

Çağırıb ağaca soylamış, görək, xanım, necə soylamışdır:

Sənə "Ağac!", "Ağac!" deyirəmsə, öyünmə, ağac!
Məkkə ilə Mədinənin qapısı ağac!
Museyi-kəlimin əsası ağac!
Böyük-böyük suların körpüsü ağac!
Nəhəng-nəhəng dənizlərin gəmisi ağac!
Əlinin Düldülünün yəhəri ağac!
Əlinin qılıncının qınıyla dəstəyi ağac!
Məni səndən asarlar, götürmə, ağac!
Götürsən, igidliyim səni tutsun, ağac!

Uruz hönkür-hönkür ağladı. Yanıq ciyərini dağladı.

Bu zaman, sultanım, Salur Qazanla Qaraca çoban çaparaq yetdi. Çobanın sapandının daşlığı üçyaşar dana dərisindən, sapandının qolları isə üç keçi tükündən idi. Hər atanda on iki batman daş atardı. Atdığı daş yerə düşməzdi. Yerə düşsə də, toz kimi sovrular, kül kimi ovulardı. Üç ilədək daşın düşdüyü yerin otu bitməzdi. Bayırda kök qoyun da, arıq toğlu da qalsaydı, sapandın qorxusundan qurd gəlib yeməzdi.

Sultanım, Qaraca çoban çatan kimi sapandını işə saldı. Dünya-aləm kafirin gözündə qaraldı. Qazan dedi: "Qaraca çoban, qoy anamı kafirdən istəyim, at ayağı altında qalmasın".

At ayağı iti, ozan dili çevik olar. Qazan kafiri çağırıb soylamış, görək, nə soylamışdır:

Ay Şöklü Məlik!
Qızıl taclı uca evlərimi götürüb gəlmisən, sənə gölgəlik olsun!
Qiymətli xəzinəmi, bol gümüşümü götürmüsən, sənə xərclik olsun!
Qırx incə belli qızla Burla xatunu gətirmisən, sənə əsir olsun!
Qırx igidlə oğlum Uruzu gətirib gəlmisən, sənin qulun olsun!
Tövlə-tövlə şahanə atlarımı gətirib gəlmisən, sənin miniyin olsun!
Qatar-qatar dəvələrimi gətirib gəlmisən, sənin yükünü daşısın.
Qoca anamı gətirmisən, ay kafir, anamı ver mənə!
Savaşmadan-vuruşmadan qayıdım geri, dönüb gedim!



LAYİHƏ

Kafir dedi:

Qızıl taclı evini gətirmişik, bizimdir!
Şöklü Məlik qırx incə belli qızla Burla xatunu
gətirmişdir, bizimdir!
Qarıcıq ananı gətirmişiksə, bizimdir,
Sənə verməriк; Yayxan keşiş oğluna verərik,
Yayxan keşiş oğlundan oğlu doğular,
Biz onu sənə əvəz qoyarıq!

Belə dedikdə Qaraca çobanın acığı tutdu, dodaqları əsdi.
Çoban dedi:

Ehey, dinsiz, huşsuz kafir!
Ağılsız, başsız kafir!
Qarşıda yatan qarlı dağlar
Qarıyıbdır, otu bitməz.
Qan-qadalı irmaqlar
Quruyubdur, suyu gəlməz.
Şahanə-şahbaz atlar
Qarıyıbdır, qulun verməz.
Qızıl-qızıl dəvələr də
Qarıyıbdır, köşək verməz.
A kafir, qazanın anası
Qocalıbdır, oğul verməz.

Bu vaxt Qalın Oğuz bəyləri gəlib yetişdi, xanım, görək kimlər gəldi:

Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eyləyən, bığını boynu dalında yeddi dəfə düyünləyən, igidlər igidi, Qazan bəyin qardaşı Qaragünə çaparaq yetişdi: "Çal qılıncını, qardaşım Qazan, yetdim!" – dedi.

Bunun ardınca, görək, kimlər yetişdi.

Dəmir qapı Dərbənddəki dəmir qapını hücumla alan, altmış tutamlıq böyük nizəsinin ucunda igidləri böyürdən Qıyan Səlcik oğlu Dəli Dondaz çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, yetdim!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:

Amidlə Mərdin qalasını vurub-yıxan, Dəmir yaylı Qıpçaq Məliyə qan qusduran, gələrək Qazanın qızını mərdliklə alan, oğuzun ağ saqqallı qocaları görəndə o igidə "əhsən" deyən, al məxmər şalvarlı, atı mavi qotazlı Qaragünə oğlu Qarabudaq çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, yetdim!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:

İcazəsiz Bayındır xanın düşmənini basan, altmış min kafirə qan qusduran, ağ-boz atının yalı üzərində qar yığılan Qəflət qoca oğlu Şir Şəmsəddin çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:

Çalım-çarpaz çalmalı, çal qaraquş ərdəmli, qurama qurşaqlı, qulağı qızıl küpəli Qalın Oğuz bəylərini bir-bir atından yıxan Qazlıq qoca oğlu Yeynək bəy çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, xanım, görək kimlər yetişdi:

Parasarın Bayburd hasarından sıçrayıb aşan, al rəngli gəlin otağına qarşı gələn, yeddi qızın ümidi, Qalın Oğuzun müjdəçisi, Qazan bəyin silahdaşı Boz ayğırlı Beyrək çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:



LAYİHƏ

Altmış təkə dərisindən olan kürkü topuqlarını örtməyən, altı erkək dərisindən papağı qulağını örtməyən, qolu-budu uzunca, baldırları incə, Qazan bəyin dayısı At ağızlı Aruz Qoca çaparaq yetişdi: "Çal qılıncını, bəyim Qazan, çatdım!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:

Kafirləri it ardına qoşub-alçaldan, eldən çıxıb Ayğırgözlü suyunda at üzdürən, əlli yeddi qalanın açarını alan, Ağ Məlikin Çeşmə qızına evlənən, Sufi Sandal Məlikə qan qusduran İlək qoca oğlu Alp Ərən çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Sayılmaqla bəylər tükənməz. Hamı yetişdi. Təmiz suda yuyundular. Ağ alınlarını yerə qoydular. İki rükət namaz qıldılar. Adı əziz Məhəmmədə salavat gətirdilər. Təklifsiz kafirin üstünə at saldılar, qılınc çaldılar. Gumbur-gumbur nağaralar döyüldü. Burması qızıl tunc borular çalındı.

O gün cəsur ər igidlər bəlli oldu. O gün namərdlər gizlənməyə yer axtardı. O gün bir qiyamət savaş oldu, meydan başla doldu; başlar top kimi kəsildi. Şahanə atlar qaçanda nalı düşdü. Böyük-uzun nizələr sancılıb süstəldi. Böyük, iti polad qılınclar çalındı, tiyəsi korşaldı. Üç lələkli qayın oxlar atıldı, dəmir ucluğu düşdü. O gün elə bil qiyamətin bir günü idi. Bəy nökərlərindən, nökər bəyindən ayrıldı.

Dış Oğuz bəyləri ilə Dəli Dondaz sağdan, cəsur igidlərlə Qaragünə oğlu Dəli Budaq sol yandan hücum etdi. İç Oğuz bəyləri ilə Qazan mərkəzdə düşmənlərin topasına hücum etdi. Şöklü Məlikə çatdı, böyürdüb atdan yerə saldı, qəfilcə tutub başını kəsdi. Bir zərbə ilə al qanını yer üzünə tökdü. Sağ tərəfdə Qara Tükən Məliklə Qıyan Səlcik oğlu Dəli Dondaz qarşılaşdı. Sağ yanını qılınclayıb yerə saldı. Sol tərəfdə Buğacıq Məliklə Qaragünə oğlu Dəli Budaq qarşıladı. Altı pərli gürz ilə təpəsinə möhkəm zərbə vurdu. Dünya-aləm Buğacıq Məlikin gözündə qaraldı, atın boynunu qucaqlayıb, yerə düşdü.

Qazan bəyin qardaşı kafirin bayrağını qılınclayıb yerə saldı. Dərələrdə, təpələrdə kafirlərə qırğın düşdü, leşlərinə quzğun toplaşdı. On iki min kafir qılıncdan keçdi. Oğuz igidlərindən beş yüzü şəhid oldu. Qazan bəy qaçanı qovmadı, "aman" deyəni öldürmədi. Qalın Oğuz bəyləri böyük qənimət əldə etdilər.

Qazan bəy öz ordusunu, arvad-uşağını, xəzinəsini aldı, qızıl taxtında geri döndü. Yenə evlərini tikdirdi. Qaraca çobanı əmiraxur etdi. Yeddi gün, yeddi gecə yemək-içmək oldu. Qırx nəfər qulu, qırx kənizi oğlu Uruza görə azad elədi. Cəsur, qoç igidlərə çoxlu torpaqlar verdi, çuxa, arxalıq verdi...

Dədəm Qorqud gəlib boy boyladı, soy soyladı. Bu oğuznaməni qoşdu-düzdü, belə dedi:

Hanı dediyim bəy ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi, –
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya!

Xeyir-dua verək, xanım:
Qarlı uca dağların yıxılmasın!
Kölgəlik hündür ağacın kəsilməsin!
Coşğun axan gözəl suyun quruması!
Tanrı səni namərdə möhtac etməsin!

*("Kitabi-Dədə Qorqud". Bakı: Öndər nəşriyyatı, 2004)*



LAYİHƏ

**II dərs • Məzmun üzrə iş | Tapşırığı fərdi olaraq yerinə yetirin.**

1. **Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

2. **Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?**

| Əsərdən seçilmiş məcazlar | Onların növü | Daha maraqlı hesab etməyimin səbəbi |
|---|---|---|
| | | |

3. **Oxuduğunuz parçada diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə qeyd edin.**

| Əsərdə diqqətimi daha şox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

4. **Suallara cavab hazırlayın.**
   - Qazan xanın Qaraca çobana münasibətində diqqətinizi daha çox çəkən nə oldu?
   - Şöklü Məliyin Qazan xandan heyif almaq niyyətini Burla xatun və Uruz necə qarşıladı?
   - Ana və Uruz haqqında ilkin təəssüratınız nə oldu?
   - Qazan xanın Şöklü Məlikdən ilk istəyi nə oldu?
   - Qazan xanla bağlı təəssüratınıza yeni nə əlavə olundu?
   - Boyda oğuz türklərinin hansı əxlaqi-mənəvi dəyərləri əksini tapmışdır?
5. **Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**
6. **Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

**Evdə iş**

**Boydan seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında iki formada – yığcam və yaradıcı danışmağa hazırlaşın.**

**III dərs • Təhlil üzrə iş**

1. **Mətnkənarı sualları və onları araşdırmağa istiqamət verən cavabları oxuyun.**
2. **Müqayisə cədvəlindən, yaxud Venn diaqramından istifadə etməklə obrazlardan ikisini müqayisəli səciyyələndirin.**
3. **Əsərdəki bədii təsvir və ifadə vasitələrinin rolunu izah edin.**

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr | Fikrin təsir gücünün artmasında onların rolu |
|---|---|
| | |

4. **Kiçik qruplarda birləşərək mətnkənarı suallar üzrə öyrəndiklərinizi və qənaətlərinizi bölüşün.**
5. **Təqdimatlar etməklə məlumat mübadiləsi və müzakirə aparın.**

Boy hansı mövzudadır?

Digər boylar kimi, bu boyun mövzusu da oğuz elinin həyatından alınıb. Lakin onun mövzusunu bir az da konkretləşdirmək olar. Bu, araşdırmanın aparılmasını zəruri edir.



LAYİHƏ

Boydakı obrazların xarakter, nitq və davranışlarında hansı səciyyəvi xüsusiyyətlər var? Onlardan hansılarını bir-biri ilə müqayisə etmək olar?

Boydakı hadisələr daha çox **Qazan xan** obrazı ilə bağlanır. Oxucu onu müxtəlif vəziyyətlərdə görür və ətraflı tanıya bilir. Elə ilk cümlələrdən bu surət haqqında yaranan təsəvvür sonrakı səhifələrdə daha da dərinləşir. Aydınlaşır ki, o, yurdunu, el-obasını dərin məhəbbətlə sevir, mərddir, tədbirli başçı, mahir sərkərdədir. Əsir aparılmış doğmalarının, yurddaşlarının arxasınca gedən Qazan xan qoca anasının döyüş zamanı "at ayağı altında qalmasından" ehtiyat edərək düşməndən yalnız onu geri istəyir. Bu, oğuzların mənəvi-əxlaqi keyfiyyətləri barədə aydın təsəvvür yaradır; Qazan xanı yağmalanmış var-dövləti yox, zəif, qoca anası düşündürür və narahat edir. Oxucu boyda Qazan xan haqqında xeyli məlumat öyrənir. Bunları bir daha nəzərdən keçirməklə bu obrazı əhatəli səciyyələndirmək mümkündür.

Salur Qazanın xanımı **Burla xatun** oğuz elinin mənəvi dəyərlərinin ləyaqətli daşıyıcısıdır. Əsirlikdə olarkən düşmənin ilk arzusunu ağıllı tədbiri sayəsində puça çıxaran Burla xatun onların sonrakı niyyətinin qarşısında çətin sınağa çəkilir: ya namus, ya da oğul dağı!

Boydakı təsvirlərə əsasən Burla xatun barədə əhatəli fikir söyləmək mümkündür.

Qazan xanın hələ bərkə-boşa düşməmiş oğlu **Uruz** əsirlikdə olarkən əxlaqi-mənəvi keyfiyyətləri ilə oğuz elinin layiqli övladı olduğunu sübut edir.

Boyda Salur Qazanın köməyinə çatan oğuz igidlərinin adları çəkilir. Maraqlıdır ki, onların xarakteri, döyüş hünəri, bacarığı barədə cəmi bir neçə sözlə aydın təsəvvür yaradılır: "Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eyləyən, bığını boynu dalında yeddi dəfə düyünləyən, igidlər igidi... Qaragünə..."

Oğuz elinin düşmənlərindən **Şöklü Məlik** daha hiyləgər və amansızdır. Onun, eləcə də döyüşçülərinin rəzilliyi, vəhşi əməlləri barədə boydakı təsvirlərdən aydın təsəvvür qazanmaq olur.

Boyda bədiilik, obrazlılıq daha çox hansı vasitələrlə yaradılmışdır?

Boyda bir-birindən maraqlı, təsəvvürdə parlaq mənzərələr canlandıran, fikrin təsir gücünü qat-qat artıran çoxlu bədii təsvir və ifadə vasitələri işlənmişdir. Bu, boyun bədiiliyinin, obrazlılığının artmasına təsir edən vasitələrdən yalnız biridir. Belə vasitələr boyda çoxdur. Dastanda – boyda ənənənin təsiri ilə qafiyəli nəsr mühüm yer tutur. Bu isə güclü ahəngin yaranmasına səbəb olmuşdur. Nəsrin və şeirin ahəng yaxınlığı boydakı təsvirlərin cəlbedici olmasına, obrazların hiss və düşüncələrinin canlı, səmimi ifadəsinə imkan yaratmışdır. Eləcə də eyni bir səsin nəsrdə, şeirdə cümlənin müxtəlif yerlərində (başda, ortada, sonda) işlənməsi mətndə ahəngdarlığın artmasına və nəticədə estetik təsirin güclənməsinə əhəmiyyətli dərəcədə təsir edir.

Döyüş səhnələrinin ustalıqla canlandırılması, qəhrəmanların hiss, düşüncə aləminin kiçik, lakin dolğun ştrixlərlə açıqlanması dastanın – boyun bədii gözəlliyi üçün səciyyəvi cəhətlərdəndir. Bütün bu deyilənləri araşdırma və boydan seçilmiş nümunələr əsasında zənginləşdirmək mümkündür.

Boyda başlıca fikir – ideya nədir?

İdeyaca çoxcəhətli, zəngin olan boyda diqqəti daha çox cəlb edən oğuz türklərinin yüksək mənəvi-əxlaqi dəyərlərə sahib olmaları və

LAYİHƏ

bu dəyərləri ləyaqətlə yaşatmalarıdır. Mənbələr üzrə aparılan araşdırma ideyanının əsasında dayanan fikirlərin əhatəli aydınlaşdırılmasına imkan verəcəkdir.

**Evdə iş** **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın mzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
a) Dastanda – boyda dövrün hansı mühüm ictimai və siyasi münasibətləri əksini tapmışdır?
b) Dastandakı – boydakı obrazlar hansı mənəvi-əxlaqi dəyərlərə önəm verirlər?

**3.** Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.

**Mənbələr**

1. Dədə Qorqud dünyası. Məqalələr. Bakı: Öndər nəşriyyat, 2004, s. 25, 48-49, 73-74.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.

## IV dərs • Tətbiq • Müzakirə • Yaradıcı iş

**1. Mövzulardan birini seçib işləyin:**
a) "Oğuzların düşmənə qalib gəlməsinin səbəbini nədə görürəm" mövzusunda inşa yazın.
b) "Oğuz igidləri və xanımları barədə düşüncələrim" mövzusunda esse yazın.

**2. Təqdimatlar etməklə yazılardan nümunələri müzakirə edin.**
**Mətni oxuyun. Dastan janrı barədə deyilənləri sizə daha yaxşı tanış olan poema ilə müqayisə əsasında zənginləşdirin.**

> Dastan janr baxımından poemadan hansı cəhətlərinə görə fərqlənir?

Dastan şifahi xalq ədəbiyyatının həcmcə ən böyük janrıdır. Bu janrda olan əsərlərdə həyat hadisələrinin geniş təsviri verilir. Eləcə də ədəbi qəhrəmanların həyatının böyük bir dövrü əhatə olunur. Dastan janrını yazılı ədəbiyyatın poema janrı ilə müqayisə etmək mümkündür. Bu müqayisənin uğurlu aparılması, əslində, hər iki janrın xüsusiyyətlərinin ətraflı və dərindən başa düşülməsinə şərait yaradır.

**Evdə iş**

**1. Sinifdə icra etdiyiniz yazı işlərini təkmilləşdirib təqdimata hazırlaşın.**
**2. Dastan və poema janrlarının müqayisəsi üzrə işi davam etdirib təqdimata hazırlaşın.**

LAYİHƏ

## İNTİBAH DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

• **Araşdırmaya hazırlaşın**

**İntibah dövrü ilə bağlı tarix fənnindən, digər mənbələrdən öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın. BİBÖ cədvəlinin ilk iki sütununda müvafiq qeydlər edin.**

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

1. **Mətnkənarı sualları və onları araşdırmağa istiqamət verən cavabları oxuyun.**
2. **Mətnkənarı sualların cavablarını ümumiləşdirib qısaca yazın.**

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabları |
|---|---|
| | |

3. **Oxu zamanı sizi düşündürən sualları qeyd edin. Cavabları müzakirədə dəqiqləşdirib qısaca yazın.**

| Məni düşündürən suallar | Onların cavabları |
|---|---|
| | |

4. **Venn diaqramından istifadə etməklə qədim dövr və intibah dövrü ədəbiyyatımızın başlıca xüsusiyyətlərini müqayisə edin.**
5. **Aşağıdakı fikirlərin üzərində düşünün. Müzakirədə onlara münasibət bildirin.**
   – Nizami Gəncəvinin "Xəmsə"sində əksini tapmış ideyalarla Məhsəti Gəncəvinn rübailərindəki motivlərin səsləşməsi bu sənətkarların yaşadıqları dövrün intibah ideyalarını ən yüksək səviyyədə tərənnüm etdiklərinin göstəricisidir.

   *(İsa Həbibbəyli)*

   – Yüksək humanist qayələr, dərin psixologizm, ecazkar poetik vüsət, müdriklik, həssaslıq Nizamini Şərqdə intibah dövrü şeirinin dahi şairi kimi tanımağa və qiymətləndirməyə haqq qazandırmışdır.

   *(Əlyar Səfərli)*

6. **Kiçik qruplarda birləşərək fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**
7. **Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın. BİBÖ cədvəlinin sonuncu sütununda müvafiq qeydlər edin.**

İntibah dövrü ədəbiyyatı hansı səciyyəvi xüsusiyyətləri ilə seçilir?

Hələ əvvəlki əsrlərdə – VII–X yüzilliklərdə türk mədəniyyəti ilə islam baxışlarının yanaşı mövcud olması qarşılıqlı zənginləşməyə, inkişafa əhəmiyyətli dərəcədə təsir

LAYİHƏ

etmişdir. Dillərin, mədəniyyətlərin qarşılıqlı əlaqəsi tədricən ortaq müsəlman mədəniyyətinin formalaşmasına zəmin yaradırdı. Azərbaycanda feodal dövlətlərinin getdikcə güclənməsi, sabitliyin bir çox hallarda uzunmüddətli olması iqtisadiyyatın inkişafına, elm və mədəniyyətin zənginləşməsinə səbəb olurdu. Təsadüfi deyildir ki, Bakı, Təbriz, Ərdəbil, Marağa, Gəncə, Naxçıvan, Şamaxı və digər böyük şəhərlərin iqtisadiyyatının güclənməsi onlarda mədəni mühitin, elm və sənətin sürətli inkişafına təkan vermişdi. Memarlıq, sənətkarlığın müxtəlif sahələrini üzrə əldə edilmiş uğurlar Azərbaycanı öz sərhədlərindən çox-şox uzaqlarda tanıtmışdı. Şərq intibahı adlandırılan mühüm iqtisadi-siyasi və mədəni hadisə Azərbaycanda özünü bütün aydınlığı ilə biruzə verirdi. Ölkənin ictimai-mədəni həyatında çoxcəhətli yeniləşmə, inkişaf müşahidə edilirdi. Əbülhəsən Bəhməniyar, Eynəlqüzat Miyanəçi, Şihabəddin Sührəvərdi kimi alimlər elm aləminə qiymətli töhfələr vermişlər. İntibah dövründə türk dünyasının görkəmli elm adamlarının yaratdıqları ölməz abidələr – Mahmud Kaşğarlının "Divani-lüğat-it türk", Əhməd Yəsəvinin "Divani-hikmət", Yusif Balasaqunlunun "Qutadğu-biliğ" və s. intibah dövründə yaranan ədəbiyyatın inkişafına az təsir etməmişdir. Elmlə ədəbiyyatın qarşılıqlı əlaqəsi mütəfəkkir söz sənəti nümayəndələrinin yetişməsində əhəmiyyətli rol oynamışdır.

Ərəb xilafəti zəiflədikdən sonra Yaxın və Orta Şərq ölkələrində, saraylarda fars dili geniş yayılmağa başladı. Azərbaycanda XI əsrin ortalarından başlayaraq, farsca yazmaq ənənəsi yarandı. Saray ədəbiyyatında *qəsidə, mədhiyyə, həcv, mərsiyə, fəxriyyə* kimi növlərinə geniş yer verilir, dini mövzularda əsərlərin yazılmasına xüsusi diqqət yetirilirdi. Mədhiyyələr hökmdarların qüdrətinin, əməllərinin tərifi ilə məhdudlaşmır, onlar xeyirxah, mərhəmətli olmağa, ölkədə quruculuq işləri aparmağa, əmin-amanlıq yaratmağa dəvət edilirdi. Sarayda yaşayan mütərəqqi görüşlü sənətkarlar tarixi hadisələrə, ictimai-fəlsəfi məsələlərə həsr etdikləri əsərlərlə saray ədəbiyyatının mövzu, məzmun baxımından zənginləşməsinə istiqamət verirdilər. Əsərlərini farsca yazsalar da, təbliğ etdikləri ideya baxımından türk-Azərbaycan dünyagörüşünü, mənəviyyatını əks etdirən Qətran Təbrizi, Əbül-üla Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani kimi şairlər məhəbbətin, təbiətin tərənnümünə, eləcə də dərin fəlsəfi düşüncələrin ifadəsinə lirik şeirlərində geniş yer verirdilər. Bu sənətkarların yaradıcılığında ictimai-siyasi problemlər, humanist ideyalar əksini tapırdı.

> XI–XII əsrlər saray ədəbiyyatı hansı səciyyəvi xüsusiyyətləri ilə seçilirdi?

XI əsr saray ədəbiyyatının görkəmli nümayəndəsi kimi şöhrət qazanmış *Qətran Təbrizinin* irsi "Divan"dan və "Ət-təfasir" adlı farsca lüğətdən ibarətdir. Şairin "Divan"ına mədhiyyələrlə yanaşı, məhəbbət, vətən, insan taleyi, təbiət mövzusunda, eləcə də saraydan narazılığı əks etdirən lirik şeirləri daxildir. Gəncədə və Təbrizdə yazıb-yaratmış şairin Təbrizdə baş vermiş zəlzələ haqqında iki mənzuməsi bu qədim şəhərlə bağlı məlumat verən mənbə kimi dəyərlidir.

*Məhsəti Gəncəvi* XII əsr ədəbiyyatımızda ictimai-fəlsəfi məzmunlu rübailəri ilə şöhrət tapmışdır. Bu şeirlərin lirik qəhrəmanı dərin məhəbbətlə sevən, iztirab çəkən, gözəlliyi dəyərləndirən aşiqdir. Rübailərində müxtəlif peşə sahiblərindən söz açması şairin əməkçi insana verdiyi yüksək dəyəri əks etdirir. Bu nümunələrdə insanın taleyi, həyatı, sevinci, kədəri ilə bağlı humanist düşüncələr yüksək poetik ifadəsini tapmışdır.

*Əfzələddin Xaqaninin* "Divan"ındakı ictimai-fəlsəfi məzmunlu şeirlərdə, "Töhfətül-İraqeyn" poeması, "Mədain xərabələri" qəsidəsində saraydan narazılıq motivlərinin əks olunması ədalətsizliyə etiraz edən ədibin vətəndaşlıq mövqeyi ilə bağlı idi. Ədəbiyyatımızda ilk poema olan "Töhfətül-İraqeyn"



Layihə

əsərində şairin öz həyatı, uşaqlıq illəri, təhsili, dostları ilə bağlı xatirələri də əksini tapmışdır. Üsyankar təbiətli şair saraydan, hökmdarlardan üz çevirmiş, öz xalqına, sadə insanlara dərin məhəbbət bəsləmişdir:

İstəmirəm, adımı çağıralar Xaqani,
Mən yoxsullar şairi, xəlqaniyəm, xəlqani.

"Mədain xərabələri" qəsidəsində şair Sasani hökmdarlarının paytaxtı olmuş Mədain şəhərinin xarabalıqlarını təsvir etməklə dövrünün şahlarına ibrət dərsi vermək məqsədini güdmüşdür. Şairin əsərlərində doğma yurduna məhəbbət, ondan ayrılığın doğurduğu şikayət motivləri güclüdür:

Şamaxı! Ey mənim sevimli yurdum!
Mən sənin qoynunda xaniman qurdum.
İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana,
Ümidim, pənahım Təbrizdir, Təbriz.
O şəhər də mənə doğmadır, əziz.

Şərq intibahı hadisəsinin ən görkəmli nümayəndəsi, şübhəsiz, *Nizami Gəncəvidir*. Həmin dövrdə epik növün aparıcı olması da onun adı ilə bağlıdır. Saray həyatından uzaq olmağı üstün tutan Nizami Gəncəvinin "Xəmsə"si məzmunu, bədii forma kamilliyi, humanist ideyaların ifadəsi baxımından intibah dövrü ədəbi fikrinin zirvəsi sayılır. Nizami yeni bir ədəbi məktəbin əsasını qoymuş, poemaları ilə Yaxın Şərq ədəbiyyatının inkişafına istiqamət vermişdir.

## Evdə iş — Araşdırmanı davam etdirin

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sualları cavablarını da əhatə etməyə çalışın:**
a) İntibahy dövrü ədəbiyyatında hansı mövzulara daha çox diqqət yetirilmişdir?
b) Saray şeirinin ədəbiyyat tarixində tutduğu mövqeyi necə qiymətləndirmək olar?

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## Mənbələr


1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 6-7, 9-14.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com


LAYİHƏ



İnsan ruhunu gözəl bilməsi Nizamiyə klassik qəhrəman tipləri yaratmaq imkanı vermişdir. Şirin, Fərhad, Leyli, Məcnun, Bəhram, İskəndər obrazları əbədi olaraq dünya ədəbiyyatı xəzinəsinə daxil olmuşdur.

*Yevgeni Bertels*

**Nizami Gəncəvi (1141–1209)**

# N.GƏNCƏVİNİN HƏYATI, YARADICILIQ YOLU

## • Araşdırmaya hazırlaşın

**I Nizami Gəncəvi barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**
Tarix dərslərindən, digər mənbələrdən öyrəndiyiniz biliklərdən istifadə edin.

**II Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin**

1. **Mətnkənarı sualların sayı qədər kiçik qruplar yaradılır. Qruplar onlara təklif edilmiş sualın dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:**
   a) İlk mətnkənarı sualın cavabını əhatə edən parçanı qrupun üzvü ucadan və aydın şəkildə oxuyur.
   b) Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
   c) Mətnə aid bir neçə sual verir. Cavablandırmada qrup üzvləri ilə yanaşı, bütün sinif iştirak edir.
   d) Səthi qavranılmış məqamlara aydınlıq gətirməyə çalışır.
   e) Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.
2. **Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların şagirdləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.**

> Şairin yaşadığı dövrün və aldığı təlim-tərbiyənin özəllikləri hansılardır?

Vətəni Azərbaycanda və bütün dünyada Nizami Gəncəvi kimi tanınan dahi söz ustası İlyas Yusif oğlu Gəncə şəhərində dünyaya gəlmişdir. Azərbaycan Atabəyləri adlandırılan Eldənizlər dövləti tərəfindən idarə olunan Gəncə şəhəri həmin dövrdə iqtisadi cəhətdən sürətlə inkişaf edirdi. İpək yolunun bu şəhərdən keçməsi də onun iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir etmiş, mədəni mərkəzə çevrilməsində mühüm rol oynamışdır.

Nizami Gəncəvinin həyatı haqqında doğru-dürüst məlumatı özünün əsərlərindən almaq olur. Ömrü boyu Gəncədə yaşayan Nizami dini və dünyəvi elmləri dərindən mənimsəmiş, dövrünün tanınmış alimlərindən olmuşdur. O, fars və ərəb dillərindən başqa, bir sıra digər dilləri də öyrənmiş, dünyasını dəyişənə qədər mütaliəsinə ara verməmişdir. Zəmanəsinin nüfuzlu adamlarından olan dayısı Xacə Ömər onun təlim-tərbiyəsi ilə ciddi məşğul olmuşdur.

Hökmdarların himayəsində – saraylarda yaşamaqdan imtina edən şairin əsərlərindən və digər qaynaqlardan məlum olur ki, o, humanist, müdrik, gözütox bir insan kimi hələ sağlığında müasirləri tərəfindən yüksək qiymətləndirilmişdir. 1209-cu ildə vəfat edən Nizaminin Məhəmməd adlı oğlu olmuşdur.

> Nizami yaradıcılığa hansı əsərlərlə başlamışdır? Bu əsərlərin əsas mövzusu nə idi?

O, yaradıcılığa lirik şeirlərlə başlamışdır. Qaynaqlarda çoxlu lirik şeirləri olduğu barədə məlumat verilsə də, dövrümüzə



LAYİHƏ

onların çox az qismi çatmışdır. Tədqiqatçılar bu gün Nizamiyə aid 120 qəzəl, 30 rübai, 6 qəsidənin üzərində dayanırlar. Onun lirik şeirləri ilə poemaları arasında güclü səsləşmələr vardır. Başqa sözlə, şairin lirikasında ifadə olunmuş başlıca məsələlər poemalarında geniş bədii həllini tapmışdır. Bu məsələlərə nələr daxildir?

Şairin lirikasında diqqəti ilk cəlb edən insana dərin məhəbbət, onun qüdrətinə inam hissidir. İnsanın gözəlliyini azalmayan sevgi və ehtirasla vəsf edən şair onun xoşbəxtliyini, firavan ömür sürməsini arzulayırdı.

Ənənəyə uyğun olaraq, o, lirik şeirlərində məhəbbət mövzusuna tez-tez müraciət etmiş, sevgi hissinin ülviliyini, insanı mənən saflaşdırdığını və ucaltdığını yüksək sənətkarlıqla tərənnüm etmişdir.

Mənbələr üzrə aparılan araşdırma şairin lirikasında əksini tapmış məsələlərin əhatəli açıqlanmasına imkan yaradır.

> Şairin poemalarında diqqət daha çox hansı problemlərə cəlb edilmişdir?

Nizami Gəncəvi otuz il ərzində ona dünya şöhrəti qazandıran beş poema yazmışdır. Sonralar "Xəmsə" (beşlik) adlandırılan bu əsərlərdə mühüm həyati problemlər qoyulmuş və onların bədii həlli verilmişdir. Poemalar, əsasən, fərqli mövzularda yazılsa da, onları birləşdirən cəhətlər də az deyildir; dövlətin ədalətlə idarə edilməsi, xalq və hökmdar, şərə, pisliklərə nifrət, insanın kamilləşməsində məhəbbətin rolu və s. poemaların hər birində bu və ya digər dərəcədə əksini tapmışdır. Bu, təsadüfi deyildir. Şairi ömrü boyu düşündürən humanist ideallar həmin əsərlərdə öz ifadəsini tapmaya bilməzdi.

Nizaminin ilk poeması olan **"Sirlər xəzinəsi"** (1174) onun ictimai-fəlsəfi görüşlərini geniş əks etdirən qiymətli sənət əsəri kimi bu gün də maraqla oxunur. Poemada toxunulan məsələlər çoxdur. Lakin şair nədən danışırsa-danışsın, ictimai ədalət ideyasını, insan ləyaqətinin ucalığını, əməyə, elmə, sənətə hörmət hissini ön plana çəkir. Poemada əksini tapmış iyirmi məqalətdə (söhbətdə) məhz bu məsələlərə daha çox önəm verilir. Bu məqalətlərin məzmunu ilə səsləşən iyirmi hekayətdə isə şair oxucusunun diqqətini ibrətamiz hadisələrə cəlb edir, onu düşünməyə, nəticə çıxarmağa yönəldir.

Əsərdə xalq və hökmdar probleminə xüsusi diqqət yetirilməsi şairin insana məhəbbətindən irəli gəlirdi. Poemadakı məqalətlərdə ("İnsanın mərtəbəsi haqqında", "Ədalət və insafı gözləmək haqqında", "Padşahın rəiyyətə qayğı göstərməsi haqqında" və s.) və hekayələrdə ("Nuşirəvan və bayquşların söhbəti", "Sultan Səncər və qarı", "Zalım padşahla zahidin dastanı" və s.) hökmdarlara təsir etməyə çalışır, onları ədalətli olmağa, xeyirxah əməllərə səsləyirdi.

Şairin ikinci poeması – **"Xosrov və Şirin"** (1181) məhəbbət mövzusundadır. Sasani şahı Xosrov Pərviz və Azərbaycan gözəli Şirinin sevgisi ilə bağlı əfsanə və rəvayətləri diqqətlə öyrənən, müxtəlif mənbələrdəki natamam məlumatları səbirlə toplayıb təhlil edən şair ölməz sənət əsəri yaratmışdır. Onu adi sevgi dastanı adlandırmaq olmaz. Dövrün ictimai, siyasi problemləri, əxlaqi-etik qaydaları poemada öz geniş əksini tapmışdır. Dövlətin ağıl və ədalətlə idarə edilməsi, qadın ləyaqətinin ucalığı, təmiz əxlaq, insan qüdrətinə inam, sənət və sənətkara məhəbbət əsər boyu şairin izlədiyi məsələlərdəndir.

Məhəbbətin insanı saflaşdıran, nəcibləşdirən hiss olduğunu ustalıqla əks etdirən Nizami bunu Xosrov obrazı vasitəsi ilə ifadə etmişdir. Şirini sevsə də, Xosrovun şahlıq qüruru ciddi səhvlər etməsinə səbəb olur. Şirinin məhəbbəti onu birdən-birə dəyişmir, bu, əslində, mümkün də deyildi. Şirinin dönməz iradəsi, ağıllı davranışı bu məğrur şahı tədricən dəyişir. Şirin qələbə çalır, lakin bu, ona asanlıqla başa gəlmir. İlk məhəbbətinə ömrü boyu sadiq qalan Şirin təmiz adını, ləyaqətini qoruyur, Xosrovdan bəzən etinasızlıq görsə də, ilk və həqiqi sevgi-



LAYİHƏ

sindən üz çevirmir. Xosrovun təbiətindəki qüsurların aradan qalxması üçün böyük əzab-əziyyətlərə qatlaşmalı olan Şirin Nizaminin ən çox sevdiyi qəhrəmanlarındandır.

Şairin üçüncü poeması **"Leyli və Məcnun"** (1188) qədim ərəb əfsanəsi əsasında yazılmışdır. Məhəbbət mövzusunda qələmə alınan bu əsər şairə dövrünün bir sıra mühüm problemlərinə münasibət bildirməyə imkan vermişdir. İnsanı sevən, onun mənəvi azadlığını uca tutan Nizami müasirləri üçün mənəvi buxova çevrilən, onları hüquqsuz vəziyyətdə saxlayan adətləri, baxışları qəbul etmirdi. İnsanları, xüsusən qadınları müti, kölə vəziyyətinə salan adətlər, qanunlar güclü olsa da, əsərin qəhrəmanları – Leyli və Məcnun bunlara boyun əymək istəmirlər. Bu ağıllı, zəkalı gənclər zəmanənin insanın mənəvi azadlığına, arzu və istəklərinə qələm çəkən tələblərinə tabe olmadıqlarına görə xoşbəxt ola bilmirlər. Onlar məhv olsalar da, məğlub olmur, mənəvi qələbə çalırlar. Bu qələbəni alqışlayan Nizami onların eşqini örnək kimi dəyərləndirir.

Nizami **"Yeddi gözəl"** (1197) poemasında da yaradıcılıq ənənəsinə sadiq qalmış, ictimai problemlərə, insan talelərinin təsvirinə xüsusi diqqət yetirmişdir. *Ölkə necə idarə olunmalıdır? Ölkədə bütün insanları əhatə edən ədalət necə qorunmalıdır?* kimi bütün zamanlar üçün vacib olan suallara tutarlı cavab verilmişdir.

Əsərin mövzusu Sasani şahı Bəhram Gurun həyatı ilə bağlıdır. Lakin şairin məqsədi Bəhram şahın həyatını nəzmə çəkmək olmamışdır. Şairin məqsədi öz arzu və istəklərinə uyğun obraz yaratmaq, onun vasitəsilə zəmanə hökmdarlarına yol göstərmək olmuşdur. Şair öz qəhrəmanını bir insan və hökmdar kimi çətin sınaqlardan keçirir. Aydınlaşır ki, hökmdarlıq çox ağır, çətin bir iş olub böyük məsuliyyət tələb edir. Xalq və dövlət üçün cavabdeh olan şəxs – hökmdar öz vəzifə borcunu bir an da olsa, unutmamalı, laqeydliyə, biganəliyə yol verməməlidir. Dövlət işlərini başqalarına etibar etmək olmaz, bu, böyük fəlakətə səbəb ola bilər.

Poemada yeddi gözəlin danışdığı hekayələrin, demək olar, hamısında xeyirin şər üzərində qələbəsi vurğulanır.

Nizami Gəncəvinin sonuncu poeması olan **"İskəndərnamə"ni** 1203-cü ildə tamamlamışdır. Əsər iki hissədən ibarətdir. Poemanın qəhrəmanının – İskəndərin apardığı müharibələri, haqqı, ədaləti bərqərar etmək üçün göstərdiyi səyləri əhatə edən birinci hissə **"Şərəfnamə"** adlanır. **"İqbalnamə"** adlanan ikinci hissədə isə şairin həyat, insan, insanın cəmiyyətdəki yeri, vəzifələri və s. barədə elmi-fəlsəfi düşüncələri öz əksini tapmışdır.

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) N.Gəncəvi lirik şeirləri ilə müasirlərindən fərqlənirdimi?
   b) Şair poemalarında qaldırdığı problemlərin həllini nədə görürdü?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı: Lider nəşriyyat, 2004, səh. 5-6,11-19.
3. Gəncəvi N. Yeddi Gözəl. Bakı: Lider nəşriyyat, 2004, səh. 4-6, 8-9.


LAYİHƏ



*M.Abdullayev.* N.Gəncəvinin "İskəndərnamə" əsərinin motivləri əsasında kompozisiya

# İSKƏNDƏRNAMƏ[1]
(ixtisarla)

**I dərs • Məzmun üzrə iş | Oxuya hazırlaşın**

**Sualın üzərində düşünün, cavabını cədvəldə qısaca qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– Məşhur fatehlərdən kimləri tanıyırsınız?

| Onların adı, mənsub olduqları xalq | Tarixdə onlara verilən qiymət |
|---|---|
| | |

**Aşağıdakı qaydalara əməl etməklə əsərdən verilmiş hissəni oxuyun.**

**I**

1) Müəyyənləşdirilmiş cütlərdən biri mətndən ilk bitkin parçanı ucadan oxuyur və yoldaşının oxunmuş parça ilə bağlı suallarına cavab verir. Ortaq qərara gəlincəyə qədər cavablar müzakirə olunur.
2) Cütlər rollarını dəyişirlər: sual verən növbəti parçanı ucadan oxuyur, ilk parçanı oxuyan isə suallar verir. Cütlər ortaq qərara gəlincəyə qədər cavablar müzakirə edilir.

[1] Poema fars dilindən tərcümə edilərkən "İskəndərnamə" adlandırılmışdır.



LAYİHƏ

3) Bütün parçalar cütlər dəyişilməklə bu qayda ilə oxunub başa çatdırıldıqdan sonra kiçik qruplar yaradılır, hər parça üzrə səsləndirilmiş suallar və onların cavabları ilə bağlı fikir mübadiləsi aparılır, çıxarılmış nəticələr müzakirə edilir.

**II**

Kiçik qruplarda birləşərək əsərdən oxunmuş hissənin məzmunu, tanış olmayan sözlər və maraqlı hesab etdiyiniz məcazlarla bağlı qənaətlərinizi müzakirə edin.

### Dastanın xülasəsi və İskəndərin cahangirlik tarixi

Mən elə başladım bu şux dastanı,
Coşdurar sazımın səsi dünyanı.
Ən doğru sözlər ki oyadır maraq,
Tarixdən onları bir-bir alaraq
Düzdüm dastanıma, əsər yaratdım,
Ağla sığmayanı büsbütün atdım.
Dastanı düzərkən fikrim açıqdı,
Söz səlis olsa da, yol dolaşıqdı.
İskəndər haqqında heç bir əsərdə
Məlumat görmədim yığcam bir yerdə.
Ən qədim tarixi əsərlərdən mən,
Yəhudi, nəsrani, pəhləvilərdən
Ən incə sözləri əlimə saldım,
Qabığı ataraq, məğzini aldım.
Müxtəlif dillərdən yığdım çox sözlər,
Bunlardan düzüldü yazdığım əsər.
Şerimdən atsaydım bəzəkli donu,
Azacıq zəhmətlə yazsaydım onu,
Bu böyük fatehin sərgüzəştindən
Bir vərəq yazmaqla bitirərdim mən.
Dünyanı dolaşan böyük İskəndər
Yorulmaq bilmədən edirdi səfər.
Dünyanı dolaşıb dörd yanı gəzdi,
Bilmədiyi mülkü fəth eyləməzdi.
Hansı bir dövlətə verdi nəhayət,
Kəyan adətinə göstərdi hörmət.
Sildi şurişləri köhnə dünyadan.
Taxt aldı, tac aldı qoca Daradan.
Ömründən keçirkən tam iyirmi il
Şahlığa ucadan vurdurdu təbil.
İyirmi yeddiyə çatınca yaşı
Peyğəmbər olaraq, ucaldı başı.
İskəndər o gün ki peyğəmbər oldu,
Onun tarixinə naxış vuruldu.
Dinə yol göstərən bir hikmət oldu,
Dünyada mübarək bir dövlət oldu.
Dünyanı gəzərkən döndü hər yana,
Elədi çox böyük şəhərlər bina.
Hinddən başlayaraq Yunana qədər –
Hər yerdə tikdirdi böyük şəhərlər.



LAYİHƏ

Dərbəndi, deyirlər, İskəndər qurdu,
Əqliylə o şəhrə böyük səd vurdu.
Çox bina salmışdır bunlardan başqa,
Onları saymaqla çatmaz ki başa.
Birisi uzanmış Şimali qütbə,
Bir kökü uzanıb getmiş Cənubə.
İskəndər hər yerə atını çapdı,
O yerlər şənləndi, səadət tapdı.
Dağlara, çöllərə tapdı min çarə,
Ölümün əlində qaldı biçarə...
Qələmə gərəkdir elə söz almaq,
Şüurdan, ağıldan olmasın uzaq.
Parlaq inci kimi düzülən sözlər
Ağıla sığmazsa, yalana bənzər.
Doğruya azacıq bənzəyən yalan
Yaxşıdır yalana bənzər doğrudan...

**Dastanın başlanğıcı**

Yunan ölkəsinin padşahlarından
Vardı bir gənc dövlət, böyük hökmüran,
Şöhrətli şah idi, adı Feyləqus,
İtaət edərdi ona rum və rus.
Yunanıstan idi onun məskəni,
Makedoniyaydı doğma vətəni.
Qanunlar qoyardı yeni və parlaq,
Ulu babasıydı Eys ibn-İshaq.
Ədalət o qədər yaxınmış ona,
Qurdları bağlarmış qoyun buduna.
Zülmün boğazını elə sıxmışdı,
Dara həsədindən rəqib çıxmışdı.
Üstün olmaq üçün qılıncı, tacı,
Bir elçi göndərdi, alsın xəracı.
Ağıl sahibiydi rumlu hökmüran,
Xəracı göndərdi, olmadı düşman.
Bəxşişlər göndərdi böyük dərbara,
Düşmənlik yolundan əl çəkdi Dara.
İskəndər başlarkən fəthə hər yeri,
Döndü birdən-birə çərxin işləri.
Daraya nə dövlət qoydu, nə dövran,
Süngüsü keçirdi çaxmaq daşından.
Bu dastan haqqında rəvayət çoxdur,
Hər kəsi dinlərəm, inadım yoxdur.
Feyləqus qəsrində bir gözəl varmış,
Bəzəkli gəlintək azad yaşarmış.
Rum şahı vurulmuş ayüzlü qıza,
Dilinin əzbəri parlaq ulduza.



LAYİHƏ

Keçdi bu vəqədən doqquz ay ancaq,
Ananın bətnində tərpəndi uşaq.
Padşah əmr etdi ki, münəccimlər
Baxıb ulduzlara versinlər xəbər.
Bir xəbər versinlər bu gizlin işdən,
Rahatlıq versinlər bu tərpənişdən.
Bilikli münəccim başladı işə,
Baxdılar fələkdə olan gərdişə.
Taleyi göründü nurdan da parlaq,
Nə deyim, o yaman gözlərdən iraq.
Belə xoş fal ilə dünyaya gəldi,
O bağda belə bir fidan yüksəldi.
O sərvin budağı bəsləndi nazla,
Turactək səkərək səsləndi nazla.
Meydan axtarırdı beşikdə ikən,
Yəhərə atıldı öz beşiyindən.
Dayədən istədi ox ilə kaman,
Kağızı, ipəyi hey aldı nişan.
Böyüdü, öyrəndi qılınc vurmağı,
Qızmış aslanlara qarşı durmağı.
At minmək zövqündən ləzzət alınca
Düşdü şəhriyarlıq, şahlıq dalınca.

*(Tərcümə edən: A.Şaiq)*

## Evdə iş

1. **Poemadan müstəqil oxuduğunuz aşağıdakı parçaları nəzərdən keçirin:** *"İskəndərin təlim alması", "İskəndərin taxta çıxması", "Zənci ordusunun gəlməsindən İskəndərin xəbərdar olması", "Daranın İskəndərlə müharibəyə qoşun çıxarması", "Daranın İskəndərlə müharibəsi", "İskəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi".*
2. **Hər parçada ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**
3. **Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
4. **Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduqlarını əsaslandırın.**
5. **Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
6. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
7. **Aşağıdakı parçanın məzmunu ilə bağlı suallar hazırlayın.**



LAYİHƏ

**İskəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi**

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.
Söyüdlük çöllərə vermişdir zinət,
Ağ bağı elə bil həqiqi cənnət.
Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı.
Səssizlik içində dincəlir gülşən,
Torpağı silinmiş qayğı, kədərdən.
...Belə nəql edir söz xəzinədarı,
Köhnə xəzinənin adlı saları:
Hakim qadın varmış, adı Nüşabə,

***

Önündə minlərcə gözəl qız varmış,
Xidmətə ay kimi kəmər bağlarmış.
Bunlardan başqa, var igid, qəhrəman
Otuz min qulamı – qılınc oynadan.
...Qadınla aşardı onun hər işi,
Tapşırıq almamış ondan bir kişi.
İskəndər səhraya çəkincə ordu
Çadırlar başını əflakə vurdu.
Gördü bir şənliklə yoğrulmuş cənnət,
Etdi əkinlərə, çaylara heyrət.
Sordu: "Bu şən ölkə kimindir, kimin?
Kim burda padşahlıq edir, söyləyin".
Dedilər: "Gördüyün bu var, bu yatır,
Bu gözəl torpaqlar bir qadınındır.
O qədər dindardır bu nazlı dilbər,
Öz cənnət köşkündə yatmaz gecələr.
...Nə gündüz əl çəkir can bəsləməkdən,
Nə gecə tanrıya səcdə etməkdən.
Vardır qapısında çox xidmətçilər,
Özünün, işinin qeydini çəkər".
İskəndər bu işdən şənləndi, ancaq
O naxşı görməyə göstərdi maraq.
...O yerdə başladı istirahətə,
Bir neçə gün daldı eyşə, işrətə.
Hökmüdar qadına verdilər xəbər.
Mübarək fal ilə gəlmiş İskəndər.
Pərəstiş etməyə gördü hazırlıq,
Göndərdi padşahın adına layiq
Hər çeşid yararlı, ləziz yeməklər,



LAYİHƏ

Ürəkdən xidmətə bağladı kəmər.
...Padşahın könlündə açdı bahartək
Onunla görüşmək arzusu çiçək.
...Yol aldı saraya "Elçiyəm" deyə.
Elə ki saraya çox yaxın gəldi,
Yolun zəhmətindən bir az dincəldi.
... Xidmətçi qadınlar onu gördülər,
Qaçıb Nüşabəyə verdilər xəbər...
Padşahlıq taxtına oturdu xoşhal,
Əlində ətirli, gözəl portağal.
Əmr etdi, padşahlar ayini üzrə
İskəndər elçisi gəlsin hüzurə.
Elçi çox sürətlə girdi qapıdan,
Qondu taxt üstünə o qorxmaz aslan.
Belindən nə qılınc açdı, nə kəmər,
Elçitək etmədi səcdə İskəndər...
Nüşabə baxınca düşərək şəkkə
O bişmiş qızılı vurdu məhəkə.
Diqqətlə baxınca tanıdı birdən,
Taxtında yer verdi, qəlbi oldu şən.
Bildi İskəndərdir, dolaşır ona,
Taxtında oturmaq yaraşır ona.
Sezdiyi bu işi açmadı ona,
Açarım var, deyə bağlı qıflına.
İskəndər bir elçi kimi davrandı,
Özünü olduqca o sərbəst sandı.
Çox salam yetirdi hey dönə-dönə,
Təkmil bir elçilik etdi özünə...
Elə ki yetirdi özündən xəbər,
Başını aşağı dikdi İskəndər.
Nüşabə cavabçın lalə sayağı
Gül açıb, tərpətdi yaqut dodağı:
"Ey cəsur padişah, eşq olsun sənə,
Elçilik edirsən özün özünə...
Söz açma İskəndər qılıncından sən,
Özünə çarə tap, İskəndər sənsən..."
İskəndər dedi: "Ey bu taxta layiq,
Arama baxtının hökmündən artıq.
İskəndər dənizdir, mən çayam, ancaq
Günəşlə kölgəni olmaz bir tutmaq".
...Ağıllı Nüşabə yenə dürr sacdı,
O gül dodağından qıfılı açdı:
"Qəlbimi bu qədər aldatmaq nədən?
Yalan atını gəl minib çapma sən.
...Elçidə olurmu belə cəsarət?
Hüzurda göstərsin bu qədər hiddət?"
...Tez verdi belə bir cavab İskəndər:
"Bir tülkü aslandan gətirməz xəbər!
Gözündə olsam da cəsur, qəhrəman,



LAYİHƏ

İskəndər deyiləm, elçiyəm ondan... "
...Nüşabə qızdı o aslan ürəyə:
"Günəşi palçıqla suvadın" deyə.
Kənizə əmr etdi: "Ver, baxsın" deyə,
Padşahlar rəsmini öpən ipəyə.
İpəkdə göstərdi ona bir bucaq,
Söylədi: "Əlində tut, diqqətlə bax.
Bu surət, bu sima kimanıindir, kimin?
Sarayda hörmətlə saxlr neçin?"
İskəndər dinlədi onu hörmətlə,
Yazılı ipəyi açdı sürətlə.
Rəsmini tanıdı baxınca şəklə,
Gördü almış düşmən ölkəni ələ.
Bu işdə kin, hiddət göründü yersiz,
Bir cavab verməkdən qalaraq aciz,
Qorxudan saraldı bir saman kimi,
Sığındı Allaha tutulan kimi...
Nüşabə gördü ki, o qızğın aslan
Pozuldu, alçalıb düşdü ucadan.
Dedi: "Ey uğurlu, böyük tacidar!
Zəmanə başlara çox oyun açar.
Düşünmə, hörmətim çoxdur, bunu bil,
Bu ev öz evindir, başqa yer deyil!
Pərəstiş edərəm sənə hər zaman,
Ya orda, ya burda bəndəyəm, inan!
Bu rəsmi onunçun göstərdim ki, sən
Mənim də şəklimi aydın görəsən.
Erkək tinətliyəm olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz..."
Sözünü ürəklə dedi, şənləndi,
Öz büllur taxtından aşağı endi.
"Taxtımda, – dedi, – sən otur namidar,
Bir taxta yaramaz iki tacidar..."
Əmr etdi: durmayıb gözəl pərilər
Şahlara yaraşan bir süfrə açsın,
Ortaya hər çeşid yeməkdən saçsın...
Süfrədə quzular coşqun sevincdən
Quş kimi qol-qanad açmışdı şən-şən.
Ən dadlı mürəbbə, limonlu şərbət,
Püstədə, badamda var başqa ləzzət.
Tər halva və badam halvası daşır,
O qədər çoxdur ki, qablardan aşır.
...Bunlardan başqa o taxtın üstündə
Qızıl büsat qurdu şahın önündə.
Bir xonça qoyuldu günəşdən parlaq,
İçində dörd büllur kasa qoyaraq,
Biri ləl, o biri qızıldan dolmuş,



LAYİHƏ

Biri dürr, birinə yaqut qoyulmuş.
Elə ki uzandı əllər süfrəyə,
Ağızlar açıldı təam yeməyə,
Nüşabə dedi: "Ey böyük hökmüran,
Yeyiniz, ən dadlı bu xuruşlardan".
İskəndər söylədi: "Ey sadə dilbər,
Ölçüsüz söyləmə, tökməyəsən tər.
Düzmüsən süfrəmə almaz, yaqut, dürr,
Daş-qaş yeyilərmi, bu nə deməkdir?
Daşı da yeyərmi ağıllı insan?"
...Nüşabə gülərək söylədi şaha:
"Daşın ki boğaza yolu yox daha,
Faydasız, yaramaz belə daş üçün
Bu qədər vuruşmaq, çarpışmaq neçin?
İndi ki yeməyə yaramaz bu daş,
Dünyada onunla ucalarmı baş?
...Deyilsənsə daşa pərəstiş edən,
Daşını yüngül et, yerində qal sən".
O incə qadının bu söhbətindən
Yeməkdən əl çəkdi o poladbədən.
Dedi: "Ey xanımlar xanımı qadın,
Qüvvətdə erkəkdən ucadır adın.
Doğru söylədin ki, belə gövhərlə
Hər sərraf ancaq bir daş alar ələ.
O zaman dəyərli olardı sözün,
Öncə bu qaş-daşdan qaçaydın özün...
Sənin xonçandakı bu daş-qaş daşır,
Bu danlaq, bu töhmət kimə yaraşır?
Süfrəyə cavahir saçmaq nə gərək?
Gövhərdən qaçmağı mənə öyrətmək?
Sərrafın gözünə toz atmaqdır bu,
İskəndər yaqutu hər evdə dolu.
Bununla bərabər, diqqət edincə
Sözlərin yerlidir, doğrudur, mənca.
Eşq olsun bu fikri sağlam qadına,
Mərdliyin yolunu göstərir mana".
...Sonra Nüşabənin yaqut dodağı
Yaqutla bəzədi bütün torpağı.
Əmr etdi xonçaya qoyuldu yemək,
Qızıl noğuldanlar, əntiq və qəşəng.
Hər yeməkdən özü dadırdı öncə,
Çox heyrət etdi şah bunu görüncə.
Şah rahat deyildi belə xidmətdən,
Ayağa qalxdı tez yemək bitərkən...
Gedərkən Nüşabə bağladı peyman,
İskəndər verməsin mülkünə ziyan.
Vəsiqə yazmağa şah verdi fərman,
O cənnətdən çıxıb getdi hökmüran...



LAYİHƏ

## II dərs • Məzmun üzrə iş

**1. Kiçik qruplarda birləşərək evdə təkrar etdiyiniz parçalardakı mühüm fikirlər, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərinizi bölüşün.**

**2. Gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

**3. Müzakirədə aşağıdakı sualları da əhatə etməyə çalışın.**

- Niqumaş kimdir? O, İskəndərin təlim-tərbiyəsi ilə necə məşğul olur?
- Şahlıq taxtına çıxan İskəndərin fəaliyyətində diqqətinizi daha çox çəkən nə oldu?
- İskəndər zənci hökmdarı ilə müharibə etməyə bilərdimi?
- Daranın onunla müharibə etmək niyyətində olduğunu öyrənən İskəndər necə hərəkət edir?
- İskəndərin Daranı qətlə yetirən sərkərdələrlə rəftarı sizdə hansı təəssürat yaratdı?
- Nüşabəni öz barigahına dəvət edən İskəndər ona necə münasibət bəsləyir?

### Evdə iş

**1. "İqbalnamə"dən müstəqil oxuduğunuz aşağıdakı parçaları nəzərdən keçirin:**
*"Kitabın başlanması", "İskəndərin peyğəmbərliyə yetişməsi", "İskəndərin peyğəmbərlik səfərinə çıxması", "İskəndərin şimala çatması və Yəcuc səddini bağlaması", "İskəndərin vəsiyyəti", "İskəndərin anasına məktub yazması".*

**2. Hər parçada ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**

**3. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**

**4. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**

**5. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**

**6. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## III dərs • Təhlil üzrə iş | Kiçik qruplar yaradaraq tapşırığı yerinə yetirin

1. **Mətnkənarı sualları qrupların arasında bölün.** Bir neçə qrup bir sualın üzərində işləyə bilər.
2. **Suallara yığcam cavab yazın.** Bədii əsərin məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin, nümunələr gətirin. Cədvəldən istifadə edin.

| Mətnkənarı suallar | Onlara hazırlanan cavablar |
|---|---|
| | |

3. **İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra mətnkənarı sualların dərslikdəki cavablarını oxuyun və yazdıqlarınızla müqayisə edin.** Cədvəldən istifadə edin.

| Hazırlanmış cavablarla dərslikdəki cavabların | |
|---|---|
| oxşar vəhətləri | fərqli cəhətləri |
| | |

4. **Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.**



LAYİHƏ

Poema hansı mövzuda yazılmışdır? Şairin bu mövzuya müraciət etməsinə səbəb nə olmuşdur?

Nizaminin makedoniyalı İskəndərlə bağlı mövzuya müraciət etməsi təsadüfi deyildi. Yaxın və Orta Şərqdə böyük şöhrət qazanmış bu tarixi şəxsiyyət şairə hökmdar və xalq, ictimai ədalət, dövlətin idarə olunması, dünyanın dərk edilməsi kimi mühüm məsələlər haqqında görüşlərini ifadə etməyə imkan verirdi. Mənbələr üzrə araşdırma bu barədə dolğun nəticə çıxarılmasına imkan verəcəkdir.

**İskəndər** obrazı Nizaminin təxəyyülünün məhsuludur. Makedoniyalı İskəndərlə poemanın qəhrəmanını eyniləşdirmək doğru olmaz. Şair ideal hesab etdiyi hökmdar obrazı yaratmağı qarşısına məqsəd qoymuş və İskəndərin timsalında buna nail olmuşdur.

İskəndərin xarakterindəki başlıca cəhətlər hansılardır? Onun davranış və əməllərində, başqalarına münasibətində diqqəti daha çox cəlb edən nədir?

Dövrünün yaxşı alimi – Niqumaş İskəndərin mükəmməl təlim-tərbiyə alması üçün əlindən gələni əsirgəmir. Döyüş sənətinin sirlərini də öyrənən gənc şahzadə öz gücü, igidliyi ilə hamını heyran edir. Atasından sonra taxt-taca sahib olan İskəndər ağıllı tədbirləri, ədalətli rəftarı, xeyirxahlığı ilə şöhrət qazanır. Ayaq basdığı hər yerdə, hər ölkədə ədalətin bərqərar olmasına çalışan bu hökmdar məzlumları zalımların zülmündən qurtarır, haqqın, ədalətin müdafiəçisi olur.

Nizami qəhrəmanını əsər boyu inkişafda verir. Alimlərlə daim ünsiyyətdə olması, öyrənməkdən usanmaması İskəndərin dərin elmə, biliyə yiyələnməsinə, böyük filosof kimi yetişməsinə səbəb olur. Peyğəmbər səviyyəsinə yüksələn İskəndər dünyanı dolaşır, insanları həqiqət yoluna dəvət edir. O, hər yerdə təkallahlılığı təbliğ edir.

Nizami öz qəhrəmanını – İskəndəri sevir, əməllərini alqışlayır, lakin onun qüsurlarını da gizlətmir.

**Evdə iş** **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) Şairin yaratdığı digər hökmdar obrazları ilə İskəndərin oxşar və fərqli cəhətləri hansılardır? Cədvəldən istifadə edin.

| № | Obrazlar | İskəndər obrazı ilə | |
|---|---|---|---|
| | | oxşar cəhətləri | fərqli cəhətləri |
| 1 | | | |
| 2 | | | |

b) İskəndəri şairin ictimai-humanist görüşlərini ən yaxşı ifadə edən obraz saymaq olarmı? Nə üçün?

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**



LAYİHƏ

## Mənbələr


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. Gəncəvi N. İskəndərnamə. Şərəfnamə. Bakı: Lider nəşriyyat, 2004, səh. 9-12.
3. Gəncəvi N. İskəndərnamə. İqbalnamə. Bakı: Lider nəşriyyat, 2004, səh. 11-14.


**IV dərs • Təhlil üzrə iş | Aşağıdakı qaydalara əməl etməklə mətni oxuyun.**

1. Bir nəfər ilk mətnkənarı sualın cavabını – dərslikdəki mətni aramla oxuyur.
2. O, mətndəki əsas fikri bir neçə cümlə ilə ifadə edir – ümumiləşdirir.
3. Poemanın oxusundan əldə etdiyi məlumat əsasında mətnə əlavələr edir.
4. Sonra şagirdlərə oxuduğu parça və əlavələri ilə bağlı suallar verir.
5. Suallar əsasında aparılan müzakirədə çətin, izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirir.
6. Oxunmuş parçaya mənbələr əsasında hansı əlavələrin edilməsinin vacib olması barədə nəticə çıxarılır və bəndlərlə yazılır.
7. Şagirdlər əvəzlənməklə digər mətnkənarı suallarla bağlı cavabların – mətnin oxusu da bu qayda ilə həyata keçirilir.
8. Kiçik qruplarda birləşən şagirdlər qənaətlərini bölüşür, təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparırlar.

Əsərdə bir-birini təkrar etməyən, davranış və əməlləri, həyata baxışları ilə fərqlənən insan obrazları yaradılmışdır. Hökmdar surətləri diqqəti daha çox çəkir. Onlar sayca da çoxdur. Bu, şairin hökmdarlara ünvanladığı fikirlərin geniş ifadəsi üçün lazım idi.

> Poemadakı hökmdar obrazları hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir? Onların oxşar və fərqli cəhətləri hansılardır?

Nizaminin **Nüşabəyə** rəğbəti açıq-aşkar duyulur. İskəndəri Azərbaycana – Bərdəyə gətirən şair onu buranın hökmdarı olan türk qızı Nüşabə ilə qarşılaşdırır. Məğrur İskəndər Nüşabənin ağlı, bacarığı, fərasəti qarşısında aciz qalır. Ölkəsinin abadlığına, xalqının firavan yaşamasına nail olan cəsarətli Nüşabə nəyə qadir olduğunu İskəndərə bildirməkdən çəkinmir:

Erkək tinətliyəm, olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.

Başqa bir hökmdarın – İran şahı **Daranın** səciyyəvi xüsusiyyətləri poemada qabarıq əks olunub. Bir insan kimi təkəbbürlü olan Dara hökmdar kimi ədalətsiz və zalımdır. Öz əməlləri ilə ölkəsində dözülməz vəziyyət yaradan bu hökmdar xalqın taleyini şərəfsiz adamlara tapşırmış, ağıllı insanlara qənim kəsilmişdir. Xalqı ədalətsiz müharibələrə sürükləyən, insanların taleyi ilə oynayan bu zülmkar şah İskəndərlə müharibədə məğlub olur. Şair bunu Daranın öz əməllərinin nəticəsi kimi dəyərləndirir.

**Feyləqus** ədalətli qanun və tədbirləri ilə öz ölkəsində zülmü ortadan qaldırmış, xalqının böyük rəğbətini qazanmış hökmdardır. Ona həsəd aparan Daranın tələbini qəbul edən bu ağıllı hökmdar xərac verməklə ölkəsinin toxunulmazlığına, xalqının azad yaşamasına nail olur.



LAYİHƏ

Nizami bütün yaradıcılığı boyu hökmdarlara bədii söz vasitəsilə təsir etməyə çalışmışdır. Nəsihət verməklə, yaxud alacaqları cəza ilə qorxutmaqla onları doğru yola dəvət etmişdir. Zalımların öz cəzalarını alacaqlarına müasirlərini inandıran şair belə hökmdarlardan olan **Pələngəri** İskəndərin əli ilə cəzalandırır. Qonşu ölkələri işğal edən, var-dövlətini talan edən bu amansız şah öz əməllərinin qurbanı olur.

> Poemanın maraqla oxunmasına səbəb nədir? Onu mənzum roman adlandırmaq olarmı?

Nizaminin bütün əsərləri kimi bu poeması da yüzillər boyu maraqla oxunmuş, araşdırılmış, başqa dillərə tərcümə edilmiş, insanların rəğbətini qazanmışdır. Əlbəttə, bunun səbəbi çoxdur. Ən mühümü isə intibah dövrünün böyük sənətkarı olan Nizaminin milli və bəşəri dəyərləri öz humanist idealları ilə zənginləşdirməsidir. İnsan, onun azadlığı, ləyaqəti və mənalı ömrü, cəmiyyətin mənəvi kamilliyi, tərbiyəvi-əxlaqi dəyərlərin qorunub saxlanması, ictimai ədalət, elmi kamilliyin üstünlüyü kimi məsələlərə "İskəndərnamə"də xüsusi önəm verilmiş, təkrarolunmaz bədii lövhələrlə əks etdirilmişdir.

Poemadakı əhvalat və hadisələrin bir-biri ilə məharətlə əlaqələndirilməsi, təbiətin, döyüş səhnələrinin canlı, real təsviri, ədəbi qəhrəmanların fərdi xüsusiyyətlərinin rəngarəng bədii vasitələrlə təqdimi onun maraqla oxunmasını təmin edən başlıca cəhətlərdəndir.

Doğma xalqının mənəvi gözəlliyini sonsuz məhəbbətlə tərənnüm edən şair digər xalqlar barədə də hörmət və ehtiramla danışmışdır. Bu bir şəxsiyyət və sənətkar kimi Nizamini səciyyələndirən ən mühüm keyfiyyətlərdəndir.

Romanda həyat hadisələri geniş və inkişafda verilir, böyük bir zaman əhatə edilir. Belə əsərlərdə, bir qayda olaraq, ədəbi qəhrəmanların həyatı hərtərəfli təsvir olunur. Bu deyilənləri əsas götürən bir sıra tədqiqatçılar həyat hadisələrinin geniş təsvir olunduğu epik poemaları **mənzum roman** adlandırırlar. Romanla bağlı bu qeyd olunanları "İskəndərnamə"də müşahidə etmək mümkündür.

> Poemanın ideyasının əsasında hansı fikirlər dayanır?

Nizami ictimai-siyasi, fəlsəfi-etik düşüncələrinə məhz bu sonuncu əsərində yekun vurmuşdur. Elə buna görə də poema ideya baxımından çox zəngin, məzmunca maraqlı, bədii cəhətdən mükəmməldir. Mənbələr əsasında araşdırma əsərin ideyasının əhatəli aydınlaşdırılmasına imkan verəcəkdir.

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
| --- | --- |
| | |

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) Müəllifin "İskəndərnamə"də daha geniş əks olunmuş humanist görüşləri hansılardır?

b) Şairin əsərlərindəki qadın obrazları hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir? Onlar üçün ortaq sayıla bilən cəhətlər hansılardır? Cədvəldən istifadə edin.



LAYİHƏ

| Şairin yaratdığı qadın obrazları | Onların oxşar cəhətləri |
|---|---|
| | |

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. N.Gəncəvi. İskəndərnamə. Şərəfnamə. Bakı: Lider nəşriyyat, 2004, səh.9-12.
3. N.Gəncəvi. İskəndərnamə. İqbalnamə. Bakı: Lider nəşriyyat, 2004, səh. 8, 11-14.


## BÖLMƏNİ YEKUNLAŞDIRARKƏN

Aşağıdakı özünüqiymətləndirmə cədvəlini dəftərinizdə çəkin. Hər sütundakı başlıqların tələbinə uyğun qeydlərinizi yazın.

| № | **Bölmə üzrə bilik və bacarıqlarım** | | | |
|---|---|---|---|---|
| | Bölmədən əvvəl | | Bölmədən sonra | |
| | Bilirdim | Bacarırdım | Öyrəndim | Bacarıram |
| | | | | |

Çətinlik çəkdiklərinizi, onları necə aradan qaldıracağınızı qısaca yazıb, müəlliminiz, sinif yoldaşlarınız və valideynlərinizlə müzakirə edin.

| Çətinlik çəkdiklərim | Onları necə aradan qaldıra bilərəm |
|---|---|
| | |



LAYİHƏ

Qiymətləndirmə materialı

## ƏFZƏLƏDDİN XAQANİ

### Eyləsəm səfər...

İraqa, İrana eyləsəm səfər,
Başıma yağıştək yağar simü-zər.

Orada şairə qiymət verən var,
Xəzinəm ləl ilə, gövhərlə dolar.

Şahlar məclisimdə diz çökər mənim,
Başıma tabaqla zər tökər mənim.

Bakir sözlərimin aşiqi olan,
Ariflər əlimi öpər hər zaman.

Lakin üzüm gülməz, gözlərim ağlar...
Qəlbimdə dağ qədər ağır intizar.

Vətən həsrətilə töküb göz yaşı,
"Ah, vətən!" deyərəm mən hər sözbaşı.

Şamaxı! Ey mənim sevimli yurdum,
Mən sənin qoynunda xaniman qurdum.

İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana,

Ümidim, pənahım Təbrizdir, Təbriz,
O şəhər də mənə doğmadır, əziz.

Siz mənə həyatı etdiniz əta,
Sən mənə anasan, Təbrizdir ata.

Anasından küsən körpə bir uşaq
Ata ağuşunda yer tapar ancaq!

*(Tərcümə edən: M.Soltan)*



LAYİHƏ

# ORTA ƏSRLƏR
# AZƏRBAYCAN ƏDƏBİYYATI

**1. Orta əsrlərdə – XIII–XVI yüzilliklərdə Azərbaycan ədəbiyyatı, onun görkəmli nümayəndələrinin yaradıcılığı haqqında ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın.**

Həmin dövrdə Azərbaycanın siyasi həyatında, mədəniyyət, incəsənət sahəsində baş vermiş mühüm dəyişikliklər haqqında digər fənlərdən mənimsədiyiniz biliklərdən istifadə edin.

**2. "XIII-XVI yüzilliklərdə yaranan söz sənətimiz ədəbiyyat tarixinin qızıl dövrünü təşkil edir" mövzusunda debata hazırlaşın:**

**1) Mətni oxuyun. Tapşırıqları fərdi olaraq yerinə yetirin.**

a) Mətnkənarı sualların cavablarını ümumiləşdirib qısaca yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabları |
|---|---|
| | |

b) Oxu zamanı sizi düşündürən sualları, onların ilkin cavablarını yazın.

| Məni düşündürən suallar | Onların cavabları |
|---|---|
| | |

**3. Aşağıdakı fikirlərin üzərində düşünün, müzakirədə onlara münasibət bildirin.**

Tarix və zaman etibarilə orta əsrlər Azərbaycan ədəbiyyatı milli ədəbi fikrin keçdiyi çoxəsrlik inkişaf yolunun tən ortasıdır. Orta əsrlər ədəbiyyatı özündən əvvəki dövrlərin ədəbi ənənələrinin və yaradıcılıq proseslərinin möhtəşəm yekundur. Bu dövrün ədəbiyyatında Nizami Gəncəvinin irsinə və ənənələrinə yenidən və yaradıcı şəkildə qayıtmaqla milli ədəbiyyatın bütöv mənzərəsini yaratmaq vəzifəsi həll olunmuşdur.

*(İsa Həbibbəyli)*

Orta əsrlərdə anadilli ədəbiyyat sayca və sanbalca get-gedə güclənir və farsdilli poeziyanı üstələyirdisə də, fars dilində yazıb-yaratmaq ənənəsi hələ ədəbi şəxsiyyətlərin müəyyən bir qismini əhatə edirdi. Fars dilində yazıb-yaratmış görkəmli Azərbaycan şair və mütəfəkkirləri – Nəsirəddin Tusi, Marağalı Övhədi, Arif Ərdəbili daha çox Nizami ənənələrinə söykənərək bu miqyasda əsərlər yaratmağa çalışırdılar.

*(Nizami Cəfərov)*

**4. Qənaətiniz oxşar olan yoldaşlarınızla birləşib kiçik qruplar yaradın.**
**5. Dəlillər əsasında mövqelərinizi dəqiqləşdirib fərqli fikirdə olan iki böyük qrupda birləşin və müzakirə aparın.**

XIII–XVI yüzilliklərdə ədəbiyyatımızda başlıca inkişaf meyilləri hansılardır?

XIII–XIV əsrlər xalqımızın tarixində mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin bir dövr kimi səciyyələnir. Müharibələr, yadelli işğalçıların dağıdıcı hücumları, hakimiyyət başındakı sülalələrin bir-birini əvəz etməsi həmin dövrün mühüm hadisələri idi. Ziddiyyətlərə baxmayaraq, ədəbiyyatımız və mədəniyyətimiz möhkəm təməl əsa-



LAYİHƏ

sında inkişaf edir, yeni keyfiyyət qazanırdı. Bu dövrdə *sufizm* ictimai-bədii fikirdə mühüm rol oynamağa başlayır. Ədəbiyyat cəmiyyəti saflaşdırmağı, kamil insan formalaşdırmağı problem kimi diqqət mərkəzində saxlayır. İlahi eşq və ilahi gözəlliyi tərənnüm edən fəlsəfi-irfani şeirlərdə yar, dilbər Allah məzmunu daşıyır. Aşiqin eşqi ilahi eşqdir, Allaha çatmaq, qovuşmaq məzmunu kəsb edir. Lirik qəhrəmanın ah-fəryadı Hüsni-mütləqə – Allaha qovuşmaq arzusundan, bu yolun çətinliyindən, məhrumiyyətlərin çoxluğundan irəli gəlir.

Bu dövrün ən mühüm ədəbi hadisəsi Azərbaycan türkcəsində yazan şairlərin sayının get-gedə artmasıdır. Belə ki, ərəb-fars dilində yazıb-yaratmaq ənənəsi davam etsə də, *anadilli ədəbiyyatın təşəkkül tarixi XIII əsrə təsadüf edir.* Anadilli ədəbiyyatımızın ilk nümunələri Şeyx İzzəddin Həsənoğlu, Şeyx Səfiəddin Ərdəbili kimi lirik şairlərin qəzəlləri, müəllifi bəlli olmayan "Dastani-Əhməd Hərami", Qul Əlinin "Qisseyi-Yusif" poemalarıdır. Anadilli poeziyada dünyəvilik, dərin ictimai fikir, sufi-mistik ideya və obrazlar (İzzəddin Həsənoğlunun "Apardı könlümü..." qəzəli), irfani-fəlsəfi düşüncələr (Şeyx Səfiəddin Ərdəbilinin əsərləri) öz əksini tapır. Məhəbbət lirikasının dəyərli nümunələrində (Zülfüqar Şirvaninin farsca "Divan"ı) dünyəvi məhəbbətin, real gözəlin tərənnümünə üstünlük verilir. Həmin yüzilliklərin bir sıra bədii əsərlərində dövrün ruhu, həyat həqiqətləri ifadə edilirdi.

XV–XVI əsrlərdə müstəqil Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin yaranması, hökmdarların ana dilinə qayğısı ana dilində yaranan ədəbiyyatın əvvəlki dövrlərə nisbətən daha güclü mövqe tutmasına səbəb oldu, nəticədə farsca yazmaq ənənəsi zəiflədi. Mövzu və obraz baxımından inkişaf edən anadilli poeziyanın nümayəndələri (Cahanşah Həqiqi, Nemətullah Kişvəri, Həbibi) fərdi, poetik üslub nümayiş etdirirdilər. İnsanın mənəvi azadlığının müdafiəsi, dünyanın gözəllik və nemətlərindən bəhrələnməyə çağırış motivləri bu dövrün şeirində özünü qabarıq göstərirdi.

İ.Həsənoğlunun əsərləri hansı səbəblərə görə dəyərli hesab olunur?

Şeyx İzzəddin Həsənoğlu anadilli şeirimizin tarixində ilk iz qoymuş sənətkarlardandır. O, mənbələrdə zəmanəsinin nüfuzlu, şöhrəti geniş yayılmış, saf mənəviyyatlı şəxsiyyəti kimi təqdim edilir. Azərbaycan dilində qələmə alınmış "Divan"ının Azərbaycan və Rumda məşhur olması göstərilir. Həsənoğlunun bizə gəlib çatan irsi üçü doğma türkcəmizdə, biri fars dilində yazılmış dörd qəzəldən ibarətdir. Ana dilində yazdığı *"Apardı könlümü..." qəzəli* məhəbbət mövzusundadır. İlahi məhəbbəti vəsf edən bu qəzəldə şair insanları iki qrupa – sadiqlərə və sadiq olmayanlara bölür. Sadiq olmayanların ikiüzlülüyünü, riyakarlığını tənqid edir, həyatda düzlüyə, saf, nəcib olmağa səsləyir. Əsərdə lirik qəhrəmanın sevgilisinə bəslədiyi saf məhəbbət hisləri, onun gözəlliyinə heyranlığı yüksək sənətkarlıqla əks etdirilmişdir:

Apardı könlümü bir xoş qəmər üz, canfəza dilbər,
Nə dilbər? Dilbəri-şahid. Nə şahid? Şahidi-sərvər...

"Dastani-Əhməd Hərami" poemasında əksini tapmış mühüm problemlər və başlıca ideyalar hansılardır?

XIII yüzilliyin ana dilində olan epik poeziya örnəklərində ("Dastani-Əhməd Hərami" və Qul Əlinin "Qisseyi-Yusif"poemaları) xeyirlə şərin mübarizəsi, islam dininin yüksək humanist dəyərləri, ədalətə, insansevərliyə, insaf və etiqada dəvət motivləri mühüm yer tutur. Rəzillik, zalımlıq, kin-küdurət insana yaraşmayan mənfi sifətlər kimi tənqid olunur. Ana dilində yazılmış ilk epik nəzm əsəri olan "Dastani-Əhməd Hərami" poemasının müəllifi məlum deyildir. Altı məclisdən ibarət əsərdə oğurluq,



LAYİHƏ

quldurluqla ad çıxarmış Əhməd Hərami şəri, pisliyi təmsil edir. Bağdad sultanının qızı Güləndam isə xeyirin, haqq-ədalətin, saflığın təmsilçisi kimi təqdim olunur. Əsərin baş qəhrəmanlarının ölüm-dirim mübarizəsi sonda Güləndamın Əhməd Həramini öldürməsi – xeyirin şər üzərində qələbəsi ilə nəticələnir. Əhməd Həramini şair zalım, şərəfsiz adlandırır, insanların onun ölümünə sevinməsini təsvir etməklə xalq nifrətini ifadə edir. Əsərdə xalq şeir dilinə xas olan ifadələr, bədii təsvir və ifadə vasitələri klassik poeziya ənənələrinə uyğunlaşdırılmışdır:

Həyasından qızardı eylə tərlər,
Sanasan kim, gülə düzüldü dürlər…

XIV yüzillikdə Quran motivləri əsasında yazılmış anadilli epik poeziya nümunələri (Suli Fəqih və Mustafa Zəririn “Yusif və Züleyxa” adlı poemaları) meydana çıxır. Ana dilində əsərlər sayca artsa da, fars dilində yazmaq ənənəsi də davam edir. Bu dövrdə, əsasən, Nizami mövzularında şəri, eybəcərliyi pisləyən, xeyiri, ədaləti, insan haqqını müdafiə edən epik şeir örnəkləri (Marağalı Əvhədinin “Cami-Cəm”, “Dəhnamə”, Arif Ərdəbilinin “Fərhadnamə”, Əssar Təbrizinin “Mehr və Müştəri” poemaları) yaranırdı.

Qazi Bürhanəddinin yaradıcılığını ədəbiyyatımız üçün dəyərli edən hansı cəhətlərdir?

Türk ədəbiyyatında *dünyəvi poeziyanın* örnəyi kimi dəyərləndirilən Qazi Bürhanəddin yaradıcılığı bir sıra mühüm səbəblərə görə diqqəti cəlb edir. Onun ana dilinin yüksək bədii səviyyəyə çatdığını göstərən “Divan”ı, sırf türk şeir janrı olan tuyuqdan geniş istifadə etməsi, ictimai və siyasi həyatı əks etdirməyə güclü meyli bu dövrdə – XIV yüzillikdə ədəbiyyatda gedən yeniləşmə prosesinin göstəricisi idi.

Qazi Bürhanəddinin yaradıcılığında qəhrəmanlığı, mənəvi dəyərləri əks etdirən tuyuqlar mühüm yer tutur. Tuyuqlarda sənətkarın dünyagörüşü, həyat hadisələrinə, mənəvi problemlərə münasibəti geniş əksini tapmışdır. Şairin tuyuqlarının lirik qəhrəmanı ölümdən qorxmayan, haqq işi yolunda baş qoymağa hazır olan igiddir. Mərdlik, mübarizlik, cəsarət, düşmən qarşısında əyilməzlik həmin qəhrəmanı səciyyələndirən başlıca cəhətlərdir:

Özünü əş-şeyx bilən sərdar bolur,
Ənəlhəq dəvi qılan bərdar bolur.
Ər oldur, həq yolına baş oynaya,
Döşəkdə ölən yigit murdar bolur.

Ədəbiyyatdakı bu proseslər, humanist ideyaların bədii əksi İmadəddin Nəsiminin yaradıcılığında fəlsəfi şeirin parlaq örnəklərinin yaranması ilə nəticələndi.

Həbibinin poeziyasında hansı mənəvi-əxlaqi dəyərlər əksini tapmışdır?

XV–XVI əsrlərdə yazıb-yaratmış Həbibinin ana dilində yazdığı *qəzəl, qəsidə, müsəddəslərdə* insanın mənəvi azadlığı, daxili aləminin, təbiətin gözəlliyi əlvan poetik vasitələrlə əks etdirilmişdir. Şair insana zidd olan hər şeyi rədd edir, ona ilahi gözəlliyin yerdə təcəllisi kimi yanaşırdı. Həbibi lirik şeirlərində aşiqin qəlbinin hərarətini, səmimiliyini, fədakarlığını, gözəlliyə pərəstişini böyük sənətkarlıqla ifadə etməyə nail olmuşdur:

Gər səninçün qılmayam çak, ey büti-nazikbədən,
Gorum olsun ol qəba əynimdə pirahən kəfən.

Füzuli Həbibi sənətini yüksək dəyərləndirmişdir.



LAYİHƏ

Dirili Qurbaninin özəl təravəti və səmimiliyi ilə seçilən, real həyat hadisələrinin təsiri ilə yaranan *qoşma və gəraylılarında* insan və təbiət gözəllikləri sənətkarlıqla tərənnüm edilmişdir. Sənətkarın "Bənövşə" qoşmasında təbiətin gözəlliyindən vəcdə gələn insanın səmimi duyğuları əks etdirilmişdir. Özünü haqq aşığı adlandıran Qurbani ictimai məzmunlu qoşmalarında haqsızlığa, zülmə, ədalətsizliyə qarşı etiraz səsini ucaltmışdır. Özünə mürşid saydığı Şah İsmayıl Xətayiyə müraciətlə yazdığı qoşmada aşıq "dərd əlindən fəryada gəldiyini" söyləyir. Qurbani insanı mərd, igid, düşünüb danışan, söz başa düşən, dərdbilən görmək istəyir:

> Qurbaninin əsərlərində hansı problemlərə toxunulmuşdur?

Mərd odur ki, işin tuta mərd ilən,
Ər istəsən, keç namərddən, ər dilən.
Rəmz anlayan, söz düşünən, dərd bilən,
Aləmlərdə şöhrətlənir, bəllənir.

Orta dövr Azərbaycan ədəbiyyatı tarixinin zirvəsini İmadəddin Nəsimi, Şah İsmayıl Xətayi və Məhəmməd Füzulinin yaradıcılığı təşkil edir.

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi aşağıda göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
**2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
**3. "Orta dövr Azərbaycan ədəbiyyatının əvvəlki mərhələdən fərqi" mövzusunda məruzəyə hazırlaşın.**

**Mənbələr**

1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 clddə. II cild, Bakı: Şərq-Qərb, 2005, səh. 6, 10-13, 15.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.



LAYİHƏ



Üç dili mükəmməl bilməsi sayəsində Nəsimi Yaxın Şərq bədii fikrinin ən gözəl nailiyyətlərinə yiyələnmiş, geniş biliyə, parlaq istedada, yüksək sənətkarlıq mədəniyyətinə malik ustad bir şair kimi Azərbaycan şeirinə və türk xalqlarının ədəbiyyatına yeni istiqamət vermişdir.

*Mirzağa Quluzadə*

**İmadəddin Nəsimi**
**(1369 – 1417)**

# İ.NƏSİMİNİN HƏYATI, YARADICILIQ YOLU

**• Araşdırmaya hazırlaşın**

**1. İ.Nəsiminin həyatı, yaradıcılığı və yaşadığı dövrlə bağlı nə bilirsiniz? Ədəbiyyat, tarix, coğrafiya dərslərində qazandığınız bilikləri xatırlayın, yığcam müzakirə aparın.**
**2. BİBÖ cədvəlinin "Bilirik" və "Bilmək istəyirik" sütunlarında müvafiq qeydlər edin.**

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

**3. Kiçik qruplar yaradaraq aşağıdakı tapşırıqları yerinə yetirin:**

**1)** Mətnkənarı suallarla bağlı cavabları oxuyun, məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

**2)** Digər qruplara vermək üçün mətnlə bağlı bir neçə sual müəyyənləşdirin.

| Müəyyənləşdirilmiş suallar | Onların cavabı |
|---|---|
| | |

**3)** Təqdimatlar etməklə gəldiyiniz nəticələrlə bağlı məlumat mübadiləsi və müzakirə aparın. Aşağıdakı fikirlərə münasibət bildirin.

– *Nəsimi insana, insan ləyaqətinə, onun qüdrətinə olan yüksək inamını tərənnüm edərək, şeirlərində insanı həyatın yaradıcısı, həyatı gözəlləşdirən, əsl hörmət və ləyaqətə layiq bir varlıq kimi təsvir etmişdir.*

*(Həmid Araslı)*

– *Nəsiminin insan konsepsiyasının zirvəsində və yekununda kamil şəxsiyyət problemi dayanır. Bu özünü və ilahi həqiqətləri dərk edən, nəfsin əsarətinə düşməyən insan və Haqqı sevən həqiqət yolçusudur.*

*(Yaqub Babayev)*

**4. BİBÖ cədvəlinin "Öyrəndik" sütununda müvafiq qeydlər edin.**

Nəsiminin dövrü, həyatı və yaradıcılığı üçün önəmli olanlar hansılardır?

XIII–XIV əsrlərdə baş vermiş mühüm ictimai-siyasi və tarixi hadisələr Azərbaycanda sabitliyin pozulmasına səbəb oldu. Çingiz xanın yürüşlərinin vurduğu yaralar sağalmamış Toxtamışın, Teymurun basqınlarına məruz qalan Azərbaycan böyük itkilər verdi. İşğalçılara qarşı vaxtaşırı baş verən üsyanlar insan qırğınına, şəhər və kəndlərin dağılmasına səbəb olurdu. Yerindən-yurdundan didərgin düşən əhali başqa ölkələrə üz tutur, xəstəlik, aclıq və ölümlə qarşılaşırdı.



LAYİHƏ

Digər tərəfdən, orta əsrlərdə hakim olan ideologiyanın ağır təzyiqləri XIV–XV əsrlərdə açıq və gizli mübarizə üçün zəmin oldu. Müxtəlif təriqətlərin, cərəyanların yaranmasının bir mühüm səbəbi də məhz bu idi. Azərbaycanda, eləcə də Yaxın və Orta Şərqdə ən geniş yayılmış təriqət isə *hürufilik* idi. Bu təriqətin başçısı və nəzəriyyəçisi Azərbaycan alimi və şairi Şeyx Fəzlullah Nəimi olmuşdur. Hürufiliyə görə, Allah insanda və mövcud olan bütün varlıqlarda təcəssüm tapır. Elə buna görə də insan öz varlığındakı ilahi nuru dərk etməlidir. Bunun üçün o, daim əqli-mənəvi təkamül yolu keçməli, təkmilləşməli, qəlbini saflaşdırmalıdır. İnsanı müqəddəs sayan hürufilərin fikrincə, kamil insan Tanrı səviyyəsinə yüksələ bilər. Deməli, insana əzab vermək və onu öldürmək olmaz. Bununla da hürufilər ictimai haqsızlığa, zülmə qarşı çıxır, islam dininin bir sıra ayinləri ilə razılaşmırdılar. Hürufilərin feodal hakim dairələri, islam xadimləri tərəfindən təqib və edam edilmələrinin mühüm səbəblərindən biri bu idi.

Göründüyü kimi, Nəsimi keşməkeşli bir dövrdə yaşamışdır. Onun doğulduğu il və yer barədə fərqli fikirlər var. Həyatı haqqında da gerçəklikdən çox rəvayət və əfsanələr əks etdirən məlumatlar mövcuddur.

Dini və dünyəvi elmləri dərindən mənimsəyən gənc, həssas şair insana amansız, qeyri-humanist münasibətlə heç cür barışa bilmirdi. Bu onu düşünməyə, yollar aramağa sövq edir. Əvvəl sufizmə meyil edən Nəsimi sonralar Nəiminin görüşlərinə tərəfdar çıxır. Hürufilərin mövqeyi onun ürəyincə idi. Nəsimi elə bir elmi-fəlsəfi dayaq axtarırdı ki, onun köməyi ilə insana öz adının uca, mövqeyinin yüksək olduğunu anlamağı öyrətsin. Böyük ehtirasla, coşqunluqla hürufi ideyalarını yayan, təbliğ edən şair təqib olunur. Ölkədən-ölkəyə keçməyə məcbur olan Nəsimi əqidəsindən üz döndərmir, alovlu şeirləri ilə çoxlu tərəfdar tapır. Hələb şəhərində həbs edilən bu cəsur sənətkar 1417-ci ildə ağır işgəncələrlə edam olunur.

İctimai-fəlsəfi lirikanın ən qüdrətli yaradıcılarından olan Nəsimi şeirlərini müxtəlif janrlarda yazmışdır. Bədii irsində qəzəl, qəsidə, tuyuq, rübai, müstəzad və s. yer almışdır.

İ.Nəsiminin təriqət şeirləri üçün səciyyəvi cəhətlər hansılardır?

Zəngin irsi qalan şairin əsərlərini mövzusuna, ideya istiqamətinə görə iki böyük qismə ayırmaq olar: *təriqət şeirləri, dünyəvi şeirlər.*

Bundan əlavə, onun dini mövzuda yazdığı əsərləri də vardır. Nəsimi öncə sufizmə meyil etdiyindən ilk təriqət şeirləri, təbiidir ki, sufiyanə olmuşdur.

Lakin sufi ideyalarının təbliğinə həsr olunmuş əsərləri kəmiyyətcə hürufi şeirlərindən azdır. Şairin həm doğma türkcəmizdə, həm də fars dilində yazdığı şeirlərin böyük bir qismində hürufilik ideyalarının ifadəsinə önəm verilmişdir. Bu qəbildən şeirlər sənətkarın hürufilik görüşləri, mənsub olduğu təriqətin mühüm müddəaları barədə aydın təsəvvür yaradır. Bu baxımdan onun "Söz", "Sığmazam", "Mənəm, mən" rədifli, "Daim ənəlhəq söylərəm, həqdən çü Mənsur olmuşam", "Mərhəba, insani-kamil, canımın cananəsi" misraları ilə başlayan qəzəlləri, eləcə də digər janrlarda olan əsərləri yüzillər boyu diqqəti özünə çəkmişdir.

Belə əsərlərdə hürufi termin və anlayışlarına xeyli yer verilmişdir. Onların şərhi şeirdəki əsl mətləbin başa düşülməsini asanlaşdırır. Məsələn, yuxarıda adıçəkilən qəzəllərin birində deyilir:

Çün bizə məlum olubdur məniyi-ümmül-kitab,
Arifəm, səmimə sığmaz zahidin əfsanəsi.

LAYİHƏ

Buradakı “ümmül-kitab” (“kitabın anası”) Quranın *“Fatihə”* surəsi anlamındadır. Həmin surənin daxili mənasını ilahi sirlər təşkil edir və bu sirlər arif olan hürufilərə məlumdur. Belə bir uca məqama yüksələn ariflər – hürufilər üçün zahidin dedikləri mənasız sözlərdən başqa bir şey deyildir.

Nəsiminin təriqət şeirlərində insan həm ilahi, həm də bəşəri keyfiyyətlərə malik olub öz gücü və ucalığı ilə seçilir. Hürufi təliminə əsaslanan şair insanı müqəddəsləşdirir, onun alçaldılmasını, incidilməsini lənətləyir. Əslində, Nəsimini hürufi ideyalarına cəlb edən də insanın şərəfli mövqeyə ucaldılması idi.

Sənətkarın dünyəvi şeirləri hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Nəsiminin ikinci qisim – *dünyəvi* şeirləri də az deyildir. Onlar mövzuca rəngarəngdir: dünyəvi məhəbbətin və gözəlliyin tərənnümünə həsr olunanlar, ictimai-fəlsəfi məzmunda yazılanlar, təbiətə həsr edilənlər və s. Bu əsərlərin böyük bir qismi qəzəl, bir qismi isə başqa janrlarda qələmə alınmışdır. “Neylərəm?”, “Etməgil”, “Yanaram” və s. *məhəbbəti* tərənnüm edən qəzəllər kimi dillər əzbəri olmuşdur.

Təriqət şeirlərindəki *yar, dilbər* ilahi gözəlliklə bağlıdırsa, bu qəzəllərdə tərənnüm edilən *sevgili, məhbub* adəm övladı olub bəşəri xislətlidir, real gerçəkliyin, maddi aləmin yetirməsidir. O, lirik qəhrəman üçün ən qiymətli varlıq, həyatın mənasıdır:

Dilbəra, mən səndən ayru ömrü canı neylərəm?
Tacü təxti, mülkü malu, xanimanı neylərəm?
İstərəm vəsli-cəmalın, ta qılam dərdə dəva,
Mən sənin bimarınam, özgə dəvanı neylərəm?

Məşuqun *zahiri gözəlliyinin* təsvirinə həsr olunan (“Düşdü yenə dəli könül gözlərinin xəyalinə”, “Əcəba, bu huri üzlü məhi-bədr, ya pərimi?” və s.) qəzəllərdə, eləcə də bu mövzuda digər janrlarda yazdığı şeirlərdə daha çox həyati, gerçək gözəl tərənnüm obyekti olaraq götürülmüşdür.

Nəsiminin dünyəvi əsərlərinin bir qismini *ictimai-fəlsəfi* məzmunlu şeirlər təşkil edir. Bu da məlumdur ki, şairin müxtəlif mövzularda yazdığı bütün əsərlərində fəlsəfi fikirlər önəmli yer tutur. Onun ictimai-fəlsəfi şeirlərində əhatə edilən məsələlər isə çoxdur; dünyanın dərk edilməsi ilə bağlı düşüncələr, dünyanın faniliyi və onun vəfasızlığından şikayət, rəzilliyi özünə peşə edənlərdən narazılıq və s.

Yoxdur vəfası dünyanın, aldanma anın alına,
Rəngindən oldu münfəil, hər kim boyandı alına.
Arısı yalandır, saqın, dadlısına aldanma kim,
Acıdır anın şəkkəri, ağı qatılmış balına.

Şairin bədii irsində *təbiətə* həsr edilmiş şeirlər sayca az olsa da, onlar ideya-bədii keyfiyyətinə görə ədəbiyyatımızda ən yaxşı əsərlərdən sayılır.

Şairin lirikası hansı poetik keyfiyyətləri ilə seçilir?

Nəsiminin poeziyası öz yüksək bədii sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Şairin humanizmi, insana məhəbbəti yalnız əsərlərinin yüksək ideyalılığında, məna və mahiyyətində deyil, həm də dil və üslubunda, forma əlvanlığında özünü biruzə verir. Onun şeirlərindəki musiqililik, oynaqlıq, axıcılıq, ritmika, epitet, bənzətmə, metafor, təzad və s. bədii təsvir və ifadə vasitələri ədəbiyyatımıza yeni poetik keyfiyyətlər gətirmişdir.



LAYİHƏ

**Evdə iş** **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) "Nəsimi poeziya tariximizdə siyasi-fəlsəfi şeirin ilk böyük nümayəndəsidir" fikrini necə əsaslandırarsınız?
   b) Şair ilahi və dünyəvi məzmunda yazdığı şeirlərində hansı mənəvi-əxlaqi dəyərləri daha önəmli sayır?
   c) İ.Nəsiminin şeirlərini hansı mövzular üzrə qruplaşdırmaq olar?

| № | Əsərlərin adı | Aid olduqları mövzular | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. İ.Nəsimi. Seçilmiş əsərləri. 2 cilddə. I cild, Bakı: Lider nəşriyyat, 2004, səh. 5-9.


## SIĞMAZAM
(ixtisarla)

**I dərs • Məzmun üzrə iş | Oxuya hazırlaşın**

**Sualın üzərində düşünün, cavabını qısaca qeyd etdikdən sonra fikir mübadiləsi və və müzakirə aparın. Cədvəldən istifadə edin.**
Nəsiminin təriqət şeirləri yazmasına səbəb, sizcə, nədir?

| Şairin təriət şeirləri yazmasına səbəb, sizcə, nədir? | Sualın qısa cavabı |
|---|---|
| | |

**Aşağıdakı qaydalara əməl etməklə şeirin məzmunu üzərində işləyin.**
**1. Əsəri fərdi olaraq səssiz oxuyun. Tanış olmayan sözləri mənasını aydınlaşdırıb cədvəldə qeydlər edin.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**2. Daha maraqlı hesab etdiyiniz məcazları cədvəldə qeyd edin.**

| Daha maraqlı hesab etdiyim məcazlar və onların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|
| | |



LAYİHƏ

**3. İzahına ehtiyac duyduğunuz misra və beytləri cədvəldə qeyd edin.**

| İzahına ehtiyac duyduğum misra və beytlər | Onların izahı |
|---|---|
| | |

**4. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, izahına ehtiyac duyduğunuz misra və beytlərlə bağlı yaranan çətinlikləri müəllimlə müzakirə edin.**

**5. Təqdimatlar etməklə yerinə yetirdiyiniz bütün işlərlə bağlı fikir mübadiləsi və müzakirə aparın.**

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü məkanə sığmazam. (1)

Ərşlə fərşü kafü nun məndə bulundu cümlə çün,
Kəs sözünü və əbsəm ol, şərhü bəyanə sığmazam. (2)

Kövnü məkandır ayətim, zatidürür bidayətim,
Sən bu nişanla bil məni, bil ki, nişanə sığmazam. (3)

Kimsə gümanü zənn ilə olmadı həqq ilə biliş,
Həqqi bilən bilir ki, mən zənnü gümanə sığmazam. (4)

Gənci-nihan mənəm, mən uş, eyni-əyan mənəm, mən uş,
Gövhəri-kan mənəm, mən uş, bəhrəvü kanə sığmazam. (5)

Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm,
Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam. (6)

Zat iləyəm sifat ilə, qədr iləyəm bərat ilə,
Gülşəkərəm nəbat ilə, bəstə dəhanə sığmazam. (7)

Şəms mənəm, qəmər mənəm, şəhd ilə həm şəkər mənəm,
Ruhi-rəvan bağışlaram, ruhi rəvanə sığmazam. (8)

Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qüreyşiyəm,
Bundan uludur ayətim, ayətü şanə sığmazam. (9)

(1) *İki cahan (maddi və mənəvi) məndə sığmış, mən isə bu dünyaya sığmıram. Məkansız gövhər mənəm, varlığa və məkana sığmazam.*
(2) *Göy və yer, kaf və nun hamısı məndə tapıldı. Sözünü kəs, lal ol, şərh və bəyanə sığmaram. (Kaf və nun "kun" – "var ol" anlamındadır).*
(3) *Varlıq və yer əlamətimdir, başlanğıcım varlığın sahibi olan zat ilə bağlıdır. Sən məni bu nişanla tanı və bil ki, bu nişana sığmaram.*
(4) *Heç kimsə güman və zənn ilə haqqı bilib tanımadı. Haqqı (həqiqəti, mənim həqiqətimi) bilən mənim güman və zənnə sığmayacağımı bilir.*
(5) *Gizli xəzinə mənəm artıq, görünənin gözü mənəm artıq. Mədənin gövhəri mənəm artıq, dənizə və mədənə sığmaram.*
(6) *Zərrə mənəm, günəş mənəm, dörd ilə beş, altı mənəm. (Dörd: torpaq, su, hava, od; beş: beş duyğu; altı: altı tərəf). Anladılan ilə surəti gör, çünki bəyana sığmıram.*



LAYİHƏ

(7) *Sifətlərlə birlikdə zat iləyəm. Bərat gecəsi ilə birlikdə qədr gecəsi iləyəm. Şəkər bitkisi ilə gül mürəbbəsiyəm, qapalı ağıza sığmaram. (Ramazan ayından əvvəlki şaban ayının 15-i gecəsi bərat – günahlardan arınma gecəsi sayılır; ramazan ayının 27-si gecəsi isə Quranın göydən yerə enmə gecəsi olduğundan qədr gecəsi hesab edilir).*

(8) *Günəş mənəm, ay mənəm, bal ilə şəkər mənəm. Axıcı ruh bağışlaram, axıcı ruha sığmaram.*

(9) *Bu gün Nəsimiyəm, haşimiyəm, Qureyş oymağındanam. Əlamətim bundan uludur, əlamətə, şana sığmaram.*

### Evdə iş

1. **Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**
2. **Müəyyənləşdirdiyiniz məcazların növünü dəqiqləşdirin.**

## II dərs • Məzmun üzrə iş

1. **Beytləri açıqlamaları ilə müqayisə edin. Açıqlamalara əlavələr etməklə onları zənginləşdirin.**
2. **Şeirdə ahəng yaradan vasitələri müəyyənləşdirin.**
3. **Misralarda hansı bədii ifadə vasitələri işlənmişdir?**
   – "Məndə sığar iki cahan, mən bu cahana sığmazam";
   – "Şəms mənəm, qəmər mənəm, şəhd ilə həm şəkər mənəm".
4. **İnsanın Allahla, bütün maddi və mənəvi aləmlə bir olması fikri hansı misralarda daha qabarıq ifadə olunub?**
5. **İnsanın ucalığı, ölməzliyi fikri hansı misralarda öz əksini tapıb?**
6. **Sizcə, Nəsimidən söz düşəndə ilk növbədə bu şeirin xatırlanması nə ilə əlaqədardır?**
7. **"Şeir müəllif haqqında bildiklərimə nə əlavə etdi?" mövzusunda təqdimata hazırlaşın.**
8. **Kiçik qruplarda birləşərək fikir mübadiləsi aparın. Gəldiyiniz nəticələri təqdimatlar əsasında müzakirə edin.**

### Evdə iş

**Əsərin məzmunu ilə bağlı fikirlərinizi ikihissəli gündəlikdə yazın, şifahi təqdimata hazırlaşın.**

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

LAYİHƏ

**III dərs • Təhlil üzrə iş | Kiçik qruplar yaradaraq tapşırığı yerinə yetirin**

**1. Mətni oxuyun. Mətnkənarı sualları qruplar arasında bölün. Qrupların sayı çox olarsa, iki qrup bir sualın üzərində işləyə bilər.**
**2. Suallara yığcam cavab yazın. Bədii əsərin məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin.**

| Mətnkənarı suallar | Onlara hazırlanan cavablar |
| --- | --- |
| | |

**3. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra sualların dərslikdəki cavablarını oxuyun və yazdıqlarınızla müqayisə edin.**



**4. Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edin.**
**5. Şeirin ilk iki beytinin ifadəli oxusuna hazırlaşın.**

> Qəzəl hansı mövzuda yazılıb?

"Sığmazam" Nəsiminin dünyagörüşü və yaradıcılığı üçün ən səciyyəvi əsərlərdən biridir. Başqa sözlə, bu şeir müəllifin hürufi görüşlərini parlaq ifadə etdiyi kimi, sənətkarlıq məharəti barədə də aydın təsəvvür yaradır. Deməli, qəzəl şairin təriqət şeirlərindəndir. Araşdırma şeirin mövzusu ilə bağlı geniş fikir söyləməyə, əsaslandırılmış nəticə çıxarmağa imkan verəcəkdir.

> Şeirin ideya-məzmunu üçün önəmli olan fikirlər hansılardır?

Şeirdə hürufiliyin əsas müddəalarından biri – insanın Allahla, eləcə də maddi və mənəvi aləmlə eyni olması fikri əksini tapmışdır. Əsər lirik qəhrəmanın monoloqu təsirini bağışlayır. O, əsas fikrin ifadəçisi yerində çıxış edir. Lirik qəhrəman qətiyyətlidir. Fikirlərinin doğru olduğuna əmindir. Elə buna görə də söylədiklərini hökm şəklində dilə gətirir. Bəyan edir ki, onda iki cahan – maddi və mənəvi aləm sığsa da, özü bu aləmə sığmır. Varlığa və məkana sığmadığının bir səbəbi də məkansız gövhər (bu, Allaha məxsus sifətdir) olmasıdır.

O, mövqeyini çəkinmədən, qorxmadan müdafiə edir. Allaha və bütün yaradılmışlara aid nə varsa, hamısının özündə təcəlli etdiyini bildirir. Onu – insanı şərh etməyə çalışanlara susmaq, lal olmaq barədə xəbərdarlıq edir, çünki heç bir şərhə və bəyana sığmadığını (bu da Allaha məxsusdur) bilir.

O, uludur. Başlanğıcı zatla – varlığın sahibi ilə başlanır, bütün var olanlar onun əlamətidir və bu nişanla tanınır, lakin həmin nişana sığmır...

Qəzəlin üzərində düşündükcə lirik qəhrəmana məxsus digər səciyyəvi xüsusiyyətlər də göz önündə canlanır. Mənbələr üzrə araşdırma isə şeirdəki mətləblərin daha ətraflı başa düşülməsi və qiymətləndirilməsinə, ideya barədə əsaslandırılmış fikir deməyə imkan yaradacaqdır.

> Qəzəldə bədiiliyi təmin edən mühüm vasitələr hansılardır?

Qəzəldə obrazlılığı, bədiiliyi təmin edən vasitələr çoxdur. Səslərin, xüsusən samitlərin təkrarı (alliterasiya), bol-bol işlənmiş təkrir, təzad, eləcə də digər təsvir və ifadə vasitələri şeirin bədii keyfiyyətinin artmasına əhəmiyyətli təsir etmişdir.

Sözlərin məharətlə seçilməsi, misra daxilində bir-biri ilə əlaqələndirilməsi və yerində işlədilməsi, uğurlu qafiyələr... sənətkar ustalığından və zəhmətindən xəbər verir. Qəzəlin üzərində müşahidələrin dərinləşdirilməsi, şairin bədii



LAYİHƏ

sənətkarlığı ilə bağlı mənbələrdən öyrənilənlər bu deyilənlərin əsaslandırılmasına imkan yaradır. Unudulmamalıdır ki, bədii vasitələr bütövlükdə əsərdə güclü ahəngin yaranmasına səbəb olmuşdur. Məhz bu ahəng şeirin əzəmətli, çağırış ruhunda səslənməsini təmin edir. Belə səslənmə isə qəzəlin ideya-məzmununa tam uyğundur.

Qəzəl əruz vəzninin *rəcəz* bəhrindədir. Təmtəraqlı ahəngi ilə fərqlənən bu bəhrin seçilməsi təsadüfi deyildir, o, qəzəlin ideya-məzmununa uyğundur. Bunu aşağıdakı nümunənin oxusunda asanlıqla müşahidə etmək mümkündür.

| müftə ilün | məfA ilün | müftə ilün | məfA ilün |
|---|---|---|---|
| Məndə sığar<br>Gövhəri-la | iki cahan,<br>məkan mənəm, | mən bu caha<br>kövnü məka | nə sığmazam,<br>nə sığmazam. |

**Evdə iş** — **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sual və tapşırıqlara xüsusi diqqət yetirin:**

a) Şairin insanın böyüklüyünə, ucalığına əsər həsr etməsinə səbəb, sizcə, nədir?
b) Əsər hansı mənəvi dəyərlər haqqında daha geniş danışmağa imkan verir?
c) Məcazların obrazlılığın, bədiiliyin artmasındakı rolunu nümunələrlə əsaslandırın.

| Əsərdə işlənmiş məcazlar | Obrazlılığın, bədiiliyin artmasında onların rolunu təsdiq edən nümunələr |
|---|---|
| | |

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
**4. Qəzəlin sonrakı – 3-6-cı beytlərinin ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin.**

**Mənbələr**

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. İ.Nəsimi. Seçilmiş əsərləri. 2 cilddə. I cild, Bakı: Lider nəşriyyat, 2004, səh. 8-10

LAYİHƏ



Şah İsmayıl Xətayi
(1487–1524)

Anadilli ədəbiyyatın inkişafında xüsusi xidmətləri olan Xətayi xalq şeirinə rəğbətlə yanaşaraq qoşma, gəraylı, bayatı janrlarında gözəl sənət nümunələri yaratmışdır. Bir tərəfdən, yazılı ədəbiyyatın, digər tərəfdən, xalq yaradıcılığının zəngin ənənələrindən bəhrələnmək Xətayi irsinə məzmun dərinliyi və forma rəngarəngliyi gətirmişdir.

*Əlyar Səfərli, Xəlil Yusifli*

# Ş.İ.XƏTAYİNİN HƏYATI, YARADICILIQ YOLU

**• Araşdırmaya hazırlaşın**

**I Ş.İ.Xətayinin həyatı, yaradıcılığı və yaşadığı dövrlə bağlı nə bilirsiniz? Ədəbiyyat, tarix, coğrafiya dərslərində qazandığınız bilikləri xatırlayın, yığcam müzakirə aparın.**

BİBÖ cədvəlinin ilk iki sütunlarında müvafiq qeydlər edin.

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

**II Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin.**

**1.** Mətnkənarı suallarla bağlı cavabları oxuyun, məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabları |
|---|---|
| | |

**2. Digər qruplara vermək üçün mətnlə bağlı bir neçə sual müəyyənləşdirin.**

| Müəyyənləşdirilmiş suallar | Onların cavabları |
|---|---|
| | |

**3. Kiçik qruplar yaradaraq icra etdiklərinizlə bağlı fikir mübadiləsi aparın.**

**4. Gəldiyiniz nəticələrlə bağlı təqdimatlar etməklə məlumat mübadiləsi və müzakirə aparın. Müzakirədə aşağıdakı fikirlərə münasibət bildirin.**

– *Sadə, xalq ruhuna yaxın, xalqın təfəkkür tərzindən qidalanaraq vücuda gələn Xətayi şeirləri hələ onun sağlığında Azərbaycan torpaqlarını oymaq-oymaq gəzib dolaşmış, qəlbləri, şüurları fəth etmişdir. Xətayi insan, cəmiyyət, kainat, ali həqiqətlərlə bağlı qənaətlərini çox zaman eşq və gözəllik fəlsəfəsi prizmasından keçirərək oxucuya çatdırır.*

*(Azadə Rüstəmova)*

– *Azərbaycan xalqının yetişdirdiyi görkəmli şəxsiyyətlər işərisində Şah İsmayıl Xətayinin xüsusi yeri vardır.Azərbaycan Səfəvi dövlətinin yaradıcısı kimi böyük şöhrət tapan Şah İsmayılın siyasi fəaliyyəti, mədəniyyətin inkişaf etdirilməsi sahəsindəki xidmətləri onun ədəbi yaradıcılığı ilə sıx surətdə bağlı olmuşdur.*

*( Əzizağa Məmmədov)*

**5. BİBÖ cədvəlinin "Öyrəndik" sütununda müvafiq qeydlər edin.**

Uzun illər Ərdəbil hakimi olmuş Şeyx Heydərin ailəsində dünyaya göz açan Xətayinin ulu babası Şeyx Səfiəddin (Səfəvilər sülaləsi onun adı ilə bağlıdır) dövrünün tanınmış şəxslərindən idi. O həm hakim, həm də təriqət başçısı kimi böyük nüfuz sahibi

Xətayinin dövrü hansı ictimai-siyasi durumu ilə fərqlənir? Şairin həyatı və yaradıcılığı üçün daha önəmli olanlar nədir?



LAYİHƏ

olmuşdur. Xətayinin anası Aləmşahbəyim isə Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı idi. Şeyx Heydər hakimiyyət uğrunda döyüşlərdə öldürüldükdən sonra övladları Ağqoyunlu hökmdarları tərəfindən təqib edilmiş, hətta bir müddət həbsdə saxlanılmışlar. İsmayıl çox tez – on üç yaşında hakimiyyət uğrunda mübarizəyə başlamışdır. Əvvəlcə Ərdəbilə yürüş edən İsmayıl sonralar da ciddi qələbələr qazanmış, 1501-ci ildə Təbrizə daxil olmuşdur. Özünü şah elan edən İsmayıl 1503-cü ildə Ağqoyunlu hökmdarı Sultan Muradı məğlub edir. Bununla da Ağqoyunlu hakimiyyətinin sonu çatır. Yeni yaranmış Səfəvilər dövlətinin ərazisi Şah İsmayıl Xətayinin uğurlu siyasəti və hərbi yürüşləri sayəsində xeyli genişlənir.

1514-cü ildə Osmanlı sultanı Səlim Yavuzla Çaldıran düzündə şiddətli döyüşdə məğlub olan Xətayi müharibələrdən əl çəkir, ölkənin daxili işləri ilə məşğul olur.

O, 1524-cü ildə 37 yaşı olarkən dünyasını dəyişmişdir.

Bu fateh şah vaxtının çoxunu dövlət işlərinə həsr etsə də, bədii yaradıcılığa həmişə diqqət yetirmiş, heca vəznində qoşma, gəraylı, bayatı, əruz vəznində qəzəl, qəsidə, rübai və s. janrlarda gözəl əsərlər yaratmışdır. Elm aləminə ana dilində yaratdığı "Divan"ı, "Nəsihətnamə" və "Dəhnamə" adlı məsnəviləri məlumdur.

> Xətayinin lirik şeirləri hansı xüsusiyyətləri ilə diqqəti daha çox cəlb edir?

Ana dilində – doğma türkcəmizdə yazmağa üstünlük verən Xətayinin lirik şeirləri müxtəlif mövzulardadır. Şeirlərinin böyük bir qismi *səfəvi – qızılbaş* görüşlərinin təbliğinə həsr olunub. Birliyə və əqidə yolunda sadiq olmağa çağırış bu əsərlərdə önəmli yer tutur. Həmin əsərlərdə ifadə olunan fikirlər bir çox hallarda şairin sufi görüşləri ilə qovuşur.

Xətayinin lirikasında *sufi* görüşlərini ifadə edən şeirlər də az deyildir. Belə şeirlərdə dərin humanizm, insana böyük məhəbbət və yüksək dəyər öz əksini tapmışdır. Şairə görə, insanın mənəvi aləmi saf, əqidəsi möhkəm olmalıdır. Sufi məhz bu yolu tutmalıdır:

Sufi isən, alıb-satma,
Halalına haram qatma,
Yolun əyrisinə getmə,
Doğru yola nəzər eylə.

*Məhəbbətin* tərənnümünə həsr olunan şeirlər onun yaradıcılığında mühüm yer tutur. Şairin fikrincə, həqiqi məhəbbət insanı kamilləşdirir, nəcib, xeyirxah və saf əxlaq sahibi edir. Elə buna görə də saf, ülvi eşq Allahın lütf etdiyi qiymətli nemət kimi dəyərləndirilməlidir. Məhəbbətə biganə olan haqqı da unudar.

Bu qəbildən şeirlərdə lirik qəhrəman son dərəcə səmimidir, sevgilisinin cövr-cəfasını lütf etdiyi ehsan kimi qəbul edir:

Ey könül, hicran qəmindən çox şikayət qılma kim,
Aşiqə cövrü cəfası lütf ilə ehsanıdır.

Xətayinin *təbiətə* həsr olunmuş şeirləri orijinallığı ilə seçilir, müəllifin incə zövq sahibi olduğunu təsdiq edir. Belə şeirlərdə daha çox baharın gəlişi öz əksini tapır. İlk yaz günlərində təbiətdə baş verən canlanma, bahar yağışının cahana bəxş etdiyi təzəlik və təravət, insanda sevinc və fərəh hissinin baş qaldırması bu əsərlərdə elə ustalıqla təsvir edilir ki, oxucu hədsiz zövq alır, təəssüratını bölüşmək istəyir:

Bahar oldu ki, aləm gülşən oldu,
Gözün aç, gör cahan nə rövşən oldu.



LAYİHƏ

Bəzəndi hər bir ağac bir gül ilə,
Ağaclar cümlə gülpirahən oldu.
Açıldı yazilər, bitdi çiçəklər,
Gül ilə şol bənəfşə, süsən oldu.

Şairin irihəcmli *"Nəsihətnamə"* məsnəvisində sufi-qızılbaş ideyalarının təbliğinə geniş yer verilmişdir. Sufi görüşlərindən çıxış edən şairə görə, kainatda olanların hamısını Allah yaratmış və bunlar ona məxsusdur. Bütün varlıqlar ondan qopub ayrılan zərrələrdir. Bu zərrələr Allaha o halda qovuşa bilər ki, ən yüksək ali məqama– eşqə çatmış olsun.

"Nəsihətnamə"də şairi daha çox düşündürən məsələlər hansılardır?

Əsərdə dünyagörmüş, zəngin həyat təcrübəsi olan el ağsaqqalının, humanist bir hökmdarın müdrik nəsihətləri eşidilir. İnsanlara, xüsusən gənclərə Allahı sevməyi, yaşlılara hörmət etməyi, könül yıxmamağı, xalqına sədaqətli olmağı tövsiyə edir.

Şifahi xalq ədəbiyyatından gen-bol bəhrələnən Xətayinin yaradıcılığı anadilli ədəbiyyatımızın inkişafına əhəmiyyətli təsir göstərmişdir.

**Evdə iş** **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualın cavabını da əhatə etməyə çalışın.**
   – Şairin sufi görüşləri yaradıcılığında öz əksini necə tapmışdır?
3. **Yazılı qeydlər əsasında təqdimata hazırlaşın.**
4. **Mövzulardan birini seçib məruzəyə hazırlaşın.**
   a) Xətayi və ana dilimiz.
   b) Ş.İ.Xətayinin yaradıcılığında kamil insan problemi.

**Mənbələr**

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat. ucoz.com.
2. Ş.İ.Xətayi. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh. 5-6, 12-13, 18-20.



LAYİHƏ

## DƏHNAMƏ
(ixtisarla)

### I dərs • Məzmun üzrə iş | Oxuya hazırlaşın

**Sualın üzərində düşünün, cavablarınızı cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**
– Qarşılaşdığı bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq öz sevgisinə sadiq qalan hansı ədəbi qəhrəmanları tanıyırsınız?

| Ədəbi qəhrəmanların adı | Onlarda dəyərləndirdiyim cəhətlər |
|---|---|
| | |

**Aşağıdakı tapşırıqları fərdi olaraq yerinə yetirin:**
**1. Əsərdən verilmiş hissəni oxuyun.**
**2. Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**3. Daha maraqlı hesab etdiyiniz məcazları seçin, onların növünü müəyyənləşdirin.**

| Əsərdən seçilmiş məcazlar | Onların növü |
|---|---|
| | |

**4. Oxuduğunuz hissədə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.**

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**5. Suallara cavab hazırlayın:**
– Baharın gəlişi ilə təbiətdə, quşlar aləmində hansı dəyişikliklər baş verir?
– Gənc oğlanın sevənlərə münasibəti necədir?
– Bu gəncin aşiq olmasına səbəb nə olur?
– Aşiq sevdiyi qızı necə təsvir edir?
– Birinci məktubu aparan Səbanı Məşuqə və onun yaşadığı məkan nə üçün təəccübləndirir?
– Məktubda nə yazılmışdı, onun məzmununu Bağban Məşuqəyə necə danışır?
– Məşuqə Səbanı necə qarşılayır, onu hansı sözlərlə yola salır?
– İkinci məktubu aparan Səba Məşuqənin onunla rəftarı barədə Aşiqə nəyi çatdırır?
**6. Kiçik qruplarda birləşərək fikirlərinizi dəqiqləşdirin və ümumiləşdirin. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.
Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü.
Yer geydi qəbayi-xizrpuşan,
Cümlə dilə gəldi ləbxamuşan.

Sərvin yenə dutdu damənin su,
Su üstə oxudu faxtə gu-gu.
Qönçə dəhəni çəməndə xəndan,
Gülməkdən ənar açıldı dəndan.
Bülbül oxudu sifati-hicran,
Dəryadə dür oldu əbri-neysan...

*Aşiqin əhvalı*

Aləm qamusu bu dəmdə xoşhal,
Mən öz işimdə fariğül-bal.
Gəh yerir idim çü ahu dağda
Gəh axar idim çü cuy bağda.
Gəh könlüm ilən çəməndə xürrəm,
Gəh həmdəm ilən gəzəndə biğəm.
Məşuq ilə eşqi tanımazdım,
Heç kimə könül verim deməzdim.

Göründü gözümə bir pəriru,
Xoş ləhcəvü xubcəmalü xoşru.
Çün seyr ilə gəldi mana yetdi,
Canü könül aldı beylə getdi...
Qaşları kəmanü kiprigi ox,
Aləm gözü qatda nərgisi-şux.
Oldum bemasəl divanə bidar,
Nə məstü nə aqiləm, nə hüşyar.



LAYİHƏ

Öz pişəmə, öz işimə qane,
Heç kim yox idi kim, ola mane.
Kim desə mənə ki, aşiq oldum,
Rüsvayi-dili-xəlayiq oldum,
– Əbləh, – deyübən gülərdim ana,
Hər tənə ki var, qılardım ana...
Bir gün çəmən içrə seyr edirdim,
Pərvanə misali teyr edirdim.
Bir sayeyi-sərvi-nazə yetdim,
Bir ləhzə orada xabə getdim...
Ruhaniyə ruh qıldı seyran,
Gəl gör ki, mana nə qıldı dövran?
Bilmən özümi ki, xandəyəm mən,
Ya mürdəmi, yoxsa zindəyəm mən.
Uzun gecələr səhər görünməz,
Zülmətdə mana qəmər görünməz.
Bu yola, ilahi, yoxmu payan?
Bu dərdə, ilahi, yoxmu dərman?
Biçarəvü zarü natəvanəm,
Mən taqəti-ğəm nəmitəvanəm.
Yar zülfi təki günüm qarardı,
Yar ağzı kimi yerim darardı...
Bilmən necədir kəminə halım,
Artır dinü gün ğəmü məlalım...

*Birinci məktub. Səbanın Məşuqun yanına getməsi*

Gəldi və əlimdən aldı məktub,
Əzm etdi, yeridi suyi-məhbub.
Gəh dağ üzə əsdi, gahi daşda,
Gəh xüşk üzə əsdi, gahi yaşda.
Sürdü qatı atın ol vəfadar,
Ol bağə irişdi qandadır yar.
Gördü ki, bir adlı şah imiş ol,
Nə yerdə, fələkdə mah imiş ol.
Gülşəndə bülənd otağü eyvan,
Səncərlə səlatin ana divan.
Qarşudadurur mələk yasavul,
Hər kimi görür, edir ki, savul.
Dutmuş yüzü birlə nur bağı,
Eyvani-fələkdədir otağı...
Çün gördü anı Səbayi-miskin,
Çəkdi cilovunu, oldu ğəmgin .
Kim, bu pəridir cəhanda məşhur,
Xudbinü cəmalü hüsnə məğrur.
Necə varım imdi həzrətinə,
Ta irişə ərzə xidmətinə?
Durmuşdu Səba qılıb təfəkkür,
Barmağını dişlib əz təhəyyür.
Oturdu Səbavü ol yeridi,
Söz deməgə fürsət istər idi.
Qulluğa irişdi, durdu bir dəm
Könlüni aradı, gördü xürrəm.
Xəndan çəmən içrə tazə gül tək,
Boynu sürahi, dodağı mül tək.
Aydır ki, deyim sözü, məhəldir,
Könlü fərəhü dəmi gözəldir.
Bir qatla özünə eylədi fərz,
Bəs qıldı nigarə sözləri ərz.
Aydır ki, əya dəm afitabi,
Bir söz desəm, eyləmə itabi.
Bir qasidi-xəstə hali gördüm.
Yox gəlməgə heç məcali gördüm.
Gəlməz yavuğa, həzər qılur ol,
Kim əhli-səfər, zəbun fərəssən.
Nagah önünə çü gəldi bir pir,
Xoş şəklü şəmayil, özü dilgir.
Yanına gəlib Səba rəvani,
Söylədi ana sözün nihani.
Sordu ana kim, Səbamısan sən?
Eşq əhlinə aşinamısan sən?
Kim, aşiqi-xəstədən gəlirsən,
Halından anın xəbər bilirsən.
Aydır ki, bəli, Səba mənəm der,
Sözüm yetürüm, xanı Sənəm der...
Aydır ki, mənəm ol, ey xoş avaz,
Ölmüşlər için Məsihi-dəmsaz.
Mən dəxi nigarə bağbanəm,
Aşiqlərə yarü mehribanəm.
Mən demişidim, sana ki, gəlsin,
Məşuqə nə der, sözünü bilsin.
Oldur oturur otağ içində,
Sən bir dəm otur bu bağ içində.
Mən varayım ol nigar qatına,
Ol dilbəri-gülüzar qatına,
Könlün görəyim neçükdür anın.
Sözün deməgə o natəvanın.
Qıldım aluban nəzər be məktub,
Gördüm yazılu kəlam be məhbub.
Yazılmış, əya əmiri-xuban,
Dərd ilə ölürmən, eylə dərman.
Oldu ğəm ilən belim xəmidə,
Rəhm eylə mənə e nuri-didə.
Ol dəm ki, mən ol cəmali gördüm,
Özümdən özümni xali gördüm.
Biəqlü kəlamü huş boldum,
Yüz dərdi bəlayə tuş boldum.
Çox oldu könüldə fikri-fasid,
Qıldım bu yola Səbanı qasid.
Öz halımı ərzü faş qıldım,
Yaşımla bitikni yaş qıldım.



LAYİHƏ

Dərgah saru nəzər qılur ol.
Vardım yanına, dedim nə kəssən?
Bu vəch ilə halım etdim elam,
Şəhlərdən olur gədayə ənam.

*Məşuqənin sözü eşidib bağbanı və Səbanı danlaması*

Eşitdi bu sözü çün pəriru,
Aydır: – Nə söz idi söylədin bu?..
Sən bilməmisən ki, mən nə şahəm,
Huri həşəmü mələk süpahəm.
Sən bilməmisən ki, mən nə şuxəm,
Kirpigi, qaşı yay ilə oxəm,
Ol bilməz isə də sən bilürsən,
Bu həsrəti bəs nədən qılursan?
Vargil degil ol rəsulə gəlsün,
Ol sözləri naqəbulə gəlsün,
Kimdir görəyim gəlür buradən,
Vaqif olayım bu macəradən...
Allaha Səba qılıb təvəkkül,
Yeridi rəvani bitəəllül.
Görsətdi səlamü izzü ikram,
İstərdi kəlamın edə elam.
Öpdü ədəb ilə asitani,
Ol sərvi-səhi çü gördü ani,
Sordu: – Nə gərək, e hərzə-mərzə,
Kim dedi sana ki, gəl bu mərzə?..
Yırtdı əlidən alıb kitabın,
Saydı yüzinə üyubi babın.
Eybini varın şümar qıldı,
Gül yüzlü Səbanı xar qıldı.

*İkinci məktub. Səbanın Məşuqənin sözləri ilə aşiqin yanına gəlməsi*

Qayıtdı Səba zi dərgəhi-şah,
Ğəmnakü məlul düşdü bər rah...
Deri kim, necə varım ol fəqirə,
Biçarəvü xəstədil həqirə?
Dəxi nə yüz ilə varım anda,
Ümmid ilə qasid etdi munda.
Ya anda neçük verim cəvabi?
Göndərdi itab ilən xitabi...
Çün yetdi, dedim ki, nikuxah,
Halın necədir zi zəhməti-rah.
Həm söylə nigar sağ, əsənmi?
Ol fitnəli yar sağ, əsənmi?
Der: – Sağdır, əsəndir ol pəriru,
Səndən vəli eyləmiş bəri ru.
Əhvalın ana ərzə qıldum,
Ərzinə yetürməgini bildim.
Xişm etdi haman dəm əz səri-naz,
Çox ərbədə naz qıldı ağaz.
Yırtdı aluban yazan kitabi,
Biş etdi itab ilən xitabi.
Qıldı məni-xəstəni məlamət,
Başuma qopardı yüz qiyamət...
Der: – Kimdürür ol xəsisü kəmtər,
Ögdi özünü qılıb mükərrər.
Dil munu eşitdi, narə düşdü,
Fəryadü fəğanü zarə düşdü.
Yaş etdi ümid evini parə,
Sögdüm yenə bəxti-nabəkarə...

## Evdə iş

**1. Poemadan müstəqil oxuduğunuz aşağıdakı parçaları təkrar nəzərdən keçirin:**

- *“Aşiqin Səbadan üzr istəməsi”;*
- *“Üçüncü məktub. Səbanın Məşuqənin yanına getməsi”;*
- *“Səbanın tək Məşuqənin görüşünə getməsi”;*
- *“Altıncı məktub. Məktubun Ahın yoldaşlığı ilə Məşuqənin yanına getməsi”;*
- *“Bağbanın məktubun yanına gəlməsi və onu Məşuqənin xidmətinə aparması”.*



LAYİHƏ

**2. Hər parçadakı əsas fikirləri ümumiləşdirib bir neçə cümlə ilə yazmağa çalışın.**

| № | Oxunmuş parçalar | Onlardakı əsas fikirlər |
|---|---|---|
| 1 | | |
| 2 | | |

**3.Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**

**4. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduqlarını əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**5. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**

| Maraqlı hesab etdiyim məcazlar və onların növü | Bu məcazları maraqlı hesab etməyimə səbəb nədir? |
|---|---|
| | |

**6. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## II dərs • Məzmun üzrə iş

1. **Kiçik qruplarda birləşərək evdə oxuduğunuz parçalardakı əsas fikir, tanış olmayan söz və məcazlarla bağlı qənaətlərinizi müzakirə edin.**
2. **Gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**
3. **Müzakirədə aşağıdakı sualları əhatə etməyə çalışın:**
   – Aşiq Səbaya minnətdarlığını necə bildirir?
   – O, Səbadan yeni nə xahiş edir?
   – Üçüncü məktubla gələn Səbanı Bağban hansı sözlərlə qarşılayır?
   – Məşuqənin yanına tək getməli olan Səbanın taleyi necə olur?
   – Bağban altıncı məktubu necə qarşılayır?
   – Məşuqə bağbanla birlikdə gələn məktuba narazılığını necə bildirir?

4. **Oxuduğunuz hissədən seçdiyiniz parçanın məzmununu hazırladığınız plan əsasında iki formada – geniş və yaradıcı nağıl etməyə hazırlaşın.**
5. **İlkin təəssüratınıza əsasən poemadakı obrazlardan birinin xarakter və əməllərindəki başlıca cəhətləri müəyyənləşdirin.**
6. **Poema ilə bağlı hiss və düşüncələrinizi ikihissəli gündəlikdə yazın.**

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

### Evdə iş

1. **Müstəqil oxuduğunuz poemadan aşağıdakı parçaları təkrar nəzərdən keçirin:** *“Yeddinci məktub. Göz yaşının Məşuqun yanına getməsi”, “Bağbanın göz yaşının yanına gəlməsi. Ümidsizlik xəbəri”, “Səkkizinci məktub. Göz yaşının ikinci dəfə Məşuqənin yanına getməsi”, “Onuncu məktub. Səbanın hədiyyə ilə bağlı Məşuqənin yanına getməsi”, “Aşiqin Məşuqənin vəslinə diqqət yetirməsi”, “Məşuqənin Aşiqin dözümünü öyməsi. Ayrılıq”, “Kitabın bitməsi və yazılmasının səbəbi barədə şeir”.*
2. **Hər parçada ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**
3. **Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
4. **Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**
5. **Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
6. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**



LAYİHƏ

**II dərs • Təhlil üzrə iş | Kiçik qruplar yaradaraq tapşırığı yerinə yetirin**

1. **Mətnkənarı sualları qrupların arasında bölün.** Qruplarin sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər.
2. **Suallara yığcam cavab yazın.** Poemanın məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin.
3. **İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra mətnkənarı sualların dərslikdəki cavablarını oxuyun və yazdıqlarınzla müqayisə edin.**
4. **Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.**

> Poema hansı mövzuda yazılıb? Şairin bu mövzuya müraciət etməsinə səbəb nədir?

Xətayi bu ən irihəcmli poemasını tamamlayanda 19 yaşı var idi. Lakin "Dəhnamə" (on məktub deməkdir) maraqlı məzmunu və yüksək bədii keyfiyyəti ilə bu mövzuda yazılan digər əsərlərdən xeyli fərqlənir. Əsərin elə ilk səhifələrindən onun hansı mövzuda yazıldığını müəyyənləşdirmək mümkündür. Mənbələr üzrə araşdırma əsərin mövzusunu dəqiq müəyyənləşdirməyə, müəllifin bu mövzuya müraciət etməsinin səbəblərini aydınlaşdırmağa və bütün bunlara əsaslandırılmış münasibət bildirməyə imkan verəcəkdir.

> Əsərdə təsvir edilən eşq hansı əlamətləri ilə seçilir?

Xətayinin şeirlərində sufi, eləcə də hürufi görüşlərinin əks olunduğu məlumdur. Bu, onun lirikasında fərqli eşqin, məhəbbətin ifadəsinə rəvac vermişdir. "Dəhnamədə" də tərənnüm olunan eşqi birmənalı qiymətləndirmək mümkün deyildir. Öncə xatırlanmalıdır ki, əsərdə təsvir olunan sevgili – Məşuqə pəridir. Lakin şair onu əsər boyu adi insan kimi təqdim edir. Oxucu isə onu mifik obraz kimi yox, gerçək insan kimi qavrayır. Ona xidmət edənlərin əksəriyyəti pəri, qılman və hurilərdir. Bu, təsvir olunan eşqə əsatiri rəng qatır. Əsərdəki bir sıra təsvirlər eşqə fərqli baxımdan yanaşıldığını təsdiq edir. Bu, bütövlükdə maraqlı araşdırma obyektidir.

> Poemadakı obrazlar hansı fərdi xüsusiyyətləri ilə diqqəti çəkir? Onları bir-birindən fərqləndirən başlıca cəhətlər hansılardır?

Poemada insan obrazları ilə yanaşı, rəmzi obrazlar da – *Səba, Huş, Ah, Göz yaşı* yaradılmışdır. İnsan obrazlarından diqqəti daha çox çəkən *Aşiqdir.* Əsərin qəhrəmanının – gənc oğlanın nə qədər ki eşq haqqında təsəvvürü yoxdur, o, rahat, sakit ömür sürür və gündəlik işi ilə məşğul olur. Yuxuda gördüyü qıza aşiq olan bu gəncin həyatı birdən-birə büsbütün dəyişir. İndi o, eşqin əzab-əziyyətindən şikayətlənir, gecə və gündüz ah-nalə edir.

Yar zülfü təki günüm qarardı,
Yar ağzı kimi yerim darardı.
Qanlar yuduram yüzindən ayru,
Bimar tənəm gözündən ayru.

Poemada Aşiqin mənəvi aləminin, hiss və düşüncələrinin təsvirinə geniş yer verilmişdir. Oxunmuş parçaların bir daha diqqətlə nəzərdən keçirilməsi, mənbələrdəki fikirlərin öyrənilib müqayisə edilməsi Aşiq obrazının ətraflı səciyyələndirilməsinə imkan yaradır.

Əsəri mütaliə etdikcə *Məşuqə* obrazının xarakteri, başqalarına münasibəti barədə aydın təsəvvür yaranır. Şair onun zahiri gözəlliyinin təsvirinə daha çox diqqət yetirmiş, qüsursuz olduğunu bədii dilin imkanlarından məharətlə istifadə edərək diqqətə çatdırmışdır.



LAYİHƏ

Gül yüzi qızarmış infialdan,
Bənövşə yerə baxır məlaldan.
Nərgislər önündə cam dutmuş,
Bülbüllər oxur, nizam dutmuş.

Poemadakı *bağban* obrazı xeyirxahlığı ilə diqqəti cəlb edir, oxucunu düşündürür və yadda qalır.

Rəmzi obrazlar – Səba, Huş, Ah və Göz yaşı elçi – qasid vəzifəsini yerinə yetirir. Aşiqə yardımçı olmaları, xeyirxah əməlləri onları birləşdirsə də, fərqli xüsusiyyətləri də vardır. Bütün bunların ətraflı aydınlaşdırılmasına, əhatəli müqayisələrin aparılmasına mənbələrin öyrənilməsi əhəmiyyətli təsir göstərəcəkdir.

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) Poema hansı xüsusiyyətlərinə görə ədəbiyyatımızda dəyərli sənət nümunəsi sayılır?
   b) Əsərdə sənətkar saf sevgi ilə bağlı hansı fikirlərini çatdırmışdır?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. Ş.İ.Xətayi. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh. 22-25.

## IV dərs • Təhlil üzrə iş | Aşağıdakı qaydalara əməl etməklə mətni oxuyun

1) Bir nəfər ilk mətnkənarı sualın cavabını – dərslikdəki mətni ucadan oxuyur.
2) Mətndəki fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
3) Sonra şagirdlərə mətnlə bağlı suallar verir.
4) Suallar əsasında aparılan müzakirədə izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirilir.
5) Sonda mətnə hansı məzmunda əlavələrin edilməsinin vacib olması barədə nəticə çıxarılır və bəndlərlə yazılır.
6) Digər mətnkənarı sualla bağlı cavabların – mətnin oxusu da bu qayda ilə həyata keçirilir.

**İşin yekunlaşdırılması və nəticənin çıxarılması üzrə təqdimatlar dinlənilir və müzakirə edilir.**

> Poemanın bədii dəyərini artıran vasitələr hansılardır?

Çağdaş oxucu poemadakı bir çox məqamları bütövlüklə və tam aydınlığı ilə başa düşməkdə çətinlik çəkir. Yarandığı dövrdə ən anlaşıqlı əsər kimi dəyərləndirilən “Dəhnamə”nin bu gün belə təsir bağışlaması təbiidir. Unudulmamalıdır ki, onun yazılmasından bizi beş yüz ildən də artıq bir müddət ayırır. Poemadakı bir çox sözlərin indi işlənməməsi – arxaikləşməsi, təriqət rəmzlərinə, anlayışlarına əsərdə xeyli yer

LAYİHƏ

verilməsi, o dövrün poetik düşüncəsinin özünəməxsusluğu və s. çağdaş gənc oxucuya müəyyən çətinliklər yaradır. Bütün bunlara baxmayaraq, əsərin bədii gözəlliyini, dilinin şirinliyini, müəllifin incə zövqünü hər bir oxucu duya bilir. Alınma sözlər milli sözlərimizlə elə ustalıqla uzlaşdırılıb işlədilmişdir ki, poema şeiriyyət, bədii keyfiyyət baxımından gözəl sənət nümunəsinə çevrilmişdir.

Əsərdə diqqəti daha çox cəlb edən cəhət fikrin obrazlı ifadəsidir. Bu, əsasən, söz və ifadələrin uğurlu seçilməsi, ustalıqla əlaqələndirilməsi, cəlbedici məcazların bol-bol işlənməsi sayəsində mümkün olmuşdur. Məsələn, şair "səhər açıldı" fikrini belə çatdırır: *Xavər şahı yaxə çak qıldı, Göylər təbəqini pak qıldı.*

Yaxud "Günəş doğdu" fikri belə ifadə edilir: *Göy qübbəsindən asıldı qəndil, Yüzündən alıb niqabı məndil.*

Kiçik parçada, hətta bir beytdə bir neçə məcazın olması fikrin təsir gücünü qat-qat artırır, yüksək obrazlılığı təmin edir. Aşağıdakı nümunədə olduğu kimi:

Xəndan çəmən içrə tazə gül tək,
Boyu sürahı, dodağı mül tək...

Obrazların həyəcanı, tərəddüdləri elə ustalıqla təsvir edilmişdir ki, bu təbiiliyə oxucu heyrət etməyə bilmir. Budur, birinci məktubu aparan Səba Məşuqənin qeyri-adi gözəlliyini və təmtəraqlı məkanını görüb əndişəyə düşür:

Çün gördü onu Səbayi-miskin,
Çəkdi cilovunu oldu ğəmgin.
Kim, bu pəridir cahanda məşhur,
Xudbin və cəmalü hüsnə məğrur,
Necə varım indi həzrətinə,
Ta irişə ərzə xidmətinə...

Bu təbii, səmimi ifadə tərzi bütün poema boyu davam edir.

Əsərin süjet xətti və kompozisiyasındakı özəlliyin aydınlaşdırılması onun bədii gözəlliyi barədəki təsəvvürü xeyli zənginləşdirir.

Poemanın əruz vəzninin *həzəc* bəhrində yazılması da onun rəvan oxunmasına az təsir etmir.

| məf Ulü | məfA ilün | fə Ulün |
|---|---|---|
| Çün gördü<br>Çəkdi ci | onu Səba<br>lovunu ol | yi-miskin<br>du ğəmgin. |

> Poemanın ideyasının əsasında hansı fikirlər dayanır?

Poema ideyaca çox zəngindir. Yəni səbir və iradə sayəsində məqsədə çatmağın mümkünlüyü əsərdə qabarıq ifadə edilsə də, ideyanın izahında yalnız bu fikirlə məhdudlaşmaq mümkün deyildir. Onun dolğun izahı mənbələr əsasında araşdırmanın aparılmasını tələb edir.

• Tətbiq • Müzakirə • Yaradıcı iş |

**Aşağıdakı mövzulardan birini seçib işləyin:**

a) "Dəhnamə" poemasındakı Aşiq və Məşuqə obrazlarının təhlili" mövzusunda inşa.
b) "Xətayinin lirikasında məhəbbət" mövzusunda esse.



LAYİHƏ

## Evdə iş | Araşdırmanı davam etdirin

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Yazı işlərinizi təkmilləşdirib şifahi təqdimata hazırlaşın.**

## Mənbələr


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. Ş.İ.Xətayi. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh. 22-25.


## Qiymətləndirmə materialı

### HƏBİBİ

**Mənim...**

Müstədam olğıl həmişə, ey gözəl xanım mənim,
Gözləri  nərgiz, yüzü gül, zülfi reyhanım mənim.

Gün yüzün gördükcə, vallahi, bu könlüm şad olur,
Həq səni var eyləsün, dövlətli sultanım mənim.

Sən fərağət, şadü xürrəm, mən qılıram nalələr
Xoşmidir, dilbər, sana bu ahü əfğanım mənim?

Həsrətindən xəstə oldum, dərdimi bilməz təbib,
Dilbəra, vəslindədir, var istə dərmanım mənim.

Ey Həbibim, iştə qori mədhini təkrar edəm,
Bülbüli-şuridənəm, sənsən gülistanım mənim.



LAYİHƏ



Füzuli hələ sağ ikən əsərləri təkcə öz vətənində deyil, bütün Şərqdə şöhrətlənmişdir. Dahi sənətkarın hər yeni yazdığı qəzəl əldən-ələ gəzir, karvanlarla uzaq ölkələrə sovqat göndərilirdi. Mətbuatın, radionun mövcud olmadığı... bir dövrdə bu sənət inciləri ecazkar bir sürətlə ölkələrə yayılıb müəllifi şöhrətləndirirdi.

*Həmid Araslı*

**Məhəmməd Füzuli**
**(1494–1556)**

## M.FÜZULİNİN HƏYATI, YARADICILIQ YOLU

• **Araşdırmaya hazırlaşın** | **Məhəmməd Füzuli haqqında bildiklərinizi yada salıb yığcam müzakirə edin.**

**Aşağıdakı qaydalara əməl etməklə mətni oxuyun.**

1. **Mətni fərdi olaraq bütövlükdə nəzərdən keçirin.** Fərqləndirilmiş ifadələrə, cümlələrə xüsusi diqqət yetirin.
2. **Mətnkənarı sualların cavablarında daha mühüm hesab etdiklərinizi qısaca qeyd edin.**
3. **Suallarla bağlı öyrəndiklərinizi mətnə baxmadan parta yoldaşınıza danışın.**

Unutduqlarınızı yada salmaq üçün danışdığınız məqamda mətnə baxa bilərsiniz.

4. **Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün.**
5. **Gəldiyiniz nəticələrə və öyrəndiklərinzə daha nələri əlavə etməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.**

Füzulinin həyatı və yaradıcılığında nələr daha önəmli hesab edilə bilər?

Məhəmməd Süleyman oğlu Bağdad yaxınlığındakı Kərbəlada dünyaya göz açmışdır. Qaynaqlarda onun mükəmməl təhsil alması, dövrün elmlərini dərindən öyrənməsi barədə məlumat verilmişdir. Şairin "mövlana" adlandırılması da bununla bağlıdır.

*O, yaradıcılığa erkən yaşlarında başlamış, özünə "Füzuli" təxəllüsünü seçmişdir. Füzuli yalnız şairliklə məşğul olmamış, dini ocaqlarda xidmət etmişdir.* Bu işinə görə aldığı maaşla sadə, qənaətcil həyat yaşamışdır. İstər Səfəvi dövləti, istərsə də Osmanlı hökmdarları tərəfindən yaxşı tanınan və yüksək dəyərləndirilən şair saraylara üz tutmamış, sadə ömür sürməyə üstünlük vermişdir. O dövrün mühüm mənbələrindən sayılan təzkirələrdə şairin həyatı haqqında ətraflı məlumat əks olunmamışdır. Onu şəxsən tanıyan, onunla həmsöhbət olan Əhdi Bağdadi "Gülşəni-şüəra" adlı təzkirəsində Füzulini bilik və mərifətdə kamil, dərinmənalı, yeni məzmunlu fikir söyləməkdə misilsiz bir sənətkar kimi təqdim etmişdir. Təzkirəçi, həmçinin Füzulinin xoşxasiyyət, şirinsöhbət bir insan, böyük hörmət sahibi və alim kimi tanındığını da qeyd etmişdir.

Şairin yeganə övladı Fəzli dərin elmi biliyi ilə seçilən ziyalı olmuşdur. Onun zərif şeirlər yazması barədə mənbələrdə məlumat vardır.

Doğulub-yaşadığı İraqdan heç vaxt ayrılmayan Füzuli 1556-cı ildə Kərbəlada vəfat etmiş və İmam Hüseyn məqbərəsinin astanasında dəfn edilmişdir.

Şairdən bizə qalan zəngin bədii irs aşağıdakılardan ibarətdir: *Azərbaycan türkcəsində divan, fars dilində divan, ana dilində, farsca və ərəbcə yazılmış qəsidələrdən ibarət divan – qəsidələr divanı. Azərbaycan dilində yazılmış poemalar: "Leyli və Məcnun", "Bəngü badə", "Söhbətül-əsmar". Fars dilində poema:*



LAYİHƏ

*"Həft cam". Azərbaycan türkcəsində nəsr əsərləri: "Hədiqətüs-süəda", nəsrlə məktublar. Fars dilində nəsr əsərləri: "Rindü Zahid", "Səhhət və Mərəz". Ərəb dilində elmi-fəlsəfi əsər: "Mətləül-etiqad". Fars dilindən tərcümə: "Hədisi-ərbəin".*

> Füzulinin daha çox lirik şair kimi məşhur olmasına səbəb nədir?

*Daha çox lirik şair kimi tanınan və sevilən Füzuli klassik şeirin qəzəl, qəsidə, mürəbbe, müxəmməs, müsəddəs, təxmis, qitə, rübai və s. janrlarına müraciət etmiş və hər birində böyük uğur qazanmışdır.* Kiçik həcmli lirik şeirlərində şair misilsiz sənətkarlıq nümayiş etdirmişdir. Lirik qəhrəmanın hisslərini, həyəcanını, bütövlükdə mənəvi aləmini təkrarolunmaz incəliklə, orijinal söz və ifadələrlə əks etdirmişdir. Onun "qəlb şairi" adlandırılması təsadüfi deyildir.

Şairin yaradıcılığında mühüm yer tutan *qəzəllər* müxtəlif mövzularda qələmə alınıb. Bunların sırasında məhəbbət mövzusunda yazılanlar, gözəlin və gözəlliyin tərənnümünə həsr edilənlər, dini və ictimai motivdə olanlar önəmli yer tutur.

Füzulinin qəzəllərində təsvir olunan *məhəbbətin* izahı xüsusi diqqət tələb edir. Onun tərənnüm etdiyi məhəbbət, çox hallarda həm gerçək insani duyğuları, həm də sufizmin həyata, insana fəlsəfi baxışını ifadə edir. Şairin bir çox qəzəllərində bu ikiliyi bir-birindən ayırmaq, yaxud fərqləndirmək mümkün olmur. Lakin bütün hallarda lirik qəhrəman mənəvi saflığı, möhkəm iradəsi, sədaqətli və əzəmətli olması ilə diqqəti çəkir.

Şairin *ictimai motivli* qəzəllərində zəmanəyə, insanlara, şəxsi həyatına və s. münasibəti əks olunmuşdur.

Füzuli *qəsidələrini* daha çox ana dilində yazmışdır. Onun bu janrda yazdığı əsərlər islam dininin böyük şəxsiyyətlərinə, zəmanə hökmdarlarına, tarixi hadisələrə həsr edilmişdir.

> Şairin poemaları üçün ortaq olan cəhətlər hansılardır?

Şairin *poemaları* yaradıcılığında xüsusi yer tutur. "*Leyli və Məcnun*" (1537) çıxılmaqla, qalan üç poema *alleqorik* səciyyəlidir. Bu üç poema müxtəlif mövzularda yazılsa da, ideyalarında oxşarlıqlar da var. Onlarda təkəbbürlü hökmdarların mənasız müharibələr törətməklə insanları qırğına verməsi *("Bəngü Badə")*, şöhrətpərəstlik, mənəmlik *("Söhbətül-əsmar")*, cəmiyyətdə, ictimai quruluşda müşahidə edilən eyiblər *("Həft cam")* kəskin tənqid edilmişdir.

> Şairi nəsr əsərlərində daha çox düşündürən hansı məsələlərdir?

Füzuli *klassik nəsrin* böyük ustadı sayılır. Onun "*Şikayətnamə*" adı ilə tanınan məktubu ictimai məzmunu və bədii dəyəri ilə daha qiymətlidir. Ana dilində olan *"Hədiqətüs-süəda"* (tərcümə olduğunu iddia edənlər də var) əsərində məşhur din xadimlərinin həyatı, fəaliyyəti, məhrumiyyətləri əks olunmuşdur.

Farsca yazılmış "*Rindü Zahid"in* əsasında insan, həyat haqqında fərqli baxışların qarşılaşması, mübahisəsi dayanır. Fars dilində nəsrlə yazılmış "*Səhhət və Mərəz*" alleqorik əsərində isə müəllifin elmi, dini-fəlsəfi və sufi-panteist görüşləri vəhdət şəklində ifadəsini tapmışdır.

Füzuli ədəbiyyat tarixində mahir *tərcüməçi* kimi də tanınmışdır. Tərcümələri arasında "*Hədisi-ərbəin*" *("Qırx hədis")* önəmli yer tutur. Fars-tacik şairi Əbdürrəhman Caminin eyniadlı əsərini ana dilinə tərcümə etməklə şair türkdilli oxucuların bu məşhur əsərdən faydalanmaları, zövq almaları məqsədini güdmüşdür.

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
**2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**



LAYİHƏ

## Mənbələr


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait):edebiyyat.ucoz.com.
2. M. Füzuli. Əsərləri. 6 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 11, 16-17, 23, 25.
3. M. Füzuli. Əsərləri. 6 cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005, səh. 7.


# MƏNİ CANDAN USANDIRDI...

## I dərs • Məzmun üzrə iş | Oxuya hazırlaşın

**Sualın üzərində düşünün, cavabını qısaca qeyd etdikdən sonra fikir mübadiləsi və və müzakirə aparın. Cədvəldən istifadə edin.**

– Füzulinin məhəbbət mövzusunda lirlk şeirlər yazmağa üstünlük verməsinə səbəb, sizcə, nədir?

| Şairin daha çox məhəbbət mövzusunda şeirlər yazmasına səbəb, sizcə, nədir? | Sualın qısa cavabı |
|---|---|
| | |

**Aşağıakı qaydalara əməl etməklə şeirin məzmunu üzərində işləyin.**

**1) Əsəri fərdi olaraq səssiz oxuyun.**

**2) İzahına ehtiyac duyduğunuz misra və beytləri cədvəldə qeyd edin.**

| İzahına ehtiayac duyduğum misra və beytlər | Onların izahı |
|---|---|
| | |

**3) Tanış olmayan sözlərin mənasını aydınlaşdırıb cədvəldə qeydlər edin.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**4) Daha maraqlı hesab etdiyiniz məcazları cədvəldə qeyd edin.**

| Daha maraqlı hesab etdiyim məcazlar və onların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|
| | |

**5) Şeirdə hansı mənəvi-əxlaqi dəyərlərə önəm verildiyini aydınlaşdırın.**

**6) Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, izahına ehtiyac duyduğunuz misra və beytlərlə bağlı yaranan çətinlikləri müəllimlə müzakirə edin.**

**7) Təqdimatlar etməklə yerinə yetirdiyiniz bütün işlərlə bağlı fikir mübadiləsi və müzakirə aparın.**

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?

Qamu bimarinə canan dəvayi-dərd edər ehsan,
Neçin qılmaz mənə dərman, məni bimar sanmazmı?

Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rövşən,
Desəm, ol bivəfa bilmən, inanarmı, inanmazmı?

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?

Güli-rüxsarinə qarşu gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?

Degildim mən sənə mail, sən etdin əqlimi zail,
Mənə tən eyləyən qafil səni görcək utanmazmı?

Füzuli rindü şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sevdadır, bu sevdadan usanmazmı?



LAYİHƏ

**Evdə iş**

**“Şeir məndə hansı təəssürat yaratdı” mövzusunda şifahi təqdimata hazırlaşın.**

## II dərs • Təhlil üzrə iş | Kiçik qruplar yaradaraq tapşırığı yerinə yetirin

1. **Mətnkənarı sualları qrupların arasında bölün.** Qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər.
2. **Suallara yığcam cavab yazın. Qəzəlin məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin. Cədvəldən istifadə edin.**

| Mətnkənarı suallar | Onlara hazırlanan cavablar |
|---|---|
| | |

3. **İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra sualların dərslikdəki cavabalarını oxuyun və yazdıqlarınızla müqayisə edin.**



4. **Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edin.**
5. **Şeirin ilk üç beytinin ifadəli oxusuna hazırlaşın. İfaçılıq vəzifəsini müzakirə əsasında müəyyənləşdirin.**

Qəzəlin məzmunu ilə ətraflı tanışlıq onun mövzusunu müəyyənləşdirməyə imkan verir. Lakin onda təsvir olunmuş məhəbbətin izahı ciddi düşüncə, araşdırma tələb edir.

> Qəzəl hansı mövzuda yazılıb? Əsərdə təsvir edilən məhəbbəti necə izah etmək doğru olar?

Şeiri oxuduqca saf, dərin məhəbbətlə sevən və sevgisi yolunda sonsuz əzab-əziyyətlərə qatlaşan real aşiq obrazı göz önündə canlanır. Lakin əsərdə ilahi məhəbbətin sədaları da güclüdür.

Qamu bimarinə canan dəvayi-dərd edər ehsan,
Neçin qılmaz mənə dərman, məni bimar sanmazmı?

Bu misralarda ifadə olunmuş fikri məşuqəyə – sevilən qıza aid etmək mümkün deyildir. Burada sufizm düşüncəsi işığında Allah nəzərdə tutulmuşdur. Qəzəlin əksər beytlərində lirik qəhrəmanın yara, canana münasibətində sufiyanə məhəbbətin əlamətləri duyulur. Bu cəhət şairin məhəbbət mövzusunda yazdığı qəzəllərin əksəriyyətində müşahidə olunur. Hətta bir çox hallarda eyni bir əsərdə dünyəvi və ilahi məhəbbət o dərəcədə çulğaşır ki, onları ayırd etmək çətin olur. Sufizm şairin tərənnüm etdiyi məhəbbəti insandan, dünyadan ayırmır. Bu əsərlərdə real insani duyğuların təsviri çox güclü, bəzən isə aparıcı olur.

Qəzəldə lirik qəhrəmanın – aşiqin parlaq obrazı yaradılmışdır. O, səmimi, sədaqətli və cəfakeşdir. Birinci misradan sona kimi ah-naləsi, şikayətləri davam edən aşiq dərdini, kədərini, həyəcanını elə yanıqlı, təsirli dillə bəyan edir ki, ona inanmamaq mümkün olmur. Məşuqənin cəfasından usansa da, ahının odu fələkləri yandırsa da, gözləri qanlı yaş axıtsa da, o, tutduğu yoldan dönməyi xəyalına da gətirmir.

> Lirik qəhrəman – aşiq hansı cəhətləri ilə diqqəti cəlb edir? Onun öz eşqində sadiq, dönməz olmasının əsl səbəbi nədir?

Aşiq səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edən bitkin obrazdır. Şeirin ətraflı öyrənilməsi, mənbələr üzrə araşdırma onu hərtərəfli anlamağa və qiymətləndirməyə imkan verir.

“Məni candan usandırdı...” həm ideya məzmununa, həm də bədii keyfiyyətlərinə görə klassik şeirimizin ən dəyərli nümunələrindən biridir. XVI əsrin məhsulu olan bu

> Qəzəlin bədii keyfiyyətini artıran vasitələr hansılardır?



LAYİHƏ

əsər dilinin şirinliyi və cəlbedici olması baxımından da müasir oxucunu valeh edir. Ondakı alınma sözlər məzmunun başa düşülməsinə mane olmur.

Beytlərin əksəriyyətində işlənmiş daxili qafiyələr şeirdə güclü ahəngin yaranmasına səbəb olmuşdur.

Qəzəldəki obrazlılığın güclənməsində məcazların xüsusi rolu vardır. Bunu aydınlaşdırmaq üçün misraların, beytlərin üzərində düşünmək, lirik qəhrəmanın hiss və düşüncələrinin necə ifadə edildiyini aşkara çıxarmaq vacibdir. Bu işin səmərəliliyinə şairin sənətkarlığı barədə mənbələrdən öyrəndikləriniz əhəmiyyətli təsir edəcəkdir.

Qəzəldə güclü ahəngin yaranmasına onun yazıldığı *həzəc* bəhrinin təsiri az deyildir. Bunu aşağıdakı nümunədən də görmək mümkündür:

| məfA İlün | məfA İlün | məfA İlün | məfA İlün |
|---|---|---|---|
| Məni candan<br>Fələklər yan | usandırdı<br>dı ahimdən | cəfadan yar<br>muradım şəm | usanmazmı?<br>i yanmazm? |

**Evdə iş** **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
3. **Qəzəlin ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin.**

**Mənbələr**

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. M. Füzuli. Əsərləri. 6 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 5, 14-15, 20-21.

## LEYLİ VƏ MƏCNUN
(ixtisarla)

**I dərs • Məzmun üzrə iş | Əsərdən verilmiş parçanı aşağıdakı qaydalara əməl etməklə oxuyun.**

1. Kiçik bitkin hissələr şagirdlər əvəzlənməklə fasilələrlə ucadan oxunur. Hər hissənin oxusu başa çatdıqdan sonra fasilə edilir, poema ilə bağlı şərhlərdən, izahlı lüğətlərdən və s. istifadə etməklə tanış olmayan söz, misra və beytlərin mənası aydınlaşdırılır.
2. Daha maraqlı hesab olunan məcazlar və onların növü müəyyənləşdirilir.
3. Kiçik qruplar yaradılır, aşağıdakı suallar da əhatə olunmaqla təqdimatlar hazırlanır.
   – Əsəri yazmağı Füzulidən kimlər və necə xahiş edirlər?
   – Şair mövzu ilə bağlı hansı düşüncələrini bildirir?
   – Qeysin ailəsi necə təqdim olunur?
   – Onun anadan olarkən ağlamasını şair necə mənalandırır?
   – Şair uşağın bir gözəlin qucağında sakitləşməsinə necə məna verir?
   – Əsərdə Leyli neçə təsvir edilmişdir?
   – Anası Leyliyə nələri nəsihət edir?
   – Ana zəmanənin hansı mənəvi-əxlaqi dəyərlərinə önəm verir?



LAYİHƏ

## Kitabın yazılmasının səbəbi

Bir neçə zərifi-xütteyi-Rum,
Rumi ki dedin, qəziyyə məlum.
Həm elm fənində nüktədalar,
Həm söz rəvişində dürfəşanlar.
Bilmişlər idi ki, hüsni-göftar,
Qədrim qədərincə məndə həm var.
Mən xəstəyi etdilər nişanə,
Bir rəng ilə tiri-imtəhanə.
"Lütf eylə! – dedilər, – ey süxənsənc!
Faş eylə cəhanə bir nihan gənc!
Leyli-Məcnun əcəmdə çoxdur,
Ətrakdə ol fəsanə yoxdur.
Təqrirə gətir bu dastanı,
Qıl tazə bu əski bustanı".
Bildim, bu qəziyyə imtəhandır,
Zira ki, bu bir bəlayi-candır,
Sevdası dirazü bəhri kütah,
Məzmunu fəğanü naləvü ah.
Bir bəzmi-müsibətü bəladır
Kim, əvvəli qəm, sonu fənadır.
Əmma necə etmək olur ikrah?
Bir vaqeədir ki, düşdü nagah,
Düşdü səfərim diyari-dərdə,
Kimdir mənə yar bu səfərdə?
Hər kimdə ki vardır istitaət,
Dərdü qəmü möhnətü qənaət,
Oldur bu müsafirətdə yarım,
Zövq əhlinə yoxdur etibarım.
Əzm eyləyəlim, təəllül etmən!
Mənzil kəsəlim, təğafül etmən!
Ey bəxt, vəfasız olma sən həm!
Həmrahlıq et, bizimlə bir dəm!

## Məcnunun anadan olması və uşaqlığı

Dehqani-hədiqeyi-hekayət,
Sərrafi-cəvahiri-rəvayət,
Məni çəmənində gül dikəndə,
Söz riştəsinə gühər çəkəndə,
Qılmış bu rəvişdə nüktədanlıq,
Gülrizligü gühərfəşanlıq.
Kim: xeyli-ərəbdə bir cavanmərd,
Cəmiyyətü izzü cah ilə fərd,
Müstəcməi-cümleyi-fəzayil,
Bulmuşdu rəyasəti-qəbayil.
Əmvalı cəmii-cinsdən çox,
Əmma bu cəhanda varisi yox.
Gər qılsa onu tələf həvadis,
Yox bir xələfi ki, ola varis.
Fərzəndsiz adəmi tələfdir,
Baqi edən adəmi xələfdir.
Çox nəzrlər etdi hər məzarə,
Çox qıldı niyaz girdigarə,
Təsir qılıb fəğanü ahi,
Övn etdi inayəti-ilahi.
Bir gecə açıldı babi-rəhmət,
Buldu əsəri-dua icabət.
Bər verdi nihali-bağí-məqsud,
Açıldı güli-hədiqeyi-cud.
Çün vədə irişdi, doğdu bir ay,
Xurşid rüxiylə aləmaray.
Şad oldular ondan ata-anə,
Şükranə verildi çox xəzanə.
Əlqissə, ədəmdən oldu peyda
Bir tifli-müzəkkərü müzəkka.
Xurşid kimi kəmalə qabil,
İsa kimi tiflilikdə kamil.
Ol dəm ki bu xakdanə düşdü,
Söylərdi ki: "Ey, cəfaçı dünya!
Bildim, qəmini sənin ki, çoxdur,
Qəm çəkməyə bir hərif yoxdur.
Gəldim ki, olam qəmin hərifi,
Gəl, təcrübə eylə mən zəifi!"
Dayə onu pak qıldı qandan,
Qaldırdı bu tirə xakdandan.
Qüslün verib abi-çeşmi-tərdən,
Süd yerinə verdi qan cigərdən.
Əqvamü qəbaili olub şad,
Ol növrəsə Qeys qoydular ad.
Can ilə qılırdı dayə ezaz,
Əsbabi-kəmali-tərbiyət saz.
Lakin ol edib həmişə nalə,
Xoşnud deyildi heç bu halə.
Əzasın edib əlilə əfkar,
Eylərdi müdam naləvü zar.
Bir gün onu gəzdirirdi dayə,
Dərdini yetirməyə dəvayə,
Bir evdə məgər ki bir pərivəş,
Ol tifli bəsi görüb müşəvvəş,
Rəhm etdi, əlinə aldı bir dəm,
Tifl onu görüncə, oldu xürrəm.
Hüsnünə baxıb qərar tutdu,
Fəryadü fəğanını unutdu.
Olduqca əlində, oldu xəndan;
Düşdükcə əlindən, oldu giryan.
Mahiyyətini çü dayə bildi,
Ol mahı ona ənis qıldı.
Oldu bu dəxi, onunla mötad,
Nə dayə, nə ana eylədi yad.
Zatında çü var idi məhəbbət,
Məhbubu görüncə tutdu ülfət,



LAYİHƏ

Halını bilib fəğanə düşdü.
Axır günün əvvəl eyləyib yad,
Axıtdı sirişkü qıldı fəryad,
Yəni ki: “Vücud, dami-qəmdir;
Azadələrin yeri ədəmdir.
Hər kim ki əsir olur bu damə,
Səbr etsə gərək qəmi-müdamə”.
Olmuşdu zəbani-hali guya
Eşq idi ki, oldu hüsnə mail,
Hüsnü nə bilirdi tifli-qafil.
Çün tərbiyəti-ədibü dayə
Verdi əsəri-təmam ol ayə
Gün-gündən edib kəmal hasil,
Ol mahi-növ oldu bədri-kamil.
Çün sürət ilə dönüb zəmanə,
On yaşına yetdi ol yeganə.

**Məcnunun Leylini məktəbdə görməsi**

Məktəbdə onunla oldu həmdəm,
Bir neçə mələkmisal qız həm.
Bir səf qız oturdu, bir səf oğlan,
Cəm oldu behiştə hurü qılman.
Ol qızlar içində bir pərizad,
Qeys ilə məhəbbət etdi bünyad.
Bir türfə sənəm ki, əqli-kamil
Gördükdə onu olurdu zail.
Şəhbaz baxışlı, ahu gözlü,
Şirin hərəkətli, şəhd sözlü.
Rahü rəvişi müdam qəmzə,
Başdan-ayağa təmam qəmzə,
Aləm səri-muyinin tüfeyli,
Məhbubeyi-aləm, adı Leyli.
Qeys onu görüb həlak oldu,
Min şövq ilə dərdnak oldu.
Ol nadirə həm ki Qeysi gördü,
Min zövq bulub, özün itirdi,
Gördü ki, bir afəti-zəmanə,
Misli dəxi gəlməmiş cahanə.

**Anasının Leyliyə nəsihəti**

Dildən-dilə düşdü bu fəsanə,
Faş oldu bu macəra cəhanə
Kim: "Qeys oluban əsiri-Leyli,
Leyli dəxi salmış ona meyli".
Tədrici-məbadi ilə nagah,
Leylinin anası oldu agah,
Odlara tutuşdu, yasə batdı,
Ol qönçədəhanə dil uzatdı.
Yanar od olub, çəkib zəbanə,
Ol gülrüxə dedi yanə-yanə:
“Key şux! Nədir bu göftügulər?
Qılmaq sənə tənə eybculər?
Neyçün özünə ziyan edirsən?
Yaxşı adını yaman edirsən?
Nəyçün sənə tənə edə bədgu?
Namusuna layiq işmidir bu?
Nazik bədən ilə bərgi-gülsən,
Əmma nə deyim, ikən yünülsən!
Təmkini cününə qılma təbdil!
Qızsan, ucuz olma, qədrini bil!
Hər surətə əks kimi baxma!
Hər gördüyünə su kimi axma!
Mey gərçi səfa verər dimağə,
Axdığı üçün düşər ayağə,
Sayə kimi hər yerə üz urma!
Heç kimsə ilə oturma, durma!
Sən sadəsən, özgə əhli-neyrəng,
Cəhd eylə, verilməsin sənə rəng.
Derlər səni eşqə mübtəlasən,
Biganələr ilə aşinasən.
Sən qandanü eşq zövqi qandan?
Sən qandanü dust şövqi qandan?
Oğlan əcəb olmaz olsa aşiq,
Aşiqlik işi qıza nə layiq?
Ey iki gözüm, yaman olur ar!
Namusumuzu itirmə, zinhar!..
Biz aləm içində niknamız,
Mərufi-təmami-xasü amız,
Neylərsən əgər atan eşitsə?
Qəhr ilə sənə siyasət etsə?
Minbəd gəl eylə tərki-məktəb,
Bil əbcədini həmin cədü əb.
Büt kimi bir evdə eylə mənzil,
Olma dəxi hər yanayə mail.
Gərçi adın ola dildə məzkur,
Görmək səni ola qeyri-məqdur,
Xoş ol ki, qızı həmişə gizlər,
Xud gizli gərək həmişə qızlar”.



LAYİHƏ

## Evdə iş

1. **Poemadan müstəqil oxuduğunuz aşağıdakı parçaları nəzərdən keçirin:** *"Leylinin anasına cavabı", "Məcnunun Leyliyə səhrada rast gəlməsi", "Məcnunun atasının Leyli üçün elçiliyə getməsi və rədd cavabı alması", "Nofəlin Məcnunla söhbəti", "Nofəlin ikinci dəfə vuruşub qalib gəlməsi və əhdinə yalan olması", "Leylinin İbn Səlama nikah edilməsinin Məcnuna xəbər verilməsi", "Atasının Məcnunu səhrada tapması və nəsihətlə yola gətirməkdə aciz qalması", "İbn Səlamın vəfat etməsi və Leylinin bəladan nicat tapması".*
2. **Hər parçada ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**
3. **Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
4. **Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**
5. **Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
6. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## II dərs • Məzmun üzrə iş

1. **Kiçik qruplarda birləşərək evdə təkrar etdiyiniz parçalardakı mühüm fikirlər, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərinizi müzakirə edin.**
2. **Gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**
3. **Müzakirədə aşağıdakı sualları da əhatə etməyə çalışın.**
   – Leyli günahsız olduğuna anasını necə inandırır?
   – Gəzintidə təsadüfən qarşılaşan Leyli və Məcnun üçün bu görüş necə nəticələnir?
   – Leylinin atası elçilərə rədd cavabını necə əsaslandırır?
   – Nofəlin Məcnuna kömək etmək istəməsinə səbəb nə olur?
   – Leylinin İbn Səlama nikah edilməsi xəbərini Məcnun necə qarşılayır?
   – Atasının Məcnunu səhrada axtarmasına səbəb nə olur?
   – Ata oğluna nələri nəsihət edir?
   – İbn Səlamın ölümünü Leyli və Məcnun necə qarşılayırlar?

Poemanın bu parçalarında dövrün hansı mənəvi-əxlaqi dəyərləri öz ifadəsini tapmışdır?

## Evdə iş

1. **Müstəqil oxuduğunuz aşağıdakı parçaları nəzərdən keçirin:** *"Leylinin dəvəyə sirrini açması", "Məcnunun öz halını Leyliyə açmaqla bildirməsi", "Leylinin Məcnunu tanıması", "Məcnunun Leyliyə etinasızlığı və saflığını sübut etməsi", "Leylinin Məcnunun davranışını bəyənməsi", "Leylinin anasına vəsiyyəti və ölməsi", "Leylinin vəfatından Məcnunun xəbərdar olması və bu dərdə dözməyib ölməsi", "Sözün (əhvalatın) tamamlanması".*
2. **Hər parçada ifadə olunmuş mühüm fikirləri və tanış olmayan sözlərin mənasını müəyyənləşdirməyə çalışın.**
3. **Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**
4. **Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
5. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## III dərs • Təhlil üzrə iş | Kiçik qruplar yaradaraq tapşırığı yerinə yetirin

1. **Mətnkənarı sualları qrupların arasında bölün.** Qruplarin sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər.
2. **Suallara yığcam cavab yazın.** Poemanın məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin.
3. **İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra mətnkənarı sualların dərslikdəki cavablarını oxuyun və yazdıqlarınzla müqayisə edin.**
4. **Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.**



LAYİHƏ

> Poema hansı mövzuda yazılmışdır? Bu mövzu şairin yaradıcılıq meyilinə, həyata baxışına nə dərəcədə uyğundur?

Yaxın Şərqdə, xüsusən ərəb şifahi xalq ədəbiyyatında Leyli ilə Məcnun haqqında geniş yayılmış rəvayətlərin qədim tarixi vardır. Onların adı uzun əsrlərdir ki, sadiq aşiq və vəfalı məşuqə rəmzi kimi anılmaqdadır. Bu rəvayətlərə əsaslanan Nizami mövzunu ilk dəfə yazılı ədəbiyyata gətirmiş, ölməz poemasını yaratmışdır. Təxminən 350 il sonra isə Füzuli doğma türkcəmizdə böyük məhəbbət dastanını – "Leyli və Məcnun"u qələmə almışdır. Mövzu şairə cəmiyyət və zəmanə barədəki fikirlərini geniş ifadə etməyə imkan vermişdir.

Mənbələr əsasında araşdırma bütün bunlarla bağlı əsaslandırılmış fikir deməyə şərait yaradacaqdır.

> Məcnun və Leyli obrazlarının xarakter, davranış və əməlləri üçün səciyyəvi olanlar hansılardır? Onları müasirlərindən – həmyaşıdlarından fərqləndirən nədir?

Əsərdə həyata baxışı, davranış və əməlləri ilə bir-birindən fərqlənən obrazlar yaradılmışdır. Baş qəhrəman kimi diqqəti ilk cəlb edən **Məcnun** obrazıdır. Şöhrətli, varlı qəbilə başçısının yeganə övladı olan *Qeys,* adətə görə, atasının yerini tutmalı idi. Əslində, o hələ heç dünyaya gəlməmiş rahat həyatı təmin olunmuşdu. Lakin belə bir həyat ona qismət olmur. Düşüncə tərzi, həyata, zəmanəsinin əxlaq və davranış normalarına baxışı tamamilə fərqli olan Qeys cəmiyyətə müxalif mövqedə dayanır. Onun faciəsi də məhz buradan başlanır. Heç kim, hətta ata-anası da Qeysin mənəvi azadlıq istəyini anlamır. Sevdaya düşdüyü üçün cəmiyyətin "məcnun" kimi qəbul etdiyi Qeys insanlar arasında pisliyin çox olduğunu söyləyərək təbiətə üz tutur.

Ağıllı, zəkalı Qeysi sevən **Leylinin** həyatı daha dözülməzdir. Rəfiqələrindən fərqlənən, onlar kimi düşünməyən Leyliyə sevmək və sevilmək dəhşətli görünmür. Lakin doğulub boya-başa çatdığı mühit, zəmanə belə bir sərbəstliyə yol vermir, bunu namusa, ləyaqətə zidd sayır. Abırlı, həyalı Leyli arzu və istəyini heç kimə, hətta anasına da bildirmir. Onu başa düşməyəcəklərini anlayır. Ürəyini şama, pərvanəyə, aya... açır, onlarla dərdləşir. Leyli ağır sınaqlara, əzab-əziyyətə məruz qalsa da, zəmanəsinin köləliyi əsas tutan davranış normalarına yalnız zahirən tabe olur. O, ixtiyarsız, hüquqsuz olduğunu dərk edir.

Mən gövhərəm, özgələr xiridar,  
Məndə degil ixtiyari-bazar.  
Dövran ki məni məzadə saldı,  
Bilmən, kim idi satan, kim aldı?

Lakin o, dövrün zorakı feodal qanun-qaydalarına təslim olmur, mənliyini, mənəvi gözəlliyini qoruyur, saf eşqinə sadiq qalır.

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   c) Poemanın yazıldığı mövzunun şərq ədəbiyyatında geniş yayılmasına səbəb nədir?
   d) Leyli və Məcnun obrazları müəllifə hansı həyat həqiqətlərinə münasibət bildirmək üçün geniş imkan yaratmışdır?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**



LAYİHƏ

## Mənbələr


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. M. Füzuli. Əsərləri. 6 cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005, səh. 5-6.


## IV dərs • Təhlil üzrə iş | **Aşağıdakı qaydalara əməl etməklə mətni oxuyun**

1) Şagirdlərdən biri ilk mətnkənarı sualın cavabını – dərslikdəki mətni ucadan oxuyur.
2) Mətndəki fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
3) Sonra şagirdlərə mətnlə bağlı suallar verir.
4) Suallar əsasında aparılan müzakirədə izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirilir.
5) Sonda mətnə hansı məzmunda əlavələrin edilməsinin vacib olması barədə nəticə çıxarılır və bəndlərlə yazılır.
6) Digər mətnkənarı suallarla bağlı cavabların – mətnin oxusu da şagirdlər əvəzlənməklə bu qayda ilə həyata keçirilir.
7) İşin yekunlaşdırılması və nəticənin çıxarılması üzrə təqdimatlar dinlənilir və müzakirə edilir.

> Poemadakı digər obrazlar hansı dəyərlərin daşıyıcılarıdır?

Əsərdəki bir sıra obrazları – Məcnunun atası, anası, İbn Səlamı birləşdirən cəhətlər çoxdur. Dövrün tələblərinə, adət-ənənələrinə kor-koranə əməl etmək onlar üçün hər şeydən vacibdir. Müstəqil düşüncə, fərqli davranış, arzu və istəyin dilə gətirilməsi – bir sözlə, şəxsiyyət azadlığı onların həyata baxışında yer almır.

Məcnunun atası oğlunu dərin məhəbbətlə sevir, amma onu anlamır, anlaya bilmir. Yeganə oğlunun "xəstəliyinə" çarə axtarır.

Məcnunun aşiq olduğunu eşidən anası onu bu yoldan çəkindirməyə çalışır. Çünki bu, ailəni el içində xəcalətli edər.

Leylinin atası qızını Məcnuna verməyə bir şərtlə razı olur ki, o, sevdasından əl çəksin, yəni sevməsin. Sonralar Leylini İbn Səlama ərə verməyə razı olan ata qızının rəyini soruşmağı heç xəyalına da gətirmir.

Leylinin anası qızı ilə bağlı yayılan xəbəri qorxu və dəhşətlə qarşılayır. Yas içində olan ana bu xəbərin ailənin namusuna ləkə gətirəcəyindən əndişəyə düşür. Ananın fikrincə, aşiqlik qıza layiq bir iş deyildir bu, ailənin ar və namusu, yaxşı adı üçün təhlükəlidir.

Hər iki ana övladının davranışında dövrün qayda və baxışlarından kənaraçıxma halını gördükləri üçün dərin narahatlıq hissi keçirir.

İbn Səlamın həyata baxışı bu valideynlərinkindən fərqlənmir. Dövrün tələbləri, əxlaqi-etik normaları ilə yaşayan bu zadəgan Leylini təsadüfən görür və bu gözəl qıza elçi göndərir. Leylinin fikrini öyrənmək barədə isə düşünmür.

Əsərdəki Nofəl, Zeyd fərdi xüsusiyyətləri ilə seçilən və yadda qalan obrazlardır.

Füzuli qəhrəmanlarına, yeri gəldikcə, öz münasibətini bildirmişdir. Bu, obrazların səciyyələndirilməsi işini xeyli asanlaşdırır.

> "Poemanın uzunömürlü olmasının bir mühüm səbəbi misilsiz bədii gözəlliyidir" fikrini necə əsaslandırarsınız?

Leyli və Məcnunla bağlı qəmli rəvayət bir çox əsərlər üçün mövzu olmuşdur. Nizami ilə başlanan "Leyli və Məcnun" Füzuliyə qədər və ondan sonra da dəfələrlə qələmə alınmışdır. Füzulinin doğma türkcəmizdə yazdığı bu möhtəşəm abidənin adı isə həmişə birinci çəkilmişdir. Poemanın yüksək dəyərləndirilməsinin ən mühüm səbəbi oxucunu valeh edən bədii gözəlliyidir. Onun maraqla oxunmasına cəlbedici süjetinin, mükəmməl kompozisiyasının da təsiri çoxdur.



LAYİHƏ

Ana dilinin əzəmətini, qüdrətini əsərin hər beytində müşahidə etmək mümkündür. Məcazların elə bir növü yoxdur ki, poemada dəfələrlə, həm də orijinal şəkildə işlənməmiş olsun. Eyni, yaxud müxtəlif məcazların bir çox məqamlarda ardıcıl işlənməsi əsərə xüsusi gözəllik, oxuculara böyük zövq verir.

Leyli demə – cənnət içrə bir hur,
Məcnun demə – zülmət içrə bir nur.
Leyli demə – övci-hüsnə bir mah,
Məcnun demə – mülki-eşqə bir şah.

Güclü obrazlılıq Füzuli sənətinin ən mühüm özəlliyidir. Bircə beyt oxucunun gözləri qarşısında ecazkar bədii lövhə yaradır.

Bir yaniya getdi hər pərivəş,
Dağıldı şərər, tutuşdu atəş.

Leylini gülzarlıqda gəzməyə aparan gözəllərin – pəriüzlü qızların hərəsi bir tərəfə gedir. Sanki ətrafa qığılcım (qızlar qığılcıma bənzədilir) yayılır və yanğın baş verir. Qızların gəzdiyi məkanın əlvan rəngə boyanması bu şəkildə nəzərə çarpdırılır.

Poemada gerçəkliklə uyuşmayan təsvirlərə, hadisələrə də yer verilmişdir. Bu, şairin sufi görüşləri ilə bağlıdır. Əsərdə tez-tez rast gəlinən ilahi məhəbbətin, sufiyanə eşqin təsviri buradan qaynaqlanır.

Əsərin *həzəc* bəhrində yazılması onun xoş avazla oxunmasına səbəb olur. Bunu aşağıdakı nümunədə müşahidə etmək olur.

| məf Ulü | məfA ilün | fə Ulün |
|---|---|---|
| Bir gün ki | bahari-a | ləməfruz, |
| Vermişdi | cəhanə fey | zi-novruz, |
| Salmışdı | niqab çöh | rədən gül, |
| Çəkmişdi | sürud-na | lə bülbül. |

> Poemanın ideyaca zəngin olduğunu necə əsaslandırmaq olar?

Poemada mühüm ictimai məzmunlu problemlərin bədii həlli verilmişdir. Şair, ilk növbədə, dövrünün önəmli mənəvi-əxlaqi dəyərlərini və bununla bağlı fərqli baxışları parlaq şəkildə ifadə etmişdir. Bu, əsərin ideyaca zəngin olduğunu təsdiq edir. İdeyanın əhatəli aydınlaşdırılması, izahı və dəyərləndirilməsi isə geniş araşdırma tələb edir.

**Evdə iş** **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
a) Əsərdəki hansı obrazların nitqinə əsasən müəllifin onlara münasibətini müəyyənləşdirmək mümkündür?
b) "Poemanın əsasını iki ideologiyanın üz-üzə gəlib toqquşması təşkil edir" fikrini doğru saymaq olarmı?

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**



LAYİHƏ

## Mənbələr

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. M. Füzuli. Əsərləri. 6 cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005, səh.5-6.

## BÖLMƏNİ YEKUNLAŞDIRARKƏN

Aşağıdakı özünüqiymətləndirmə cədvəlini dəftərinizdə çəkin. Hər sütundakı başlıqların tələbinə uyğun qeydlərinizi yazın.

| № | **Bölmə üzrə bilik və bacarıqlarım** | | | |
|---|---|---|---|---|
| | Bölmədən əvvəl | | Bölmədən sonra | |
| | Bilirdim | Bacarırdım | Öyrəndim | Bacarıram |
| | | | | |

Çətinlik çəkdiklərinizi, onları necə aradan qaldıracağınızı qısaca yazıb, müəlliminiz, sinif yoldaşlarınız və valideynlərinizlə müzakirə edin.

| Çətinlik çəkdiklərim | Onları necə aradan qaldıra bilərəm |
|---|---|
| | |

## Qiymətləndirmə materialı

### MƏHƏMMƏD ƏMANİ

**Seyr elə...**
*(ixtisarla)*

Bahar oldu, tazə güllər açıldı,
Sərvinazım, sallanubən seyr elə.
Şükufə övrağı hər yan saçıldı,
Sərvinazım, sallanubən seyr elə.

Can bəslənür etidali-həvadin,
Dərdlü olan çəkməz minət dəvadin,
Hər məqamda qulaq dolar nəvadin,
Sərvinazım, sallanubən seyr elə.

Müəssərdür əndəlibdin nalələr,
Saçmış incü səbzə üzrə jalələr,
Eşq odundin dağlar qoymuş lalələr,
Sərvinazım, sallanubən seyr elə.

Ağzın sirrin ğönçə guya eyləmiş,
Ğəmzən sehrin nərgis peyda eyləmiş,
Laləni rüxsarın rüsva eyləmiş,
Sərvinazım, sallanubən seyr elə.

Xürrəm olmuş səbzələrdin hər vadi,
Əndəlibi nalan etmiş gül yadi,
Xəcil etgil ənər ilə şümşadi,
Sərvinazım, sallanubən seyr elə.



LAYİHƏ

# ERKƏN YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

## • Araşdırmaya hazırlaşın

1. **XVII–XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı və onun görkəmli nümayəndələrinin yaradıcılığı haqqında ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın.**
   Həmin dövrdə Azərbaycanın siyasi-mədəni həyatında baş vermiş dəyişikliklər haqqında tarix dərslərində öyrəndiyiniz biliklərdən istifadə edin.
2. **Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin.**
   a) Kiçik qruplara ayrılın. Mətnkənarı suallarla bağlı (bir sualın üzərində iki qrup işləyə bilər) cavabları oxuyun, məzmununu ümumiləşdirib qısaca yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabları |
|---|---|
| | |

   b) Hər sual üzrə iş tamamlandıqdan sonra ümumiləşdirmələrə münasibət bildirin və müzakirə aparın.
   c) Mətnin bütövlükdə oxusunu başa çatdırdıqdan sonra öyrəndiklərinizlə bağlı gəldiyiniz nəticələri təqdimatlar əsasında müzakirə edin.
   d) Araşdırılmasını, zənginləşdirilməsini vacib saydığınız məsələləri bəndlər şəklində yazın.

> XVII–XVIII əsrlərdə yaranan ədəbiyyatımız üçün daha dəyərli hesab olunanlar hansılardır?

Bu yüzilliklər Azərbaycan xalqının tarixində mürəkkəb, ziddiyyətli və keşməkeşli bir dövr kimi səciyyələndirilir. Sabitlik, sakitlik bu əsrlərdə nisbi olmuş, ölkə ərazisi müharibə, çəkişmə meydanına çevrilmişdir. I Təhmasibin ölümündən sonra Səfəvilər dövləti qüdrətini günbəgün itirməyə başladı. Mərkəzi dövlətin zəifləməsi ölkədə özbaşınalığın artmasına səbəb oldu. XVI əsrin sonlarından etibarən Osmanlı hökmdarlarının ölkəyə hərbi müdaxilələri gücləndi, bəzi ərazilər zəbt edildi. I Şah Abbasın hakimiyyəti dövründə itirilmiş ərazilər geri qaytarıldı, ölkənin inkişafı yolunda əhəmiyyətli addımlar atıldı. Lakin hökmdarın ölümündən sonra dövlətin nüfuzu zəiflədi, ərazisinin böyük bir hissəsi qonşu ölkələr tərəfindən işğal olundu. Qüdrətli sərkərdə olan Nadir şahlığı ələ alandan sonra ölkəni dağılmaqdan xilas etdi. Onun hakimiyyəti illərində (1736–1747) yadelli işğalçılar dövlətin ərazisindən qovuldular. Ölkənin ərazi bütövlüyünə nail olan Nadir şah sui-qəsd nəticəsində öldürüldükdən sonra dövlət dağıldı. Ölkə kiçik dövlətlərə – xanlıqlara parçalandı. Bu, Azərbaycanın işğalına, müstəmləkəyə çevrilməsinə əlverişli şəraitin yaranması demək idi.

Azərbaycanın ictimai-siyasi həyatında baş verən bütün bu hadisələr həmin dövrün ədəbiyyatında öz əksini tapmışdır. İlk növbədə, xalq yaradıcılığının böyük vüsətini xatırlatmaq lazımdır. Dastan yaradıcılığının *"qızıl dövrü"* adlandırılan bu yüzilliklərdə şifahi ədəbiyyatın, demək olar, bütün janrlarında böyük uğurlar qazanılmışdır.

Qəhrəmanlıq dastanı *"Koroğlu"*nun formalaşması bu dövrdə başa çatdı, *"Abbas və Gülgəz"*, *"Aşıq Qərib"*, *"Şah İsmayıl"*, *"Əsli və Kərəm"* və s. məhəbbət dastanları yarandı. Şifahi xalq yaradıcılığının yazılı ədəbiyyata təsiri xeyli gücləndi. Bu həm mövzu, həm məzmun, həm də janr baxımından özünü qabarıq göstərirdi. İndi artıq *qəzəl* yox, *qoşma* diqqət mərkəzində dayanırdı, mürəkkəb məcazları xalq yaradıcılığında və danışıq dilində tez-tez işlədilən təsvir-ifadə vasitələri əvəz edirdi.



LAYİHƏ

Beləliklə, heca vəznində yazmaq şairlərin yaradıcılığında ön plana keçirdi. Yaranan əsərlər isə aydın, sadə xalq dilinin əsasında ərsəyə gəlirdi.

Yazılı ədəbiyyatda *epik şeir* və *bədii nəsr* xalq yaradıcılığından bəhrələnirdi. Xalq nağıllarının maraqlı süjeti poema və mənzum hekayələr üçün mənbə rolunu oynayırdı.

Yazılı ədəbiyyatda *ənənəçilik* və *novatorluq* müşahidə edilirdi. XVII əsrdə ədəbiyyatımız daha çox ənənəçilik üzərində qurulmuşdu. Başqa sözlə, bu əsrdə əvvəlki dövrlərdə yaranmış ədəbiyyatın təsiri hələ güclü idi. Bu da unudulmamalıdır ki, Füzuli tilsimini qırmaq, onun təsirindən çıxmaq heç də asan deyildi.

XVIII yüzillikdə yaranan ədəbiyyatda ənənəçilik meyli olsa da, yenilik poeziyada daha güclü, aparıcı idi. Deyildiyi kimi, folklor janrları, xüsusən *qoşma* yeni ədəbi hadisənin göstəricisi rolunda idi. Qoşma ilə yanaşı, *müxəmməs* də aparıcı mövqe qazanmışdı. Dövrün mühüm ictimai hadisələri daha çox bu janrda yazılan əsərlərdə əks etdirilirdi. Xalq yaradıcılığı üslubunda yazılmış şeirlər Azərbaycan sərhədlərini aşmış, digər ölkələrdə də oxunmuş və sevilmişdir.

*Tarixi-epik poemaların, tarixi mənzumələrin, bədii nəsrin* ardıcıl olaraq yaranması da XVII–XVIII əsrlər ədəbiyyatımızı digər dövrlərdən fərqləndirir.

Ədəbiyyat tariximizdə bu dövr *sadəlik*, *xəlqilik* və *realizmin* güclənməsinə rəvac verən bir mərhələ kimi qiymətlidir.

Xalq yaradıcılığında hansı mövzu və problemlərə daha çox diqqət yetirilmişdir?

Bu yüzilliklərdə şifahi ədəbiyyat yalnız dastan yaradıcılığı ilə məhdudlaşmamış, onun digər janrları da mövzu, məzmun baxımından zənginləşmiş, inkişaf etmişdir. Qoşma ilə yanaşı, *gəraylı, təcnis, bayatı* janrlarında yaradılmış əsərləri qonşu xalqların aşıqları da mənimsəmiş, Azərbaycan türk dilində qoşduqları nümunələri saz havasında oxumuş, onların təsiri altında öz dillərində də əsərlər yaratmışlar.

Lirik folklorumuzun müraciət etdiyi mövzular fərqlidir; insanın mənəvi gözəlliyinin, zahiri görünüşünün, saf məhəbbətin tərənnümü, təbiətin təsviri bu əsərlərdə tez-tez müraciət olunan mövzulardandır. Zəmanənin keşməkeşlərindən şikayət ruhlu lirik şeirlər də az deyildir. Ayrılıq, vətən həsrəti, haqsızlıq və ədalətsizliyə nifrət hissinin ifadə olunduğu əsərlər həmin dövrün ədəbiyyatı üçün səciyyəvi nümunələrdir.

Aşıq yaradıcılığında hansı mövzulara önəm verilmişdir? Buna səbəb, sizcə, nədir?

*Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım Tikmədaşlı, Sarı Aşıq, Aşıq Valeh* və b. müxtəlif mövzularda yaratdıqları əsərlərində ictimai bəlalara, haqsızlığa, ədalətsizliyə, zülmə, ümumiyyətlə, şərə münasibət bildirmiş, etirazlarını birbaşa ifadə etmişlər.

Cənubi Azərbaycanda anadan olmuş Aşıq Abbas Tufarqanlının yaradıcılığında həyat həqiqətlərinin ifadəsi, dövrün cəfasından şikayət, vəfalı dost həsrəti, cəmiyyətdəki zülmə, özbaşınalığa etiraz motivləri daha güclüdür:

Adam var, çox işlər eylər irada,
Adam var ki, yetə bilməz murada.
Adam var ki, çörək tapmaz dünyada,
Adam var, yağ yeyər, balı bəyənməz.

Aşığın milli həmrəyliyin, birliyin vacib olması barədəki fikri bütün zamanlar üçün dəyərlidir:

Abbas bu sözləri deyər sərindən,
Arxı vurun, suyu gəlsin dərindən,
El bir olsa, dağ oynadar yerindən,
Söz bir olsa, zərbi kərən sındırar.



LAYİHƏ

Xəstə Qasımın ustadnamələrində təvazökarlıq, nəcabət, ləyaqət kimi müsbət keyfiyyətlər mühüm mənəvi dəyər kimi təqdim edilir:

Bir məclisə varsan, özünü öymə,
Şeytana bac verib kimsəyə söymə.
Qüvvətli olsan da, yoxsulu döymə,
Demə ki, zorluyam, qolum yaxşıdır.

Sarı Aşığın bayatılarında məhəbbət, nəciblik, dostluqda sədaqət, fədakarlıq hislərinin tərənnümü, həyatından şikayət, çəkdiyi əzabların, ayrılıq dərdinin təsviri mühüm yer tutur. O, bayatılarının birində özünü Nəsimi ilə müqayisə edir:

Gözəllik soy iləndir,
Şahmar da soy ilandır.
Nəsimi tək bu aşıq
Yolunda soyulandır.

Ciddi ictimai problemlərə münasibət dastanlarımızda daha qabarıq əks olunmuşdur. "Koroğlu", "Şah İsmayıl", "Abbas və Gülgəz" və b. dastanlarda bunu aydın şəkildə görmək mümkündür.

> Yazılı ədəbiyyatımızda yenilik hansı məzmunda və istiqamətdə olmuşdur?

XVII əsrdə Azərbaycan şeirində həyat həqiqətlərinə doğru meyil başlanmışdır. Saib Təbrizlinin poeziyaya gətirdiyi "hind üslubu" şeirdə həyat nəfəsinin qüvvətlənməsinə, hikmətamiz fikirlərin geniş yer tutmasına səbəb olmuşdur.

Məsihi, Sadiq bəy Əfşar, Saib Təbrizi, Qövsi Təbrizi və başqalarının şeirlərində humanist ideyalar, nəsihətamiz fikirlər, insana hörmət hissləri geniş tərənnüm olunmuşdur. Məsihinin "Vərqa və Gülşa" poemasında sevgi və qəhrəmanlıq vəhdətdə götürülmüş, öz məhəbbəti uğrunda mübarizə aparan qəhrəmanların maraqlı bədii obrazları yaradılmışdır. Şair oxucuya belə bir fikir aşılayır ki, xoşbəxtliyə çatmaq üçün mübarizə aparmaq, qəhrəmanlıq göstərmək lazımdır. Saib Təbrizinin əsərlərində insanpərvərlik, xeyirxahlıq, saflıq, düzlük, sədaqətli dost olmaq yüksək mənəvi dəyərlər kimi tərənnüm edilir. Dövrünün haqsızlıqlarına etirazını bildirən S.Təbrizi müxtəlif ölkələrdə yaşasa da, doğulduğu Təbriz şəhərini dərin həsrət və məhəbbətlə xatırlamışdır:

Qürbətə bağlama bel, tərk eləmə tez vətəni,
Hər quşa öz yuvası, hər kişiyə öz vətəni.

XVIII əsrdə yazıb-yaratmış *Qövsi Təbrizi* dünyəvi şeir nümunəsi olan əsərlərində insanın mənəvi azadlığı problemini qaldırır, sənətə qiymət verməyən zəmanəyə qarşı etiraz səsini ucaldırdı:

Haray kim, nə dilim var, nə bir dil anlayanım,
Əgərçi ney kimi cismim fəğan ilə doludur...

Bütün bunlara görə XVII əsr Azərbaycan şeiri bir qədər sonra yaranacaq erkən realist ədəbiyyatına hazırlıq mərhələsi hesab edilir.

M.P.Vaqifin timsalında XVIII əsr Azərbaycan ədəbiyyatında realizmə doğru ciddi bir dönüş baş vermişdir. Vaqif xalq həyatını və el gözəllərini realist boyalarla tərənnüm etmişdir. O, ziddiyyətləri ilə birlikdə vəsf etdiyi Kür qırağının timsalında ölkə coğrafiyasını ədəbiyyata gətirmişdir. Bütün bunlar Azərbaycan ədəbiyyatında yeni hadisə olan erkən realizmin meydana çıxması ilə nəticələnmişdir. Vaqifin şeirlərində dövrün ictimai haqsızlıqlarının tənqidi,



LAYİHƏ

Molla Vəli Vidadinin zəmanədən şikayətləri erkən realizm ədəbi cərəyanının mövqelərini daha da qüvvətləndirmişdir.

Qeyd edildiyi kimi, XVIII əsr yazılı ədəbiyyatımızda dünyəvilik, xəlqilik, reallıqla bağlı düşüncələrin, həyati, təbii hiss və duyğuların ifadəsi ön plana keçir. Daha çox heca vəznində yazılmış poeziya nümunələrində dilin aydınlığı, sadəliyi, nikbin ovqatın ifadəsi əsas yer tutur. Molla Pənah Vaqif və Molla Vəli Vidadinin şifahi və yazılı ədəbiyyat ənənələrini davam etdirən yaradıcılığında zəmanəsinin ağrı-acılarına, xalq kədərinə həssas münasibət aparıcı yer tuturdu. Vidadi qəzəl, müxəmməs, qoşma, gəraylı və bayatılarında tarixi faciələri, məhrumiyyətlərə məruz qalan müasirlərinin taleyini, vətən həsrətindən doğan ictimai kədəri təsirli, yanıqlı dillə əks etdirmişdir. "Müsibətnamə" mənzuməsində, "Könlümü", "Durnalar" rədifli qoşmalarında şair zəmanəsindəki ziddiyyətlərin, ədalətsizliyin qurbanı olan insanların faciəsindən ürək ağrısı ilə söz açır. Vidadinin kədəri çox zaman vətəndaş kədəridir, ictimai səciyyəlidir.

Mənbələr üzrə araşdırma dövrün siyasi, ədəbi-mədəni durumuna obyektiv qiymət verməyə imkan yaradacaqdır.

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) XVII–XVIII əsrlər ədəbiyyatı özündən əvvəlki mərhələdə yaranan ədəbiyyatdan hansı cəhətlərinə görə fərqlənir?
   b) XVII–XVIII əsrlərdə şifahi xalq yaradıcılığının yazılı ədəbiyyata təsiri hansı məzmunda və istiqamətlərdə olmuşdur?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**

1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. III cild, Bakı: Şərq-Qərb, 2005, səh.4-8, 11-12.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.



LAYİHƏ



Öz yayılma vüsətinə görə dünya eposunda "Koroğlu" kimi bir əsər təsəvvür etmək çətindir. O, din və dil ayrılıqlarına baxmayaraq, orta əsrlərdə bütün siyasi-inzibati sərhədləri aşmış, ən azı, Qafqaz, İran, Əfqanıstan, Orta Asiya, Ərəbistan, Sibir və Avropanın bir sıra xalqları içərisində çox geniş şəkildə yayılmış, variantlar, versiyalar əmələ gətirmişdir.

*Məmmədhüseyn Təhmasib*

## "KOROĞLU" EPOSU

### • Araşdırmaya hazırlaşın

1. **"Koroğlu" dastanı haqqında ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın.**
   Dastanla bağlı tarix dərslərindən, əlavə mənbələrdən öyrəndiyiniz biliklərdən istifadə edin.
2. **Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin.**
   1) Mətnkənarı sualların sayı qədər kişik qruplar yaradılır. Qruplar onlara təklif edilmiş sualın dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:
      a) İlk mətnkənarı sualın cavabını əhatə edən mətni qruplardan birinin üzvü ucadan və aydın səslə oxuyur.
      b) Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
      c) Mətnə aid bir neçə sual verir. Cavablandırmada daxil olduğu qrupun üzvləri ilə yanaşı, bütün sinif iştirak edir.
      d) Səthi qavranılmış çətin məqamlara aydınlıq gətirməyə çalışır.
      e) Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.
3. **Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların üzvləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.**

> "Koroğlu" nə üçün tarixi-qəhrəmanlıq dastanı hesab edilir?

XVI əsrin sonu – XVII əsrin əvvəllərində baş vermiş Cəlalilər hərəkatı xalq arasında geniş əks-səda tapmış, bu hərəkatın iştirakçıları haqqında çoxlu nəğmə, rəvayət yaranmışdır. Bu tarixi hadisə Azərbaycan və Türkiyə ərazisi ilə bağlı olduğundan yaranan bədii nümunələr də bu ölkələrdə daha geniş yayılmış, dildən-dilə keçmiş, zaman ötdükcə daha da zənginləşmişdir. "Koroğlu" dastanının mənbəyi məhz bu tarixi hadisə, bu hərəkat hesab olunur. Xalqın bədii təfəkkürünün, düşüncəsinin məhsulu kimi meydana gələn bu dastan (təsadüfi deyildir ki, onda əfsanəvi qüvvələr də iştirak edir) illər keçdikcə mükəmməl bədii forma və məzmun almış, möhtəşəm, təkrarolunmaz abidəyə çevrilmişdir.

> Dastandakı obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir? Onlar üçün ortaq olan cəhətlər hansılardır?

Dastanda xarakter, fərdi xüsusiyyət və insanlara münasibətləri ilə bir-birindən fərqlənən çoxlu obraz yaradılmışdır. Eposun baş qəhrəmanı **Koroğlu** xarakteri, davranışı, təd-



LAYİHƏ

birli olması ilə diqqəti dərhal cəlb edir və seçilir. Yoxsul ilxıçı oğlu olan Rövşən ilk dəfə atasının intiqamını almaq üçün silaha əl atır, lakin haqsızlığa, ədalətsizliyə nifrəti bu gənci mübarizə yolundan dönməyə qoymur. Ağa, bəy, xan zülmündən cana doymuş, xoşbəxt həyat arzusu ilə yaşayan yoxsul gənclərin üz tutduğu Çənlibel azadlığın hökm sürdüyü yurda, Rövşən isə Koroğluya çevrilir. Bu yenilməz sərkərdəni dəlilərə, yoxsul insanlara daha çox sevdirən mərdliyi, ədalətli olması və igidliyidir. Varlanmaq, şöhrət qazanmaq xalqa arxalanan, ondan güc, qüdrət alan Koroğlunun təbiətinə yaddır.

Koroğlunun başına yığışan, ətrafında sıx birləşən *dəlilər – silah yoldaşları* üçün ümumi olan cəhətlər az deyildir; mərdlik, qorxmazlıq, haqqın, ədalətin tərəfində durmaq, dostluqda sədaqətli olmaq, düşmənə nifrət və s. onları birləşdirən cəhətlərdəndir. Bu igidləri bir-birindən fərqləndirən xüsusiyyətlər də çoxdur. **Dəli Həsən** təmkinli, tədbirli olması ilə seçilir. **Eyvaz** səmimiliyi ilə dəlilərin sevimlisi olur. **Bəlli Əhməd** təvazökarlığı, **Dəmirçioğlu** isə səbirli və dözümlülüyü ilə diqqəti cəlb edir.

Dastanı oxuduqca bu el qəhrəmanlarının əxlaqına, davranışına heyran olmamaq mümkün deyil. Sadə insanların, zəhmət adamlarının içindən çıxan bu igidlər öz başçılarına layiq insanlardır.

Eposdakı *qadın* surətlərinin də oxşar cəhətləri çoxdur. Onların, demək olar ki, hamısı xotkar, şah, bəy, xan qızlarıdır. Haqqın, ədalətin, bərabərliyin, mənəvi azadlığın hökm sürdüyü Çənlibel hamı kimi, bu qızları da cəlb edir. Dəbdəbəli saray həyatından üz döndərib bu yurda gələn xanımlar burada sədaqət, vəfa, səmimilik görürlər. Koroğlu dəliləri ilə xoşbəxt ailə quran bu qızlar çətin anlarda ərlərinə arxa, dayaq olur, onlarla bərabər düşmənə qarşı vuruşurlar.

Ağıllı məsləhətləri, xeyirxahlığı ilə bütün dəlilərin hörmətini qazanan **Nigar xanım** Çənlibelin ağbirçək anası sayılır. Koroğlunu bir igid, mərd insan kimi yüksək qiymətləndirən Nigar xanım onun səhvlərini də üzünə deyir, dəlilərlə sərkərdənin arasında soyuqluğun yaranmasına imkan vermir.

Nigar vəfalı ömür-gün yoldaşı olur. Ərinin qocalığında ona qayğısını daha da artırır, onu fikir etməyə, dərd çəkməyə qoymur.

Dastanda yaradılmış **Telli xanım, Ruqiyyə xanım, Məhbub xanım** və başqa qadın surətləri ağıl, davranış və xoş rəftarları ilə hamının rəğbətini qazanırlar.

Xalqla, arxasız, kimsəsiz insanlarla amansız rəftar edən xotkar, şah, bəy, xan surətlərinə, demək olar ki, hər qolda rast gəlmək mümkündür. Koroğlu onların yuxusuna haram qatmış, hakimiyyətlərini xeyli məhdudlaşdırmışdır. Bu yenilməz igidlə açıq döyüşdən çəkinən hakim təbəqə onu məhv etmək üçün ağlagəlməz hiylələrə əl atır. Bu təbəqənin ən nüfuzluları Koroğlunu aradan götürmək üçün var-dövlətlərinin böyük bir qismini, hətta övladlarını – qızlarını belə qurban verməyə razıdırlar. Hasan paşa, Ərəb Reyhan, Bolu bəy və b. namərd, hiyləgər, amansız olduqları qədər də qorxaq və ikiüzlüdürlər. Onlar fürsət düşən kimi bir-birini aldadır, xotkarın rəğbətini qazanmaq üçün hər fırıldağa əl atır, ən yaxınlarına belə yalan danışırlar.

Koroğlu və onun dəliləri bütün döyüşlərdə onlara qalib gəlirlər. Bu, haqqın, ədalətin, düzlüyün, doğruluğun qələbəsidir.

Dastanın üzərində müşahidələrin dərinləşdirilməsi, mənbələrin araşdırılması bu deyilənlərə əhəmiyyətli əlavələrin edilməsinə imkan yaradır.

Dastanda bədiilik hansı vasitələrlə artırılmışdır?

Dastanın əsrlər boyu maraqla oxunmasının, geniş yayılmasının və yaşamasının səbəbləri çoxdur. Bunlardan ən mühümü onun bədii gözəlliyi, solmayan təravətidir. Bir-biri ilə heyrətamiz ustalıqla bağlanan, əlaqələndirilən əhvalatları həyəcansız oxumaq mümkün deyildir. Hadisələrin təsviri elə ilk cümlələrdən diqqəti cəlb



LAYİHƏ

edir, oxucunu, dinləyicini intizarda saxlayır, onun necə tamamlanacağı maraqla izlənilir.

Dastanda nəsrlə nəzmin əvəzlənməsi ona xüsusi gözəllik vermişdir. Əhvalat və hadisələrin təsviri nəsrlə verilmiş, hiss-həyəcanların ifadəsində isə daha çox qoşma və gəraylıdan istifadə olunmuşdur.

Dilimizin gözəlliyi, ifadə imkanlarının genişliyi dastanın hər cümləsində, səhifəsində açıq-aşkar duyulur. Obrazların hiss və düşüncələrinin, portretlərinin, döyüş səhnələrinin dəqiq seçilmiş söz və ifadələrlə əks olunması dastanın oxucusuna, dinləyicisinə hədsiz zövq verir və o, hadisələrin iştirakçısına çevrilir, qəhrəmanlarla gah fərəhli, gah da üzüntülü duyğular yaşayır. Onların taleyi üçün təhlükə yaranan anlarda həyəcanlanır, zəfər anlarında isə qəlbi iftixar hissi ilə dolur.

Dastandakı əhvalatlar axıcı bir dillə, təşbeh, metafor, təkrir, mübaliğə, litotadan, eləcə də xalq deyimləri, məsəllər, atalar sözlərindən bol-bol istifadə ilə nağıl olunur.

Dastanın (onun hər bir qolunun) maraqlı, cəlbedici süjetə, bitkin kompozisiyaya malik olması kamil sənət nümunəsi səviyyəsinə yüksəlməsində əhəmiyyətli rol oynayır.

> Dastanda əksini tapmış başlıca ideyalar hansılardır?

Mövzusunu tarixi hərəkatdan alan dastanda xalqın azad, firavan yaşamaq istəyi, haqsızlığa, ədalətsizliyə nifrəti geniş əksini tapmışdır. Buna uyğun olaraq, Koroğlunun və onun silahdaşlarının – dəlilərin bədii obrazı xalqın arzusuna və zövqünə müvafiq yaradılmış, onlara böyük məhəbbət ifadə edilmişdir. Dastanın yaradıcıları ədalətsiz şah, bəy və xanlara nifrətlərini də gizlətməmişlər.

Eposda anaya, qadına dərin hörmət, əməyə, zəhmət adamına rəğbət ardıcıl duyulur, mərd və dürüst olmağın üstünlükləri barədə müdrik fikirlərə, ibrətamiz əhvalatların təsvirinə yer verilir.

Dastanın qollarını bir ana xətt birləşdirsə də, hər birinin müstəqil süjet xətti var və oxucu onlarda yeni əhvalat və hadisələrlə qarşılaşır. Bu isə o deməkdir ki, dastan ideyaca zəngindir və bunu ciddi araşdırma aparmaqla əhatəli şərh etmək mümkündür.

## Evdə iş — Araşdırmanı davam etdirin

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) "Dədə Qorqud" eposu ilə "Koroğlu" eposunu hansı cəhətlərinə görə müqayisə etmək olar?

b) Hər iki dastanın türk xalqları arasında geniş yayılmasına səbəb nədir?

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## Mənbələr

1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. III cild, Bakı: Şərq-Qərb, 2005, səh.7.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
3. Koroğlu. Bakı: Lider nəşriyyat, 2005, səh. 24-25, 36, 39, 40-41.



LAYİHƏ

## HƏMZƏNİN QIRATI QAÇIRMASI
(ixtisarla)

**I dərs** • **Məzmun üzrə iş**

**1. Müstəqil oxuduğunuz qoldan aşağıdakı parçanı nəzərdən keçirin.**
**2. Tanış olmayan sözlərin mənasını və məcazları müəyyənləşdirin.**

Bağdad əhvalatından sonra xotkar ətrafa namələr yazıb adlı-sanlı paşaları, pəhləvanları, qoşun böyüklərini yanına çağırdı. Böyük bir məclis qurdu.

Elə ki hər kəs öz yerini tutdu, xotkar dedi:

– Nə qədər ki bu Koroğlunun səsi kəsilməyib, dünya üzündə zindəganlıq bizə haram olacaq. Sizi çağırmışam ki, tədbir tökəsiniz, görək necə eləyək ki, onu dünya üzündən yox edək. Budu, gün-gündən onun başının adamları çoxalır. Dünyanın hansı yerində bir dələduz varsa, gedib ona qoşulur. Axırda bir gün görəcəyik ki, budu, qoşun düzəldib şəhərlərimizi, kəndlərimizi alır. Ondan sonra ya gərək gedib ona nökərdən-naibdən olaq, ya da ki dağlarda, daşlarda qaçaqlıq edək.

Elə ki xotkar sözünü qurtardı, paşalar verdilər ağız-ağıza. Hərəsi bir cür tədbir tökdü. Biri dedi:

– Aldadaq, qonaq çağıraq, tutub dar ağacından asaq.

Biri dedi:

– Adamlarından ələ keçirək, pul verək, qızıl verək, öldürtdürək.

Biri dedi:

– Sən başa düşmürsən.

O birisi dedi:

– Sən qorxaqsan.

Qərəz, bu məclisdə bir səs-küy qalxdı ki, ağız deyəni qulaq eşitmədi.

Bunlar deyişməkdə olsunlar, sənə kimdən deyim, toqatlı Hasan paşadan. Bu Hasan paşa kim ola, kim olmaya, haman toqatlı Hasan paşa ola ki, atdan ötrü Koroğlunun atası Alı kişinin gözlərinin çıxarılmasını məsləhət görmüşdü. Həsən xan da onun gözlərini çıxartdırıb dünya işığına həsrət qoymuşdu.

Hasan paşa xotkarın sağ əli idi. Həmişə onun əziz günlərində süfrəsinin başında oturar, ağır günlərində də yastığının dibini kəsərdi. Özü də həm paşa idi, həm də çox bacarıqlı qoşun böyüyü idi, dava eləməyin min bir fəndini bilirdi. İndiyə kimi xotkar onu hansı qulluğa buyurmuşdusa, birə-beş yerinə yetirmişdi.

Qərəz, Hasan paşa da bu məclisdə idi. Elə ki səs-küy qalxdı, xotkar fikir verib gördü ki, bu danışanların heç biri qoşun çəkib Koroğlunun üstünə getmək fikrində deyil; hamı ondan qorxur. Elə birtəhər eləmək istəyirlər ki, ilanı Seyid Əhməd əli ilə tutalar. Xotkar üzünü Hasan paşaya tutub dedi:

– Hasan paşa, söz sənindi.

Hasan paşa durub xotkara baş əyib dedi:

– Xotkar sağ olsun, xotkar əmri ki var, Allah əmridi. Sən doğru buyurursan. Koroğlu, doğrudan da, çox tüğyan edib. Mən indiyə kimi ona fikir vermirdim. Deyirdim, paşalar özləri onun öhdəsindən gələrlər. İndi ki iş bu yerə çatıb, baş üstə. Onun atasının gözlərini mən çıxartdırmışam. İnşallah, xotkarın sayəsində özünü də bu İstanbul şəhərində dar ağacından mən asaram. Ancaq, xotkar sağ olsun, onun çoxlu adamları var ki, gəlib lap böyük-böyük məclislərə girib söhbətlərə qulaq asırlar. Sonra ona xəbər verirlər, odu ki, fikrimi sənə təklikdə deyəcəyəm.

Məclis adamları Hasan paşanın bu sözündən ürəkdə rəncidə oldularsa da, xotkarın qorxusundan büruzə verə bilmədilər.

Xotkar Hasan paşaya əhsən deyib məclisi dağıtdı. Elə ki tək qaldılar, Hasan paşa dedi:



LAYİHƏ

– Xotkar sağ olsun, Koroğlu bu saat çox güclənib. Onu aldatmaqla tora salmaq olmaz. Biz gərək üç tərəfdən qoşun çəkib onu halqa-mərəkə eyləyək, hamısını bir yerdə qırıb qurtaraq. Yoxsa bir onu öldürməklə bir kar aşmaz.

Xotkar dedi:

– Hasan paşa, sənə qırx gün möhlət verirəm. Əgər onu yox elədin, səni özümə sədr-əzəm eyləyəcəyəm. Yox, eləyə bilmədin, onda...

Hasan paşa dik qalxıb dedi:

– Sənə qurban olum! Mən əgər onu qolu bağlı sənin qabağına gətirə bilməsəm, özüm özümü həlak eləyərəm. Ancaq sən bütün paşaların, qoşun böyüklərinin ixtiyarını mənə ver!

Xotkar dedi:

– Külli-ixtiyarsan. Necə istəyirsən, elə də elə!

Hasan paşa baş əyib mürəxxəs olmaq istəyəndə xotkar dedi:

– Bir də bu zalım oğlu zalım bu tərəfə bir dənə karvan buraxmır. Hamısını soyur. Gərək birtəhər eləyib yaraqlı-yasaqlı bir karvan düzəldəsən, şəhərə bir az mal gətizdirəsən. Yoxsa bütün şəhərdə danışırlar ki, bəs xotkar qalıb Koroğlunun əlində aciz. Şəhərə mal gətirtdirə bilmir.

Hasan paşa əlini gözünün üstünə qoyub dedi:

– O da mənim gözüm üstə!

Onda xotkar Hasan paşaya rüsxət verdi. Özü də bütün paşalara namə yazdı ki, bəs Hasan paşa onların üstündə külli-ixtiyardı. Kim onun buyruğuna əməl eləməsə, dar ağacından asılacaq.

Qasid namələri aparmaqda olsun, sən eşit Hasan paşadan.

Hasan paşa oradan Toqata qayıdıb bir məclis düzəltdi. Tanıdığı, bildiyi böyük sərkərdələri, qoşun böyüklərini, pəhləvanları yanına çağırdı. Elə ki yerli yerini tutdu, Hasan paşa özü məclisə gəldi. Əvvəl-əvvəl bir məclisə göz gəzdirdi. Hamını gözdən keçirtdi. Elə ki arxayın oldu ki, hamısı öz bildiyi, tanıdığı, etibar elədiyi adamlardı, başladı danışmağa. Xotkar məclisində olanların hamısını onlara danışdı. Hamı əhvalatdan hali olandan sonra çıxardıb xotkarın möhürlü naməsini onlara oxudu, ondan sonra dedi:

– Bilin və agah olun! Bizim tədbirimiz belədi ki, Koroğlunun üstünə üç tərəfdən qoşun çəkək. Gərək elə eləyək ki, o, göz açmağa macal tapa bilməsin. İndi sizi bura yığmaqda mənim muradım budu ki, deyəsiniz görüm, bu işə kim qol qoya bilər? Kim üç qoşundan birinin sərkərdəsi ola bilər?

Məclisin üstünə elə bil su səpələdilər. Daşdan, divardan səda çıxdı, məclisdən səda çıxmadı. Onda Hasan paşa dedi:

– Qoşunun birisini mən özüm aparacağam. Özü də qabaq tərəfdən gedəcəyəm. O biri qoşunların biri sağ tərəfdən, biri də sol tərəfdən gəlib baş qatacaqlar ki, onlara da mən hər cür kömək eləyəcəyəm.

Yenə də məclisdən səs çıxmadı. Hasan paşa əmr elədi, iki badə doldurub gətirdilər. O, hər badəyə bir dənə qiymətli ləl salıb dedi: – O kimdi ki, bu badəni içə, ləli cibinə qoyub bu işə boyun ola. Mən əhd eləyirəm ki, Toqat paşalığını ona bağışlayam, üstəlik, qızlarımdan birini ona verəm.

Məclisin bir tərəfindən bir nəfər cavan adam ayağa durdu. Bu adam kim ola, kim olmaya, ərzincanlı Bolu bəy ola.

Bolu bəy Ərzincan qalasında qoşun böyüyü idi. İgid oğlanlardan biri idi. Özü də çoxdan idi ki, Hasan paşanın böyük qızı Dünya xanıma aşiq idi. Ancaq indiyə kimi neçə dəfə əl altından adam salmışdı, qızın ürəyini ələ almaq istəmişdisə, qız hər dəfə demişdi ki, iti görüm, qurdu görüm, onu görməyim. O da cürət eləyib Hasan paşanın yanına elçi göndərə bilməmişdi. Çünki bilirdi ki, Hasan paşa qızlarını çox istəyir. Onların bir sözünü iki eləməz. İndi ki Hasan paşa məsələni bu şəkildə qoydu, Bolu bəy fürsəti qənimət bilib ayağa durdu. Elə o ayağa durcaq Hasan paşa sevincək dedi:

– Mərhəba, Bolu bəy! Mən elə bilirdim ki, bu işə axırda sən gedəcəksən.



LAYİHƏ

Bolu bəy irəli yeriyib badənin birini Hasan paşadan aldı, dedi:
– Paşa sağ olsun! Sən bilirsən ki, mən bu işin öhdəsindən gələrəm. Ancaq mənim bir şərtim var.
Hasan paşa dedi:
– Şərtini de! Hər nə olsa, yerinə yetirəcəyəm.
Bolu bəy çox hiyləgər adam idi. O necə deyərlər, şeytana papaq tikib, təpəsinə də deşik qoyardı. Bir dəfə gözlərini dolandırıb məclisə baxdı, sonra üzünü Hasan paşaya tutub ucadan dedi:
– Paşa, mən bilirəm ki, bu, xotkar əmridi. Odur ki buradakı əhdə arxayınam. Bilirəm ki, burada xilaf söz olmaz. Necə ki əhd eləmisən, Toqat paşalığını mənə tapşıracaqsan, məni də özünə nökər eləyib qızını verəcəksən. Mənim sözüm onda deyil. Mənim şərtim budu ki, gərək pəhləvan Qəcər Alını, bir də Mehtər Murtuzu mənə verəsən.
Qəcər Alı Toqatın lap azman pəhləvanlarından idi. Hələ indiyə kimi onun arxasını yerə vuran, qılıncının qabağında qalxan saxlayan olmamışdı. Mehtər Murtuz da düz yeddi il Koroğluya mehtərlik eləmişdi. Çənlibeli yaxşı tanıyırdı.
– Şərtin şəkər üstə! Hamısına razıyam.
Bolu bəy badəni içdi, ləli götürüb cibinə qoydu, qayıdıb yerinə oturdu. Bundan sonra Hasan paşa ikinci badəni doldurub dedi:
– İndi növbə ikincinindi.
Elə bu sözdə bir qasid toz-torpağa bulanmış özünü saldı məclisə. Hasan paşaya baş əyib bir namə verdi. Hasan paşa naməni oxuyub gördü ki, Ərəb Reyhandandı. Yazıb ki: "Hasan paşa, eşitmişəm, Koroğlunun üstünə qoşun çəkirsən. Bil, agah ol! Koroğlu mənim düşmənimdi. Əgər razı olsan, mən də onun üstünə gedərəm".
Hasan paşa şadlığından bilmədi ki, nə etsin. O, Ərəb Reyhanı tanıyırdı. Bilirdi ki, zor adamdı. Koroğlu ilə olan əhvalatını da eşitmişdi. Üzünü məclisə tutub dedi:
– İkinci adam da öz ayağı ilə gəldi.
Bunu deyib Hasan paşa badəni qaldırıb qasidə verdi, dedi:
– Badəni iç! İçindəki ləli də aparıb ağana ver! Deynən ki, yolunu gözləyirik. Tez gəlsin. Gözümüz üstə yeri var.
Qasid badəni içdi. Ləli öpüb cibinə qoydu. Mürəxxəs olmaq istəyəndə Hasan paşa vəzirinə tapşırdı ki, qasidi aparıb yedirsin, içirsin, bir az da pul verib yola salsın, naməyə də cavab yazsın. Vəzir qasidi də götürüb getdi. Məclisdəkilər soruşdular ki, namə kimdən idi? Hasan paşa dedi:
– Ərəb Reyhandan.
Hamı şad oldu. Hasan paşa əmr elədi, çalanlar, oynayanlar gəldilər. Kef başlandı. Elə ki yedilər, içdilər, damaqlar duruldu, Mehtər Murtuz ədəblə baş əyib dedi:
– Paşam sağ olsun, xotkara da qurban olum, sənə də. Sizin buyruğunuz Allah buyruğudur. İndi ki bizi göndərirsən, gedəcəyik. Ancaq orasını da deyim ki, Koroğlunun igidliyinin yarısı Qıratdadır. Nə qədər ki o, Qıratın üstündədir, biz ona heç nə eləyə bilmərik. Əgər Koroğlunun müzməhəll eləmək istəyirsənsə, birtəhər elə o atı onun əlindən çıxart.
Söz, deyəsən, Hasan paşanın beyninə batdı. Məclisdəkilər də Mehtər Murtuzun sözünü təsdiqlədilər. Hasan paşa dedi:
– Murtuz, dərdi bilən dərmanını da bilər. De görüm, nə təhər eləmək olar ki, Qıratı onun əlindən çıxardaq?
Mehtər Murtuz dedi:
– Paşa, vallah, nə bilim? Day onun atını pul ilə alası deyilik ki? Gərək elə bir adam ola ki, canından keçə, Çənlibelə gedə. Ya Qıratı gətirə, ya da ki öz başını Koroğluya təslim verə.
Paşa bir məclisə baxdı. Hamı başını aşağı dikmişdi. Hasan paşa özü də bilirdi ki, bu çox çətin işdi. Heç kəs buna qol qoymaz. Fikirləşib yol axtarırdı ki, nə



LAYİHƏ

eləsin, birdən məclisin lap başmaq çıxanından cındırından cin ürkən bir adam qalxdı ayağa. Paşa baxdı ki, bu, keçəl Həmzədi.

Keçəl Həmzə sayılmayan, urvatı olmayan bir adam idi. Məscidə qoymazdılar ki, başmaq oğurlayar, tövləyə qoymazdılar ki, quşqun oğurlayar. Keçəl Həmzə kef məclisi başlananda gəlib birtəhər özünü salmışdı içəriyə ki, qarnını doyursun.

Qərəz, Həmzə məclisin ortasına yeriyib dedi:

– Paşa sağ olsun, bu işə mən gedirəm. Qıratı gətirdim, gətirmişəm, gətirə bilmədim, Koroğlu işi başa düşdü, nə olsun? Bir keçəl başdı, qoy qurban olsun sənə.

Hasan paşa dedi:

– Bala, Həmzə, əgər sən gedib Qıratı gətirsən, mən səni dünya malından qəni edərəm.

Həmzə dedi:

– Paşa, mənə tək dünya malı lazım deyil.

Paşa dedi:

– Sənə bəylik verərəm.

Həmzə dedi:

– Yox, paşa, o da mənə tək lazım deyil.

Hasan paşa dedi:

– Səni oğulluğa götürərəm.

Həmzə dedi:

– Yox, qurbanın olum, mənə təkbətəkliklə bunların heç biri lazım deyil. Üçünü də ki bir yerdə nə sən verməzsən, nə də mən istəmərəm. Gəl mən səndən elə bir şey istəyim ki, mənim üçün bunların hamısından qiymətli olsun, sənin üçün də hamısından ucuz.

Hasan paşa dedi:

– İstə görüm, o nədi elə?

Həmzə dedi:

– Deyirsiniz ki, Koroğlunun nə qədər igidliyi varsa, onun tən yarısı Qıratdı. Bu yarısını mən gətirəcəyəm. Sizə qalacaq yarısı. O yarısından da bir pay düşəcək Bolu bəyə. Sənə qurban olum, bu pay üçün sən ona Toqat paşalığını verdin, ləl verdin, bir də böyük qızın Dünya xanımı verdin. Gəl bu yarısı üçün də kiçik qızını ver mənə, gedim Qıratı gətirim.

Hasan paşa dedi:

– Ay axmaq, niyə bəyəm, bir qız nə oldu ki, bəylikdən, mal-dövlətdən, mənə oğul olmaqdan qiymətli oldu?

Həmzə dedi:

– Paşa, sən bilirsən ki, keçəl çoxbilmiş olar. Mən də gəlir-çıxarımı bilən adamam. Mən bilirəm ki, sən bu üç şeyin üçünü də mənə verən deyilsən. Amma qızı mənə versən, mən olaram sənin kürəkənin. Kürəkən ki var, elə oğula bərabər bir şeydi. Ondan sonra da bəylik də öz-özünə gələcək, mal-dövlət də.

Məclisdəkilər keçələ əhsən dedilər. Hasan paşa fikrə getdi. Qızı keçəl Həmzəyə verməyə ürəkdən razı deyildi. Amma bu tərəfdən də fikirləşirdi ki, Qırat gəlsə, Koroğlu basılacaq. O dedi:

– Həmzə, razıyam.

– Yox, paşa sağ olsun! Zəhmət çək, öz dilindən bir dənə kağız yaz, möhürünü də bas üstünə, ver qoyum cibimə. Ondan sonra mənə möhlət qoy. Vədə başına gətirdim – haqqımı ver, gətirmədim – boynumu vur.

Hasan paşa çar-naçar öz dilindən bir dənə qol kağızı yazdı, möhürünü də üstünə basıb verdi Həmzəyə. Həmzə kağızı alıb qoydu qoltuğuna. Sonra Hasan paşaya dedi:

– İndi mənə izin ver, mürəxxəs olum. Yolçu yolda gərək.

Bunu deyib Keçəl Həmzə məclisdən çıxdı. Hasan paşa bu işə çox şad oldu, məclisi dağıtdı.

*(“Koroğlu”. Bakı: Azərnəşr, 1974)*



LAYİHƏ

### I dərs • Məzmun üzrə iş

**3. Kiçik qruplarda birləşərək oxuduğunuz parçanın məzmunu, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərinizi bölüşün, aşağıdakı sualları da əhatə etməklə təqdimata hazırlaşın.**
- Xotkarın narahatlığına səbəb nə idi?
- Xotkarın təklifinə Hasan paşanın münasibəti necə oldu?
- Hasan paşa Toqatdakı məclisdə öz niyyətini necə izah etdi?
- Hasan paşanın təklifinə Bolu bəyin razı olmasının əsl səbəbi nə idi?
- Bolu bəy Hasan paşadan nə xahiş etdi?
- Ərəb Reyhanın məktubu hansı məzmunda idi?
- Mehtər Murtuz Hasan paşaya nəyi məsləhət gördü?
- Keçəl Həmzə Qıratı gətirməyə hansı şərtlə razı oldu?

**4. Təqdimatlar etməklə gəldiyiniz nəticələr barədə məlumat mübadiləsi və müzakirə aparın.**

#### Evdə iş

1. **Qolun ardını ("Bolu bəyə deməlisini dedi, tapşırmalısını tapşırdı, yola saldı ki, gedib hazırlaşsın" cümləsindən "Koroğlu elə bil birdən yuxudan ayıldı" cümləsinə kimi) nəzərdən keçirin.**
2. **Tanış olmayan sözlərin mənasını aydınlaşdırın, onların (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduqlarını əsaslandırın.**
3. **Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
4. **Qoldan seçdiyiniz hissəni hazırladığınız plan əsasında iki formada – geniş və yaradıcı danışmağı öyrənin.**

### II dərs • Məzmun üzrə iş

1. **Kiçik qruplarda birləşərək evdə təkrar etdiyiniz parçanın məzmunu, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərinizi bölüşün.**
2. **Qolda hansı mənəvi-əxlaqi dəyərlərə önəm verildiyini müəyyənləşdirin.**
3. **Geniş və yaradıcı nağıletmə üzrə təqdimatları dinləyin.**
4. **Yerinə yetirdiyiniz işlərlə bağlı təqdimatlar əsasında məlumat mübadiləsi və müzakirə aparın.**

#### Evdə iş

1. **Qolun ardını ("Koroğlu elə bil birdən yuxudan ayıldı" cümləsindən sona kimi) nəzərdən keçirin.**
2. **Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
3. **Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
4. **Qoldan seçdiyiniz hissəni hazırladığınız plan əsasında iki formada – yığcam və yaradıcı danışmağı öyrənin.**

### III dərs • Təhlil üzrə iş

**Mətni fərdi olaraq oxuyun, ardıcıllığa əməl etməklə tapşırığı yerinə yetirin. Öncə tapşırıqla tanış olun.**
1. Birinci mətnkənarı sualı və onun cavabı ilə bağlı hissənin ilk cümlələrini oxuyun. Düşünün: Mətn sizin üçün çətin deyil ki?
2. Mətndəki başlıca fikirləri oxuda anlamağa çalışın. Bunun üçün mətnkənarı sualların məqsədini, onlardan irəli gələn fərziyyələri müəyyənləşdirin.
3. Hər bir sualla bağlı parçanın oxusu başa çatdıqdan sonra onu necə anladığınız barədə düşünün.



LAYİHƏ

4. Oxu başa çatdıqdan sonra bütövlükdə mətndə əks olunmuş başlıca fikirləri necə anladığınızı yoxlayın. Öyrəndiklərinizi fərziyyələrlə müqayisə etməklə bunu aydınlaşdıra bilərsiniz. Lazım gələrsə, mətni yenidən nəzərdən keçirin.
5. Vacib saydığınız fikirləri silinə bilən işarə ilə oxu zamanı mətndə qeyd edin və gəldiyinz nəticələri qısaca yazın.
6. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, təqdimatlar etməklə müzakirə aparın.

> Qol hansı mövzudadır? Onun ideya-məzmunu üçün önəmli olanlar nədir?

Dastanın digər qolları kimi, "Həmzənin Qıratı qaçırması"nın da müstəqil süjet xətti, özəl ideyaları vardır. Başda xotkar olmaqla, hakim təbəqənin adamlarının Koroğludan canlarını qurtarmaq üçün daim düşündükləri, ağlagəlməz hiylələrə əl atdıqları bu boyda daha qabarıq əks olunmuşdur. Bütün bunların nəticəsiz qalmasının bir səbəbi Koroğlunun ayıq, tədbirli sərkərdə olmasıdırsa, digər səbəbi onun öz silahdaşları və xalqla əlbir hərəkət etməsi, onlara arxalanmasıdır. Koroğlunun bu qolda səhvləri olur. Dəlilərin və xanımların etirazına baxmayaraq, Həmzənin Çənlibeldə yaşamasına razılıq verir. Yenə etirazlara baxmayaraq, Düratı ona tapşırır. Bu, Koroğluya baha başa gəlir. Boyun əsas ideyasını baş vermiş bu hadisədən çıxış etməklə aydınlaşdırmaq doğru olar.

> Qolda Koroğlu obrazının hansı yeni səciyyəvi xüsusiyyətləri üzə çıxır?

Dastanı oxuduqca, qoldan-qola keçdikcə Koroğlu obrazını daha dərindən tanımaq olur. Başqa sözlə, hər qolda bu xalq qəhrəmanına məxsus yeni bir xüsusiyyətin əks olunduğunu müşahidə etmək mümkündür. O, bəlkə də, ilk dəfə silah yoldaşlarının və xanımların dediklərinə – etirazlarına əhəmiyyət vermir, Həmzənin Çənlibeldə yaşamasına imkan yaradır, ona etibar edir. Həmzənin xəyanətini Koroğlu heç cür qavraya bilmir, onun namərd hərəkətini bu mərd, saf qəhrəman anlamaqda, izah etməkdə çətinlik çəkir. Son dərəcə təəccüblənmiş Koroğlunun sualı – Ay zalım, belə atı da bir qıza verərlərmi? – onun çaşqın vəziyyəti barədə aydın təsəvvür yaradır.

Dəyirmanın qarşısındakı dialoq Koroğlunun və Həmzənin mənəvi aləmi, həyata baxışı barədə dolğun təsəvvür yaradır.

Dəlilərlə sərt danışan, ağır dəqiqələr yaşayan Koroğlunun üç gün, üç gecə acsusuz yatmasının bir səbəbi də yoxsul təbəqədən olan Həmzənin görünməmiş xəyanəti, atdığı şərəfsiz addım olur. Amma Koroğlu onu bağışlayır. Bu, oxucunu, dinləyicini düşündürür. Koroğlunun qəbul etdiyi qərar doğrudurmu? Həmzə cəzalandırılmalı deyildimi?

Heyrət içində olan oxucu, dinləyici bu yenilməz qəhrəmanın mənəvi gözəlliyinə, nəcibliyinə heyran olur.

Qolda Koroğlu obrazının xarakteri üçün yeni olan cizgilər çoxdur. Bunları aydınlaşdırmaq üçün boyu bir daha diqqətlə nəzərdən keçirmək, başlıcası isə mənbələri ətraflı öyrənmək lazımdır.

> Qoldakı digər obrazlar üçün səciyyəvi olan başlıca cəhətlər hansılardır?

Qolun maraqla oxunmasının bir səbəbi də onda bir-birini təkrar etməyən obrazların yaradılmasıdır. Onların hər birinin öz aləmi, öz dünyası var. Bu obrazlar həyata baxışları, insanlara, ətraflarında baş verənlərə münasibətlərinə görə fərqlənirlər. Hətta eyni təbəqəyə daxil olanların da ümumi cəhətləri ilə yanaşı, fərqli xüsusiyyətləri də vardır.

Qolda diqqəti daha çox cəlb edən ikinci obraz **Nigar xanımdır**. Yaşından, mövqeyindən asılı olmayaraq, bütün dəlilər onu ana kimi sevir, hörmət edir, bir sözünü iki eləmirlər. Bu nüfuzu ona qazandıran ədalətli, səmimi, şəfqətli olmasıdır. Həmzə əhvalatında dəlilərin fikrini müdafiə edən Nigar xanım haqqın,



LAYİHƏ

doğru olanın tərəfində durur. Qolun məzmunu bu ağıllı, uzaqgörən xanımın xarakteri, həyata, insanlara münasibəti haqqında daha ətraflı fikir deməyə imkan verir. Bu obraz mənbələrdə də geniş təhlil edilmişdir.

**Xotkar** boyda az görünsə də, danışığı, nitqi ilə özünü yaxşı tanıdır. O, qorxu içindədir, Koroğlunun vahiməsi yuxusuna haram qatıb. Aciz vəziyyətə düşən xotkar bunu gizlətmir, paşaların, sərkərdələrin yanında etiraf edir. Koroğlunu aradan götürmək onun ən böyük arzusudur və bu yolda heç nəyi əsirgəmir.

Boyda diqqəti daha çox çəkən obrazlardan biri də **Hasan paşadır.** O, "çox bacarıqlı qoşun böyüyü", "dava eləməyin min bir fəndini bilən" paşadır. Çox hiyləgər olan bu paşa Koroğlunu məhv etməklə həm rəğbət, həm də yüksək vəzifə qazanmaq istəyir. Paşa məqsədinə çatmaq üçün hər cür şərəfsizliyi özünə rəva bilir. Hətta çox istədiyi qızını heç bir hörməti olmayan Həmzəyə verməkdən də çəkinmir. Böyük vədlərlə adlı-sanlı sərkərdələri Koroğlunun üzərinə getməyə razı salan çoxbilmiş paşanı Koroğlu "biləyinə dolayır", qaçıb qala divarına dırmaşan Hasan paşa gülünc vəziyyətə düşür.

Doğrudur, **Həmzə** Koroğluya xəyanət edir, amma o, xaraktercə çox ziddiyyətlidir. Onu anlamaq, ona birmənalı qiymət vermək dinləyici, oxucu üçün bir sıra hallarda çətin olur. Koroğlunun: "Sən olasan duz-çörəyim, Həmzə, incitmə Qıratı" sözlərinin müqabilində keçəl ona yekəxana-yekəxana ağıl, məsləhət verir: "Koroğlu, igidliyin var, adın-sanın var. Mərd adamsan. Bir ay süfrənin qırıq-quruğundan yemişik, onu niyə dilinə gətirib başımıza vurursan? Heç sənə yaraşan sifət deyil. Bir də bir at nədi ki, onun üçün bu qədər yalvarıb-yaxarırsan?"

Bu sözləri də Həmzə deyir: "Mən sənin nəinki atını, heç bir tükünü də qıyıb Hasan paşaya verməræm".

Bu nədir: hiyləgərlik, yoxsa səmimilik?

Bu obrazı əhatəli təhlil etmək, ona əsaslandırılmış qiymət vermək üçün mənbələrin araşdırılması, öyrənilməsi vacibdir.

> Qol hansı bədii keyfiyyətləri ilə diqqəti cəlb edir?

Gözü qolun ilk cümlələrinə sataşan hər kəs onu birnəfəsə oxuyub başa çatdırmağa çalışır. Qolu aşığın ifasında dinləyənlər isə diqqət kəsilir, nəfəslərini dərmədən hadisənin necə nəticələnəciyini intizarla izləyirlər. Bu, əsrlər boyu beləcə davam edib. Bunun səbəbini dastanın yüksək bədii kamilliyi ilə izah etmək mümkündür. Ümumilikdə dastanda müşahidə edilən bədii keyfiyyətləri bu qolda da görmək olur. Süjetin son dərəcə maraqlı olması, kompozisiyanın bütövlüyü, dilin şirinliyi, obrazların nitqindəki özəllik, təsvirlərdə təbiilik, yumor çalarları qolda bədiiliyi yaradan və artıran vasitələr kimi diqqəti cəlb edir. Qolda obrazlılığı yaradan mühüm vasitə kimi məcazların ayrıca yeri var. Seçilmiş məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaq üçün bədii mətnin üzərində ciddi düşünmək, mənbələrdəki fikirlərdən bəhrələnmək məqsədəuyğundur.

## Evdə iş | Araşdırmanı davam etdirin

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
**2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
**3. Mövzulardan birini seçib işləyin:**
a) "Koroğlu nə üçün xalq qəhrəmanı sayılır?" mövzusunda inşa.
b) "Bu qolda diqqətimi daha çox çəkənlər" mövzusunda esse.

## Mənbələr

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. Koroğlu. Bakı: Lider nəşriyyat, 2005, səh. 37, 38, 45.



LAYİHƏ



Yeni Azərbaycan şeirinin yaradıcısı, misilsiz qoşma və qəzəllər ustası Vaqifin poeziyası son dərəcə zəngin və cazibədardır.

*Mikayıl Rəfili*

**Molla Pənah Vaqif**
**(1717–1797)**

## M.P.VAQİFİN HƏYATI, YARADICILIQ YOLU

• **Araşdırmaya hazırlaşın** | **M.P.Vaqifı haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın. Ədəbiyyat, tarix, coğrafiya dərslərində qazandığınız bilikləri xatırlayın, yığcam müzakirə aparın.**

1. **Mətni fərdi olaraq oxuyun, məlumatları aşağıdakı işarələrlə nişanlayıb qruplaşdırın:**
   + tanış olan məlumatlar;
   – əvvəl öyrənilmiş bilik və məlumatlara zidd olanlar;
   **!** maraqlı və yeni olan məlumatlar;
   **?** açıqlanmasına, daha əhatəli öyrənilməsinə ehtiyac duyulan məlumatlar.
2. **Gəldiyiniz nəticəni aşağıdakı cədvəldə qısaca yazın.**

| + | – | ! | ? |
|---|---|---|---|
| Bilirdim | Bildiklərimə ziddir | Mənim üçün yeni və maraqlı məlumatdır | Bu barədə daha çox bilmək istəyirəm |
| | | | |

3. **Kiçik qruplarda birləşərək fikir mübadiləsi və müzakirə aparın.** "Bu barədə daha çox bilmək istəyirəm" qrafasındakı qeydlərə əsasən əlavə öyrənilməsinə ehtiyac duyulan məsələləri bəndlər şəklində yazın.

Şairin həyatı, yaradıcılığı üçün daha önəmli olanlar nədir?

Molla Pənah Vaqif Qazax mahalının Qıraq Salahlı kəndində anadan olmuşdur. Əsl adı Pənahdır. Dövrünün elmli, bilikli adamlarından olduğundan adının əvvəlinə "molla" titulu artırılmışdır. O, mükəmməl mədrəsə təhsili almış, dini və dünyəvi elmləri, ərəb və fars dillərini dərindən öyrənmişdir.

XVIII yüzillik ictimai-siyasi cəhətdən mürəkkəb və ziddiyyətli olsa da, ədəbi-mədəni mühitdə keçən əsrdən başlanan yenilənmə, xəlqiləşmə bu dövrdə davam və inkişaf etmişdir. Yeni, rəngarəng xalq yaradıcılığı nümunələrinin yaranıb, dildə-ağızda dolaşdığı bir zamanda gənc Pənah daha çox bu ədəbiyyatın təsiri altında şeir yazmağa başlayır. "Vaqif" təxəllüsü ilə yaratdığı qəlboxşayan şeirləri onu tezliklə məşhurlaşdırır.

Şuşada məskunlaşan Vaqifin xoş sorağı Qarabağ hökmdarı İbrahim xana da çatır. O, saraya dəvət olunur və eşikağası (xarici işlərə baxan vəzir) təyin edilir.

Layihə

Ağlı, fərasəti ilə xanın böyük etimadını qazanan Vaqif Qarabağ xanlığının idarə olunmasında nüfuzlu siyasi xadim kimi iştirak edir.

Şair ömrünün sonlarında ağır, faciəli günlər yaşamışdır. Tale qoca sənətkarı Ağa Məhəmməd şah Qacarın əlindən alsa da, Qarabağ xanlığını ələ keçirmiş Məhəmməd bəy Cavanşirin zülmünə məruz qoyur.

Vaqif öldürülərkən evinin qarət olunduğu, əlyazmalarının itdiyi güman edilir. Dövrümüzə çatan əsərləri yaddaşlara hopan, hafizələrdə, şeir dəftərlərində hifz olunanlardır.

Vaqif Azərbaycan ədəbiyyatında erkən realizm ədəbi cərəyanının yaradıcısıdır. Şairin yaradıcılığında klassik romantik üslubda şeir nümunələri olsa da, xalq aşıq şeiri üslubunda yazılanlar üstünlük qazanmışdır.

Şair həm klassik üslubda (qəzəl, müxəmməs və s.), həm də xalq yaradıcılığı üslubunda (qoşma) şeirlər yazmışdır. Onun yaradıcılığında məhəbbətin tərənnümü mühüm yer tutur. Lakin şairin məhəbbət mövzusunda yazdığı əsərlərdə qədim və orta əsrlər poeziyasında əksini tapmış ilahi, sufiyanə eşq yox, real, gerçək eşq tərənnüm edilir. Sənətkarın lirik qəhrəmanları gerçək məhəbbət duyğularını yaşayan konkret insanlardır. Onların sevdikləri isə bəzən dəqiq adları göstərilən real gözəllərdir.

*Qoşma* janrında yazdığı şeirlər şairin yaradıcılığında sayca çoxluq təşkil edir. Təsadüfi deyildir ki, Vaqif öz *ədəbi məktəbini* sadəlik, xəlqilik, nikbinlik, həyatsevərlik kimi əlamətlərlə ölməzlik qazanan qoşmalarla yaratmışdır.

> Vaqifin qoşma janrına daha çox müraciət etməsinin səbəbini necə izah edərsiniz?

Məzmunca oxşar olan gözəlləmələrinin – insan gözəlliyinin tərənnümünə həsr edilən əsərlərinin cəlbedici olmasının səbəbi şairin onları tükənməyən ilhamla yeni çalarda, yeni təravətdə qələmə almasıdır. Vaqifin səmimi, ülvi hisləri, qadına humanist münasibəti bu şeirlərin hər birində fərqli şəkildə təzahür edərək oxucunun zövqünü oxşayır. Şair Azərbaycan qadınını geyimi, davranışı, mənəvi aləmi ilə birlikdə təqdim edir. Onu kamalda yetkin, gözəllikdə qüsursuz görməyi arzulayır. Bütün bunlar ədəbiyyatımızın real həyata, insanın gerçək duyğularına yaxınlaşması idi, əsl yenilik idi.

O, həyatının son günlərində qələmə aldığı "Bax", "Görmədim" kimi əsərlərində zəmanəsinin ictimai-siyasi eyiblərinə kəskin etirazını bildirmiş, nifrətini gizlətməmişdir.

> Həyatının son günlərində yazdığı əsərlər əvvəlkilərdən nə ilə fərqlənir?

Dostu Molla Vəli Vidadiyə ünvanladığı "Bax" rədifli qəzəlində şair insanları zamanın gərdişindən, baş verən hadisələrdən, Qacarın timsalında zalım, qəddar hökmdarların taleyindən ibrət almağa səsləyir:

Üz çevir Ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən nə şaha, nə xunxarə bax!

"Görmədim" müxəmməsi təkcə Vaqifin yaradıcılığında deyil, ümumiyyətlə, ədəbiyyatımızda ictimai lirikanın ən yaxşı nümunələrindən sayılır. Bu, Azərbaycan ədəbiyyatında erkən realizmin ən mükəmməl nümunəsidir. Zəmanəsində mövcud olan bütün təbəqələrə mənsub insanları bir-bir nəzərdən keçirən şair onların eyiblərini sadalayır, bu vəziyyətə düşmələrinin səbəbini açıqlayır:

Xah sultan, xah dərvişü gəda bilittifaq,
Özlərin qılmış giriftari-qəmü dərdi-fəraq,
Cifeyi-dünyayədir hər ehtiyacü iştiyaq,
Munca kim etdim tamaşa, sözlərə asdım qulaq,
Kizbü böhtandan səvayi, bir hekayət görmədim.



LAYİHƏ

Vaqif əsərlərində bədiiliyə hansı vasitələrlə nail olmuşdur?

Vaqifin poeziyası bədii sənətkarlıq baxımından orijinal və təkrarolunmazdır. Qoşmalarındakı oynaqlıq və aydınlıq, əruz vəznində yazdığı əsərlərdə sadəliyin nisbətən güclü olması təsadüfi deyildir. Bu, şairin ruhən xalqına, xalq həyatına və el ədəbiyyatına bağlı olmasından irəli gəlirdi.

Sevgiliyə müraciətlə yazılan şeirlərdə xəlqilik və həyatsevərlik elə güclüdür ki, onlar canlı söhbət təsiri bağışlayır, oxucunu dərhal cəlb edir.

Ala gözlü, sərv boylu dilbərim,
Həsrətin çəkdiyim canan, bəri bax!
Gecə-gündüz fikrim, zikrim, əzbərim,
Üzüldü taqətim, aman, bəri bax!

Zəngin qafiyələr, bol-bol istifadə edilən orijinal məcazlar, yeni rədiflər, xalqımızın min illərlə işlətdiyi ifadələr, məsəllər... Vaqif şeirinin aparıcı atributlarıdır. Əruz vəznində olan şeirlərində işlənmiş alınma sözlər onun əsərlərinin dil aydınlığına ciddi xələl gətirmir, xalq-danışıq dilinə məxsus sözlərin əhatəsində anlaşıqlı olur. Araşdırma bu deyilənlərin zənginləşdirilməsinə imkan yaradacaqdır.

## Evdə iş — Araşdırmanı davam etdirin

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) Vaqifi dövrünün görkəmli dövlət xadimi saymaq olarmı?
   b) Vaqif yaradıcılığının mühüm ədəbi hadisə hesab edilməsinə səbəb nədir?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## Mənbələr


1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. III cild, Bakı: Şərq-Qərb, 2005, səh.13–14.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
3. M.P.Vaqif. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, səh.5-6, 9-10




LAYİHƏ

## PƏRİ

### I dərs • Məzmun üzrə iş | Oxuya hazırlaşın

**Sualın üzərində düşünün, cavabını qısaca qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın. Cədvəldən istifadə edin.**

– Vaqifin qadının zahiri və mənəvi gözəlliyinə həsr olunmuş lirik şeirlər yazmasına səbəb, sizcə, nədir?

| Şairin gözəlliyi tərənnüm edən şeirlər yazmasına səbəb, sizcə, nədir? | Sualın qısa cavabı |
|---|---|
| | |

**Aşağıdakı qaydalara əməl etməklə şeirin məzmunu üzərində işləyin.**

**1. Əsəri fərdi olaraq səssiz oxuyun.**

**2. İzahına ehtiyac duyduğunuz misra və bəndləri cədvəldə qeyd edin.**

| İzahına ehtiyac duyduğum misra və bəndlər | Onların izahı |
|---|---|
| | |

**3. Tanış olmayan sözlərin mənasını aydınlaşdırıb cədvəldə qeydlər edin.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**4. Daha maraqlı hesab etdiyiniz məcazları cədvəldə qeyd edin.**

| Daha maraqlı hesab etdiyim məcazlar və onların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|
| | |

**5. Şeirdə hansı mənəvi-əxlaqi dəyərlərə önəm verildiyini aydınlaşdırın.**

**6. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, izahına ehtiyac duyduğunuz misra və bəndlərlə bağlı yaranan çətinlikləri müəllimlə müzakirə edin.**

**7. Təqdimatlar etməklə yerinə yetirdiyiniz bütün işlərlə bağlı fikir mübadiləsi və müzakirə aparın.**

Boyun sürahıdır, bədənin büllur,
Gərdənin çəkilmiş minadan, Pəri!
Sən ha bir sonasan, cüda düşübsən
Bir bölük yaşılbaş sonadan, Pəri!

İxtilatın şirin, sözün məzəli,
Şəkər gülüşündən canlar təzəli,
Ellər yaraşığı, ölkə gözəli,
Nə gözəl doğubsan anadan, Pəri!

Üz yanında tökülübdür tel nazik,
Sinə meydan, zülf pərişan, bel nazik,
Ağız nazik, dodaq nazik, dil nazik,
Ağ əllərin əlvan hənadan, Pəri!

Ovçusu olmuşam səntək maralın,
Çıxmaz xəyalımdan hərgiz xəyalın,
Ənliyi, kirşanı neylər camalın,
Sən elə gözəlsən binadan, Pəri!

Günəş təki hər çıxanda səhərdən,
Alırsan Vaqifin əqlini sərdən,
Duaçınam, salma məni nəzərdən,
Əskik olmayasan sənadan, Pəri!

### Evdə iş

**1. Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud öz sözlərimiz olduğunu əsaslandırın.**

**2. Qoşmanı janr və dil baxımından “Məni candan usandırdı...” qəzəli ilə müqayisə edin. Fikrinizi nümunələrlə əsaslandırın.**

### II dərs • Təhlil üzrə iş | Kiçik qruplar yaradaraq tapşırığı yerinə yetirin

**1. Mətnkənarı sualları qrupların arasında bölün.**
Qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər.



LAYİHƏ

2. **Suallara yığcam cavab yazın. Qoşmanın məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin. Cədvəldən istifadə edin.**

| Mətnkənarı suallar | Onlara hazırlanan cavablar |
|---|---|
| | |

3. **İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra sualların dərslikdəki cavabalarını oxuyun və yazdıqlarınızla müqayisə edin.**



4. **Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edin.**
5. **Şeirin ilk iki bəndinin ifadəli oxusuna hazırlaşın. İfaçılıq vəzifəsini müzakirə əsasında müəyyənləşdirin.**

Qoşma hansı mövzuda yazılmışdır?

"Pəri" qoşması ilə hələ aşağı sinifdə tanış olmuş, aydın, şirin dildə yazıldığını dərhal duymuş, onu dönə-dönə oxumusunuz. Şeirin məzmunu üzərində işləyəndə isə yeni çalarlarını, bədii gözəlliyini hiss etdiniz. Onu da hiss etdiniz ki, şeir el-obanın təriflədiyi, şairin özünün də yaxşı tanıdığı ağıllı bir qıza həsr edilib. Bu qəbildən şeirlərin mövzusunu müəyyənləşdirmək sizin üçün çətin deyildir. Eləcə də araşdırma bu barədə ətraflı fikir deməyə imkan yaradır. Belə bir şeirdə başlıca fikir nə ola bilər? Əsərdəki hər bir misranın üzərində düşünməklə, mənbələrdəki fikirləri mənimsəməklə bu suala əsaslandırılmış cavab vermək olar.

Şeirin ideya-məzmunu üçün önəmli olanlar nədir?

Vaqif Azərbaycan qadınını daha uca məqamda, yüksək mərtəbədə görməyi arzulayır. Ona görə də "hər yetən gözələ" "gözəl demir"; o həm mənəvi aləmi, həm də xarici görünüşü ilə gözəl olmalıdır. Sifətin göyçək olması, Vaqifə görə, hələ gözəl olmaq deyil; beləəri "ellər yaraşığı", "ölkə gözəli" sayıla bilməz. Ağıllı, ədəbli olanlar, Vaqifə görə, həqiqi gözəllərdir. Şairin fikrincə, gözəl o kəs sayıla bilər ki, şeiri duya bilsin, başa düşsün, ondan zövq alsın. "Qafiyə qəzəldən həm çıxa başı", – deyən şair "Artıq ola həm kəmalı gözəlin" – fikrini dönə-dönə təkrar etməklə kamil gözəlliyə üstünlük verir.

Pərinin tanınmasına, sevilməsinə, "ellər yaraşığı", "ölkə gözəli" sayılmasına səbəb onda məhz bu xüsusiyyətlərin olmasıdır. Mənbələrdəki fikirlərin mənimsənilməsi şeirin ideyasının, lirik qəhrəmanın hiss, düşüncə və davranışı üçün mühüm olanların aydınlaşdırılması və qiymətləndirilməsinə imkan yaradır.

Şeir hansı bədii keyfiyyətləri ilə diqqəti cəlb edir?

Vaqifin qoşmaları içərisində "Pəri"nin xüsusi yeri var. Şeirdə canlı danışıq dilinin üstünlüyü aydınca duyulur. Sözlərin uğurla seçilməsi, misralarda ustalıqla yerləşdirilməsi güclü ahəngin yaranmasına az təsir etmir.

Mükəmməl təşbeh, epitet, təkrir, alliterasiya, assonans, frazeologizm, zəngin qafiyələr və s. şeirə xüsusi gözəllik və obrazlılıq gətirmişdir.

LAYİHƏ

"Pəri" qoşması həm ideya-məzmununa, həm də bədii xüsusiyyətlərinə görə mükəmməl realist şeir nümunəsidir. Mətnin üzərində müşahidələri dərinləşdirməklə, mənbələrin əsasında araşdırma aparmaqla bu barədə əhatəli fikir yürütmək mümkündür.

**Evdə iş** **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
3. **Qoşmanın ifadəli oxusunu hazırlayın.**

**Mənbələr**


1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. III cild, Bakı: Şərq-Qərb, 2005, səh.13-14.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
3. M.P.Vaqif. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, səh.7-8, 11.


## BÖLMƏNİ YEKUNLAŞDIRARKƏN

Aşağıdakı özünüqiymətləndirmə cədvəlini dəftərinizdə çəkin. Hər sütundakı başlıqların tələbinə uyğun qeydlərinizi yazın.

| № | Bölmə üzrə bilik və bacarıqlarım | | | |
|---|---|---|---|---|
| | Bölmədən əvvəl | | Bölmədən sonra | |
| | Bilirdim | Bacarırdım | Öyrəndim | Bacarıram |
| | | | | |

Çətinlik çəkdiklərinizi, onları necə aradan qaldıracağınızı qısaca yazıb, müəlliminiz, sinif yoldaşlarınız və valideynlərinizlə müzakirə edin.

| Çətinlik çəkdiklərim | Onları necə aradan qaldıra bilərəm |
|---|---|
| | |



LAYİHƏ

## MOLLA VƏLİ VİDADİ

### Könlümü...

Ey həmdəmim, səni qanə qərq eylər,
Gəl tərpətmə yaralanmış könlümü.
Ayrı düşmüş vətənindən, elindən,
Həmdərdindən aralanmış könlümü.

Könül verdik hər bivəfa yadlara,
Hayıf oldu, ömür getdi badlara,
Fələk saldı dürlü-dürlü odlara,
Şan-şan olmuş, paralanmış könlümü.

Qanlı yaşım gündən-günə bollandı,
Axdı-axdı, sinəm üstə gölləndi,
Yenə qəm səməndin mindi yollandı,
Heç bilmədim bərələnmiş könlümü.

Gözüm yaşı gündən-günə fərq etsə,
Eyb etməyin məni qanə qərq etsə.
Rövşən etməz yüz min günəş bərq etsə,
Bu möhnətdə qaralanmış könlümü.

Vidadi xəstəyəm, çeşmi mərdümü,
Tərk elədim vətənimi, yurdumu,
Çox təbibə şərh elədim dərdimi,
Heç görmədim çaralanmış könlümü.



LAYİHƏ

## AZƏRBAYCAN ƏDƏBİYYATINDA MAARİFÇİ-REALİZM DÖVRÜ

### • Araşdırmaya hazırlaşın

1. **XIX yüzillik Azərbaycan ədəbiyyatı, onun tanınmış nümayəndələrinin yaradıcılığı haqqında ədəbiyyat dərslərində öyrəndiklərizi yada salıb yığcam müzakirə aparın.**
   Həmin dövrdə Azərbaycanın ictimai-siyasi həyatında, mədəniyyət, incəsənət sahəsində baş vermiş mühüm dəyişikliklər haqqında tarix dərslərindən, əlavə mənbələrdən mənimsədiyiniz biliklərdən istifadə edin.
2. **BİBÖ cədvəlinin ilk iki sütununda qeydlər edin.**

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

3. **Mətnkənarı sualların sayı qədər kiçik qruplar (qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər) yaradın. Sualların cavabını – dərslikdəki mətni oxuyun. Cavablarda daha mühüm hesab etdiklərinizi, onlara nələri əlavə etməyin vacib olduğunu qısaca yazın.**
4. **Aşağıdakı fikirlərin üzərində düşünün, müzakirədə onlara münasibət bildirin.**
   – *Maarifçilik, ümumiyyətlə, təhkimçilik hüququnun və onun iqtisadi, ictimai hüquq sahələrində doğurduğu nəticələrin əleyhinə çıxan və bu ictimai quruluşun məngənəsində sıxılıb əzilən xalq kütlələrinin, xüsusilə kəndlilərin mənafeyini müdafiə edən bir hərəkat kimi meydana çıxmışdır.*

   *(Feyzulla Qasımzadə)*

   – *Qərb maarifçiliyinin əsaslarını təşkil edən feodal əxlaqı və mülkiyyətindən imtina edilməsi, despot monarxist mühitə tənqidi münasibət bəslənilməsi və maarifçilik ideallarının müdafiə olunması Azərbaycan ədəbiyyatının yeni dövrünün əsas istiqamətlərini müəyyənləşdirmişdir.*

   *(İsa Həbibbəyli)*

5. **Təqdimatlar etməklə gəldiyiniz nəticələr barədə fikir mübadiləsi və müzakirə aparın. BİBÖ cədvəlinin sonuncu sütununda müvafiq qeydlər edin.**

> XIX əsr ədəbiyyatımızın inkişafına hansı ictimai-siyasi və ədəbi-mədəni amillər təsir göstərmişdir?

Bu yüzillik xalqımızın tarixində ziddiyyətli, məhrumiyyətlərlə dolu bir dövr kimi səciyyələndirilir. Parçalanaraq xanlıqlara ayrılmış, zəifləmiş ölkəyə Rusiyanın sahiblənmək iddiası güclənmiş, iştahası itiləşmişdi. Ölkəmizə yiyələnməkdə onun həm siyasi, həm də iqtisadi məqsədləri vardı. Azərbaycanın əlverişli strateji-coğrafi mövqeyi ona, ilk növbədə, qalxan, sipər kimi lazım idi. Rusiya bu ölkədən hərbi-strateji məqsədləri üçün istifadə etməyi planlaşdırırdı. Təbii sərvətləri ilə zəngin Azərbaycan iqtisadi çətinliklər içində çapalayan Rusiyaya bitib-tükənməyən sərvət mənbəyi ola bilərdi və oldu da.

LAYİHƏ

Xanlıqların birləşdirilərək vahid dövlət yaratmaq təşəbbüsləri nəticəsiz qaldı. Əsrin lap əvvəllərindən etibarən, Rusiya Azərbaycan xanlıqlarını bir-bir ələ keçirməyə başladı. Bu, qonşu dövlətləri narahat edirdi. Rusiya ilə müharibəyə başlayan İran məğlub olub, 1813-cü ildə onunla "Gülüstan" sülh müqaviləsini bağlamağa məcbur oldu. Bu dəfə xanlıqların böyük bir qismi Rusiyanın tərkibinə qatıldı. Rusiyanın güclənməsini, nüfuzunun artmasını istəməyən xarici dövlətlər, xüsusən İngiltərə İrana hərbi yardım edərək onu müharibəyə təhrik etdi. Azərbaycan müharibə meydanına çevrildi, qətl, qarət ölkəyə ağır zərbə vurdu. Yenidən məğlubiyyətin acısını dadan İran 1828-ci ildə Rusiya ilə "Türkmənçay" sülh müqaviləsini bağlamağa məcbur oldu. Azərbaycan Araz çayı ilə iki hissəyə parçalandı: cənub hissəsi İranın, şimal hissəsi isə Rusiyanın müstəmləkəsinə çevrildi. Rusiyanın mənfur müstəmləkə siyasəti Azərbaycanın iqtisadi inkişafını əhəmiyyətli dərəcədə ləngidirdi. Rusiyadakı təhkimçi-feodal quruluşun mənfi cəhətləri Azərbaycanda da özünü göstərirdi. Rusiyanın iqtisadi həyatında baş verən inkişaf isə Azərbaycanda müşahidə olunmurdu. Sənayedə artım yox dərəcəsində idi, kəndli təsərrüfatı məhdud, əmək alətləri isə ibtidai idi.

Əsrin 30–40-cı illərində iqtisadi vəziyyət nisbətən dəyişdi. Rusiyanın toxuculuq sənayesi üçün göndərilən xammalın həcmi artdı, Azərbaycana müxtəlif parça növlərinin idxalı çoxaldı. Lakin bu, əhəmiyyətli irəliləyişə səbəb olmadı.

Rusiyanın müstəmləkə kimi baxdığı Azərbaycanda yürütdüyü siyasət də özünü doğrultmadı; bəylik hüququnun ləğv edilməsi, bəylərin ölkənin idarə edilməsi işindən uzaqlaşdırılması mülkədarlar tərəfindən kəndli üsyanlarının qızışdırılmasına səbəb oldu. Rusiya hökuməti səhvini dərhal düzəltdi, bəylərin, mülkədarların imtiyazları bərpa edildi, kəndlilərin vəziyyəti isə daha da ağırlaşdı.

Ölkəni idarə etmək üçün rus dilini bilən adamlara ehtiyac olduğundan 30–40-cı illərdə məhdud sayda rus dilində qəza məktəbləri açıldı.

Əsrin 50–60-cı illərində Rusiya iqtisadiyyatının inkişafı müəyyən dərəcədə Azərbaycana da təsir etdi. Rus və xarici kapitalistlərin təşəbbüsü ilə kənd təsərrüfatında yeniliklər tətbiq edildi, zavod və fabriklər tikilməyə başlandı. İri ticarət şirkətləri yaradıldı, dəniz nəqliyyat gəmilərinin sayı çoxaldıldı. Bütün bunlar az sonra – 70-ci illərdə Azərbaycanın kapitalist inkişaf yoluna düşməsinə şərait yaratdı. Rus hökumətinin neftlə bağlı yeni siyasəti rəqabətin yaranmasına və neft sənayesinin sürətlə inkişafına səbəb oldu. Zaqafqaziya dəmir yolunun çəkilməsi ticarətin həcmini daha da artırdı. Azərbaycan bazarları Rusiyada hazırlanan sənaye malları ilə dolduruldu. Yerli kustarlar ölkəyə gətirilən ucuz sənaye malları ilə rəqabətə davam gətirməyib fəaliyyətlərini dayandırırdılar.

Bakı istisna olmaqla, Azərbaycanın digər bölgələrinin, şəhərlərinin iqtisadiyyatında əsaslı dəyişiklik baş vermirdi. Bakı genişlənir, dəyişir və 70-ci illərə qədər öndə gedən Tiflisi geridə qoyaraq mədəni mərkəzə çevrilirdi.

İqtisadiyyatdakı irəliləyiş Bakıda milli-mədəni inkişafa da təsir edirdi. Şəhərdə, təhsil, elm, incəsənət sahəsində canlanma müşahidə olunurdu. Bakıda, eləcə də bölgələrdə qəza məktəblərinin sayı nisbətən artdı, az da olsa, "realnı" məktəblər fəaliyyətə başladı.

Qori Seminariyasında "Müsəlman şöbəsi"nin yaradılması isə rus və Avropa ədəbiyyatının, mədəniyyətinin öyrənilməsinə geniş imkan yaratdı.



LAYİHƏ

Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun rəhbərliyi ilə 1873-cü il mart ayının 10-da Bakı realnı gimnaziyasında təhsil alanlar M.F.Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsərini səhnədə canlandırdılar, az sonra isə "Hacı Qara" komediyasını da səhnəyə qoydular. Milli teatrın yaranması bölgələrdə də canlanmaya səbəb oldu. Bu, həmçinin ədəbiyyatımızda dramatik ədəbi növə maraq və meylin artmasına təkan verdi.

H. Zərdabi çox böyük çətinliklə 1875-ci ildə nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə milli mətbuatın bünövrəsini qoydu. Bu mətbuat orqanı maarifçiliyin yayılmasında əhəmiyyətli rol oynadı. Qəzetin ömrü az olsa da, səpdiyi toxumlar cücərdi – az sonra digər mətbuat orqanları fəaliyyətə başladı.

Rus ədəbiyyatından tərcümələr, Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafı milli ədəbiyyatımızda realizmin güclənməsinə az təsir etmədi. Lakin bu əsrdə klassik poeziyanın təsiri hələ də mövcud idi. Qəzəl nəzirəçiliyi, mərsiyə və təriqət şeirləri XIX əsr boyu yazılır və yayılırdı. Bununla belə, yeni bədii düşüncə günbəgün güclənir, realizmin addım səsləri qüvvətlənməkdə davam edirdi. Yeniliyin carçıları içərisində maarifçilər diqqəti dərhal cəlb edirdilər.

> XIX əsr ədəbiyyatında ilk maarifçilik ideyaları hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Kövrək addımlarını atan *realizmin* əsas yaradıcıları *maarifçilər* idi. Maarifçilik əzilən kütlənin, xüsusən kəndlilərin mənafeyini müdafiə edən mütərəqqi hərəkat kimi meydana çıxmışdır. Maarifçiliyin mühüm amallarından biri savadsız kütlələri maarifləndirmək yolu ilə hüquqlarını onlara anlatmaq idi. Maarifçilər köhnə həyat tərzini tənqid edir, yenilikçi ideyaların müdafiəsinə qalxırdılar. İctimai-mədəni tərəqqiyə çağırış maarifçi ədəbiyyatın əsas qayəsi idi. Bütün bunların ədəbiyyatda əks etdirilməsi baxımından maarifçiliklə realizmin funksiyaları bir-birini tamamlayırdı. Ona görə də maarifçi realizm Azərbaycan ədəbiyyatının aparıcı istiqamətini müəyyən edən əsas amilə çevrildi. Azərbaycanda ilk maarifçilik ideyaları daha çox *A.Bakıxanovun* yaradıcılığında əksini tapmışdır. Onun elmi-ədəbi irsi zəngin, rəngarəng və çoxcəhətlidir. Ədibin maarifçi görüşləri "Təhzibül-əxlaq", "Kitabi-nəsihət", "Kitabi-Əsgəriyyə", "Mişkatül-ənvar" əsərlərində ifadəsini tapmışdır. O, "Miratül-cəmal", "Mişkatül-ənvar" məsnəvilərində vətənpərvərlik, hökmdar və xalq, ölkənin ədalətlə idarə olunması problemini qaldırır, zülmü, cəmiyyətdəki nöqsanları tənqid edirdi. Zəmanəsində gördüyü ictimai bəlalar, haqsızlıq onun ədalətsizliyə qarşı etiraz, şikayət motivli əsərlər yazmasına səbəb olmuşdur:

Bülbül ilə qarğanı gör salırlar bir qəfəsə,
Fərq qoyulmur bu dünyada məhəbbətlə həvəsə.
Təəssüf ki, bu ömrümüz boşa gedir anbaan,
Nə xeyir işə sərf olunur, nə sevgiyə, ah-aman!
Zəmanə min bəla verir, ürəyimi qanadır,
Üzümdəki allıq mənim ürəyimin qanıdır.

Elmi, maarifi, tərəqqini yüksək qiymətləndirən A.Bakıxanov geriliyin, cəhalətin əleyhinə çıxmış, maarifçi fikirlərində ardıcıl olmuşdur.

> XIX əsr poeziyasının mövzu, ideya-məzmun özəlliyi hansılardır?

Əsrin əvvəllərində ədəbiyyatda poeziya aparıcı mövqeyə malik idi. A.Bakıxanov, M.Ş.Vazeh, Q.Zakir, S.Ə.Nəbati, Heyran xanım kimi sənətkarlar klassik şeir janrları ilə



LAYİHƏ

yanaşı, həyatı və insan mənəviyyatının əks etdirən şeirləri ilə də diqqəti cəlb edirdilər.

Şair-mütəfəkkir Mirzə Şəfi Vazeh Azərbaycan – Qərb ədəbi-mədəni əlaqələrinin yaranıb inkişaf etməsində böyük rol oynamışdır. Onun şeirləri alman ziyalısı Fridrix Bodenştedtin tərcüməsində *"Şərqdə min bir gün"*, *"Mirzə Şəfinin nəğmələri"* kitablarında nəşr olunmuş, bir çox dillərə tərcümə edilərək, Avropada böyük şöhrət qazanmışdır. Lirik şair olan Vazehin şeirlərində *məhəbbət* mövzusu əsas yer tutur. Bu əsərlərdə insanın sevinc və kədər hissi, həyəcanları geniş əksini tapmışdır. Şair lirik qəhrəmanın qəlb aləminə dərindən nüfuz edir, təzadlı duyğularını aydın şəkildə əks etdirir:

Ağlımla qəlbimin özgə yolu var,
Hər biri bir yolda puç edər məni.
Birisi sevdadan uzaqlaşdırar,
O biri sevdaya tuş edər məni.

**Mir Həmzə Seyid Nigari** (1811–1885). XIX əsr ədəbiyyatımızın görkəmli nümayəndələrindəndir. Böyük sufi şair və mütəfəkkir Seyid Nigari Qarabağ mahalda anadan olmuşdur. Təriqət şeyxi olan ədib öz sələflərinin bədii irsinə dərindən bələd olmuş, Seyid Nigari və Qarabağı təxəllüsləri ilə təsəvvüf mövzularında Allah, peyğəmbər və əhli beyt eşqindən bəhs edən, insanı mənəvi dəyərlərə yiyələnməyə səsləyən əsərlər yazmışdır. Nigarinin bədii söz və fikir xəzinəsi olan divanında Azərbaycanda və Türkiyədə yazıb-yaratdığı, həm heca, həm də əruz vəznində şeirləri toplanmışdır.

Azadlıq aşiqi olmaq, mübarizlik, vətənpərvərlik Nigarinin insanda yüksək dəyərləndirdiyi məziyyətlərdir. Şairin öz Vətəninə, "dünyanın behişti" adlandırdığı Qarabağa həsr edilmiş şeirlərində bu mövqe ön plana çəkilmişdir:

Nə əcəb dövlət imiş seyri-şikari-Qarabağ,
Nə gözəl nemət imiş söhbəti-yari-Qarabağ.
Gövsəri-təbi imiş çayi-çinari-Qarabağ,
Aləmi-cənnət imiş dar-diyari-Qarabağ.

Şifahi xalq yaradıcılığı bütün yüzillik boyu inkişaf etməklə yanaşı, yazılı ədəbiyyata təsirini də davam etdirirdi. Aşıq yaradıcılığı məzmun və forma – şəkil baxımından zənginləşir, ictimai məzmun qazanırdı. Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli, Aşıq Pəri, Aşıq Əziz, Molla Cümə, Aşıq Mahmud, Aşıq Əhməd kimi görkəmli aşıqların yaradıcılığında saf, ülvi sevgi hislərinin, insan və təbiət gözəlliklərinin, mənəvi dəyərlərin tərənnümü, zəmanədən şikayət motivləri aparıcı yer tuturdu. Aşıq şeirinin növ və şəkilləri: qoşma, gəraylı, təcnis, qıfılbənd, dodaqdəyməz, dildönməz və s. sayca çoxaldığı kimi, keyfiyyət baxımından da təkmilləşir, zənginləşirdi.

Aşıq şeiri tərzində yazan şairlərin sayı daha da çoxalırdı. Qasım bəy Zakir, Mirzə Baxış Nadim, Əbülqasim Nəbati, Mirzə Mehdi Şükuhi, Əndəlib Qaracadaği və b. qoşma, gəraylı və s. janrlarda yazdıqları əsərlərdə həqiqi məhəbbəti, saf insani duyğuları tərənnüm edir, xalq dili xəzinəsindən gen-bol bəhrələnir, aydın, anlaşıqlı məcazlardan istifadə edirdilər. Xalq şeiri üslubunda yazılan əsərlərdə ictimai motivlərə də geniş yer verilirdi.



LAYİHƏ

Əsrin birinci yarısında satirik poeziya təşəkkül tapmağa başladı. Bu, ədəbiyyatda realizm meyillərinin güclənməsi ilə bağlı idi. Ədəbiyyatımızın əvvəlki dövrlərində xüsusən xalq yaradıcılığında satirik gülüşə rast gəlmək mümkündür. Yazılı ədəbiyyatda zəmanənin nöqsanlarına kəskin satirik münasibət az olmamışdır. Lakin bunlar bir sistem halında olmamış, ədəbi cərəyan şəklini almamışdır. 30–40-cı illərdə Qasım bəy Zakir, Baba bəy Şakir, Mirzə Baxış Nadim və digər satirik şairlərin əsərləri ədəbiyyatımızdakı bu boşluğu doldurdu. Tezliklə satira aşıq şeirində də özünü ardıcıl göstərməyə başladı. Ədalətsiz çar hakimləri, rüşvətxor məmurlar, hökumətin əzici qanun-qaydaları, zülmkar bəy və mülkədarlar, ikiüzlü ruhanilər realist-satirik şeirlərin əsas hədəflərinə çevrildilər.

Yaradıcılığı sonrakı illərə təsadüf edən S.Ə.Şirvani satirik ədəbiyyatın zənginləşməsinə qiymətli töhfələr verdi.

Əsrin ikinci yarısında Azərbaycanın müxtəlif bölgələrində təşkil olunan şeir məclisləri dövrün tanınmış, istedadlı şairlərini bir araya gətirirdi. "Məclisi-üns", "Məclisi-Fəramuşan" (Qarabağda), "Beytüs-Səfa" (Şamaxıda), "Məcməüş-şüəra" (Bakıda), "Fövcül-füsəha" (Lənkəranda), "Əncüməni-şüəra" (Ordubadda) adlanan bu məclislərdə klassik ədəbiyyatın öyrənilməsi, müzakirə edilməsi, tanınmış şairlərin əsərlərinə nəzirələr yazılması, dini, fəlsəfi mövzularda fikir mübadiləsi önəmli yer tuturdu.

"Məclisi-üns"ü hamiliyə götürməklə onun fəaliyyətinə daha səmərəli istiqamət verən Xurşidbanu Natəvanın zərif duyğuları əks etdirən əsərləri müasirləri və məclis üzvləri tərəfindən yüksək dəyərləndirilirdi. Onun şeirlərində lirik qəhrəmanın məhəbbət, sədaqət duyğuları ("Dilbəra, dərdi-dilimdən..."), daxili dünyası ("Ey dust", "Xudahafiz"), təbiət gözəllikləri, humanist ideyalar ("Bülbül", "Bənövşə") tərənnüm edilirdi. "Dilbəra, dərdi-dilimdən" qəzəlində lirik qəhrəman vüsal arzusu ilə yaşayır, arzusuna çata bilmədiyi üçün əzab çəkir. Hicran qəmindən könül mülkü viran olsa da, məhəbbətindən dönmür, hər cür fədakarlığa hazır olduğunu bəyan edirdi.

Dilbəra, dərdi-dilimdən belə ünvan etdim
Ki, qəmi-hicrdə dil mülkünü viran etdim.
Eşq sultanı mənim qətlimə fərman gətirib,
Etmədim tərki-vəfa, taəti-fərman etdim.

XIX yüzilliyin ədəbiyyatı forma zənginliyi ilə də seçilir. Bu dövrdə yaranan ədəbiyyatımızda mövcud ədəbi növ və janrların, demək olar ki, hamısından istifadə olunmuşdur. Lakin məzmunca yeniləşən ədəbiyyat həm də təzə forma tələb edirdi və bunun axtarışında idi.

> Realist ədəbiyyat hansı bədii formalarda yaradılırdı?

Bu baxımdan İsmayıl bəy Qutqaşınlının yaradıcılığı diqqəti cəlb edir. Onun bədii irsindən "Rəşid bəy və Səadət xanım" və "Səfərnamə" əsərləri qalmışdır. Yeni tipli bədii nəsr nümunəsi olan "Rəşid bəy və Səadət xanım" hekayəsi 1835-ci ildə Varşavada fransız dilində kitab halında nəşr olunmuşdur. Yüksək təbəqəyə məxsus iki gəncin – Rəşid bəylə Səadət xanımın məhəbbət macərasından bəhs edən əsərdə dövrün ailə-məişət məsələlərinə toxunulur, orta əsr adət-ənənələri, köhnəlik, mühafizəkarlıq, qadın əsarəti tənqid olunur. Yazıçı məhəbbət mövzusunda yazdığı bu hekayədə azad sevgi, qarşılıqlı məhəbbət əsasında ailə qurmaq ideyasını təbliğ edir.



LAYİHƏ

Bu əsrdə satiranın ilk nümunələrini yaradan sənətkarlar xalq şeri üslubunda yazdıqları əsərlərdə bədii düşüncələrini ustalıqla çatdıra bilmişdilər. Seyid Əzim Şirvani isə klassik şeirin əsasında kəskin realist-satirik əsərlərini yaratmışdır. Lakin 50–60-cı illərdə ədəbiyyatın mövzu baxımından gündən-günə genişlənməsi, ictimai satiranın dərinləşməsi, realist meyillərin qüvvətlənməsi və s. maariflənmə və müasirləşmə məsələlərini zərurətə çevirirdi. Bu zərurəti ilk duyan, elmi və bədii yaradıcılığı ilə vətəninə, xalqına misilsiz xidmət edən *Mirzə Fətəli Axundzadə* oldu. O, maarifçilik ideyalarını əks etdirən altı komediyası ilə ədəbiyyatımızda dramaturgiyanın, "Aldanmış kəvakib" əsəri ilə povest janrının əsasını qoydu.

Mirzə Fətəli əsrin bəlalarını, eyiblərini iti realist qələmi ilə komediyalarında kəskin tənqid edir, satiranı uğurla dramaturgiya və nəsrə köçürürdü.

M.F.Axunzadənin müasirləri ilə yaradıcılıq əlaqələrinin genişlənməsi maarifçilərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi ilə nəticələnmişdir. Maarifpərvər ədəbi qüvvələrin birliyi və əməkdaşlığı maarifçi realizmin ədəbi cərəyan səviyyəsinə yüksəlməsinə səbəb olmuşdur. Maarifçi ədəbi qüvvələri öz ətrafında birləşdirən və yeni ədəbiyyatın inkişafına istiqamət verən M.F.Axunzadə XIX əsrdə Azərbaycan ədəbiyyatında maarifçi realizm ədəbi cərəyanının banisi kimi hesab olunur.

Əsrin sonlarında M.F.Axundzadə ədəbi məktəbini uğurla davam və inkişaf etdirən Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə və b. sənətkarlar fəaliyyətə başladılar. Onların yaradıcılığında ifadəsini tapan realizm ictimai-satirik məzmunu, tənqid hədəflərinin çoxluğu ilə M.F.Axundzadə realizmindən fərqlənirdi.

Dramatik növün bütün janrlarında (*komediya, dram, faciə*) əsərlərin yaranması da yeni maarifçi realist ədəbiyyatın uğuru kimi dəyərləndirilir.

## Evdə iş | Araşdırmanı davam etdirin

1. **Sinifdə öyrəndiklərinizi aşağıda göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
3. **Qadın sənətkarların (Heyran xanım, Aşıq Pəri və s.) yaradıcılığı barədə topladığınız məlumat əsasında məruzəyə hazırlaşın.**
4. **İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsini elektron vəsaitdən oxuyun. Əsərin mövzusuna, qaldırılmış başlıca problemə və onun müəllif həllinə münasibətinizi əsaslandırın.**

## Mənbələr


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh. 5-6, 8-9, 10, 12, 18, 22, 25.




LAYİHƏ



Zakir feodal-patriarxal münasibətlərin hökm sürdüyü cəmiyyəti, çürüməyə başlayan qanun-qaydaları, istismarçı təbəqənin əxlaq və rəftarını, ümumiyyətlə, həyatda gördüyü nöqsanları cəsarətlə ifşa edirdi. Onun amansız həcvindən, acı gülüşlərindən nə bəy, xan, mülkədar, nə çar məmurları, nə də ruhanilər... yaxalarını qurtara bilməmişlər.

*Kamran Məmmədov*

**Qasım bəy Zakir**
**(1784–1857)**

## Q.ZAKİRİN HƏYATI, YARADICILIQ YOLU

• **Araşdırmaya hazırlaşın** | **Qasım bəy Zakir haqqında bildiklərinizi yada salıb yığcam müzakirə edin.**

**Aşağıdakı qaydalara əməl etməklə mətni oxuyun.**

1. **Mətni fərdi olaraq bütövlükdə nəzərdən keçirin.** Fərqləndirilmiş ifadələrə, cümlələrə xüsusi diqqət yetirin.
2. **Mətnkənarı sualların cavablarında daha mühüm hesab etdiklərinizi qısaca qeyd edin.**
3. **Mətnin məzmunu ilə bağlı fikrinizdə yaranan, sizi düşündürən sualları dəftərinizdə, yaxud iş vərəqində yazın.**
4. **Yazdığınız suallara cavab hazırlayın, bu zaman qısa qeydlər etməyiniz faydalıdır.** Mətndə birbaşa suallarla bağlı yerləri (söz, cümlə, abzas) silinməsi mümkün olan işarə ilə fərqləndirin.

| № | Suallar | Onların qısa cavabı |
|---|---|---|
| | | |

5. **Suallara hazırladığınız cavabları mətnə baxmadan parta yoldaşınıza danışın.** Unutduqlarınızı yada salmaq üçün danışdığınız məqamda mətnə baxa bilərsiniz.
6. **Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün.**
7. **Gəldiyiniz nəticələrə və öyrəndiklərinzə daha nələri əlavə etməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.**

Zakirin həyatı, yaradıcılığı üçün səciyyəvi olanlar nədir?

Qasım bəy Zakir Qarabağ mahalının Şuşa şəhərində bəy ailəsində dünyaya gəlmişdir. Mol laxanada təhsil almış, ərəb və fars dillərini öyrənmişdir. Çox sevdiyi aşıq poeziyası ilə bərabər, Şərqin böyük klassiklərinin əsərlərini də sevə-sevə oxumuş, ilk şeirlərini Füzuli yaradıcılığının təsiri altında yazmışdır.

Firidun bəy Köçərli xatirələrə əsaslanaraq Zakiri "xoşsurət, xoşsima... uca qamətli... rəhmli və mürüvvətli bir adam" kimi səciyyələndirir, onun sadə, nəcib təbiətə malik insan olduğunu yazırdı. Şair ömrünün çoxunu Xındırıstan kəndində yaşamış, təsərrüfatla məşğul olmuşdur. O, bu kəndin cüzi gəliri ilə sadə həyat sürmüşdür.

Zakir Qarabağ mahalında baş verən bütün mühüm hadisələri izləyir, haqsızlığın baş alıb getməsinə dözə bilmirdi. Elə buna görə də çar hakimiyyətinin rüşvətxor məmurları, ədalətsiz bəy və mülkədarlar, ikiüzlü ruhanilər onun amansız satirasının tənqid hədəfinə çevrilirdilər. Şairin düşmənləri çoxalır, o,



LAYİHƏ

müxtəlif bəhanələrlə günahlandırılır, həbsxana, sürgün həyatı yaşayır. Dostlarının, xüsusən də M.F.Axundzadənin səyi ilə sürgündən azad olub Şuşaya qayıdır, lakin sonrakı həyatını polisin nəzarəti ilə yaşamalı olur.

Keçirdiyi mənəvi sarsıntılar, çəkdiyi əzab-əziyyət şairi əldən salır. O, 1857-ci ildə Şuşada vəfat edir və Mirzə Həsən qəbiristanlığında dəfn edilir.

Q. Zakir lirik və epik növdə yazdığı əsərlərlə zəngin bədii irs yaratmışdır. Onun lirikası klassik və aşıq şeiri üslubunda yazdığı qoşma, gəraylı, təcnis, qəzəl, müxəmməs, müstəzad və s. ibarətdir. Poeziyamızı mövzu və ideya cəhətdən zənginləşdirən bu şeirlərin bir qismində insan gözəlliyi və haqiqi aşiqin təmiz məhəbbətindən söz açılır, digər qismində isə dövrün ictimai eyibləri, əxlaqi-mənəvi qüsurlar tənqid olunur.

Zakirin yaradıcılığında *satiraları* daha qiymətlidir. Bu qəbildən əsərləri ilə maarifçi realizmin ədəbi cərəyan kimi təşəkkül və inkişafına töhfə verən şairin satiranın bir cərəyan kimi formalaşmasında böyük xidməti olmuşdur.

> Zakirin mənzum hekayə və təmsillərini səciyyələndirən başlıca cəhətlər hansılardır?

Şairin yaradıcılığında *mənzum hekayələr* də mühüm yer tutur. Bu əsərlərin bir qismində ("Məlikzadə və Şahsənəm", "Aşiqin təam bişirməyi" və s.) məhəbbət, evlilik məsələlərindən danışılır, digər qismi ("Dəvəsi itən kəs", "Tərlanlar və elçilər" və s.) tərbiyəvi, bəziləri isə ("Dərviş ilə qız", "Həyasız dərvişlər haqqında" və s.) satirik-tənqidi mahiyyət daşıyır. İctimai eybləri, insan təbiətindəki qüsurları bir sıra hallarda üstüörtülü şəkildə əks etdirən şair maraqlı *təmsillər* ("Tülkü və Qurd", "Aslan, Qurd və Çaqqal" və s.) yaratmışdır. Bu əsərlərdə o, zülm və zorakılığın əleyhinə çıxır, hiylə, satqınlıq, mənəm-mənəmlik kimi cəhətləri pisləyir. Şairin təmsilləri gənclərə mərdlik, fədakarlıq, sədaqət kimi gözəl sifətlər aşılayan qiymətli nümunələrdir.

> Şair əsərlərində bədiiliyə necə nail olmuşdur?

Zakirin yaradıcılığı həm də onunla qiymətlidir ki, ana dilimizin gözəlliyini, imkanlarını dolğun əks etdirir. Bu baxımdan o, "Vaqifdən sonra Azərbaycan bədii dilini daha da zənginləşdirən və incələşdirən sənətkar" (F.Köçərli) kimi dəyərləndirilir.

Şairin xalq danışıq dilindəki söz və ifadələrdən ardıcıl, həm də məharətlə istifadə etməsi əsərlərinə xüsusi bir rəng, ayrıca təravət vermişdir. O, atalar sözü və məsəllərdən yerli-yerində istifadə etməklə aydın, axıcı, şux qoşmalar yaratmışdır. Bütün bunlar onun şeirlərini bədii cəhətdən qüvvətləndirdiyi kimi, məna dərinliyinə də səbəb olmuşdur.

Əsərlərində qoşa sözlərə ( "sallana-sallana", "baxa-baxa", "xumar-xumar" və s.), daxili qafiyələrə geniş yer verən şair epitet, bənzətmə, təzad, mübaliğə kimi təsvir və ifadə vasitələrinə tez-tez müraciət etmiş, yüksək obrazlılığa, mükəmməl bədiiliyə nail olmuşdur.

Şair həm heca, həm də əruz vəznində yazdığı əsərlərdə yüksək sənətkarlıq nümayiş etdirmiş, böyük uğur qazanmışdır.

*Araşdırma şairin yaradıcılığı ilə bağlı özəlliyi, sənətkarlıq məharətini əhatəli öyrənməyə və dəyərləndirməyə imkan verir.*

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**



LAYİHƏ

2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) Q. Zakirin ictimai məzmunlu şeirlərində daha çox hansı problemlərə diqqət yetirilmişdir?
   b) Şairin lirikasındakı orijinallıq özünü nədə göstərir?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh.19-21.
3. Q. Zakir. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, səh. 4-8, 10-11.


## BADİ-SƏBA, MƏNİM DƏRDİ-DİLİMİ...

### I dərs • Məzmun üzrə iş | Oxuya hazırlaşın

**Sualın üzərində düşünün, cavabını qısaca qeyd etdikdən sonra fikir mübadiləsi və və müzakirə aparın. Cədvəldən istifadə edin.**

– Q.Zakirin məhəbbət mövzusunda çoxlu lirik şeir yazmasının səbəbini necə izah edərsiniz?

| Şairin məhəbbətə həsr olunmuş lirik şeirlər yazmasına səbəb, sizcə, nədir? | Sualın qısa cavabı |
|---|---|
| | |

**Aşağıakı qaydalara əməl etməklə şeirin məzmunu üzərində işləyin.**

1) Əsəri fərdi olaraq səssiz oxuyun.
2) İzahına ehtiyac duyduğunuz misra və bəndləri cədvəldə qeyd edin.

| İzahına ehtiyac duyduğum misra və bəndlər | Onların izahı |
|---|---|
| | |

3) Tanış olmayan sözlərin mənasını aydınlaşdırıb cədvəldə qeydlər edin.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

4) Daha maraqlı hesab etdiyiniz məcazları cədvəldə qeyd edin.

| Daha maraqlı hesab etdiyim məcazlar və onların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|
| | |

5) Şeirdə hansı mənəvi-əxlaqi dəyərlərə önəm verildiyini aydınlaşdırın.
6) Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, izahına ehtiyac duyduğunuz misra və bəndlərlə bağlı yaranan çətinlikləri müəllimlə müzakirə edin.
7) Təqdimatlar etməklə yerinə yetirdiyiniz bütün işlərlə bağlı fikir mübadiləsi və müzakirə aparın.

Badi-səba, mənim dərdi-dilimi
Ol büti-zibayə dedin, nə dedi?
Ahü naləm asimanə yetdiyin
Gərdəni minayə dedin, nə dedi?

Düşüb ayağına sən o zalımın
Söylədinmi necəliyin halımın?
Onun həsrətindən rəngi-alımın
Döndüyün heyvayə dedin, nə dedi?



LAYİHƏ

Görsə idin, varmı məni bimarə
Nüsxeyi-hüsnündə onun bir çarə;
Dildə iztirabə, təndə buxarə,
Sərimdə sevdayə dedin, nə dedi?

Qəm əlindən payi-bəstə olduğum,
Hal pərişan, dil şikəstə olduğum,
Bəstəri-möhnətdə xəstə olduğum,
Gözləri şəhlayə dedin, nə dedi?

Sərasər fələyin şəmsü mahına,
Tamam yer üzünün qibləgahına,
Zakirin əhvalın xublar şahına
Ağlaya-ağlaya dedin, nə dedi?

**Evdə iş**

**1. “Şeir məndə hansı təəssürat yaratdı” mövzusunda şifahi təqdimata hazırlaşın.**
**2. Şeirdəki həmqafiyə sözləri, rədifləri müəyyənləşdirin, oxuda onların yaratdığı ahəngə diqqət yetirin.**

**II dərs • Təhlil üzrə iş | Kiçik qruplar yaradaraq tapşırığı yerinə yetirin**

**1. Mətnkənarı sualları qrupların arasında bölün. Qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər.**
**2. Suallara yığcam cavab yazın. Qoşmanın məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin. Cədvəldən istifadə edin.**
**3.**

| Mətnkənarı suallar | Onlara hazırlanan cavablar |
|---|---|
| | |

**4. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra sualların dərslikdəki cavablarını oxuyun və yazdıqlarınızla müqayisə edin.**



**5. Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edin.**
**6. Şeirin ilk iki bəndinin ifadəli oxusuna hazırlaşın. İfaçılıq vəzifəsini müzakirə əsasında müəyyənləşdirin.**

Qoşma hansı mövzuda yazılmışdır?

Bu əsər formaca şairin digər qoşmalarına bənzəsə də, ondakı hiss və düşüncə təzəliyi diqqəti dərhal cəlb edir və onun maraqla oxunmasına, sevilməsinə səbəb olur. Qoşmanın məzmunu ilə tanışlıq mövzusunu müəyyənləşdirməyə imkan verir. Araşdırma isə bu barədə daha ətraflı fikir söyləməyə səbəb olur.

Aşiq hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Lirik qəhrəmanın – aşiq obrazının təsirli bir dillə ifadə olunmuş hiss-həyəcanları onun ətraflı səciyyələndirilməsində əhəmiyyətli rol oynayır. Elə ilk misralardan aydın olur ki, o, dərin



LAYİHƏ

məhəbbətlə sevən aşiqdir və sevdiyini çox yüksək dəyərləndirir, onu “büti-ziba” adlandırır. Lakin aşiqin günü xoş keçmir; sevdiyindən xoş üz, mehriban rəftar görmədiyindən ahı, naləsi göylərə çatır. Həsrət içində qovrulan sədaqətli aşiq heyva kimi saralsa da, xəstə düşsə də ümidsiz deyildir, “Yer üzünün qibləgahı” saydığı sevgilisindən şad xəbər alacağına inanır, bu günü səbirlə gözləyir.

Qoşmanın bədii keyfiyyətini artıran vasitələr hansılardır?

Qoşma maraqlı məzmunu ilə diqqəti dərhal cəlb edir. Lirik qəhrəman badi-səbaya (səhər yelinə) müraciətlə sözə başlayır, öz kövrək duyğularını bölüşür, arzularını çatdırır. Fikrin ardıcıl olaraq sual şəklində ifadə edilməsi onun təsir gücünü daha da artırır və məzmuna bir həzinlik gətirir.

Şeir boyu təzaddan məharətlə istifadə edən şair aşiqin kədər və həyəcanı ilə sevgilinin gözəlliyini qarşılaşdırır. Bu, oxucuda gah fərəhli, gah da kədərli duyğuların yaranmasına, güclü emosionallığın baş qaldırmasına səbəb olur. Digər maraqlı məcazlardan istifadə aşiqin çarəsizliyi, sevgilinin gözəlliyi barədə yaranmış təsəvvürü daha da zənginləşdirir.

Əsərdəki başlıca fikir – ideya nədir?

Lirik qəhrəmanın səciyyəvi xüsusiyyətlərinin aydınlaşdırılması şeirdəki başlıca fikri – ideyanı müəyyənləşdirməyə imkan yaradır.

*Zakirin bu qəbildən qoşmaları barədə mənbələrdəki fikirlərin öyrənilməsi əhatəli nəticələrin çıxarılmasına səbəb olur.*

## Evdə iş — Araşdırmanı davam etdirin

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
**2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
**3. Şeirin ifadəli oxusuna hazırlaşın.**

## Mənbələr

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh. 5-8.
3. Q. Zakir. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, səh. 17.



LAYİHƏ



Mirzə Fətəli Axundzadə böyük yazıçı idi, filosof idi, Azərbaycanda və ümumiyyətlə, islam Şərqində realist dramaturgiyanın banisi idi, ədəbi tənqidi fikrimizin inkişafı ən əvvəl onun adı ilə bağlıdır. Onun şəxsiyyətini, yaradıcılığını və fəaliyyətini bir sözlə səciyyələndirmək olsaydı, deyərdik: vətənpərvərlik.

*Elçin*

**Mirzə Fətəli Axundzadə**
**(1812–1878)**

## M.F.AXUNDZADƏNİN HƏYATI, YARADICILIQ YOLU

• **Araşdırmaya hazırlaşın** | **Mirzə Fətəli Axundzadə haqqında bildiklərinizi yada salıb yığcam müzakirə edin.**

**II Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin**

1. **Mətnkənarı sualların sayı qədər kiçik qruplar yaradılır. Qruplar onlara təklif edilmiş sualın dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:**
   a) İlk mətnkənarı sualın cavabını əhatə edən parçanı qrupun üzvü ucadan və aydın şəkildə oxuyur.
   b) Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
   c) Mətnə aid bir neçə sual verir. Cavablandırmada qrup üzvləri ilə yanaşı, bütün sinif itirak edir.
   d) Səthi qavranılmış məqamlara aydınlıq gətirməyə çalışır.
   e) Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.
2. **Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların şagirdləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.**

> M.F.Axundzadənin həyatı və yaradıcılığı üçün daha səciyyəvi olanlar nədir?

Mirzə Fətəli Axundzadə Şəki şəhərində anadan olmuşdur. Onun atası Cənubi Azərbaycanın Xamnə qəsəbəsindən olan Mirzə Məhəmmədtağı, anası isə şəkili Nanə xanımdır. Uşaq yaşlarından anasının əmisi Axund Hacı Ələsgərin himayəsində yaşayaraq fars və ərəb dillərini, Quranı öyrənmiş, klassik şairlərin əsərləri ilə tanış olmuşdur.

Axund Hacı Ələsgər onun dini elmləri öyrənməsini, gələcəkdə ruhani olmasını istəsə də, o, müəllimi M.Ş.Vazehin təsiri ilə bu fikirdən daşınır, təhsilini Şəkidə açılmış ibtidai rus məktəbində davam etdirir. Onun dövlət qulluğuna meylini görən Axund Hacı Ələsgər Mirzə Fətəlini Tiflisə gətirib Qafqazın baş hakiminin dəftərxanasında Şərq dilləri üzrə mütərcim şagirdi kimi işə götürülməsinə nail olur.

Ömrünün sonuna qədər Şərq dilləri mütərcimi vəzifəsində çalışan M.F.Axundzadə Rusiya–İran və Rusiya–Türkiyə dövlətləri arasında aparılan bir sıra diplomatik danışıqlarda iştirak etmişdir. O, bir müddət mütərcimliklə yanaşı, Tiflis qəza məktəbində işləsə də, dövlət qulluğunda işi çox olduğu üçün müəllimlikdən çıxmaq, öz yerini müəllimi M.Ş.Vazehə vermək qərarına gəlir.



LAYİHƏ

Tiflis ədəbi-mədəni mühiti, görkəmli ziyalılarla ünsiyyət M.F.Axundzadənin dünyagörüşünün, sənətə baxışının formalaşmasında, Şərq üzrə biliklərinin dərinləşməsində, Qərbi Avropa ədəbiyyatı ilə tanışlığında, bir sənətkar kimi püxtələşməsində mühüm rol oynamışdır. Həyatı gərgin mübarizələrdə keçən Mirzə Fətəli ömrünün sonlarında hökumət əleyhinə fəaliyyətdə günahlandırılaraq haqsız yerə işdən çıxarılmış, ağır xəstəlikdən sonra 1878-ci ildə vəfat etmişdir. O, Tiflisdəki müsəlman qəbiristanlığında, müəllimi Mirzə Şəfi Vazehin qəbrinin yanında dəfn olunmuşdur.

M.F.Axundzadənin şeirləri və poeması hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?

M.F.Axundzadə bədii yaradıcılığa *lirik şeirlərlə* başla mış, *"Səbuhi"* (səhər, sübh adamı) təxəllüsü ilə Azərbaycan türk dilində və farsca şeirlər yazmışdır. *"Zəmanədən şikayət"* şeiri ictimai məzmunlu süjetli lirikanın dəyərli nümunələrindən sayılır. A.S.Puşkinin ölümü münasibətilə *"Matəm qəsidəsi"* M.F.Axundzadənin ilk çap əseridir. Sonrakı nəşrlərində əsər *"Puşkinin ölümünə Şərq poeması"* adlandırılmışdır. Mirzə Fətəlinin fars dilində yazdığı "Yeni əlifba haqqında mənzumə" avtobioqrafik səciyyə daşıyır. "Molla Əli", "Hekayəti-Seyyid Molla Ələm Səlyani", "Həcvi-Əbdürrəsul xan" şeirlərində isə ədib cəmiyyətdə və şər xislətli insanlarda gördüyü nöqsanları tənqid edir.

Ədibin komediyalarında diqqət daha çox hansı problemlərə cəlb edilmişdir?

XIX əsrin ortalarında Azərbaycan həyatı komediya, satirik əsərlər üçün material ola biləcək ziddiyyətlərlə, konfliktlərlə zəngin idi. Məhz belə bir şəraitdə M.F.Axundzadə maarifçilik ideyalarını geniş yaymağa imkan verən dramaturji yaradıcılığa başlamışdır. Onun 1850-ci ildə yazılmış *"Hekayəti-molla İbrahimxəlil kimyagər"* adlı ilk komediyasında cəhalət və fırıldaqçılıq kəskin tənqid edilir. *"Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur"* (1850) komediyasında maarifçi ədib gerilik, ətalət, cəhaləti gülüş hədəfinə çevirmiş, gəncləri inkişafa, dünyəvi elmləri öyrənməyə çağırmışdır. Mövzusu kənd həyatından alınmış *"Hekayəti-xırs quldurbasan"* (1851) komediyasında Bayramla Tarverdi arasında cərəyan edən münaqişə əsasında məişətdəki köhnə qaydalar, mühafizəkarlıq, zorakılıq tənqid edilir, qarşılıqlı məhəbbət, yeni ailə münasibətləri, qadın şəxsiyyətinə hörmət kimi məsələlər ön plana çəkilir.

*"Hekayəti-vəziri-xani Lənkəran"* (1851) komediyasının mövzusu xanlıqlar dövrünün həyatından götürülmüşdür. Əsərdə ailə-məişət münasibətləri, qarşılıqlı sevgi məsələsi feodal ictimai-siyasi həyatı, dövlət quruluşu ilə qarşılıqlı əlaqədə təsvir edilir. Ədibin xəsislik mövzusunda yazılmış *"Hekayəti-mərdi-xəsis"* (1852) komediyası qəhrəmanın adı ilə "Hacı Qara" da adlanır. Əsərin əsas gülüş hədəfi komik planda təsvir edilən tamahkar, acgöz, ikiüzlü tacir Hacı Qaradır. Komediyada ikinci satirik qəhrəman müflisləşmiş bəyliyin nümayəndəsi olan Heydər bəydir. Onun əməyə xor baxması, tüfeyli həyatı, oğurluq, quldurluq arzusu ilə yaşaması o dövrün ictimai bəlası kimi əsərdə tənqid hədəfinə çevrilmişdir. Sonuncu komediyası olan *"Mürafiə vəkillərinin hekayəti"* (1855) əsərinin mövzusu məhkəmə məmurlarının həyatından götürülmüşdür. Çar hakimlərinin təqiblərindən qorunmaq üçün bir sıra əsərlərində olduğu kimi, bu əsərində də ədib hadisələrin Cənubi Azərbaycanda baş verdiyini təsvir edir.

LAYİHƏ

Komediyanın əsas tənqid hədəfi olan Ağa Mərdan Halvaçı oğlunun simasında müəllif əyalət məhkəmə məmurlarının hiyləgərlik, fırıldaqçılıq, acgözlük kimi səciyyəvi xüsusiyyətlərini ümumiləşdirmişdir. Komediyanın əsas qəhrəmanı Səkinə xanım gənc Azərbaycan qadınlarının mütərəqqi görüşlərə meyilli, yeni, qabaqcıl nəslinin nümayəndəsidir.

M.F.Axundzadə "*Aldanmış kəvakib*" povesti ilə Azərbaycan ədəbiyyatı tarixində yeni realist *bədii nəsrin* dəyərli nümunəsini yaratmış, milli ədəbiyyatımızın gələcək inkişaf yollarını müəyyənləşdirmişdir.

Azərbaycan tarixinə həm də böyük filosof kimi daxil olan M.F.Axundzadənin "Kəmalüddövlə məktubları" adlı fəlsəfi əsəri köhnəlik əleyhinə və yeniləşmənin zəruriliyinə çağırışları özündə əks etdirir.

Bu görkəmli sənətkarın əsərləri Azərbaycan ədəbiyyatında maarifçi realizmin mükəmmıl nümunələridir. O, maarifçi realizm ədəbi cərəyanının yaradıcısı kimi Azrbaycan ədəbiyyatında yeni bir mərhələ yaratmağa nail olmuşdur.

**Evdə iş** **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) M.F.Axundzadənin fikri inkişafına əhəmiyyətli təsir edən amillər hansılardır?
   b) M.F.Axundzadənin bədii yaradıcılığı ədəbiyyatımıza hansı yeniliklər gətirmişdir?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**


1. M. F. Axundzadə. Əsərləri. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 4-7, 10, 14-16.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.




LAYİHƏ

## HEKAYƏTİ-MÜSYÖ JORDAN HƏKİMİ-NƏBATAT VƏ DƏRVİŞ MƏSTƏLİ ŞAH CADUKÜNİ-MƏŞHUR
(dörd məclisdə; ixtisarla)

### I dərs • Məzmun üzrə iş | Oxuya hazırlaşın

1. **Müstəqil oxuduğunuz əsərdən aşağıdakı parçaları (birinci, ikinci məclisləri) nəzərdən keçirin. Tapşırıqları fərdi olaraq yerinə yetirin:**
   a) Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu aydınlaşdırın.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

   b) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?

| Əsərdən seçilmiş məcazlar | Onların növü | Daha maraqlı hesab etməyimin səbəbi? |
|---|---|---|
| | | |

   c) Oxuduğunuz parçada diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

   d) Oxuduğunuz parça hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

2. **Kiçik qruplarda birləşərək hər məclisin məzmununu, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərinizi bölüşün, aşağıdakı sualları da əhatə etməklə təqdimata hazırlaşın.**
   – Şərəfnisə xanımın ağlamasına səbəb nə idi?
   – Şahbaz bəyin Parisə getmək niyyətinə Şəhrəbanu xanımın münasibəti necə oldu?
   – Parisə getmək istəyən Şahbaz bəyə haqq qazandırmaq olarmı?
   – Şahbaz bəyi Parisə aparmaq istəyən Müsyö Jordanın dəlilləri sizi qane edirmi?
   – Hatəmxan ağa haqqındakı ilkin təəssüratınız nə oldu?
   – Şəhrəbanu xanım Hatəmxan ağanın qərarını necə qarşıladı? Onu haqlı saymaq olarmı?
3. **Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

*Əfradi-əhli-məcalis*

Müsyo Jordan – Həkimi-nəbatat, parisli, qırx yaşında.
Hatəmxan ağa – Təklə-Muğanlı obasının bəyi, qarabağlı, altmış beş yaşında.
Şərəfnisə xanım – onun böyük qızı, on altı yaşında.
Gülçöhrə – onun kiçik qızı, doqquz yaşında.
Şəhrəbanu xanım – onun arvadı, qırx beş yaşında.
Şahbaz bəy – onun qardaşı oğlu, böyük qızının nişanlısı, iyirmi iki yaşında.
Xanpəri – Şərəfnisə xanımın dayəsi, qırx yaşında.
Dərviş Məstəli şah– cadukünü-məşhur, iranlı, əlli yaşında.
Qulaməli – onun şagirdi, iranlı, otuz yaşında.

## BİRİNCİ MƏCLİS

*Əvvəlinci məclis Qarabağ vilayətində min iki yüz altmış üçüncü ildə yazın əvvəlində, Novruz bayramından bir gün keçmiş Təklə-Muğanlının qışlağında vaqe olur. Şərəfnisə xanım ikinci damda ahəstə ağlaya-ağlaya yun darayır, kiçik*



LAYİHƏ

*bacısı Gülçöhrə ondan niyə ağladığını soruşur. Şərəfnisə xanım ağlamağının səbəbini demir, Gülçöhrəni itələyir. Gülçöhrə yıxılıb, durub ağlaya-ağlaya anası olan dama gedir. Şəhrəbanu xanım gəlib Şərəfnisə xanımdan ağlamağının səbəbini soruşur.*

Şəhrəbanu xanım. Şərəfnisə, ağlamaq nədir? Sənə nə gəlibdir, ağlayırsan? Allaha şükür, atan sağ, anan sağ. Gözəl-göyçək adaxlın gözün qabağında. Yeməyin bol, geyimin bol, dəxi niyə ağlayırsan?

Şərəfnisə xanım. Ana, vallah ağlamırdım! Allaha şükür, atam sağ, anam sağ, dəxi nə var ki, ağlayım?

Şəhrəbanu xanım *(gülə-gülə).* Niyə demirsən ki, adaxlım da gözümün qabağında?

Şərəfnisə xanım. Adaxlım kimdir?

Şəhrəbanu xanım. Necə adaxlım kimdir? Bəs əmin oğlu Şahbaz bəy kimin adaxlısıdır? Atan iyirmi gündən sonra, Allah qoysa, sizə bir toy edəcəkdir ki, tərifi tamam Qarabağda söylənəcək. İsrağagün aşnası zərdablı Qurban bəyə kağız yazırdı ki, Şamaxı çəngilərinin vədəsini alsın, toya göndərsin.

Şərəfnisə xanım. Bıy, anam nələr söyləyir. Şahbaz bəy on gündən sonra çıxıb gedir. Bilmirəm, atam kimə toy tədarükü görür.

Şəhrəbanu xanım *(təəccüblə).* Şahbaz gedir? Şahbaz kiminlə gedir? Nə danışırsan? Allahı sevirsən, öz yanından zad quraltma. İndi bildim ki, doğrudan da, ağlayırmışsan. Gerçəkdən ki, qız uşağının ağlı olmaz imiş, gözünün yaşı əlində olurmuş. De görüm, sənə kim dedi ki, Şahbaz gedir?

Şərəfnisə xanım *(başın aşağı salmış).* Özü.

Şəhrəbanu xanım. Yaxşı, hara gedir?

Şərəfnisə xanım. Nə bilim, Firəngəmi, Parisəmi, adı batsın, dilim də yovuşmur.

Şəhrəbanu xanım. Yaxşı, Şahbaz kiminlə Parisə gedir?

Şərəfnisə xanım. Qonağımız müsyö Jordan ilə.

Şəhrəbanu xanım. O bizim çör-çöp döşürən firəng ilə? Nədən ötrü? Firəngdə onun nə alıb-verəcəyi var? Parisdə onun nə iti azıbdır?!

Şərəfnisə xanım. Nə bilim, cahıl uşaqdır. Müsyö Jordan beyninə salıbdır ki, Parisdə qızlar, gəlinlər məclislərdə, yığıncaqlarda üzüaçıq oturub-dururlar. Nə bilim, başqa zadlar da çox deyibdir. İndi o da dəli-divanə olub deyir ki, gərək gedəm bir Parisi görəm. Əvvəl əmimdən rüsxət istəyəcəyəm, qoymasa, gecə atımı minib, Arazı o taya keçib, müsyö Jordan ilə görüşüb, onunla bərabər gedib, Parisi görüb seyr edəcəyəm.

Şəhrəbanu xanım *(toxuduğu corabı yerə tullayıb, kiçik qızına üzün tutub).* A qız, Gülçöhrə, get Şahbazı o biri damdan bura çağır, görüm bu necə sözdür.

*Gülçöhrə qaçır. Bu halda qapı açılır, Şahbaz bəy içəri girir.*

Şahbaz bəy. Əmidostu, nə var, xeyir ola?

Şəhrəbanu xanım *(qaşqabağın tökmüş).* Şahbaz, eşidirəm ki, Firəngə, Parisə gedirsən? Bu necə sözdür?

Şahbaz bəy *(gülümsəmiş).* Gedəndə nə olar, əmidostu? Gedərəm də, qayıdaram da, Şərəfnisəyə firəng qızları başlarına örtən təsəklərdən alıb sovqat gətirrəm də.

Şəhrəbanu xanım. Hələ de görüm, sən özbaşınasan, ya sənin atan yerində bir böyüyün var?



LAYİHƏ

Ş a h b a z  b ə y. Əlbəttə, əmimdən izin almamış ki, gedə bilmənəm. Müsyö Jordan özü ondan rüsxətimi alacaqdır.

Ş ə h r ə b a n u  x a n ı m *(acıqlı).* Çox yaxşı, sən azıbsan, yolundan-izindən çıxıbsan, get! Mən bu saatda Hatəmxan ağanı çağırram, görüm müsyö Jordan nəçidir ki, onun qardaşı oğlunu tovlaşdırıb Parisə aparır? Vallah, ona bir tov tutaram ki, gəldiyi yolu da azar, özü də Parisi unudar. Çox yaxşı, sən get, mən bu saat Hatəmxan ağanı çağırram görüm ki, sənin iyirmi gün toyuna qalıb, sən necə Parisə gedirsən?!

*Şahbaz bəy başını aşağı salıb gedir.*

Ş ə h r ə b a n u  x a n ı m *(üzün kiçik qızına tutub).* Gülçöhrə, get, atan damın dalında çobanlar ilə danışır, de ki, bir tez bura gəlsin, vacib işi var.

*Gülçöhrə qaçır.*

*Pərdə salınır*

## İ K İ N C İ  M Ə C L İ S

*İkinci məclis haman gündə əvvəlinci damda vaqe olur. Dam kilim, gəbə ilə pakizə fərş olub, bir tərəfdə un çuvalları düzülüb. Bir tərəfdə yağ dəriləri, yun məfrəşləri qoyulubdur. Hatəmxan ağa oturub damın yuxarısında, fərş üstə. Arvadı Şəhrəbanu xanım ərinin sağ böyründə, çənəsin yaşmayıb, ağ örpək başında, həllaci, samit əyləşibdir. Hatəmxan ağanın müqabilində qardaşı oğlu Şahbaz bəy oturub, xəncərinin dəstəsinə sövkənmiş, müntəzirdir görsün ki, əmisi nə danışacaq. Yun məfrəşlərin birisinin üstünə bir xalça salınıb, Şahbaz bəyin sol tərəfində qoyulub, üstündə müsyö Jordan firəngi libasında, qıçın qıçı üstə aşırıb, başı açıq, əlində barmaq uzunluğunda və yoğunluğunda bükülmüş və lülələnmiş tənbəki yarpaqlarını yandırıb çəkir. Hatəmxan ağanın böyük qızı Şərəfnisə xanım bunlardan əvvəl xəlvətcə gəlib, yük qabağında asılan kilim gərdəyin dalısına girib pusur ki, görsün, nə danışacaqlar. Bu halda Hatəmxan ağa üzün müsyö Jordana tutub xitab edir.*

H a t ə m x a n  a ğ a. Həkim-sahib, eşidirəm ki, bizim Şahbazı Firəngistana aparırsan, bu necə sözdür?

M ü s y ö  J o r d a n. Bəli, Hatəmxan ağa, bu sözü mən özüm sizə deyəcəkdim; çünki heyifdir, Şahbaz bəy kimi cavan və zirək və sahib-savad oğlan firəng dilini bilməyə; mən təəhhüd edirəm ki, onu Parisə aparıb, firəng dilini ona öyrədib yola salam; çünki firəng dilinə çox şövqi var, tez öyrənər. İndi də mənim ilə durub-oturmaqdan bir para kəlimatı hifz edibdir.

H a t ə m x a n  a ğ a *(üzün Şahbaz bəyə tutub).* Şahbaz, doğrudur ki, Parisə getmək istəyirsən?

Ş a h b a z  b ə y. Bəli, əmi, əgər sizin rüsxətiniz olsa, müsyö Jordan ilə gedərəm, genə sonra özüm qayıdaram, gələrəm.

H a t ə m x a n  a ğ a . Nədən ötrü, balam?

Ş a h b a z  b ə y . Firəng dilini öyrənməyə, əmi!

H a t ə m x a n  a ğ a . Firəng dili nəyinə lazımdır, əzizim?! Sənə lazım olan ərəb, fars, türki, rus dilləridir ki, Allaha şükür, dövləti-əliyyəmizin şəfqətindən açılan mədrəsələrdə hamısını oxuyub öyrənibsən.

Ş a h b a z  b ə y. Əmi, firəng dili mənə çox lazımdır. Bildir ki Tiflisə məni arx çıxartmaq üçün izin almağa göndərmişdiniz, Allahverdi bəyin oğlu Tarıverdi bəy Varşavada firəng dili öyrəndiyi üçün hər məclisdə məndən hörmətli idi. Bavücudi ki, firəng və türki dilindən başqa, özgə dil bilməzdi.



LAYİHƏ

H a t ə m x a n  a ğ a. Balam, sən hələ uşaqsan, bu zadlar tamam boşdur. İnsana ağıl lazımdır. Bir dil artıq bilmək ilə ağıl artmaz. Adam gərək hər dil ilə olsa, filcümlə fəhm və zəmanə əhlinin adət və xəvassından mütəlle olsun; öz işin yola aparsın.

Ş a h b a z  b ə y . Əmi, qanmıram ki, siz necə Paris əhlinin adət və xəvassından xəbərdarsınız?

H a t ə m x a n  a ğ a. Bu saatda mən sənə qandırım, balam! Mənə yəqin hasil olubdur ki, bizdə hər adət və xasiyyət var isə, əksi Paris əhlindədir. Məsələn, biz əlimizə həna qoyarıq, firənglər qoymazlar; biz başımızı qırxırıq, onlar başlarına tük qoyarlar; biz papaqlı oturarıq, onlar başı açıq oturarlar; biz başmaq geyərik, onlar çəkmə geyərlər; biz əlimiz ilə xörək yeyərik, onlar qaşıq ilə yeyərlər; biz aşkara peşkəş alarıq, onlar gizlin alırlar, biz hər zada inanırıq, onlar heç zada inanmazlar; bizim arvadlarımız gödək libas geyər, onların arvadları uzun libas.

M ü s y ö  J o r d a n *(vüqar ilə)*. Hatəmxan ağa, mənim qəsdim bu idi ki, Şahbaz bəyi Parisə aparıb, əvvələn, özüm onun tərbiyəsinə mütəvəcceh olub, firəng dilini və ülumunu bəqədri məqdur ona təlim edib, saniyən, onu kralımıza tanıdıb, burada mənim haqqımda zahir etdiyiniz yaxşılıqların və zəhmətlərin əvəzində kraldan ona bir bəxşeyiş alıb geri qaytaram; çünki mən kralın məxsus öz təhtihimayətində olan darülelmin hükəma və üləmasından və o əlahəzrətin müqərrəbi və mötəmədiyəm; amma çün sizin təqriratınızdan müşəxxəs oldu ki, siz səfərin fəvaidinə münkirsiniz, ona binaən mənə lazım olur ki, səfərin fəvaidini müvafiqivaqe məsəl ilə sizə isbat edim. Əgər, məsələn, mən Qarabağa gəlməsəydim, (əlini uzadıb cibindən bir dəftər çıxarıb, açıb içində səliqə ilə düzülmüş bir neçə otları göstərib), əgər mən Qarabağa gəlməsəydim, kim biləcəkdi ki, Qarabağın yaylaqlarında bu otlar mövcuddur? Hamı tapdığım nəbatatın və ələfiyyatın mahiyyətini və xasiyyətini bu qərar ilə yazıb aləmə bildirəcəyəm.

H a t ə m x a n  a ğ a *(bir az fikir edib)*. Həkim-sahib, nə müddətə Şahbaz Parisə gedib qayıda bilər?

M ü s y ö  J o r d a n. Bir il çəkər gedib-gəlməyi, ziyadə çəkməz. Bir ildən az qalsa, getməyindən mənzur olan fayda bilkülliyyə hüsula gəlməz; çünki ümdəsi firəng dilini öyrənməkdir.

Hatəmxan ağa*(üzün arvadına tutub)*. Arvad, dəxi nə eləyək, qoy getsin. Papağın çevirərsən, il gələr keçər. Uşaqdır, könlü istəyir, getsin, Parisi görsün. Həkim-sahib də bir yaxşı adamdır, onun hüzurunda bir para mərifət kəsb edər; yaxşı, yamanı görər. Kraldan bəxşeyiş alar, il başında Qarabağda hazır olar, o vaxtadək biz də onun toy tədarükünə məşğul olluq, gələn kimi toyun başlarıq.

Ş ə h r ə b a n u  x a n ı m *(yerindən qalxıb çığıra-çığıra)*. Kişi, nə danışırsan, sənin fikrin haradadır? İstəmirəm onun Parisə getməyin də, mərifət kəsb etməyin də, firəng kralından bəxşeyiş almağın da! Bu sözlər tamam bəhanədir. Şahbaz istir getsin Parisə, məclislərdə, yığıncaqlarda üzüaçıq gəzən qız, gəlinlər ilə kef etsin, danışsın, gülsün, vəssəlam!

*Pərdə salınır*

## Evdə iş

**1. Əsərin davamını – üçüncü, dördüncü məclisləri nəzərdən keçirin.**
**2. Oxuduğunuz məclislərdə ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**

| Oxunmuş məclislər | Onlarda ifadə olunmuş mühüm fikirlər | Bu fikirləri mühüm hesab etməyimin səbəbi |
|---|---|---|
| III məclis | | |
| IV məclis | | |

**3. Şifahi təqdimata hazırlaşın.**



LAYİHƏ

## ÜÇÜNCÜ MƏCLİS

*Üçüncü məclis yenə orada vaqe olur. Damın bir tərəfində Şəhrəbanu xanım oturubdur. Bir tərəfdə Şərəfnisə xanım yun darayır. Bu halda birdən qapı açılır, Şərəfnisə xanımın dayəsi Xanpəri içəri girir.*

*Şəhrəbanu xanım Xanpəriyə deyir ki, Şahbazın Parisə getməsinin qarşısını almaq üçün bir əlac tapsın. Xanpəri qonşuluqdakı Ağcabədi kəndindən, Qızılbaşdan gələn dərviş Məstəli şahı xəlvətcə çağırıb onun cadusunun gücündən istifadə etməyi məsləhət bilir. Bu halda qapı açılır, Şahbaz bəy içəri girir.*

Şahbaz bəy. Şərəfnisə, qadan alım, görürsən ki, əmidostum bu gün nə tufan elədi? Müsyö Jordanın yanında əmimin üstünə çır-çır çığırdı, məni də hədələdi.

Şərəfnisə xanım (tez yeriyib, əlin uzadıb hanasının dalısından bir neçə yarım səhifə kağız çıxardıb açır). Şahbaz, bu şəkilləri sən gətirib demədinmi ki, Paris qızlarının, gəlinlərinin şəkilləridir, gör Parisdə necə gözəl qızlar var? Bu qızlar, gəlinlər tamam üzləri açıq məclislərdə, yığıncaqlarda oğlanlar ilə bir yerdə oturub-dururlar? Hələ mən bu şəkilləri utandığımdan əmidostuna göstərməmişəm.

Şahbaz bəy. Vallah, yox, səbəbi onlar deyil, sən bilmirsən. Mənim taytuşlarım tamam mərifət sahibi olub, qulluq edib, hörmət-izzət tapıb, xoşbəxt olublar. Mən qalmışam elə bu qamışlıqla adsız, sansız.

Şərəfnisə xanım. Əvvələn, bu, yalandır ki, deyirsən, kim bizlərdən mərifət ilə, qulluq ilə xoşbəxt olubdur? Bu gördüyünüz xoşbəxtlər tamam özgə yol ilə bəxtə yetişiblər. İkinci, əgər qulluq etmək istəyirsən, get Tiflisə, orda qulluq elə. Bir azdan sonra əgər istəyirsən, get başqa şəhərlərə ki, əl çatsın, ün çatsın. Parisə bizlərdən nə gedən var, nə gələn var!

Şahbaz bəy. Doğru deyirsən, amma adamın hər işdə gərək vasitəsi olsun. Tiflisdə və o biri şəhərlərdə məni tanıyan yoxdur. Mənə kim vasitə olub məni qulluğa qoyduracaq və hörmət tapdıracaq? Amma bu firəngi bir yaxşı adamdır, məni də sevir, ocağımızı tanıyır. Bu məni Parisə aparıb firəng dilini öyrətməkdən və krala tanıtmaqdan məşhur ollam, qayıdandan sonra hər yerdə yerim olar.

*Bu halda Hatəmxan ağa qaim səs ilə Şahbaz bəyi çöldən çağırır. Şahbaz bəy tez damdan gedir.*

*Pərdə salınır*

## DÖRDÜNCÜ MƏCLIS

Məstəli şah. Səlam-əleyküm!

Şəhrəbanu xanım (başın yuxarı qovzuyub). Əleykümə̈ssəlam, baba dərviş, xoş gəldin! Gəl otur.

Məstəli şah (oturub). Xanım, mənə nisbət nə qulluğunuz var? Buyurun, can-baş ilə bitirməkdə müzayiqə yoxdur!

Şəhrəbanu xanım. Baba dərviş, bir cüzvi, yüngül işdən ötrü sənə zəhmət vermişəm! Mətləb budur ki, bizim Şahbaz lap yolundan azıb: bir firəngi qonağımız var, xəyalındadır ki, ona qoşulub Paris şəhərinə getsin, mənim bu oturan, gül üzlü uşağımı ki, onun adaxlısıdır, iyirmi gündən sonra toyu başlanacaq, ağlar-sızlar qoysun. Mən və Hatəmxan ağa nə qədər yalvardıq, söylədik, qulaq asmadı; gərəkdir ki, bir iş edəsən ki, bizim Şahbaz Parisə gedə bilməsin və müsyö Jordan ondan əl çəksin, aparmasın.



LAYİHƏ

M ə s t ə l i ş a h . Xanım, bu cüzvi, yüngül iş deyilmiş, bəlkə, çox böyük və çətin iş imiş. Gərəkdir ki, bu işdə mənim cadumun əsəri ya Parisin, ya müsyö Jordanın başında çatlasın.

Ş ə h r ə b a n u x a n ı m . Baba dərviş, mən anlamadım, necə gərək cadunun əsəri ya Parijin, ya müsyö Jordanın başında çatlasın?

M ə s t ə l i ş a h . Xanım, məsələn, əgər Şahbaz bəyə əl vursam, lazım olar ki, onun bədəninə bir cin müsəllət edim ki, bu səfərin xəyalını onun başından çıxarsın. Amma olar ki, bu işdən o qorxsun, ağlına rəxnə yetişsin, ya azarlasın, ya çolaq olsun, çünki çox uşaqdır, cavandır.

Ş ə h r ə b a n u x a n ı m . Bıy, Allahı sevirsən, baba dərviş, belə danışma, bu işlər tamam ondan ötrüdür ki, Şahbaz bir gün gözümüzdən uzaqlaşmasın. Necə olar ki, onun canına cin müsəllət olmağa razı olaq?!

M ə s t ə l i ş a h . Bu surətdə gərəkdir ki, divlərə, ifritələrə əmr edim ki, Parisi xarab etsinlər, altını üstünə çevirsinlər ki, Şahbaz bəy dəxi ora getmək niyyətindən düşsün, yainki Mərrix ulduzuna hökm edim ki, müsyö Jordanın boynunu vursun ki, Şahbaz bəyi aparan olmasın. Bu işin bundan başqa heç çarəsi yoxdur.

Ş ə h r ə b a n u x a n ı m . Bu necə mümkün şeydir, baba dərviş, belə iş eləmək olarmı?

M ə s t ə l i ş a h . Pəh, bu mənim işimdir, xanım, nə şübhə yeridir! Hansı işlərimi söyləyim? On bir il bundan irəli Araz qırağına gəlmişdim; istəyirdim ki, Naxçıvan və Şərur mahallarının qabağından keçib İrəvana gedəydim. Hər iki mahalın xalqı mənə mane oldular ki, səni qoymanıq bu torpağa keçəsən. Ondan ötrü ki, əlində təzkirən yoxdur. Nə qədər yalvardım-yapışdım, sözümə qulaq asmadılar. Aşağı getdim, yuxarı getdim, olmadı; axırda lap acığım tutdu. Əcinnələrə, ifritələrə hökm etdim ki, tamam Naxçıvan, Şərur mahallarının damlarını qaldırıb yer ilə yeksan etdilər. Xülasə, Murova desəm, yerindən qop, qopmazmı? Araza desəm, axma, axarmı?

Ş ə h r ə b a n u x a n ı m (*təəccübdən əlin dodağına aparıb*). Allah, dərdini əsirgə...

M ə s t ə l i ş a h . Xanım, gecə keçir, durmaq vaxtı deyil. İndi siz mənə buyurun görüm, müsyö Jordan havaxt gedəcək?

Ş ə h r ə b a n u x a n ı m . On gündən sonra.

M ə s t ə l i ş a h . Çox yaxşı, indi mən bu saatda, xanım, sizin gözünüzün qabağında Parisin heykəlin bərpa edib, burda onu pozacağam. Və divlərə və ifritələrə hökm edəcəyəm ki, haman dəqiqə Parisi yıxsınlar və on günə qədər xəbərini müsyö Jordana çatdırsınlar ki, Şahbaz bəyi aparmaq fikrindən düşsün.

Ş ə h r ə b a n u x a n ı m . Biçarə parijlilər bizə nə eləyiblər ki, evlərin, imarətlərin başlarına yıxaq, min-min adamın qırılmağına bais olaq? Bu qalmaqala bizi ancaq o çör-çöp döşürən müsyo Jordan salıbdır *(Üzün Məstəli şaha tutub)* Baba dərviş, hər nə bilirsən, ona eylə!

Ş ə r ə f n i s ə x a n ı m. Can ana, elə demə, müsyo Jordan yazıqdır! Çox yaxşı adamdır. Bu yaylaq hər gün qəribə güllərdən, çiçəklərdən dəstələr bağlayıb Şahbaz bəydən mənə göndərirdi ki, apar adaxlına ver... Mən özümü öldürrəm, qoymaram müsyo Jordanın boynu vurulsun!

Ş ə h r ə b a n u x a n ı m . Vallah, bilmirəm hansına razı olam? Amma dəxi necə eyləyək? Şərəfnisə də doğru deyir, müsyö Jordan yazıqdır, yaxşı adamdır, hələ bircə bu işdə təqsirlidir ki, Şahbazı yoldan çıxarıb Parisə getməyi beyninə salıbdır. Məlum ki, Parisdə yaman adamlar var imiş. Qəza bu dərvişi bizə yetiribdir ki, bunun cadusu ilə oranı yıxdırıb xarab etdirək. *(Üzün Məstəli şaha tutub)*. Baba dərviş, buyur divlərə, ifritələrə Parisi qaldırıb altını üstünə çevirsinlər!



LAYİHƏ

M ə s t ə l i  ş a h. Baş üstə, xanım! *(Üzün Xanpəriyə tutub)* Xanpəri xala, çıx çölə, mənim şagirdim Qulaməliyə de ki, mənim xurcunumu tez atın üstündən alsın, gətirsin gəlsin.

*Xanpəri tez qalxıb çıxır. Qulaməli əlində xurcun Xanpəri ilə məclisə daxil olur. Məstəli şah ətrafdakıların başa düşməməsi üçün Qulaməli ilə farsca danışır.*

Ş ə h r ə b a n u  x a n ı m. Baba dərviş, nə danışırsınız?

M ə s t ə l i  ş a h. Məhzər oxuyuram, xanım ki, işimiz avand olsun. Divlər, ifritələr xəbərdar olsunlar ki, nə fikirdəyəm. *(Bundan sonra Məstəli şah palazı qovzuyub əvvələn bir müdəvvər cızıq çəkir, deyir).* Bu Paris şəhərinin dairəsi. *(Sonra taxtaparaları bir-birinə yapışdırıb on-on iki böyük, kiçik hücrə və otaq şəklində cızığın içində evlər yapıb deyir)* Bu da Parisin imarətlərinin və evlərinin şəkli. *(Sonra üzün Şəhrəbanu xanıma çevirib)* Xanım, buyurursunuzmu Parisi kün-fəyakün etdirim, altını üstünə çevirtdirim?

Ş ə h r ə b a n u  x a n ı m. Bəli, dəxi necə edək, Allah səbəbkara bəla versin! Qurunun oduna yaşlar da yanacaq, biçarə parislilər bizə bir zad etməmişdilər. Bunun babalı olsun oların qızlarının, gəlinlərinin boynuna ki, məclislərdə həmişə oğlanlar ilə, kişilər ilə bir yerdə üzüaçıq oturub, söhbətə və ixtilata məşğul olub, xalqı azdırıb yoldan çıxardırlar. Baba dərviş, işinə məşğul ol.

M ə s t ə l i  ş a h . Xanım, divlərin əl muzdunu, ənamını kərəm edin!

Ş ə h r ə b a n u  x a n ı m. Doğru deyirsən, baba dərviş! Nə qədər gərək divlərə ənam verək?

Məstəli şah.Artıq istəmirəm, nə qədər ki vədə edibsiniz, xanım, yüz bacaqlı.

Ş ə h r ə b a n u  x a n ı m . Baba dərviş, çox olmazmı?

M ə s t ə l i  ş a h. Xub, min-min tümənə dəyən şəhəri xarab etdirirsiniz, yüz bacaqlı versəniz çoxdur?

Ş ə h r ə b a n u  x a n ı m *(üzün qızına tutub)*. Şərəfnisə xanım, balam, pul sandıqçasını bura gətir. *(Şərəfnisə xanım tez qalxıb yükdən pul sandıqçasını alıb anasının qabağına qoyur, Şəhrəbanu xanım sandıqçanın ağzını açır, yüz dənə təzə bacaqlı çıxardır, deyir)* Balam, Şərəfnisə, toy xərcinə dəxi heç pul qalmadı.

Şərəfnisə xanım. Neynək, ana, bir-iki yüz toğlu satarıq, genə pul olar.

Ş ə h r ə b a n u  x a n ı m. Doğru deyirsən, balam, burun-qulaq başa sədəqə. *(Üzün çevirir)* Al, baba dərviş!

*Qızılları verir Məstəli şaha. Dərviş qızılları alır, qoynuna qoyur, tez biləklərini çırmayıb xurcundan bir kitab çıxardır, kitabı açıb vərəqləyir, bir para naxışlı səhifələrinə baxır, başını qovzuyur.*

M ə s t ə l i  ş a h. Bəli, Paris şəhəri Əqrəb bürcünün altında vaqe imiş, əməl tamamdır. Bu bürcün təsirindədir ki, bu şəhərdən heç vaxt bəla əskik olmaz... *(Sonra qalxır ayağa, əlində bir dəyənək, üzün Şəhrəbanu xanıma və qızına tutub)* Xanımlar, qorxmuyun, ürəyinizi bərkidin! *(Sonra gözlərin çevirir, surətin heybətli edir, bu məntəri oxuyur. Sağına-soluna üfürür, heybətli səs ilə divləri, ifritələri adları ilə çağırır, buyuruq verir).* Ya Məlixa, ya Səlixa, ya Bəlixa! Qaldırın Parisi yerindən, vurun yerə, bu saatda necə ki mən bu heykəli vurub zirü zəbər edirəm. *(Bir qədəm geri çəkilir, dəyənək ilə cızığa üz qoyub içindəki taxtaparalardan yapılmış balaca evlərin və otaqların əşkalını çırpıb darbadağın dağıdır, sonra bir ləmhə dayanıb üzün Şəhrəbanu xanıma tutur).* Xanım, gözünüz aydın olsun, Paris dağıldı! Razı oldunuzmu?



LAYİHƏ

*Bu halda birdən damın bağlanmış qapısı taraq-taraq döyülür. Az qalır, qapı sınsın. Müsyö Jordanın səsi iztirab halətində qapının dalısından məlum olur.*

*Dərviş Məstəli şah cəld taxtaparaları döşürüb tökür xurcuna, atır çiyninə, girir yükün qabağında asılan pərdənin dalısına, gizlənir.*

*Müsyö Jordan qapını taraq-taraq döyür, az qalır, qapını sındırsın, çağırır.*

Müsyö Jordan. Hatəmxan ağa, Şahbaz bəy, qapını açın!

*Şəhrəbanu xanım sərasimə yerindən qalxır, qorxu ilə gedir qapıya sarı. Qızı Şərəfnisə xanım tir-tir titrəyir. Xanpəri dizinə çırpır, yavaş səs ilə.*

Xanpəri. Dədəm vay, nənəm vay! *Şəhrəbanu xanım qapını açır.*

Müsyö Jordan (nəfəsi tutula-tutula). Hanı Hatəmxan ağa, hanı Şahbaz bəy?

Şəhrəbanu xanım *(qorxa-qorxa)*. İkisi də Şərəfnisənin damında yatırlar, bu gün ilxıya baxmağa getmişdilər, çox yorulmuşdular. Axşamdan yıxılıb yatıblar.

Müsyö Jordan *(qaim bir səs ilə, təngnəfəs)*. Xanım, gərək bu saatda onlar duralar. Mən gedirəm, dayana bilmənəm. Heyif sənə, Paris, heyif sənə Tülyeri, heyif sənə, gözəl paytaxt, gözəl səltənət! Fransa bədbəxt oldu! Dimaj, Paris! Mon diyö! Mon diyö!

Şəhrəbanu xanım. Həkim-sahib, nə var, nə olub?

Müsyö Jordan. Paris dağıldı, Tülyeri yıxıldı, Fransa xarab oldu. Dimaj Paris! Dimaj Tülyeri!

Şəhrəbanu xanım. Allah, sənə şükür, yəni, Allah, dərdini əsirgə!

Müsyö Jordan. Gözəl şəhər, gözəl səltənət! Bir türfətüleyndə viran, kəan ləm-yəkün olubdur. Ağıl kəsmir ki, bu necə işdir, bu necə sehrdir! Setefre, mon diyö, mon diyö!

Şəhrəbanu xanım. Bu necə sehrdir? Məhər sehr ilə Paris yıxılıb? Nə deyirsiniz, həkim-sahib?

Müsyö Jordan. Əlbəttə, sehrdi, mat qalmalı işdir. Bir türfətüleyndə qəflətən Paris xarab olubdur.

*Bu halda qalmaqaldan Hatəmxan ağa və Şahbaz bəy yatdıqları damdan yuxudan oyanıb, köynəkcək müsyö Jordanın səsinə yüyürürlər.*

Müsyö Jordan. (onları görən kimi). Ax, gəldiniz! Hatəmxan ağa, Şahbaz bəy, sizi tarı, tez mənə at hazır edin, gərək bu saatda gedəm, dayana bilmənəm, özünüz də atlanın, məni Arazdan keçirdin, qayıdın!

Hatəmxan ağa *(heyrətlə)*. Həkim-sahib, nə vaqe olubdur? Belə tələsik getməyə səbəb nədir?

Müsyö Jordan *(qaim səs ilə)*. Paris dağılıb, Tülyeri yıxılıb, Fransanın səltənəti pozulub, kral avara düşüb. Bu saatda Təbrizdə oturan ingilis konsulundan sizin divanbəyiniz mənə kağız yetirdi; konsul bu əhvalatı bildirəndən sonra yazır ki, Londona vacibi kağızlar ilə bu saat çapar gedir. Arazın kənarında mənə müntəzirdir. On iki saatadək gərək mən özümü ona yetirəm. Əgər təxir etsəm, çapar gedər, sonra mən özümü tezliklə yalqız krala çatdıra bilmənəm. Lui Filipp ingilisə qaçıbdır. Mon diyö, mon diyö!

Hatəmxan ağa *(təhəyyür ilə)*. Həkim-sahib, Parisi kim dağıdıbdır, kim yıxıbdır?



LAYİHƏ

M ü s y ö  J o j d a n (iztirabla). Şəyatinlər, əcinnələr, divlər, ifritələr, bəd əməllər. Hansını deyim! Aman, Hatəmxan ağa, at hazır edin, dayanmaq mümkün deyil!

Ş ə h r ə b a n u  x a n ı m *(üzünü müsyö Jordana tutub)*. Həkim-sahib, bizim Şahbazı da aparırsınızmı?

M ü s y ö  J o r d a n . Nə söyləyirsiniz, xanım, özüm başımı qoymağa yer tapmıram. Şahbazı hara aparacağam! Hatəmxan ağa, amandır, tez olsun, atlanın, məni ötürün! Gərək səhərdən Araz qırağına çatam.

H a t ə m  x a n  a ğ a. Şahbaz, gəl gedək, görək necə edirik, bu necə iş idi oldu?

*Hər ikisi damdan çıxır, dallarınca müsyö Jordan, onlardan sonra yavaş, pərdənin dalısından dərviş Məstəli şah xurcun çiynində çıxır, gözdən itir.*
*Pərdə salınır, tamaşa tamam olur.*

**II dərs** • **Məzmun üzrə iş**

**1. Tapşırıqları fərdi olaraq yerinə yetirin.**
a) Üçüncü və dördüncü məclisləri nəzərdən keçirin.
b) Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu müəyyənləşdirin.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

c) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?

| Əsərdən seçilmiş məcazlar | Onların növü | Daha maraqlı hesab etməyimin səbəbi? |
|---|---|---|
| | | |

d) Oxuduğunuz parçada diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**2. Gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**
**3. Müzakirədə aşağıdakı sualları da əhatə etməyə çalışın.**
– Şəhrəbanu xanımın Şahbaz bəyi səfərdən saxlamaq üçün düşündüyü tədbir onun haqqındakı təəssüratınıza yeni nə əlavə etdi?
– Dərviş Məstəli şahın xanımları öz cadugərlik məharətinə inandıra bilməsi sizdə hansı düşüncələr yaratdı?
– O, Parisi dağıtmağının əvəzində Şəhrəbanu xanımdan nə istədi?
– Müsyö Jordanın Parisin "dağılmasından" təlaşa düşməsinə səbəb nə idi?
– Müsyö Jordan Şahbaz bəyi Parisə aparmaq fikrindən nə üçün daşındı?
– Əsərdə hansı mənəvi-əxlaqi dəyərlərə önəm verilmişdir?

**Evdə iş**

**Dördüncü məclisin məzmununu iki formada – yığcam və geniş danışmağı öyrənin.**

**III dərs** • **Təhlil üzrə iş** | **Aşağıdakı qaydalara əməl etməklə mətn üzərində işləyin**

**1. Mətni oxuyun. Mətnkənarı sualların cavablarını ümumiləşdirib bir neçə cümlə ilə yazın.**

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |



LAYİHƏ

**2. Ardıcıllığa əməl etməklə aşağıdakı tapşırıqları yerinə yetirin.**

a) Əsərin mövzusunu müəyyənləşdirin.

| Əsər hansı mövzuda yazılıb? |
|---|
| |

b) Xarakterlər xəritəsindən istifadə edərək əsərdəki Müsyö Jordan və dərviş Məstəli şah obrazlarını səciyyələndirin.




c) Əsərdəki bədii təsvir və ifadə vasitələrinin rolunu izah edin.

| Bədii təsvir və ifadə vasitəsinin işləndiyi cümlə | Fikrin təsir gücünün artmasında onun rolu |
|---|---|
| | |

ç) Faciə və ya dramla müqayisə etməklə əsərin komediya janrında olduğunu əsaslandırın.

| Hansı cəhətlərinə görə müqayisə edilir? | Faciə (nümunə göstərməklə izah edin) | Dram (nümunə göstərməklə izah edin) |
|---|---|---|
| | | |

d) Əsərdəki başlıca fikri – ideyanı müəyyənləşdirin. Fikrinizi əsaslandırmaq üçün əsərdən nümunələr göstərin.

| Əsərin ideyası | Əsərin ideyasını daha qabarıq əks etdirən cümlələr |
|---|---|
| | |

**3. Aşağıdakı fikirlərlə tanış olun. Müzakirədə onlara münasibət bildirin.**

– Dərviş Məstəli şah komediyanın baş qəhrəmanı, əsas tənqid hədəfidir. Dramaturq onu gərgin işdə, hərəkətdə və mübarizədə qələmə almışdır. Hiyləgər, tədbirli, mahir bir fırıldaqçı olan dərviş Məstəli şah avam xalqı aldadıb soyur, tüfeyli həyat sürür, cəmiyyətin inkişafına xələl gətirir. *(Nadir Məmmədov)*

– M.F.Axundzadə Şahbaz bəyin simasında yeni həyat, yaşayış tərzi, yeni adətlər barədə düşünən, qərb mədəniyyəti ilə tanış olmaq istəyən yeni fikirli Azərbaycan gənclərinin xüsusiyyətlərini canlandırmışdır. *(Zaman Əsgərli)*

**4. Kiçik qruplarda birləşərək icra etdiyiniz işlərlə bağlı qənaətlərinizi bölüşün, ümumiləşdirmə aparın.**

**5. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

Komediya hansı mövzuda yazılmışdır?

M.F.Axundzadənin komediya janrında əsər yazması təsadüfi deyildir. O, insanlara təsir etmək, diqqəti cəmiyyətdəki qüsurlara yönəltmək və onları aradan qaldırmaq üçün satiranı, tənqid və məsxərəni ən yaxşı yol hesab edirdi. Ədib yazırdı ki, pis və yaramaz əməlləri insan təbiətindən tənqid, istehza və məsxərədən başqa heç bir vasitə ilə yox etmək olmaz. “Müsyö Jordan və dərviş Məstəli şah” mövzusu, ictimai məzmununa görə müəllifin digər komediyalarından fərqlənir. Mənbələr üzrə araşdırma aparmaqla məsələnin mahiyyətini aydınlaşdırmaq olur.

Əsər müəllifin maarifçilik görüşlərini əks etdirir. Ədib nadanlıq, fanatizm, ətalət və gerilik əleyhinə mübarizəni ön plana çıxarır, tərəqqi yolunu yeni həyat tərzində, dünyəvi elmlərdə, həmvətənlərinin, xüsusən gənclərin Avropa mədəniyyətinin nailiyyətlərini yiyələnməsində görür.



LAYİHƏ

Komediyanın kompozisiyası və süjeti Bir-birinə zidd qütblərdə dayanan baş qəhrəmanların məramı, hansı qüvvələri təmsil etmələri əsərin adında öz əksini tapmışdır. Əks mövqedə dayanan **Məstəli şahla Müsyö Jordan** əsər boyu üz-üzə gəlmir, bir-birinin ünvanına heç nə demir. Lakin konflikt məhz iki qüvvə, onların təmsil etdiyi köhnəliklə yenilik arasında baş verir.

> Əsərin qəhrəmanlarının xarakter, davranış və əməllərində daha önəmli olanlar nədir?

Müsyö Jordan müəllifin yenilik, elm, maarif, inkişaf idealının təmsilçisidir. Lakin nəbatat alimi olan Müsyö Jordanın müsbət insani keyfiyyətləri də diqqətdən yayınmamalıdır. Komediyada Müsyö Jordanın Qarabağın təbiəti haqqında dedikləri təsadüfi deyil. Ədib bu yolla Vətənimizin təbii sərvətlərinin zənginliyindən söz açır, onların öyrənilməsi və xalqın xeyrinə istifadəsini zəruri sayır.

Əsərdə əsas satirik qəhrəman, tənqid obyekti olan dərviş Məstəli şah obrazı vasitəsilə ədib cadugərliyə qol-qanad verən feodal-patriarxal cəmiyyətin iç üzünü açmışdır. Köhnəliyi təmsil edən Məstəli şah maskalanaraq əsl simasını gizlətməyə müvəffəq olur, min cür fırıldaq işlədərək sadəlövh insanları soyub-talayır.

Əsərin gənc qəhrəmanı **Şahbaz bəy** həyatda yenicə baş qaldıran, böyük gələcəyi olan maarifçi ziyalıları təmsil edir. O, yaşadığı mühiti "qamışlıq" sayır, təhsil almaq, yeni, fəal həyat tərzinə qovuşmaq arzusu ilə yaşayır. Şahbaz bəy Fransaya getmək, dil öyrənmək, yeni mədəniyyətlə tanış olmaq, inkişaf etmək istəyir. Arzusu həyata keçməsə də, Şahbaz bəy köhnəliyə qarşı çıxan, cəmiyyətdə layiqli yer tutmaq istəyən yeni gəncliyin nümayəndəsi kimi oxucunun rəğbətini qazanır.

**Hatəmxan ağa** bir sıra müsbət xüsusiyyətləri ilə seçilən varlı mülkədar surətidir. Təsərrüfatını bacarıqla idarə edən bu adam yumşaqtəbiətli, qonaqpərvər və alicənabdır. Hatəmxan ağa əvvəlcə Şahbaz bəyin Fransaya getmək arzusuna qarşı çıxsa da, sonra yenilik hissi ilə yaşayan gəncə mane ola bilməyəcəyini başa düşüb, razılıq verir. Müəllif onun həyata baxışındakı məhdud cəhətlərə və bunun səbəblərinə də diqqəti cəlb etmişdir.

Əsərdəki qadın surətləri – **Şərəfnisə xanım** və **Şəhrəbanu xanım** həyati, canlı xarakterlərdir. Onlar hadisələrin sonunda avam adamlar kimi tənqid hədəfinə çevrilsələr də, səmimi və xeyirxahdırlar.

Komediyanın kompozisiyası və süjeti sənətkarlıqla düşünülmüşdür. Bədii müqəddimə – Şahbaz bəyin Parisə getmək istəməsi xəbərini eşidən qadınların təlaşa düşmələri, ona mane olmaq üçün yollar aramaları gələcəkdə baş verəcək hadisələr barədə müəyyən təsəvvür yaradır. Şahbaz bəyin Parisə getmək qərarına Şəhrəbanu xanımın "mən ondan da höcətəm, qoymaram getsin!.." sözləri ilə başlanan düyün obrazların səciyyəsinin açılmasına kömək edir. Hadisələrin sonrakı inkişafında gərginlik bir an da olsa, səngimir, dərvişin Parisi alt-üst etmək üçün hazırlıq gördüyü səhnədə hadisələr ən yüksək həddə – kulminasiya nöqtəsinə çatır. Dərviş Məstəli şahın Parisi "dağıtması" ilə Müsyö Jordanın Fransadakı inqilab xəbərini çatdırması eyni vaxta düşür və gərginlik azalır – düyün açılır. Köhnəlik qələbə çalır, lakin bu, aldadıcı, zahiri qələbə olub, əslində, geriliyin, avamlığın ifşası idi.

> Komediyanın hansı bədii xüsusiyyətləri diqqəti daha çox cəlb edir?

Əsərin dili komediya janrının tələblərinə uyğundur. Tiplərdən hər biri öz xarakterinə, dünyagörüşünə uyğun danışır. Dərviş Məstəli şah insanları öz hünərinə inandırmaq üçün sözləri məharətlə seçir, bəzən də "alimliyini" sübut etmək niyyəti ilə başqa dilə müraciət edir.

Məstəli şahın xarakterik xüsusiyyətlərini, fırıldaqçı təbiətini açmaq üçün əsərdə tipin öz dili ilə özünü ifşa etmək üsulundan istifadə edilmişdir. O, köməkçisi Qulaməliyə deyir: "Bu böyük xanım bu iş üçün mənə yüz təzə bacaqlı verəcəkdir və on gün də cadunun əsər etməsi üçün vaxt var. Bir adam da bu sirri



LAYİHƏ

bilmir və bilməyəcək də. Bacaqlıları alandan sonra... on günə qədər özümü Arazın o tayına sala bilmərəmmi? Məni orada kim tapacaqdır? Məndən sonra hər nə olursa-olsun”.

Şəhrəbanu xanımın, Şərəfnisə xanımın, Xanpərinin və digər obrazların nitqi onların dünyagörüşü, xarakteri barədə dolğun təsəvvür yaradır.

Dramaturq komediyada remarkalardan, dialoqlardan ustalıqla istifadə etmişdir. Əsərin üzərində müşahidələri davam etdirməklə, mənbələri araşdırmaqla bütün bu deyilənləri nümunələrlə əsaslandırmaq mümkündür.

> Əsərin ideyasının əsasında hansı fikirlər dayanır?

Komediya həyat materiallarını əhatəli və realist şəkildə əks etdirməsi, xarakterlərin dolğunluğu, bədii sənətkarlıq baxımından diqqəti cəlb edir. Dramaturq köhnəliyin, cəhalətin daxili mahiyyətini açmaqla, yeniliyə zidd olanların puçluğunu əks etdirməklə öz müsbət maarifçi idealını ifadə etmişdir.

Əsərdə gənclərdə yeni düşüncə, yeni həyat tərzi, dünyəvi elmlərə maraq, qabaqcıl mədəni nailiyyətlərə yiyələnmək arzusu oyatmaq niyyəti ilə yanaşı, bir sıra digər problemlər də əksini tapmışdır. Komediya XIX əsr Azərbaycan maarifçi-realist ədəbiyyatının ən gözəl nümunəsidir.

*Mənbələr əsasında ciddi araşdırma bütün bu mətləblərin aydınlaşdırılmasına, ideyanın hərtərəfli şərhinə imkan yaradacaqdır.*

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı tapşırıqların cavablarını da əhatə etməyə çalışın:**
   a) Obrazlardan ikisinin nitqini təhlil etməklə müəllifin onlara münasibətini aydınlaşdırın.
   b) Komediyada qoyulmuş problemə, onun müəllif həllinə münasibətinizi əsaslandırın.
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**

1. M. F. Axundzadə. Əsərləri. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 14, 16, 18.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.

## IV dərs • Tətbiq • Müzakirə • Yaradıcı iş

1. **Müqayisə səciyyəli inşanın yazılması ilə bağlı mənimsədiyiniz bilik və bacarıqları yadınıza salıb yığcam müzakirə aparın.**
2. **Mövzulardan birini seçib işləyin:**
   a) “Komediyadakı obrazların müqayisəli təhlili” mövzusunda inşa yazın.
   b) “Əsər haqqındakı təəssüratım” mövzusunda esse yazın.
3. **Təqdimatlar etməklə yazılardan nümunələri müzakirə edin.**

**Evdə iş**

**Yazı işlərinizi təkmilləşdirib təqdimata hazırlaşın.**



LAYİHƏ

# ALDANMIŞ KƏVAKİB
(ixtisarla; sadələşdirilmiş)

## I dərs • Məzmun üzrə iş | Oxuya hazırlaşın

**Sualın üzərində düşünün, cavabınızı cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– Vətənpərvər, ədalətli, yaşadığı cəmiyyətdə haqsızlığa, nadanlığa, cəhalətə qarşı çıxan, vətəninin, xalqının mənafeyini hər şeydən üstün tutan hansı ədəbi qəhrəmanları tanıyırsınız?

| Tanıdığım ədəbi qəhrəmanlar | Onlarda dəyərləndirdiyim cəhətlər |
|---|---|
| | |

**1. Müstəqil oxuduğunuz povestdən aşağıdakı parçanı nəzərdən keçirin, tapşırıqları fərdi olaraq yerinə yetirin:**

a) Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

b) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin.

| Əsərdən seçilmiş məcazlar | Onların növü |
|---|---|
| | |

c) Oxuduğunuz hissədə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**2. Suallara cavab hazırlayın:**

a) Münəccimbaşı Mirzə Sədrəddin Şah Abbasın yanına nə üçün gəlmişdi?
b) Onun verdiyi xəbər Şah Abbasa necə təsir etdi?
c) Vəzirlər şahın hüzurunda nə barədə danışdılar? Onların danışığında diqqətinizi daha çox çəkən nə oldu?
d) Şah münəccimbaşının öldürülməsi barədəki hökmünü nə üçün dəyişdi?
e) Şahın bəladan qurtulması üçün Mövlana Cəmaləddin hansı tədbiri məsləhət gördü?

**3. Kiçik qruplarda birləşərək fikirlərinizi dəqiqləşdirin və ümumiləşdirin.**
**4. Gəldiyiniz nəticələr üzrə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

Baharın əvvəli idi, novruzdan üç gün keçmişdi. Şah Abbas günortadan üç saat keçmiş qəsrdə öz arvadı Səlma xatun ilə oturub söhbətə məşğul idi ki, xacəbaşı xacə Mübarək içəri girib, baş əyərək ərz elədi ki:

– Münəccimbaşı Mirzə Sədrəddin qibleyi-aləmin ziyarətinə müşərrəf olmaq istəyir, bir vacibi işdən ötrü.

Şah Səlma xatuna işarə etdi ki, hərəmxanaya getsin və xacəyə buyurdu ki:

– Mirzə Sədrəddini çağır gəlsin!

Münəccimbaşı şahın hüzuruna daxil olub baş əydikdən sonra əl-əl üstə qabaqda durub, dua və səna etdi. Şah soruşdu ki:

– Mirzə, nə var?

Münəccimbaşı ərz elədi ki:

– Qibleyi-aləm sağ olsun, kəvakib seyrindən belə məlum olur ki, novruzdan on beş gün keçmiş Mərrixin Əqrəb ilə toqquşması nəticəsində Şərqdə, xüsusilə İran mülkündə bir səltənət sahibinin vücuduna böyük bir sədəmə yetişəcəkdir.



LAYİHƏ

Buna görə də şahın sədaqətli və fədakar bəndəsi olduğum üçün bunu hadisə başlamazdan əvvəl xəbər verməyi özümə borc bildim.

Şah bu vaxt çox cavan idi. Ömründən ancaq iyirmi iki il keçmişdi. Məlumdur ki, bu yaşda həyat necə şirin və əzizdir. Xüsusən yüksək bir mənsəbdə və səltənət taxtının üstündə olanlar üçün.

Bu səbəbdən münəccimbaşının xəbəri cavan şahı qorxuya saldı. Haman saat rəngi qaçıb, guya ki bihuş oldu. Bir dəqiqədən sonra başın qaldırıb Mirzə Sədrəddinə buyurdu ki:

– Xub, mürəxxəssən, get!

Münəccimbaşı baş əyib qayıtdı. Şah yalqız qəsrdə yarım saat fikrə getdi, sonra xacə Mübarəki səslədi. Xacə hüzura daxil olduqda buyurdu ki:

– Fərraş göndər, bu saatda vəzir Mirzə Möhsünü və sərdar Zaman xanı və müstövfi Mirzə Yəhyanı və mollabaşı Axund Səmədi mənim hüzuruma çağırsın!

Xacə çıxıb bir az vaxtdan sonra çağırılan şəxslər gəldilər və baş əyib şahın buyruğunu gözlədilər. Şah münəccimbaşının dediklərini onlara çatdırdıqdan sonra buyurdu ki:

– Aya, sizin rəyinizə görə mən nə qismi tədbir ilə bu hadisəni öz vücudumdan dəf edə bilərəm?

Məclisdəkilər hamısı heyrət içində qaldı. Bir dəqiqə sükutdan sonra vəzir Mirzə Möhsün başladı danışmağa:

– Əlbəttə, şahın xatirindədir ki, böyük və hörmətli atanızın padşahlıq vaxtlarında bir para ağıldan kəm şəxslərin vəzirlik vəzifəsinə başlaması səbəbindən dövlətin xəzinəsi nə qədər boşalmışdı. Bu əhvalatdan xəbərdar olduqda mən tədbirə başladım. Qərar qoydum ki, şah qapısının nökərlərindən hər kəs bir vəzifəyə və ya bir vilayətin hökumətinə mənsub olsa, gücü çatdığı qədər, tutduğu vəzifəyə görə müəyyən miqdarda pul bəxşiş olaraq xəzinəyə təslim etsin və əlavə nə zaman ki qibleyi-aləm bir əmirin evini öz gəlişi ilə mübarək etsə, ev sahibi onun ayağının altına qumaş parçalar salsın və bir qədər pul bağışlasın. Bu növ tədbirin vasitəsilə dövlət xəzinəsi, şükür olsun Allaha, pul ilə doludur. Vəzirlik işlərinin irəli getməsində kiçik bəndəniz tərəfindən təcrübəsizlik təsəvvür edilməz, amma ulduzların müqabilində tədbir göstərməyə, həqiqətən, acizəm.

Bundan sonra sərdar Zaman xan başladı:

– Bu sədaqətli nökəriniz, saqqalımın tükünü ali və yüksək dövlətimizin xidmətinə sədaqət və hünərlə ağartmışam. Məsələn, on il bundan qabaq Osmanlı tayfası Bəkir paşa Dəmirçi oğlunun sərkərdəliyi altında yetmiş min nəfərə yaxın qoşunla İran torpağına hücum etməyə qəti qərar vermişdi. Qibleyi-aləmin böyük və hörmətli atası İran qoşununun sərdarlığını mənə tapşırdı. Əgərçi bizim qoşunumuz da say-hesabla Osmanlı tayfasından kəm deyildi, ancaq mənim heyfim gəldi ki, mömin və müqəddəs tayfanın qoşununu doğru yoldan azmışların qarşısında tələfə verdirim. Ona görə əmr etdim ki, Azərbaycan mülkündə bütün kəndlilərin əkin yerlərini xarab etsinlər və mal-qaralarını qovub gətirsinlər, körpüləri dağıtsınlar, yolları pozsunlar. Bəkir paşa sərhədimizə daxil olduğu zaman, hərçənd qarşısında bizim qoşundan bir nəfər görmədi, amma yollar o dərəcədə xarab olmuşdu ki, əsla özü ilə topxana gətirməyə qadir olmayıb, ancaq atlı və piyadası ilə böyük zəhmətlə Təbrizə varid oldu. Hər tərəfə dəstə göndərib, azuqə toplamağa başladı. Əlinə nə taxıl dənəsi, nə bir öküz, nə də bir qoyun düşdü. Əlacsız qalıb üç gündən sonra taqətsiz, ac və pərakəndə



LAYİHƏ

düşərək köçmək təbilini döydü. Təbrizdən qaçdı. Bu tədbir ilə İran mülkü yad tayfaların hücumundan salamat qaldı. Yolları dağıtmaq, körpüləri yıxmaq hökmdarın o dərəcədə xoşuna gəldi ki, bundan sonra düşmən hücumundan qorunmaq üçün onların bərpasını məsləhət bilmədi. Belə işlərdə sarayınızın qoca iti faydalı tədbir göstərməkdə aciz deyil. Amma ulduzların qarşısını almağa heç bir çarə tapa bilmir...

Şahın qorxusu çox şiddətləndi. Sonra müstövfi Mirzə Yəhya danışmağa başladı:

– Bəllidir ki, qoşunun və orta dərəcəli qulluqçuların məvacibi qibleyi-aləmin fərmanına əsasən və mənim imzam ilə vilayətlərin mədaxilindən verilir; çünki dövlət xəzinəsində nəğd pul, necə ki vəzir söyləmişdi, çatışmırdı. Ona görə də mən bu cəhətdən çox qəmgin idim. Hərçənd mən məvacib fərmanlarını imza edib, vilayətlərə göndərmişəm ki, məvaciblərin kəsilməsi ilə ali və yüksək dövlətimiz xalqın nəzərində etibarsız görünməsin, amma ondan qabaq hər bir vilayət hakiminə gizli məktub göndərmişəm ki, mənim tərəfimdən ayrıca məktub yazılmamış haman fərmana əsasən məvacib verməsinlər. Haman tədbir səbəbi ilə dövlət xəzinəsinin mədaxili çox artmışdır. Qoşun əhli və mənsəb sahibləri məvacibsiz qalmışlarsa da, amma sülh və asayiş zamanı olmaq səbəbi ilə və İranın ucuzluğuna görə məvacibə çox möhtac olmayıblar. Belə işlər xüsusunda mənim düzgün işləyən zehnim məharət göstərir. Lakin ulduzların təsirini rədd etmək üçün, doğrusu, heç bir çarəyə ağlım çatmır.

Növbət yetişdi mollabaşıya. O söylədi:

– Bu qüdrətli dövlətin davam etməsi üçün bu dua edənin böyük və uca olan Səfəviyyə nəslinə səmimiyyət və sədaqəti tərifə sığmaz. Bu halda ki qibleyi-aləmin vücudu ulduzların təsirindən qorxu altındadır, mənim ürəyim tavadakı balıq kimi büryan olur. Qüsurlu ağlıma belə yetişir ki, o məlun münəccimbaşının özü bu işin çarəsini bizdən artıq bilir. O, qibleyi-aləmə xəyanət edibdir ki, ulduzların təsirini bildirib, əlbəttə, bir pis fikrə görə dəfinin çarəsini göstərməyib. Necə ola bilər ki, zəhəri göstərə, zəhərin təsirini yox edən dərmanı göstərməkdən özünü kənara çəkə! Qibleyi-aləm onun özünü çağırsın. Bu hadisənin dəfi üçün onun özündən əlac istəsin. Əgər bir bəhanə gətirsə, boynunu vurdursun.

Mollabaşının münəccimbaşı ilə köhnə ədavəti var idi. Bu əhvalat mollabaşı üçün çox yaxşı vasitə göründü ki, onun və başqa münəccimlərin atalarının gorunu yandırsın. Hər halda, haman uğursuz xəbərə görə şahın münəccimbaşıdan zəhləsi getmişdi. Xacə hazır olduqda buyurdu:

– Bu saat xidmətçi göndər, münəccimbaşını mənim hüzuruma gətirsin!

Bir saatdan sonra münəccimbaşı hazır oldu. Şah qəzəblənmiş aslan kimi dizi üstə çöküb müraciət etdi:

– Pədərsüxtə, ulduzların bəlasından məni qorxudarsan və əlacını gizlərsən?! Cəllad!

Dərhal üz-gözündən dəhşət yağan cəllad belində xəncər, əlində ip içəri girdi. Biçarə münəccimbaşının ruhu uçub başladı yarpaq kimi titrəməyə. Şah cəllada buyurdu:

– Apar, bu itin bu saatda boynunu vur!..

Sərdar Zaman xan hərçənd qılınc əhli idi, amma çox qəlbiyumşaq adam idi. Münəccimbaşının halına rəhmi gəlib, ayağa durub söylədi:

– Sənə qurban olum, bu itin boynu vurulandan sonra hadisənin ortadan qaldırılması üçün kimdən əlac soruşacağıq? Mən fağır və yazıq bəndə xahiş edirəm



LAYİHƏ

ki, mənim saqqalımın ağ tükləri hörmətinə onun ölümündən keçəsiniz. Hadisənin əlacı xüsusunda ondan tədbir soruşasınız. Əgər istədiyimizə uyğun cavab verməsə, o vaxt müqəssirdir və ölümü vacibdir.

Şah münəccimbaşıya müraciət edib dedi ki:

– Məlun, bu saatda hadisənin ortadan qaldırılmasına əlac göstər.

Biçarə münəccimbaşı yaman halda idi. Hadisənin aradan qaldırılması üçün heç bir əlac bilmirdi. Amma ölümün qorxusundan onu aşkara çıxara bilmədi. Söylədi:

– Qurban olum, hadisənin əlacı mümkündür. Mənə bir saat möhlət verin. Gedim "Zici-Uluğbəy"i nəzərdən keçirim, qayıdım söyləyim.

Şah icazə verdi. Münəccimbaşı çıxmamış xacə Mübarək içəri girib söylədi:

– Mövlana Cəmaləddin mübarək hüzurunuza icazə istəyir.

Mövlana otağa daxil olub, şaha lazım olan sitayişi əmələ gətirdi. Şahın işarəsi ilə oturub söylədi:

– Qibleyi-aləm sağ olsun, bu bəndəniz qocalıq səbəbindən şah sarayından kənar olub, guşənişin olmuşamsa da, lakin bu vəziyyət, yəni novruzdan on beş gün keçmiş Mərrixin Əqrəb ilə yaxınlaşmasından qibleyi-aləmin zati-mübarəkinə böyük zərər ehtimalı olduğu üçün vacib bildim ki, qulluğunuza gəlim, qabaqcadan hadisəni elan edim və aradan qaldırılmasına tədbir göstərim. Bu məqsədlə ki, bəlkə də, bu keyfiyyət cavan münəccimlərin iti gözlərindən gizli qalmış olar.

Şah kifayət dərəcədə xoşhal olub buyurdu ki:

– Mövlana, biz elə o xüsusda söhbət edirdik. Hadisə məlumdur, tədbirinizi söyləyin.

Mövlana söylədi:

– Bu nəhs günlərdə, yəni novruzdan on beş gün keçənədək gərək qibleyi-aləm şahlıqdan əl çəkə və taxt-tacı günahkar və ölümə layiq bir nəfərə təslim edə, özü də xalqın gözündən gizlənə. Belə olduqda ulduzların təsiri haman günahkarın başında çatlayacaq, çünki o vaxt İran padşahı odur. Elə ki hadisə baş verdi və taxta oturan o günahkar fəlakətə yetişdi, o zaman qibleyi-aləm gizləndiyi yerdən çıxıb yenə taxt-taca malik olar, tamam xoşbəxtlik və salamətliklə şahlıq edər. Amma gərək xalqdan heç kəs bu tədbiri bilməyə və zənn etməyə ki, qibleyi-aləm taxt-tacdan müvəqqəti əl çəkir, ta ki taxta çıxmalı olan günahkarı özlərinə müstəqil padşah biləlvalər. Gərək hərəmxana xatunlarının da talağı verilib, kəbin kağızları cırıla. Sonra onlara təklif oluna ki, dəxi padşah deyil, adi camaatdan biri olan Abbas Məhəmməd oğluna ikinci dəfə kəbin kəsdirsin. Kasıblığa və qənaətə razı olarlarmı? Hansı birisi ki razı olsa, ona ikinci dəfə Abbas Məhəmməd oğluna nikah oxuna və kəbin kağızı yazıla, hər kəs ki razı olmasa, həmin saat buraxıla.

Münəccimbaşı qorxudan qurtardı, şahın üzündən tamamilə qorxu əsəri çəkildi, ağarmış rəngi özünə gəldi. Məclis əhlindən mövlananın ağlına və kamalına afərin sədası göyə qalxdı. Şah gülər üzünü mollabaşıya tutub sual etdi:

– Şəriətin hökmlərinə uyğun, hədsiz dərəcədə günahkar və öldürülməsi vacib olan bir nəfər nəzərdə vardırmı ki, səltənəti və taxt-tacı ona həvalə edək?

Mollabaşı cavab verdi:

– Pərvərdigari-aləm qibleyi-aləmə uzun ömür kəramət etsin. Bu Qəzvin şəhərində bir nəfər yaramaz meydana çıxıbdır ki, bütün yer üzündə ondan çox günahkar və ölümə layiq nəfər tapılmaz. Adına Yusif Sərrac deyərlər. Məlum deyildir ki, harada tərbiyə tapıbdır. Ancaq indi Qəzvin şəhərində yaşadığı üçün işi-



LAYİHƏ

peşəsi məlum olmayan oğru-quldurdan özünə mürid cəm edib, həmişə möhtərəm ruhanilərin və parlaq şəriət xadimlərinin zərərinə və pisliyinə danışmaqdır.

Bu məlun həmişə öz başına toplananlara aşkar söyləyir ki, guya möhtərəm ruhanilər avamları aldadırlar. Məsələn, onun əqidəsicə, guya dini hökmləri yerinə yetirmək lazım deyil; xüms və imam malı vermək doğru deyildir. Bundan əlavə, ali və yüksək dövlətə zidd mübahisələr də edir. Deyir ki, guya kəndxudalardan tutmuş padşahadək bütün mənsəb sahibləri zülmkar və quldurdular. Ölkəyə və millətə bunların heç bir mənfəəti yoxdur. Həmişə öz nəfslərinin həvəsi ilə biçarə xalqı cərimə edib sıxışdırır və təqib edirlər. Öz rəftarlarında heç bir qanun və qaydaya əsaslanan deyildirlər. Bu cür rəftar ancaq zülm və yolkəsənlərin əməlidir.

Bəndəniz belə məsləhət görür ki, qibleyi-aləm səltənəti və taxt-tacı bu məluna təslim etsin ki, ulduzların təsirindən öz cəzasına yetişib, cəhənnəmə vasil olsun.

Məclis əhli bu rəyi təsdiq edib, uca səslə dedilər:

– Yusif Sərrac pədərsuxtə ölüm və göyün bəlasına layiqdir...

Şah xoşhal olub buyurdu:

– Onun həlakına razıyam. Sabah bu tədbir tamam-kamal icra olunacaqdır.

Şah məclisdəki şəxsləri azad etdi. Məclis dağıldı. İndi biz Yusif Sərracın kim olduğunu tanımalıyıq. Bu şəxs Qəzvin kəndlilərindən Kərbəlayı Səlim adlı bir kəndlinin oğlu idi. Kərbəlayı Səlim mömin və dindar bir adam olduğu üçün istədi ki, oğlu molla olub, ruhanilər təbəqəsinə daxil olsun. Ona görə də onu uşaq ikən gətirib Qəzvin şəhərində məktəbə qoydu. Bir neçə il sonra Yusif Sərrac həddi-büluğa yetişib, gənclik yaşlarına çatandan sonra təhsil almaq üçün İsfahana getdi. Ruhanilərin bir çox işlərdə qəlpliyini müşahidə etdiyindən o, bu sinfə nifrət bəsləyib, istəmədi ki, özünü onların zümrəsinə daxil etsin.

Kərbəladan qayıdıb Həmədana gəldi. Orada usta Xəlilin yanında qırx yaşında ikən sərraclıq sənətini bir il müddətində öyrənib, Qəzvinə qayıtdı. Bu şəhər paytaxt olduğu üçün onun sənətinə burada daha yaxşı qiymət verilirdi. Qəzvinə gəldikdən sonra evləndi, dükan açdı. Öz qazancı ilə özünü və ailəsini saxlamağa məşğul oldu. O, safürəkli və xeyirxah adam olduğundan həmişə ruhanilərin və mənsəb sahiblərinin pis hərəkətləri onun xatirinə toxunur, onları tənqid və töhmət etməkdən dilini saxlamağa qadir ola bilmirdi. Hərçənd bu növ fədakarlıq ona sadiq və xeyirxah dostlar topladı, lakin, nəhayət, bədbəxtliyinə bais oldu.

Sabahısı gün şahın buyruğu ilə günortaya iki saat qalmış tamam əyan-əşrəf və dövlət adamları, ruhanilər, cümlə mənsəb sahibləri, kəndxudadan tutmuş vəzirlərə kimi, şahın sarayında hazır oldu. Bu halda şah başında tac, əlində cəvahir nişan toppuz, qolunda cəvahir bazubəndlər, belində kəmər və qiymətli daşlarla bəzənmiş qılınc zahir oldu. Üzünü sarayda hazır olanlara tutub xitab elədi:

– Camaat, indi yeddinci ildir ki, mən müqəddəs Allahın köməyi ilə sizə padşaham. İmkanım qədər sizin hər birinizə nəvaziş və mərhəmət göstərmişəm, sizdən də çox razı və xoşnudam, çünki Səfəviyyə ocağına olan istəyiniz səbəbi ilə həmişə mənə məhəbbət və sədaqət göstəribsiniz. İndi sizə açıb deməyi lazım bilmədiyim bir para səbəblərə görə mən səltənətdən əl çəkib, taxt-tacı bu rütbəyə məndən layiq və münasib olan bir kəsə həvalə etməyə məcburam. Haman şəxsi mollabaşı, sərdar Zaman xan, vəzir, müstövfi, Mövlana Cəmaləddin, münəccimbaşı sizə göstərəcəklər. Gərək hamınız gedib təntənə və calal ilə onu gətirib



LAYİHƏ

bu taxtın üstünə oturdasınız və özünüzə şah biləsiniz. Vay o kimsənin halına ki, mənim fərmayişimdə səhlənkarlıq edib, o şəxsin itaətində qüsur göstərə!

Şah bu sözləri tamam edib, tacı başından götürdü, taxtın üstünə qoydu, tamam qiymətli paltarlarını soyunub, qılınc və kəmərini açdı, bir köhnə paltar əyninə geydi və xalqa üz tutub dedi:

– İndi mən adi camaatdan olan bir fəqir kişiyəm: Abbas Məhəmməd oğlu. Daha məni axtarmayın ki, görə bilməzsiniz. Xudahafiz!

Deyib taxtdan düşdü, hərəmxanaya getdi. Məclisdəkilərin hamısı heyran qaldılar, bilmədilər ki, bu əhvalatı nəyə isnad etsinlər... Hərəmxanada hərəmlərin hamısı şahın əmri ilə bir otağa yığışmışdı. Şah üzünü hərəmlərə tutub xitab elədi:

– Mənim əziz arvadlarım! İndi böyük təəssüflə məcburam ki, sizə bir yaman xəbər elan edəm. Sizə məlum olsun ki, indi mən dəxi İran padşahı deyiləm, dəxi mənim imarətim və dövlətim yoxdur ki, sizi zinət və bəzəkdə, gözəl otaqlarda saxlayam. Mən adi camaatdan bir fəqir və yoxsul şəxsəm. Ona görə məcburam ki, sizin talağınızı verib hamınızı azad edim ki, hər kəsə meyliniz olsa, ona gedəsiniz.

Sonra üzün Molla Rəsula tutub buyurdu:

– Buların boşanmaq siğələrini oxu!

Talaq tamam olduqda şahın buyruğu ilə onların kəbin kağızlarını xacə Mübarək cırdı. Şah ikinci dəfə sarayın gözəl qadınlarına üz tutub dedi:

– Əgər sizdən hər biriniz fəqirliyə və qənaətə razı olub, məni, yəni Abbas Məhəmməd oğlunu ərliyə qəbul edirsə, təzədən ona nikah oxutduraram.

Hərəmlərin hamısı təzədən razı oldular ki, şaha arvad olsunlar. Amma oların hamısından iki nəfər gözəl dilbər ki, razılıqları olmadan şahın hərəmxanasına düşmüşdü, çox utancaqlıqla və ahəstə səslə söylədilər:

– Biz şaha arvad olmuşduq, öz bəxtimizdən və dərəcəmizdən çox xoşhal idik. İndi ki bu bəxtəvərlikdən məhrum olduq, Abbas Məhəmməd oğluna ərə getməyi qəbul etmirik.

Haman saat bu iki nəfər azad edildi. Başqa hərəmlərin nikahı təzədən Abbas Məhəmməd oğluna oxundu. Xacə Mübarəkə əmr olundu ki, haman saat hamısını Qəzvinin altıncı küçəsinin başında müəyyən olunan bir evə piyada aparsın. Sonra Abbas Məhəmməd oğlu hərəmxanadan çıxıb uzaqlaşdı, gözə görünməz oldu.

Yusif Sərracın dükanı Şah məscidi meydanının şərq tərəfində yerləşirdi. Günortadan iki saat keçmişdi. Yusif Sərrac vacib olan günorta namazını qıldıqdan sonra oturub, əlində bir cilovu tikib tamam edirdi, çünki müştəri cilovun o gün hazır olmasını tapşırmışdı. Bu halda meydanın qərb tərəfindən bulud kimi toz qalxdı. Mollabaşı, sərdar Zaman xan, vəzir, müstövfi, Mövlana Cəmaləddin, münəccimbaşı, möhtərəm ruhanilər, əzəmətli seyidlər, əyan-əşrəf, mənsəb sahibləri, bir dəstə piyada və bir dəstə atlı cah-calal və aram ilə gəlirdi.

Yusif Sərracın dükanına çatdıqda hamısı dayandı. Mollabaşı və sərdar irəli durub, Yusif Sərraca baş əyərək salam verdilər. Yusif Sərrac ayağa durub təzim elədi. Amma olduqca təəccübləndi. Sonra mollabaşı danışmağa başlayıb dedi:

– Qəzanın təqdirindən, usta Yusif, bu gün sən bizim padşahımızsan! İranın səltənət taxtında bu saatda Şah Abbasın yeri boşdur. Bizləri sərəfraz, xoşbəxt eləyin, şah sarayına buyurun ki, şahın taxta çıxması vaqe olsun.



LAYİHƏ

Yusif Sərrac çox heyrətə düşdü. Heç bilmədi ki, bu nə əhvalatdır. Onun qabağında tamam dövlət qulluqçuları durmuşdular. Bu sözləri ona İranda mətin bir şəxs hesab olunan mollabaşı deyirdi. Amma hadisə o dərəcədə qəribə idi ki, gözü ilə gördüyü bu əhvalatın olmağına Yusif Sərrac heç etibar edə bilmirdi. Axırda dedi:

– Mənim ağam, mollabaşı, mən cənabınızı İranda mətin adamlardan hesab edirəm. Bilmirəm ki, aya dəli olubsunuz, ya tiryək atıbsınız, bu sözləri mənim üzümə deyirsiniz. Mən bir fəqir sərrac babayam, mən hara, taxt-tac hara!.. Vallah, mən anlaya bilmirəm ki, sizin bu hərəkətinizi nəyə isnad verim... Mat və heyran qalmışam. Acizanə təvəqqe edirəm ki, mənə sataşmayasınız.

Sərdar Zaman xan başladı:

– Usta Yusif, bu gün tamam İran torpağında sənin şahlığın qəbul edilmişdir. Mollabaşının sözünə əsasən şah sarayına buyurun ki, şahın taxta çıxmağı vaqe olsun.

## Evdə iş

**1. Povestin davamını oxuyun.**
**2. Tanış olmayan sözlərin mənasını və daha maraqlı hesab etdiyiniz məcazları müəyyənləşdirin.**
**3. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**
**4. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
**5. Seçdiyiniz parçanın məzmununu iki formada – yığcam və yaradıcı danışmağı öyrənin.**

Yusif Sərracı ata mindirdilər, əvvəlki qərar üzrə dəstə şah sarayına yola düşdü. Xidmətçilərin küçələrdə “Çəkilin! Çəkilin!” səsi ərşə dayandı. Tamam Qəzvin əhalisi kişili-arvadlı, kiçikli-böyüklü pəncərələrə və damlar üstünə çıxıb, tamaşaya məşğul oldular. Əhvalatdan xəbərdar olmadıqları üçün hamısı heyrətdə qaldı. Şah sarayının qapısında xidmətçilər Yusif Sərracı atdan düşürdülər. Mollabaşı və sərdar Zaman xan qolundan yapışıb, təzim ilə onu imarətin otağına daxil etdilər və səltənət taxtının üstündə oturtdular. Hamı şahın sarayından çıxdı. Ancaq Yusif şah taxtın üstündə oturmuş, qabağında xacə Mübarək, başqa bir neçə xacə ilə, xidmətçibaşı Əzim bəy və bir neçə xidmətçi durmuşdular, bayırda isə fərraşlar dayanmışdılar.

Yusif şah xacə Mübarəki yanına çağırıb dedi:

– Sən Allah, mənə söylə görüm ki, bu qəziyyəyə səbəb nədir? Çünki sən həmişə Şah Abbasın içəri otağında olduğundan mümkün deyil ki, bu qəziyyə sənə məlum olmasın...

Xacə Mübarək, həqiqətən, çox saf və sadiq adam idi. Qəziyyəni əvvəlindən-axırınadək Yusif şaha nağıl etdi.

Yusif şah ağıllı adam idi. Ulduzlardan onun heç bir qorxusu yox idi. Əlacsız qalıb səltənət işlərinin icrasına başladı. Əvvələn, fərraşbaşı Əsəd bəyi hüzuruna gətirtdi, buyurdu:



LAYİHƏ

– Bu saat on iki fərraş özünlə götürərsən, gedərsən mollabaşı Axund Səmədi, sərdar Zaman xanı, vəzir Mirzə Möhsünü və müstövfi Mirzə Yəhyanı, münəccimbaşı Sədrəddini və mövlana Cəmaləddini tutub aparарsan, Ərkdə olan zindana salarsan, qayıdıb gələrsən, buyruğun nəticəsini mənə söylərsən!

Əsəd bəy baş əyib getdi. Yusif şahı sarayla tanış etməyə başladılar. Zinət otağının qapısını açdılar, şaha göstərdilər.

Yusif şahın üç qızı var idi. Böyüyü on dörd yaşında, ortancılı on iki yaşında, kiçiyi səkkiz yaşında və iki oğlu var idi: altı yaşında və dörd yaşında. Qızlarının hər birinə bir gül, bir cüt sırğa, bir üzük, bir boyunbağı, bir dəst paltar və bir rizayi şal, arvadı üçün isə bir dəst paltar və bir rizayi şal ayırdı, xacə Mübarəkə təslim edib buyurdu:

– Bunları apararsan, Qəzvinin ikinci küçəsində mənim qədim evimdə arvadıma yetirərsən. Deyərsən ki, mən tərəfdən narahat olmasın! Sabah oğlanlarımı hüzura göndərsin!

Xacə Mübarək şeyləri iki nəfər xidmətçi ilə götürüb getdi.

Sabahı gün Yusif şah salam otağına təşrif gətirib, dostları Molla Ramazanı, Qurban bəyi, Mirzə Cəlili və Mirzə Zəkini çağırtdırdı. Şahın onlara hər barədə möhkəm inamı var idi. Mollabaşılıq mənsəbini Molla Ramazana verdi, sərdarlığı Qurban bəyə həvalə elədi. Vəzirliyi xanlıq ləqəbi ilə Mirzə Cəlilə, müstövfiliyi Mirzə Zəkiyə tapşırdı. Münəccimbaşılıq mənsəbini bilmərrə ləğv etdi ki, dövlətə və millətə zərərdən başqa bir faydası yox idi. Buyurdu, tamam vilayət hakimlərinə elannamə və təkidli hökm göndərilsin ki, bu gündən sonra şərafətli şəriətin icazəsi olmadan bir müsəlmanı bir şey almaq məqsədilə sıxışdırmağa heç biri cürət etməsin və bacarmasınlar ki, məhz öz kefləri istədikdə bir kəsi cərimə edələr, ya qətlə yetirələr və ya burun-qulağını kəsələr, gözünü çıxardalar. Hökmdən əlavə, hər bir vilayətə inanılmış baxıcılar təyin etdi ki, gedib vilayətlərin əhvalatından və xalqın ehtiyacından xəbərdar olub, gəlib danışsınlar.

Yusif şah bu baxıcıları hüzura istəyib dedi:

– Vilayətlərin hakimlərinə mənim tərəfimdən elan edərsiniz ki, Allahdan qorxsunlar, nahaq iş tutmasınlar, xalqı talayıb-dağıtmasınlar, rüşvət almasınlar. Yəqin bilsinlər ki, bu növ hərəkətlər axırda onların özlərinin bədbəxtliyinə və ölümünə səbəb olar.

Bu sözləri xatırlatdıqdan sonra şah baxıcıları buraxdı. Sonra buyurdu ki, vergi məbləği orta miqdaradək azaldılsın. Əmr etdi ki, hər yerdə yollar təmir olunsun. Lazım məqamlarda və mənzillərdə körpülər, karvansaralar tikilsin, hər vilayətdə xəstəxanalar qayrılsın, mədrəsələr açılsın və susuz yerlərə su çıxarılsın. Dullara, yetimlərə, şillərə, korlara yardım və himayət göstərilsin. Vilayətlərdə hər kefi istəyən özbaşına özünü ruhani sinfinə daxil etməsin. Bu xüsusda mollabaşıdan icazə istəsinlər. Ruhani sinfi hər yerdə xalqın ehtiyacına kifayət edəcək miqdardan artıq olmasın. Bütün ruhanilərə dolanacaqlarına kifayət edəcək qədər xəzinədən maaş təyin etdi ki, səltənətə möhtac olsunlar, mənsəb sahiblərini şahın xidmətində zülm əhlinə çevirməsinlər. Məhkəmə işləri ki, səltənətin ən mühüm işlərindəndir, ruhanilərin əlindən alınıb mənsəb sahibləri içərisində doğrucul olanlara həvalə edildi ki, millət məhkəmə cəhətindən özlərini ruhaniyə möhtac görüb, təkcə onlara müraciət etməsin və səltənətdən uzaq düşməsin. Buyurdu ki, dini vergilər hər yerdə sədaqətli adamlardan dörd nəfərə tapşırılsın, vilayətin füqərasına dəftər üzü ilə sərf olsun və hesabı divana gətirilsin, füqəranın bəzisi



LAYİHƏ

dini vergilərdən fayda alıb, bəzisi məhrum qalmasın. Əmr etdi ki, xüms və imammalı verilməsin. Belə ki, millət dilənçilik zillətindən azad olub, sair xalq kimi öz peşəsi ilə məişət vasitəsi əldə etsin.

Bu xüsusda mötəbər ruhanilər Yusif şaha fiqh kitablarından hökmlər çıxarıb göstərdilər. Vilayətlərə elannamələr göndərdi ki, bundan sonra bir şəxs şaha, dövlət adamlarının və şah qapısının nökərlərinə peşkəş verməyə, ayağının altına qiymətli bir şey salmağa cürət etməsin və heç kəs peşkəş vasitəsi ilə hakimiyyət qazanmağın təmənnasında olmasın. Səltənətin mədaxilinin artırılması üçün də qərar qoydu ki, tacirlər, bəyzadələr, xanəndələr, şahzadələr, hətta ruhanilər, seyidlər və başqa xalq sinfi əmlakının mədaxilindən şəhərlərdə onda bir, kəndlərdə iyirmidə bir hissə xəzinəyə versinlər. Qoşun xalqının, xidmətçilərin məvacibi əsla çatmamış qalmasın ki, səltənətin nöqsanıdır, bəlkə, həmişə vilayət xəzinələrindən təxirsiz verilsin. Alış-veriş edənlər üçün əmlakın qiymətindən xəzinənin nəfi üçün tümənə beş şahı təyin olunsun.

Yusif şah bilirdi ki, miraxur yay fəsli padşahlıq atlarını yaylağa aparıb, bəslənmə bəhanəsi ilə ətraf xalqına çox əziyyət və cəfa yetirir, onları çapıb-talayır, topxana əmiri topçuların hamısı üçün xəzinədən məvacib götürüb, heç birinə bir qəpik də vermir, xəzinədar padşahlıq pulunun içinə də çox qəlp pul qatıb xalqa dağıdır. Qəzvin bəylərbəyisi xalqdan hədsiz rüşvət alır, darğa dövlətlilərə füqəraların müqabilində üz görür, kəndxudalar Qəzvinin küçələrini natəmiz saxlayırlar. Onların hamısını vəzifədən çıxarıb, yerlərinə tanıdığı münasib adamları təyin etdi. Mollabaşı Axund Səməd Ərkin zindanında dustaqxana məmurundan eşitdi ki, onun mənsəbini Molla Ramazana veriblər. Qüssədən birdən-birə həlak oldu. Yusif şah dəxi əmr etdi ki, Qəzvinin küçələri genəlsin. Küçədə açıq olan quyular örtülsün ki, gedib-gələn onlara düşməkdən hifz olsunlar. Xalqın ərzinə qulaq asmağa, dadına yetişməyə qayda-qərar qoydu və buyurdu:

– Bahalıq olduğu üçün Qəzvinin füqərasına padşahlıq anbarından buğda verilsin. Bilikli adamlardan, mahir quyuqazanlardan bir müşavirə məclisi düzəldilib Qəzvinə su çıxarmaq üçün danışıq olsun, tədbir və təkliflər padşaha təqdim edilsin.

Yusif şahın taxta çıxmasından bir həftə keçdi. Hər gün onun xeyirxahlığından və ədalətindən növbənöv əlamətlər xalqa aşkar olurdu. İran üçün xoşbəxtlik günləri, şadlıq əyyamı başladı. Qəzvin əhli hər gün qala qapılarından adam şaqqalarını asılmış görmədilər. Şah meydanında cəlladların adam şaqqalamalarını, dardan asmalarını və göz çıxarmalar müşahidə etmədilər. Bu əhvalat onlara xeyli qəribə göründü. Əvvəl dedilər:

– Görünür, bu padşah çox rəhmli, yumşaq təbiətli adamdır!

Sonra onun rəhmli və yumşaqtəbiətli olması haqqında mübahisələr başlandı. Bunu süstrəyliyə və zəifməcazlığa yozdular. Bundan əlavə, dəxi Yusif şahda min cür özgə eyib tapdılar.

Vəzifədən çıxarılmış hökumət məmurları xalqın bu növ niyyətindən nəticə çıxararaq, onu qənimət bilməyə fürsəti fövt etmədilər. Üç-dörd günün müddətində bütün nəzərdə tutulan adamlar görüşdülər. Hamısı üsyana meyil və hazırlıq göstərdi. Fitnəkarlar qərar verdilər ki, sübhdən padşahlıq sarayını əhatə etsinlər və içəri girib, Yusif şahı taxtdan yerə salıb həlak etsinlər. Sonra özlərinə Səfəviyyə nəslindən bir təzə padşah tiksinlər. Qərara alınmış gün sübh çağında, hələ padşahlıq sarayının qapıları açılmamış çoxlu süvari və piyada silahlı olaraq onun ətrafını bürüdülər. Yusif şah əhvalatdan xəbərdar olub buyurdu ki, sarayın



LAYİHƏ

qapılarını açmasınlar. Bu halda Yusif şahın tərəfdarları dəxi xəbərdar olub, silahlandılar. Qiyamət bərpa oldu. Axırda Yusif şahın tərəfdarları məğlub olub, hər kəs bir növ ilə başını mərəkədən qıraq çəkdi, canını qurtardı.

Fitnəkarlar hücum edib şah sarayının qapılarını sındırdılar, içəri daxil olub, Yusif şahı axtardılar, tapmadılar. Yusif şah itkin oldu. Gün batdı. Hər kəs öz evinə və mənzilinə qayıtdı. Üsyan və qovğa sakit oldu. Sabahısı gün üsyan başçıları tezdən Ərkə getdilər. Sərdar Zaman xanı, vəzir Mirzə Möhsünü, müstövfi Mirzə Yəhyanı, Mövlana Cəmaləddini və münəccimbaşını həbsdən çıxardılar. Hamısı ayağa durub gəldilər Şah Abbas gizlənən evə, onu oradan çıxardıb şah sarayına yetirdilər. Taxt-tacına əvvəlki kimi malik oldu. Hər iş köhnə qərar üzrə surət tapdı. Guya ki heç bir hadisə vaqe olmamışdı.

Bu ulduzların axmaqlığına mən təəccüb edirəm ki, necə bilmədilər İran əhli onları aldadırlar. Belə sadəlik olurmu ki, ulduzlar özlərini İran əhlinə aldatdırıb, biçarə və təqsirsiz Yusif Sərracı bədbəxt etdilər. Şah Abbası kənar qoyub, qırx il sərasər onun cəlladlığına, zülmkarlığına etinasız baxdılar.

Şah Abbasın zülmkarlığının alçaq əlaməti bu idi ki, bir oğlunu öldürdü, ikisinin dəxi gözünü çıxartdı. Dəxi oğlu yox idi, nəvəsi ona varis oldu. Amma ulduzları da qınamaq olmaz. Ulduzların heç vaxt xəyalından keçməzdi ki, İran əhli onları aldadacaqdır. Həqiqi padşahın əvəzinə, süni bir padşahı onların sədəməsinin altına salacaqdır.

Vallah, bu ingilis tayfası qəribə axmaqdır; belə xətərli millət ilə az qalmışdı cəng başlayalar.

**II dərs • Təhlil üzrə iş | Mətni oxuyun. Tapşırıqları fərdi olaraq yerinə yetirin.**

**1. Əsərin mövzusunu müəyyənləşdirin.**

| Əsərin mövzusu | Nə üçün belə düşünürəm? |
|---|---|
| | |

**2. Povestdə hansı sosial-siyasi, mənəvi dəyərlərə önəm verilmişdir?**

| Povestdə önəm verilmiş sosial-siyasi, mənəvi dəyərlər | Bunun səbəbi |
|---|---|
| | |

**3. Əsərdə işlənilmiş bədii təsvir və ifadə vasitələrinin fikrin təsir gücünün artmasında rolunu izah edin.**

| Bədii təsvir və ifadə vasitəsinin növü | Mətndən nümunələr | Fikrin təsir gücünün artmasında rolu |
|---|---|---|
| | | |

**4. Yusif Sərrac və Şah Abbas obrazlarını müqayisəli səciyyələndirin.**

| Obrazın adı | | | |
|---|---|---|---|
| | vətənə münasibətləri | → | |
| | xalqa münasibətləri | → | |
| | dövlətin idarə olunmasına münasibətləri | → | |
| | dinə, din xadimlərinə münasibətləri | → | |



LAYİHƏ

**5. Əsərin ideyası, sizcə, nədir?**

| Əsərin ideyası | Nə üçün belə düşünürəm? |
|---|---|
| | |

**6. Aşağıdakı fikirlərin üzərində düşünün. Müzakirədə onlara münasibət bildirin.**

– *M.F.Axundzadə bu əsərində I Şah Abbas hökumətinin bütün eyiblərini mahir realist sənətkar kimi ifşa etdikdən sonra Yusif Sərracın simasında təmsil olunan ədalətli xalq hakimiyyətini ona qarşı qoyur. I Şah Abbasın tamamilə əksi olan, xalq içərisindən çıxmış Yusif Sərrac surətini yaradır.*

*(Feyzulla Qasımzadə)*

– *M.F.Axundzadə saray xadimlərini təsvir etməklə Şah Abbasın dövlət aparatının gülünclüyünü, onun hakimiyyətinin başında duran adamların nadanlığını əks etdirir. Onlar ümumi halda Şah Abbasın səciyyələndirilməsinə, nadan hökmdarın despot xarakterinin hərtərəfli açılmasına xidmət edirlər.*

*(Əziz Mirəhmədov)*

**7. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün və ümumiləşdirmə aparın.**
**8. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

Povest hansı mövzuda yazılıb?

M.F.Axundzadə 1857-ci ildə yazdığı "Aldanmış kəvakib" povesti ilə Azərbaycan maarifçi-realist nəsrinin inkişafında yeni bir səhifə açmışdır. Əsərin mövzusu, süjeti İran tarixçisi İsgəndər bəy Münşinin "Tarixi-aləm-arayi-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərindən götürülmüşdür. Mənbələr üzrə aparılan araşdırma əsərin mövzusu barədə əhatəli fikir deməyə imkan yaradır.

"Əsərdə hansı sosial-siyasi, mənəvi dəyərlərə önəm verilmişdir?

Əsərdə yazıçının mənəvi, sosial, maarifçi idealları öz əksini tapmışdır. Yusif Sərracın taxta çıxan kimi apardığı islahatlar, xalq içərisindən çıxmış namuslu, vətənpərvər insanların sarayda yüksək vəzifələrə irəli çəkilməsi, xalqın yaşayış səviyyəsinin yüksəldilməsi üçün tədbirlərin görülməsi, yeni vergi qanunlarının elan olunması ədibin milli tərəqqi arzularını ifadə edirdi. Yusif şahın qısa müddətdə apardığı köklü islahatlar ədibin ölkəni abadlaşdırmaq, xalqı maarifləndirmək, milli-mənəvi dəyərləri bərqərar etmək arzusunun ifadəsi idi.

Əsərdəki obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə fərqlənirlər?

Əsərdə maraqlı insan obrazları yaradılmışdır. Onların fərdi xüsusiyyətləri ilə yanaşı, oxşar xüsusiyyətləri də vardır. **Yusif Sərracla Şah Abbasın** müqayisəsi onların xarakter, davranış, həyata baxışları arasındakı fərqin aşkara çıxarılmasına imkan yaradır. Onları *vətənə, xalqa, dinə, din xadimlərinə, dövlət adamlarına, dövlətin idarə edilməsinə* münasibətlərinə görə müqayisə etməklə yazıçının mövqeyini, əsərin ideya-məzmununu daha dərindən başa düşmək mümkündür. *Vətənin, ölkənin* taleyi Şah Abbası az maraqlandırır, əhalinin ağır güzəranı, ölkənin xarabaya çevrilməsi onu düşündürmür. Hələ sərraclıqla məşğul olduğu dövrdə ölkənin ağır vəziyyətindən şikayətlənən Yusif Sərrac isə şahlığa keçən kimi bütün bölgələrdə abadlaşdırma işlərinin aparılması barədə göstərişlər verir.



LAYİHƏ

*Xalqa* münasibətlərinə görə də onların arasında böyük fərq vardır: əzici qanunları, ağır vergiləri ilə xalqa zülm edən Şah Abbasın əksinə olaraq, Yusif Şah yeni qanun və göstərişlərlə, xüsusən vergiləri azaltmaqla xalqın güzəranının yaxşılaşmasına çalışır...

Baş vəzir **Mirzə Möhsün**, maliyyə naziri **Mirzə Yəhya**, hərbiyyə naziri **Sərdar Zaman xan**, mollabaşı **Axund Səməd** povestin satirik surətləridir. Ədib şahın yanındakı məşvərət məclisində bu obrazları öz dilləri ilə ifşa edir. Onların oxşar cəhətləri çoxdur: yaltaqlıq, səriştəsizlik, vətənə, xalqa münasibətdə biganəlik və s. Araşdırma aparmaqla bu tiplərin dövlətin fəlakətə düşməsindəki fərqli rollarını aydınlaşdırmaq, hər birinə xas olan mənfi xüsusiyyətləri müəyyənləşdirmək mümkündür.

> Yusif Sərracın apardığı islahatları ətraflı təsvir etməkdə müəllifin niyyəti nədir?

M.F.Axundzadə hökmdara, ali mənsəb sahiblərinə zidd mövqedə dayanan Yusif Sərrac surətini yaratmaqla dövlətin idarə olunması barədəki mütərəqqi ideyalarını əks etdirmişdir. Xalqın arzu və ideallarının ifadəçisi olan Yusif Sərrac həm Azərbaycanın, həm də İranın istibdadla barışmayan, mütərəqqi ziyalılarına xas olan müsbət xüsusiyyətlərə malikdir. O, ölkənin tərəqqisinə nail olmaq, xalqın güzəranını yaxşılaşdırmaq istəyən ağıllı, ədalətli hökmdardır.

Mirzə Fətəli Axundzadə Yusif Sərracın dili ilə kəndxudadan tutmuş padşahadək bütün hakimlərin zalım və yolkəsən olduğunu, ölkə və millətə heç bir fayda vermədiyini, heç bir qanuna, qaydaya riayət etməyərək xalqı soyub-taladıqlarını söyləyir, tüfeyli həyat sürən ikiüzlü, yalançı ruhaniləri kəskin tənqid edir.

Yusif Sərrac obrazı, onun ölkədə həyata keçirmək istədiyi islahatlar müəllifin XIX əsrin 50-ci illərində dövlət, onun idarə olunması ilə bağlı qənaətlərini əks etdirir.

> Povest hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Əsərin məzmunu, ideyası aydın, dinamik bir təhkiyə ilə açılır. Əsərdə yüksək sənətkarlıqla tipik insan surətləri, canlı həyat lövhələri yaradılmışdır. Hadisələr əsas etibarilə saray mühitində baş verdiyi üçün surətlərin dilində ərəb və fars sözləri işlədilmişdir. Müəllif əsərin dilini sadələşdirmək məqsədilə nisbətən yığcam cümlələrdən istifadə etmişdir. Obrazların nitqi-danışığı elə ustalıqla işlənmişdir ki, ilk oxudaca onların xarakteri haqqında aydın təsəvvür yaranır.

> Povestin ideyasının əsasında hansı fikirlər dayanır?

Müəllif tarixi hadisəyə öz məqsədinə uyğun yaradıcı yanaşmış, ona əlavələr edərək genişləndirmiş, dərin ictimai-siyasi məzmuna, bədii dəyərə malik əsər yaratmışdır.

Sənətkar mühafizəkar feodal cəmiyyətinin, onun ədalətsiz üsuli-idarəsinin ictimai eyiblərini Şah Abbas və onun vəzirlərinin simasında ifşa etmişdir.

Müəllif əsərdə qaldırdığı ictimai-siyasi, mənəvi-əxlaqi problemlərin bədii həllini verməklə öz maarifçilik görüşlərini yaymaq, ölkədə mədəni tərəqqinin inkişafına təkan vermək niyyətini izləmişdir.

*Araşdırma bu mətləblərin əhatəli öyrənilməsinə və nəticədə ideyanın hərtərəfli aydınlaşdırılmasına səbəb olur.*



LAYİHƏ

**Evdə iş** **Araşdırmanı davam etdirin**

**Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

1. **Araşdırma apararkən aşağıdakı tapşırıqların cavablarını da əhatə etməyə çalışın:**
   a) Saray adamlarından ikisinin nitqini təhlil etməklə müəllifin onlara münasibətini aydınlaşdırın.
   b) Povestdə qaldırılmış problemin müəllif həllinə münasibətinizi əsaslandırın.
2. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
3. **Z.Marağayinin "İbrahim bəyin səyahətnaməsi" romanından elektron vəsaitdə verilmiş hissəni oxuyun. Bu əsərlə "Aldanmış kəvakib"i birləşdirən cəhətləri müəyyənləşdirib müzakirə edin.**

**Mənbələr**


1. M. F. Axundzadə. Əsərləri. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 22-27.
2. Azərbaycan nəsri antologiyası. 5 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2006, səh. 12-16.
3. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.


## BÖLMƏNİ YEKUNLAŞDIRARKƏN

Aşağıdakı özünüqiymətləndirmə cədvəlini dəftərinizdə çəkin. Hər sütundakı başlıqların tələbinə uyğun qeydlərinizi yazın.

| № | Bölmə üzrə bilik və bacarıqlarım | | | |
|---|---|---|---|---|
| | Bölmədən əvvəl | | Bölmədən sonra | |
| | Bilirdim | Bacarırdım | Öyrəndim | Bacarıram |
| | | | | |

Çətinlik çəkdiklərinizi, onları necə aradan qaldıracağınızı qısaca yazıb, müəlliminiz, sinif yoldaşlarınız və valideynlərinizlə müzakirə edin.

| Çətinlik çəkdiklərim | Onları necə aradan qaldıra bilərəm |
|---|---|
| | |



LAYİHƏ

## BABA BƏY ŞAKİR

### Quberniya bina olandan bəri...
*(ixtisarla)*

Quberniya bina olandan bəri,
Oğrunun hər biri bir xanə dönüb;
Yox yetişən ərzə, divan eyləyən,
Dağılıb vilayət, viranə dönüb.

Murovlar buyurur oğurlayın at,
Naçalnikdən eyləməyin ehtiyat,
Olmaz urusluqda eyləmək isbat,
Onunçün tülkülər aslanə dönüb.

Bu əsrdə olan sahib-ixtiyar,
Tamam oğurluqda olubdur pərgar,
Yatmayıb sübhədək dartar nə ki var,
Qarabağın malı bostanə dönüb.

Bu dörd-beş dananın əlində zarıq,
Apardı hər nə var qüttaüttəriq,
Zülm ifrat, mənzil irağ, at arıq,
Qaradağlı bizə Tehranə dönüb.

Bu nə qubernator, bu necə sərdar?!
Dağılıb vilayət, oldu tarımar;
Cəldlənibdir rüşivətə murovlar,
Xəlqin işi ahü əfqanə dönüb.

Bundan əqdəm ellər gedərdi dağa,
Məhəbbət eylərdi düşən qonağa,
Şimdi gedə bilməz evdən irağa,
Kişiyə dövləti zindanə dönüb.

Şərm, həya qalmayıbdır bizlərdə,
Oğurluq, xudkeşlik olub bipərdə,
Onunçün düşmüşüz hərə bir dərdə,
Tapılmayır çörək, dərmanə dönüb.

Deyil burda olan işlərdən agah,
Belə məlum, ədalətli padişah,
Xalqın fəryadına yetişsin Allah.
Bu dövran bir özgə dövranə dönüb.



LAYİHƏ



Aşıq Ələsgər Azərbaycan poeziyasının əzəmətli zirvələrindən biridir. O, qüdrətli söz ustası, saz ustası idi; yeni şeirlərini xalqa çatdıran, uzun qış gecələrində məclis aparan, yüzlərlə, minlərlə dinləyiciyə əxlaq, mənəviyyat, xeyirxahlıq, gözəllik dərsi deyən müəllim idi. Ələsgər sazı, Ələsgər sözü Azərbaycan xalqı üçün bir əsrə yaxın böyük bir ədəbiyyat universiteti rolunu oynamışdır.

*Məmməd Araz*

**Aşıq Ələsgər**
**(1821–1926)**

# AŞIQ ƏLƏSGƏRİN HƏYATI, YARADICILIQ YOLU

• **Araşdırmaya hazırlaşın** | **Aşıq Ələsgər haqqında bildiklərinizi yada salıb yığca müzakirə edin.**

**Aşağıdakı qaydalara əməl etməklə mətni oxuyun.**

**1. Mətni fərdi olaraq bütövlükdə nəzərdən keçirin.**

**2. Mətnkənarı sualların cavablarında daha mühüm hesab etdiklərinizi qısaca qeyd edin.**

**3. Mətnin məzmunu ilə bağlı fikrinizdə yaranan, sizi düşündürən sualları dəftərinizdə, yaxud iş vərəqində yazın.**

**4. Yazdığınız suallara cavab hazırlayın, bu zaman qısa qeydlər etməyinz faydalıdır.** Mətndə birbaşa suallarla bağlı yerləri (söz, cümlə, abzas) silinməsi mümkün olan işarə ilə fərqləndirin.

| № | Suallar | Onların qısa cavabı |
|---|---|---|
| | | |

**5. Suallara hazırladığınız cavabları mətnə baxmadan parta yoldaşınıza danışın.** Unutduqlarınızı yada salmaq üçün danışdığınız məqamda mətnə baxa bilərsiniz.

**6. Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün.**

**7. Gəldiyiniz nəticələrə və öyrəndiklərinzə daha nələri əlavə etməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.**

> Aşıq Ələsgərin həyat və yaradıcılığında daha önəmli sayıla bilən məqamlar hansılardır?

Aşıq Ələsgər özünəməxsus təbii gözəllikləri ilə seçilən, qədim yurd yerlərimizdən olan Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Atası Alməmməd kişi əkin-biçinlə, dülgərliklə məşğul olmuş, uşaqları böyüdükdən sonra güzəranını yaxşılaşdırmaq üçün dəyirman işlətmişdir.

Ələsgər xüsusi təhsil almasa da, el məclislərində hədislərə, nağıllara, dastanlara böyük maraq göstərmiş, eşitdiklərini güclü yaddaşında hifz edib saxlamışdır. El aşıqlarının məclisləri, toy-şənliklər onda saza, sözə ciddi maraq oyatmış, ilk şeirlərinin yaranmasına səbəb olmuşdur.

Oğlunun istedadını görən atası onu aşıq sənətinin sirlərini öyrənmək üçün Aşıq Alının yanında şəyirdliyə qoymuşdur. Aşıq Alıdan aldığı ustad dərsləri Ələsgərin sənətkar kimi püxtələşməsində böyük rol oynamışdır. Çox keçməmiş Aşıq Ələsgərin apardığı məclislərin sorağı hər tərəfə yayılmış, o, Göyçə ilə yanaşı, İrəvan, Naxçıvan, Qazax, Qarabağ, Gəncə, Kəlbəcər və digər yerlərə toy,



LAYİHƏ

şadlıq məclislərinə dəvət edilmişdir. Aşıq sazı, sözü, ədəb-ərkanı ilə el-oba içində ustad sənətkar kimi böyük şöhrət qazanmışdır.

Qoca yaşlarında ailəsində baş verən bədbəxt hadisələr aşığa ağır təsir etmiş, qəlbində bədbin hisslər doğurmuşdur. Erməni daşnaklarının Göyçə mahalında törətdiyi qırğın nəticəsində Aşıq Ələsgər ailəsi ilə birlikdə Kəlbəcərin Yanşaq kəndinə, oradan da Tərtərə köçmüşdür. İki il sonra doğma kəndinə qayıdan aşıq ömrünü burda başa vurmuş, 1926-cı ildə vəfat etmişdir.

Aşıq Ələsgərin zəngin bədii irsi toy və şənlik məclislərində, çeşmə başında, yaylaqlarda bədahətən dediyi gəraylı, qoşma, təcnis, deyişmə, ustadnamə, müxəmməs və digər janrlarda olan əsərlərdən ibarətdir. Şeirlərində başlıca yeri məhəbbətin tərənnümü, gözəllərin tərifi, təbiətin təsviri, əxlaqi-tərbiyəvi fikirlərin təbliği, ictimai eyiblərin tənqidi tutur.

> Aşıq Ələsgərin məhəbbət mövzusunda və el gözəllərinə həsr olunmuş şeirlərində hansı hiss və düşüncələr ifadə olunub?

Aşiqin sevgi yolunda qarşılaşdığı çətinliklər, əzab və iztirabların təsviri *məhəbbət mövzusunda* yaratdığı qoşmalarının əsas motivini təşkil edir.

Nazik barmaqlıdı, şümşad əllidi,
Ayna qabaqlıdı, siyah tellidi.
Şəkər söhbətlidi, şirin dillidi,
Tuti kimi xoş zəbanım gedibdi.

Onun el *gözəllərinin tərifinə* həsr olunmuş şeirlərində nikbin, şən, şux ruh hakimdir. Gözəlləmə adlanan bu şeirlərdə el qızının zahiri gözəlliyinin təsviri ilə yanaşı, saf, incə təbiəti, vəfalı, düz ilqarlı olması da öz əksini tapmışdır. "Güləndam", "Bəyistan", "Düşdü" və s. şeirlərində Azərbaycan gözəlinin mənəvi-əxlaqi keyfiyyətləri tərənnüm edilir, bədii portreti çəkilir.

Səni gördüm, əl götürdüm dünyadan,
Qara gözlü, qələm qaşlı Güləndam!
Alma yanağına, bal dodağına,
Baxan kimi ağlım çaşdı, Güləndam!

> Təbiət mövzusunda şeirləri və ustadnamələri üçün səciyyəvi cəhətlər hansılardır?

*Təbiətə* həsr olunmuş şeirlərində aşığın vətənpərvərliyi, xalqına bağlılığı qabarıq ifadə olunub. Aşığın "Yaylaq", "Gördüm", "Dağlar" rədifli qoşmaları ədəbiyyatımızda doğma yurdun gözəlliyinə həsr olunmuş ən maraqlı əsərlərdəndir. "Yaylaq" rədifli qoşmasında və gəraylısında yazda el-obanın üz tutduğu, el gözəllərinin, igidlərin qaynaşdığı, aşıqların çal-çağırı eşidilən səfalı yaylaqlar, seyrəngahlar tərənnüm edilir:

Könlüm qaranquştək uçub qoynuna,
Gəzir hər yamacı, hər yalı, yaylaq!
Ruhum təzələnir, məst olur ürək,
Görəndə bu çağı, bu halı, yaylaq!



LAYİHƏ

Aşıq Ələsgərin yaradıcılığında *nəsihətlərin* əks olunduğu şeirlər – *ustadnamələr* mühüm yer tutur. Aşığın əxlaqi-tərbiyəvi mövzuda olan "Gərəkdi", "Olmaz" şeirləri xalq müdrikliyini, sənətkarın böyük həyat təcrübəsini əks etdirir:

Bu dünyanı mən təcrübə eylədim,
Namərd körpü salsa, onda ad olmaz.
Bir mərd ilə ağı yesən, şirindi,
Yüz namərdlə şəkər yesən, dad olmaz.

> İctimai motivli şeirlərində cəmiyyətdəki hansı nöqsanlar tənqid edilir?

Aşığın yaradıcılığının bir qismini cəmiyyətdəki nöqsanları, ədalətsizliyi, istismarı tənqid edən *ictimai motivli* şeirlər təşkil edir. "Çıxıbdı", "Görmədim" əsərlərində həyatın bərkini-boşunu görmüş müdrik aşıq zəmanəsində müşahidə etdiyi nöqsanlara, zülm və haqsızlığa, özbaşınalığa kəskin tənqidi münasibətini bildirir. Belə şeirlərdə tənqid hədəfləri "bivəfa," "nakəs", "müxənnət", "namərd" mahalda, kənddə özbaşınalığa rəvac verən çar hakimləri – naçalnik, pristav, koxa, eləcə də istismarçı ağalar, quldurlar, ikiüzlü, fırıldaqçı ruhanilərdir.

> Aşıq Ələsgərin şeirləri hansı bədii xüsusiyyətləri ilə seçilir?

Bu böyük el sənətkarı aşıq şeirinin, demək olar, bütün janrlarına müraciət etmiş və hər birində böyük uğur qazanmışdır. Tükənməz xalq yaradıcılığı çeşməsindən süzülüb gələn bu təkrarsız sənət nümunələri xəlqiliyi, dil sadəliyi, üslub gözəlliyi, forma əlvanlığı ilə dinləyicinin, oxucunun bütün dövrlərdə zövqünü oxşamış, onda gözəl hiss və duyğuların baş qaldırmasına səbəb olmuşdur. Qoşma, gəraylı, təcnis və dodaqdəyməzləri məna dərinliyi, səmimilik, təbiilik, həyatilik, forma bitkinliyi baxımından yarandığı gündən örnək olmuşdur. Bu əsərlər sözlərin sərrast seçimi, qafiyə əlvanlığı, məzmuna uyğun epitet, təşbeh, metafor, mübaliğə, təkrir, təzad və s. istifadə məharəti ilə diqqəti həmişə cəlb etmişdir. Saz havalarına uyğun yaradıldığı üçün onun şeirləri ahəngdar və axıcıdır.

İctimai motivli şeirləri üçün həyat həqiqətlərinə sadiqlik, cəmiyyətdəki bəlaların doğru-dürüst təsviri, məzmun dolğunluğu, kəskin tənqidi ruh daha səciyyəvidir.

Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutan Aşıq Ələsgərin zəngin poetik irsi ölkəmizin bir çox aşıqları üçün əsl sənətkarlıq məktəbi olmuşdur.

*Araşdırma istedadlı el sənətkarının ömür yolu, çoxcəhətli yaradıcılığı, sənətkarlığı barədə əhatəli məlumatın əldə olunmasına və qiymətləndirilməsinə imkan verir.*

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) Aşıq sənətinin və şeirinin zənginləşməsində Aşıq Ələsgərin hansı xidmətləri olmuşdur?



LAYİHƏ

b) Aşıq Ələgərin və Molla Pənah Vaqifin qoşmaları hansı cəhətlərinə görə müqayisə oluna bilər?

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**


1. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, səh. 5-8, 14-18.
2. Azərbaycan aşıq şeirindən seçmələr. 2 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 5, 11, 12.
3. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.


## DAĞLAR

**I dərs** • **Məzmun üzrə iş**

**Sualın üzərində düşünün, cavabını qısaca qeyd etdikdən sonra fikir mübadiləsi və və müzakirə aparın. Cədvəldən istifadə edin.**

– Aşıq Ələsgərin təbiət mövzusunda lirik şeirlər yazmasına səbəb, sizcə, nədir?

| Aşıq Ələsgərin təbiət mövzusunda lirik şeirlər yazmasına səbəb, sizcə nədir? | Sualın qısa cavabı |
|---|---|
| | |

**Aşağıakı qaydalara əməl etməklə şeirin məzmunu üzərində işləyin.**

**1. Əsəri fərdi olaraq səssiz oxuyun.**

**2. İzahına ehtiyac duyduğunuz misra və beytləri cədvəldə qeyd edin.**

| İzahına ehtiyac duyduğum misra və bəndlər | Onların izahı |
|---|---|
| | |

**3. Tanış olmayan sözlərin mənasını aydınlaşdırıb cədvəldə qeydlər edin.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**4. Daha maraqlı hesab etdiyiniz məcazları cədvəldə qeyd edin.**

| Daha maraqlı hesab etdiyim məcazlar və onların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|
| | |

**5. Şeirdə hansı mənəvi-əxlaqi dəyərlərə önəm verildiyini aydınlaşdırın.**

**6. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, izahına ehtiyac duyduğunuz misra və bəndlərlə bağlı yaranan çətinlikləri müəllimlə müzakirə edin.**

**7. Müzakirədə aşağıdakı sualların cavablarını da əhatə edin.**

– Baharda dağların aldığı mənzərə qoşmada necə təsvir olunub?

– Dağların pərişan halı şeirdə necə təsvir edilib?

– El üçün, igid üçün arxa, dayaq rəmzi sayılan dağların xoş günlərdəki vəziyyəti necə xatırladılır?

– Dağlardan – doğma yurdundan bir müddət ayrı düşən və onunla yenidən qovuşan aşığın kədəri hansı misralarda, bənddə daha qabarıq ifadə olunub?



LAYİHƏ

**8. Təqdimatlar etməklə yerinə yetirdiyiniz bütün işlərlə bağlı fikir mübadiləsi və müzakirə aparın.**

Bir ay yarım nobahardan keçəndə
Car olur köysündən sellərin, dağlar!
Çalxanır dəryalar, çığrışır qazlar,
Zəmzəm zümzüməli göllərin, dağlar!

Hanı mən gördüyüm qurğu-büsatlar?!
Dərdməndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəmir atlar,
Niyə pərişandı halların, dağlar?!

Hanı bu yaylaqda yaylayan ellər?!
Görəndə gözümdən car oldu sellər.
Seyr etmir köysündə türfə gözəllər,
Sancılmır buxağa gulların, dağlar!

Kəpəz, Murov, Qonur – gör neçə dağ var...
Üstünə nur yağsın, ay dəli Qoşqar!
Yayın ortasında yağdırırsan qar,
Səf çəkib üstündə salların, dağlar!

Elə ki şər gəldi, qaraltdı qaşı,
Dumana qərq olur dağların başı.
Düşəndə gürg ilə kəlbin savaşı,
Uzaq çəkir qilü-qalların, dağlar!

Həsənnənə, Həsənbaba qoşadı,
Xaşbulaq yaylağı xoş tamaşadı.
Arsız aşıq elsiz niyə yaşadı?!
Ölsün Ələsgərtək qulların, dağlar!

## Evdə iş

**"Şeir məndə hansı hiss və düşüncələr yaratdı" mövzusunda esse yazın.**

## II dərs • Təhlil üzrə iş | Kiçik qruplar yaradaraq tapşırığı yerinə yetirin

1. **Mətnkənarı sualları qrupların arasında bölün. Qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər.**
2. **Mətni oxuyun. Suallara yığcam cavab yazın. Qoşmanın məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin. Cədvəldən istifadə edin.**

| Mətnkənarı suallar | Onlara hazırlanan cavablar |
|---|---|
| | |

3. **İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra sualların dərslikdəki cavablarını oxuyun və yazdıqlarınızla müqayisə edin.**



LAYİHƏ

4. **Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edin.**
5. **Şeirin ilk iki bəndinin ifadəli oxusuna hazırlaşın. İfaçılıq vəzifəsinin, məntiqi vurğulu sözlərin, səsin aldığı çalarların, səsin tonundakı dəyişilmələrin müəyyənləşdirilməsinə diqqət yetirin.**

Qoşma hansı mövzuda yazılıb? Aşığın dağlara ikinci əsər həsr etməsinə səbəb nə olmuşdur?

Aşıq Ələsgərin "Dağlar" rədifli iki qoşması var. Birinci əsərində nikbin ovqat güclüdür, aparıcıdır; bahar fəslində dağların aldığı füsunkar mənzərə yüksək bədiiliklə, təsirli dillə əks etdirilmişdir. Güllü-çiçəkli, saf havalı dağlarda ellərin qurduğu büsat, saz-söz məclisləri, çeşmə başında gözəllər yığnağı sənətkarın ilhamını coşdurur, vətəninə, xalqına heyranlıq hislərini ifadə etməyə sövq edir.

İyirminci yüzilliyin əvvəllərində əzəli düşmənimiz olan bədnam qonşular – ermənilər aşığın yaşadığı mahalda qırğın törətmiş, insanlar öz yurdlarını tərk etməyə məcbur olmuşlar. Doğma yurdundan uzaq düşən Aşıq Ələsgər yalnız iki ildən sonra Ağkilsəyə qayıda bilmişdir. Yurdunu, dağları pərişan görən və bu görüşdən sarsılan aşıq kədərli ovqatda ikinci "Dağlar"ı yaratmışdır. Erməni daşnaklarının hücumları ucbatından el yaylaqlara qalxa bilmir, türfə gözəllər seyrangahlara çıxmır, buxaqlara dağ çiçəkləri sancılmır. Aşığın doğma yurda, onun təbiətinə münasibətini qabarıq əks etdirən bu şeirdə vətənin dar günündə dağların aldığı qəmli mənzərə əhatəli təsvir edilir. Vətən dağları insansız sanki yetim qalıb, əli qılınclı igidlər nərə çəkib at çapmır, sazlı-sözlü məclislər qurulmur...

Əsərdə aşığın oxucuya çatdırmaq istədiyi başlıca fikir nədir?

Vaxtilə yurdun Sarı nər, Qısır Murğuz, Şahdağ, Kəpəz, Qoşqar kimi əzəmətli dağlarından ilham alan sənətkarın kədəri ictimai mahiyyət daşıyır. O, qaçqın düşdüyü, elsiz yaşadığı üçün özünü məzəmmət edir, dərin kədər içində: "Ölsün Ələsgərtək qulların, dağlar", – deyir. Aşığın fikrincə, vətənin ucalığının, əzəmətinin, gözəlliyinin rəmzi olan dağların bu vəziyyəti elin igid, qeyrətli övladları üçün ibrət dərsi olmalıdır. Vətənə layiq övlad olmaq, onun torpağının hər qarışını qorumaq, dağlarının, düzlərinin qədrini bilmək hamının borcudur.

Aşıq Ələsgər qoşmanın hər bəndində dağlarla bağlı yeni bir fikir deyir, qəlbindən keçənləri səmimi bir dillə ifadə edir. Təbiət vurğunu olan aşıq dağlarla insanı vəhdətdə götürür. Qaçqın, köçkün vəziyyətə düşən insanlar kimi, dağların da məlul görkəm alması aşığın diqqətindən yayınmır, şeirdə real, həyati lövhə kimi təqdim olunur.

Qoşmanın bədiiliyini təmin edən mühüm vasitələr hansılardır?

"Dağlar" qoşması yüksək bədii keyfiyyətləri ilə də diqqəti cəlb edir. Əsərdə məzmun və forma vəhdəti əvvəldən sona kimi gözlənilir. Lirik qəhrəmanın ovqatına uyğun seçilmiş sözlər misra daxilində ustalıqla əlaqələndirilmişdir. Məcazların (bənzətmə, bədii sual və s.) kədərli ovqata uyğun işlənməsi obrazlılığın artmasına əhəmiyyətli təsir etmişdir.



LAYİHƏ

Qoşmada ahəngdarlıq da güclüdür. Bu, ilk növbədə, şeirin musiqiyə, saz havasına uyğun yaradılması ilə bağlıdır. Misradaxili bölgünün ustalıqla yaradılması, qafiyələrin uğurla seçilməsi də ahəngin yaranmasında az rol oynamır.

Qoşmanın bədii xüsusiyyətlərini ətraflı müəyyənləşdirmək üçün misraların, bəndlərin üzərində düşünmək, lirik qəhrəmanın dağlara münasibətinin, hiss və düşüncələrinin hansı bədii vasitələrlə ifadə edildiyini müəyyənləşdirmək vacibdir. Araşdırma qoşmanın ideya-məzmunu, bədii keyfiyyətləri barədə daha əhatəli fikir deməyə, dolğun nəticə çıxarmağa imkan verir.

## Evdə iş | Araşdırmanı davam etdirin

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
**2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
**3. Şeirin ilk dörd bəndini ifadəli oxunun tələblərinə uyğun əzbər deməyi öyrənin.**

## Mənbələr


1. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, səh. 12-13, 19.
2. Azərbaycan aşıq şeirindən seçmələr. 2 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh.13.
3. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.




LAYİHƏ



Onun yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutur. O, məhəbbəti tərənnüm edən Füzuliyanə qəzəlləri ilə istedadlı lirik şair, maarifçi şeirləri, təmsil, mənzum hekayə və satiraları ilə görkəmli realist sənətkar kimi tanınmışdır.

*Feyzulla Qasımzadə*

**Seyid Əzim Şirvani (1835 – 1888)**

## S.Ə.ŞİRVANİNİN HƏYATI, YARADICILIQ YOLU

• **Araşdırmaya hazırlaşın**

**1. S.Ə.Şirvani haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**

**2. Mətni fərdi olaraq oxuyun, məlumatları aşağıdakı işarələrlə nişanlayıb qruplaşdırın.**

+ tanış olan məlumatlar;
– əvvəl öyrənilmiş bilik və məlumatlara zidd olanlar;
**!** maraqlı və yeni olan məlumatlar;
**?** açıqlanmasına, daha əhatəli öyrənilməsinə ehtiyac duyulan məlumatlar.

**3. Gəldiyiniz nəticəni aşağıdakı cədvəldə qısaca yazın.**

| + | – | ! | ? |
|---|---|---|---|
| Bilirdim | Bildiklərimə ziddir | Mənim üçün yeni və maraqlı olan məlumatlar | Bu barədə daha çox bilmək istəyirəm |
| | | | |

**4. Kiçik qruplarda birləşərək fikir mübadiləsi və müzakirə aparın.**

Seyid Əzim Şirvaninin həyatı, yaradıcılığı üçün daha səciyyəvi olanlar hansılardır?

Qədim Şamaxı şəhərində ruhani ailəsində dünyaya gələn Seyd Əzim atasını kiçik yaşlarında itirmiş, anasının himayəsində yaşamışdır. Dağıstanın Yaqsay kəndində hakimlik edən ana babası Molla Hüseyn onu yanına aparmış, təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Burada on bir il yaşayan, ərəb, fars dillərini öyrənən Seyid Əzim 1853-cü ildə anası ilə birlikdə doğma şəhərlərinə qayıtmışdır. Ruhani olmağı arzulayan Seyid Əzim bir müddət burada oxumuş, daha mükəmməl təhsil almaq məqsədi ilə İraqa getmişdir. Əvvəlcə Nəcəf və Bağdadda, sonra isə Suriyanın Şam şəhərində ali ruhani mədrəsəsində oxumuşdur. O, vətəninə qayıtdıqdan sonra ruhaniliklə məşğul olmamış, müəllimlik etmişdir. Onun 1869-cu ildə açdığı məktəbdə yeniliklər çox idi; ana dilini, fars dilini öyrədən gənc müəllim, həmçinin tarix, coğrafiya və digər fənlər barədə də müəyyən məlumatları mənimsətməyə səy göstərirdi.

Seyid Əzim 1877-ci ildə Şamaxı şəhər məktəbinə Azərbaycan dili və şəriət müəllimi təyin edilir. Şagirdlərə müasir ruhlu əsərlər oxutdurduğuna görə rus hakim dairələri ona şübhə ilə yanaşır və vəzifəsindən uzaqlaşdırırlar. Tiflisə gedərək Qafqaz maarif idarəsi rəisinə işdən haqsız çıxarıldığını sübut edən Seyid



LAYİHƏ

Əzim müəllimliyə qaytarılır və ömrünün sonuna kimi bu peşədə çalışır.

O, yaradıcılığa təxminən 50-ci illərdə başlamış və zəngin bədii irs yaratmışdır. Bu irsə klassik üslubda (qəzəl, müxəmməs və s.) yazdığı aşiqanə lirik şeirlər, mənzum hekayə, təmsil, maarifçilik ruhunda əxlaqi-didaktik əsərlər, məqalələr, ədəbiyyatşünaslıq əsəri – təzkirə və s. daxildir.

Şairin lirik əsərləri hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Füzuli ədəbi məktəbinin qüdrətli davamçısı olan Seyid Əzimin *lirikasında* başlıca yeri məhəbbət mövzusunda yazılmış qəzəllər tutur. Bu şeirlərdə saf, həqiqi məhəbbət tərənnüm olunur. Məhəbbət insanı ucaldan, mənən saflaşdıran, kamilləşdirən ali bir hiss kimi dəyərləndirilir. Şair klassik poeziya üçün səciyyəvi olan bədii təsvir və ifadə vasitələrindən yaradıcılıqla bəhrələnərək lirik qəhrəmanın daxili aləmini, hiss və düşüncələrini dərinliyi ilə əks etdirməyə nail olur. Şairin yaratdığı aşiq obrazı özünü klassik aşiq obrazlarından kamil və cəfakeş sayır:

Naxuni-qəmlə bizi Fərhada nisbət etməyin
Kim, yıxar bir gündə yüz min Bisütunu tişəmiz.

Şairin mövhumatı, dini xurafatı tənqid edən, həyatın gözəlliyindən zövq almağa və faydalanmağa səsləyən qəzəlləri də az deyildir.

Ədibin maarifçi əsərlərində, öyüd və təmsillərində, mənzum hekayələrində hansı mühüm fikirlər əks etdirilib?

Bir maarifçi-realist sənətkar kimi, Seyid Əzimin bədii irsində *elmin, təhsilin* əhəmiyyətini, faydasını əks etdirən əsərlər mühüm yer tutur. Mədəni gerilik şairi bütün yaradıcılığı boyu düşündürən məsələlərdən ən vacibi olmuşdur. Bunun əsas səbəbini savadsızlıqda, elmsizlikdə görən şair, xüsusən "Əkinçi" qəzetində çap etdirdiyi şeirlərində maarifçi görüşlərini təbliğ edir, avamlığın törətdiyi bəlaları açıb göstərirdi. Qəzetdə çap etdirdiyi "Qafqaz müsəlmanlarına xitab", "Təlim-tərbiyə haqqında" və s. şairin mütərəqqi ideyalarını əks etdirən qiymətli əsərlərdir. Onun *öyüd* və *nəsihətlərini* ifadə edən şeirləri ruhən bu əsərlərlə birləşir. Şair gənclərə elm və sənət öyrənməyi, tənbəl olmamağı, pis əməllərin arxasınca getməməyi nəsihət edir.

Əxlaqi-didaktik şeirlərin toplandığı "Rəbiül-ətfal" ("Uşaqların baharı") kitabında elmin, biliyin təbliği, məktəbə, mədəniyyətə çağırış motivləri ilə yanaşı, vətənə məhəbbət, doğma yurda, soykökünə bağlılıq hissinin ifadəsi də mühüm yer tutur.

Əxlaqi-tərbiyəvi fikirlər şairin *təmsillərində* də əksini tapmışdır. Məsələn, "Eşşək və Arılar" təmsilində elmin qədrini bilməyən avam, cahil insanlar kəskin tənqid olunur.

Şairin *mənzum hekayələri* müxtəlif mövzularda yazılmışdır. Bunların da bir qismində əxlaqi-tərbiyəvi məsələlər ön plana çəkilmişdir. Ədib xalqa zülm edən hakimlərin tənqidinə, yaramaz əməllərin pislənməsinə və s. həsr etdiyi yüzdən artıq mənzum hekayəsini xalq nağıllarından, Molla Nəsrəddin lətifələrindən istifadə etməklə, Azərbaycan və fars klassiklərindən tərcümə və iqtibas yolu ilə yaratmışdır.

Sənətkar satirik əsərlərində kimləri tənqid hədəfinə çevirib?



LAYİHƏ

Seyid Əzim Şirvaninin *satirik əsərləri* ədəbiyyatımız üçün daha qiymətlidir. Zəmanəsinin tüfeyli və istismarçılarını gözəl tanıyan şair onların nümayəndələrini – soyğunçu rus hakimlərini, rüşvətxor məmurları, zalım mülkədarları, ikiüzlü mollaları, şəriət məhkəmələrinə başçılıq edən səviyyəsiz qazıları kəskin tənqid hədəfinə çevirmişdir. Şairin "Şirvan bəyləri haqqında" adlı əsəri tənqid hədəflərinin çoxluğu və kəskin məzmunu ilə seçilir:

Nə pristav, nə köməkçi, nə kvartal, nə kazak,
Hamısı qurd kimi soymaqlığa xalqı ki qoçaq...

Şairin yalançı ruhanilik, səmərəsiz ruhani təhsil, cəhalətpərəstlik əleyhinə yazdığı "Ruhanilik təhsili", "Müctəhidin təhsildən qayıtması" ədəbiyyatımızda ictimai dəyəri ilə seçilən ən qüvvətli satiralardandır.

Seyid Əzim Şirvani islam dininin mahiyyətini dərindən anladığına, bu dinə böyük rəğbət və məhəbbət bəslədiyinə görə xalqının maariflənməsi və inkişafı üçün əlindən gələn köməyi əsirgəməmişdir. Onun maarifçi-realist əsərlərindəki müasirliyin bir mühüm səbəbi də elə budur.

## Evdə iş — Araşdırmanı davam etdirin

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) S.Ə.Şirvaninin yaradıcılığında maarifçilik fəaliyyəti öz əksini necə tapıb?

b) Ədəbiyyatımızın yeniləşməsi və zənginləşməsində şairin bədii irsinin əhəmiyyəti nədən ibarətdir?

**3. Yazılı qeydlər əsasında şihahi təqdimata hazırlaşın.**

**4. Aşağıdakı mövzuda məruzəyə hazırlaşın:**

S.Ə.Şirvani və "Əkinçi" qəzeti

## Mənbələr

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh. 18-19, 23.
3. S.Ə.Şirvani. Əsərləri. 3 cilddə. I cild, Bakı: Avrasiya Press, 2005, səh. 4-6, 12, 17-22.



LAYİHƏ

## GUŞ QIL...
(i x t i s a r l a)

**I dərs** • **Məzmun üzrə iş | Oxuya hazırlaşın**

**Sualın üzərində düşünün, cavabını qısaca qeyd etdikdən sonra fikir mübadiləsi və və müzakirə aparın. Cədvəldən istifadə edin.**
– S.Ə.Şirvaninin musiqiyə həsr olunmuş lirik şeir yazmasına səbəb, sizcə, nədir?

| Şairin musiqiyə həsr olunmuş lirik şeir yazmasına səbəb, sizcə, nədir? | Sualın qısa cavabı |
|---|---|
| | |

**Aşağıakı qaydalara əməl etməklə şeirin məzmunu üzərində işləyin.**
1. **Müstəqil oxuduğunuz şeirin aşağıdakı bəndlərini nəzərdən keçirin, məzmunu ilə bağlı bildiklərinizi dərinləşdirin.**
2. **İzahına ehtiyac duyduğunuz misra və bəndləri cədvəldə qeyd edin.**

| İzahına ehtiyac duyduğum misra və bəndlər | Onların izahı |
|---|---|
| | |

3. **Tanış olmayan sözlərin mənasını aydınlaşdırıb cədvəldə qeydlər edin.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

4. **Daha maraqlı hesab etdiyiniz məcazları cədvəldə qeyd edin.**

| Daha maraqlı hesab etdiyim məcazlar və onların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|
| | |

5. **Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, izahına ehtiyac duyduğunuz misra və bəndlərlə bağlı yaranan çətinlikləri müəllimlə müzakirə edin.**
6. **Şeirdə hansı mənəvi dəyərlərə önəm verildiyini aydınlaşdırın.**
7. **Təqdimatlar etməklə yerinə yetirdiyiniz bütün işlərlə bağlı fikir mübadiləsi və müzakirə aparın.**

Guş qıl, ey ki, bilirsən özüvi vaqifi-kar,
Agah ol, gör ki, nədir naleyi-ney, nəğmeyi-tar,
Nədir ol xüşk olan çubdə bu naleyi-zar
Ki, sədasından onun qarət olur səbrü qərar,
Açma sən pərdəni, hər pərdədə var yüz əsrar.

Qoymaz ol tarı müğənni niyə ağuşindən,
Düşməz ol xanəbərəndazlərin duşindən,
Huş ilə guş edə hər kimsə, gedər huşindən,
Pənbeyi-ğəfləti çək sən dəxi can guşindən,
Ta ki əsrari-nihanə olasan bərxurdar.

Tut bərabər dəmi-İsayə müğənni dəmini,
Qılıb ehya özüvi, seyr elə ruh aləmini.
Ziri-qəm olma, eşit nəğmeyi-zilü bəmini,
Çəkmə aqilsən əgər, dəhri-müxalif qəmini,
Şurə gəl, nəğmə ilə çək qəmi-dünyayə həsar.



LAYİHƏ

Musiqi məclisinin əhli gərək əhli-bəsər,
Ta görə pərdeyi-əsrardə yüz nəqşü süvər,
Kim ki zövq əhli degil, anı hesab eylə həcər,
Ləhni-Davud eləməz növi-cəmadatə əsər,
Məni ərbabı edər guş süxən, ey huşyar.

Zahida, tanrıya bax, məclisi-irfandır bu,
Tarı əsbabi-mənahi demə, böhtandır bu,
Meyi gör, saqiyə bax, kövsərü ğılmandır bu,
Cümləsi pərtövi-ruxsareyi-sübhandır bu,
Meydə həq nurunu gör, səhvinə qıl istiğfar.

## Evdə iş

**1. Şeirlə bağlı hiss və düşüncələrinizi ikihissəli gündəlikdə yazın.**

| Əsərdə diqqətimi daha çox çəkənlər | Bunun səbəbi |
|---|---|
| | |

**2. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**
**3. Lüğətlərdən, digər mənbələrdən müxəmməs janrının xüsusiyyətlərini öyrənin.**
**4. Musiqiyə aid atalar sözləri, müdrik fikirlər toplayın.**



LAYİHƏ

**II dərs • Təhlil üzrə iş | Kiçik qruplar yaradaraq tapşırığı yerinə yetirin**

1. **Mətnkənarı sualları qrupların arasında bölün. Qrupların sayı çox olarsa, iki qrup bir sualın üzərində işləyə bilər.**
2. **Suallara yığcam cavab yazın. Bədii əsərin məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin.**
3. **İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra sualların dərslikdəki cavablarını oxuyun və yazdıqlarınızla müqayisə edin.**



4. **Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edin.**
5. **Şeirin ilk iki bəndinin ifadəli oxusuna hazırlaşın.**

> Musiqinin qədim dövrlərdən bəri insan həyatındakı rolu necə dəyərləndirilir?

Musiqi insan həyatının ayrılmaz hissəsi olub onu ömrü boyu müşayiət edir. Dünyaya göz açan körpə həzin, şirin ana laylasını eşidəndə sakitləşir, rahatlıq tapır, ahəngdar oxşamaların təsiri ilə gülümsəyir, onda xoş ovqat yaranır. Gərgin zəhmət prosesini yüngülləşdirmək üçün əkinçi, çoban əmək nəğmələrinə – holavarlar, sayaçı sözlərinə ehtiyac duyur. İnsanın toy-düyünü, hətta kədərli anları belə musiqi ilə müşayiət olunur.

Qədim yunan əsatirlərinin birində istedadlı müğənni Orfeyin oxuduğu gözəl nəğmələr Yer üzündə nə varsa, hamısını heyran edir: külək yatır, dəniz sakitləşir, vəhşi heyvanlar musiqinin təsiri altına düşür, donub-qalırlar… Ən qədim zamanlardan bu günədək musiqinin insana möcüzəli, ecazkar təsiri etiraf edilir.

> Şeir hansı mövzuda yazılıb? Onun ideya-məzmunu üçün səciyyəvi olan xüsusiyyətlər hansılardır?

Seyid Əzim Şirvaninin ictimai məzmunlu şeirlərinin içərisində insanları musiqidən zövq almağa səsləyən “Guş qıl…” müxəmməsinin ayrıca yeri var. Şair oxucunu musiqini haram, onu dinləməyi günah sayan mənəvi əsarət təbliğatçılarının – yalançı zahidlərin boş, “əfsanə” sözlərinə uymamağa səsləyir. Sənətkarın fikrincə, tar çalmaq, rəqs etmək riyakar, cəhalətpərəst ruhanilərin iddia etdiyi kimi, günah deyil. İnsan musiqidən həzz almalı, musiqi alətlərindəki səsin mənasını, hikmətini, sirrini duymağa qabil olmalıdır.

Şair öz fikirlərini əsaslandırmaq üçün İsa peyğəmbərlə bağlı dini rəvayətə müraciət edir. Rəvayətə görə, İsa peyğəmbərin nəfəsində ölmüş insanı həyata qaytarmaq qüdrəti varmış. Musiqi də insan ruhuna, daxili aləminə möcüzəli təsir göstərir, ona hədsiz zövq, xoş ovqat bəxş edir. Musiqini başa düşməyən, ondan həzz almağı bacarmayan insanın ruhu yoxdur, o, cansız əşya, daş timsalındadır.

> Əsər hansı bədii keyfiyyətləri ilə diqqəti cəlb edir?

Əruz vəznində yazılan “Guş qıl…” müxəmməs janrındadır. Şeirdə alınma sözlər də az deyil. Bütün bunlara baxmayaraq, çağdaş oxucu bu əsəri maraqla oxuyur və məzmunu barədə aydın təsəvvür qazana bilir. Buna səbəb əsərin yüksək sənətkarlıqla qələmə alınmasıdır. Elə ilk misranın oxusundan başlayaraq, oxucuda fərəh və sevinc dolu nikbin ovqat yaranır və bu, bənddən-bəndə artaraq sona qədər davam edir.

Bunun ən mühüm səbəbi şeirdə ahəngdarlığın, həm də musiqidə müşahidə olunduğu qədər güclü, zərif ahəngin olmasıdır. Bu ahəngi yaradan vasitələr isə çoxdur. Eyni səslərin təkrarı, təkrir, təzad, kəlmələrin, həmqafiyə sözlərin yüksək zövqlə, məharətlə seçilməsi…



LAYİHƏ

Şeirin əruz vəzninin *rəməl* bəhrində yazılması məzmuna uyğunluq baxımından çox uğurludur. Məlumdur ki, *rəməl* sözünün bir mənası da *ağır-ağır, ləngərlənə-ləngərlənə yerimək* anlamındadır. "Guş qıl..." yalnız həyəcanlı, emosional şəkildə yox, həm də təmkinlə oxunur və bu, xoşagələn, özəl bir ahəngin yaranmasına səbəb olur.

Təsadüfi deyildir ki, "Guş qıl..." bu gün də poeziyasevərlər tərəfindən maraqla oxunur, muğam məclislərində şairin məhəbbət mövzusunda qəzəlləri ilə yanaşı, bu müxəmməsi də zövqlə ifa edilir.

Aşağıdakı cədvəl şeirin oxusunda yaranan ahəngin başa düşülməsini asanlaşdırır.

| fə ilAtün | fə ilAtün | fə ilAtün | fə ilün |
|---|---|---|---|
| Guş qıl, ey<br>Agah ol, gör | ki, bilirsən<br>ki, nədir na | özüvi va<br>leyi-ney, nəğ | qifi-kar,<br>meyi-tar. |

**Evdə iş** **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2.Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
**3. Müxəmməsi sizə tanış olan qəzəllə (elektron vəsaitdən də seçə bilərsiniz) janr və dil baxımından müqayisə edin. Fikirlərinizi nümunələrlə əsaslandırın.**

**Mənbələr**

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. S.Ə. Şirvani. Əsərləri. 3 cilddə. I cild, Bakı: Avrasiya Press, 2005, səh. 10-11.



LAYİHƏ



Nəcəf bəy cənabları, siz həmişə diri qalacaqsınız. Əkdiyiniz ağacların meyvələrinin toxumlarını külək müsəlman aləminin səhralarına səpib, göyərdib, minlərcə Nəcəf bəylər yetirib, gözəl niyyətlərinizi daha da rövnəqləndirəcəkdir. Sizin adınız tarixlərin vərəqlərində səbt olunub dillərdə zikr olunacaqdır.

*Üzeyir Hacıbəyli*

**Nəcəf bəy Vəzirov (1854–1926)**

## N.VƏZİROVUN HƏYATI, YARADICILIQ YOLU

• Araşdırmaya hazırlaşın | **N.Vəzirov barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**

**Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin**

1. **Mətnkənarı sualların sayı qədər kiçik qruplar yaradılır. Qruplar onlara təklif edilmiş sualın dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:**
   a) İlk mətnkənarı sualın cavabını əhatə edən mətni qrupun üzvü ucadan və aydın şəkildə oxuyur.
   b) Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
   c) Mətnə aid bir neçə sual verir. Cavablandırmada qrup üzvləri ilə yanaşı, bütün sinif iştirak edir.
   d) Səthi qavranılmış çətin məqamlara aydınlıq gətirməyə çalışır.
   e) Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.
2. **Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların şagirdləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.**

> Ədibin həyatı, yaradıcılığı üçün səciyyəvi məqamlar hansılardır?

Nəcəf bəy Vəzirov Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur. Atası xəstə olduğu üçün ailəni dolandırmaq kimi ağır vəzifə anası Mina xanımın öhdəsinə düşmüşdür. Ailədəki çətinliklərə baxmayaraq, fərasətli, zəkalı Nəcəf təhsil almaq fikrindən dönməmiş, yaşadığı cansıxıcı, kədərli mühiti tərk edib oxumaq üçün Bakıya gəlmiş, realnı gimnaziyada təhsil almışdır. Onun dünyagörüşünün inkişafında gimnaziyada dərs deyən Həsən bəy Zərdabinin mühüm rolu olmuşdur. Təhsilini davam etdirmək üçün Sankt-Peterburqa gedib universitetə daxil olsa da, oranın havası səhhətinə düşmədiyi üçün təhsilini Moskvada Kənd Təsərrüfatı və Meşəçilik Akademiyasında davam etdirmişdir. Akademiyadakı inqilabi əhvali-ruhiyyə, məşhur alimlərin dərsləri onda mütərəqqi baxışların formalaşmasına ciddi təsir etmişdir. Akademiyanı bitirdikdən sonra Dilicanda meşəbəyi işləmiş, xalq arasında böyük nüfuz qazanmışdır. Siyasi görüşlərinə görə rəsmi dövlət qulluğundan azad edildikdən sonra Bakıya gəlmiş, sevimli müəllimi H.Zərdabi və digər ziyalılarla birlikdə mədəni-kütləvi tədbirlərin təşkilində, əhalinin maarifləndirilməsində fəallıq göstərmişdir. 1913-cü ildə Bakıda ədəbi fəaliyyətinin 40 illiyi münasibətilə təntənəli yubiley gecəsi keçirilmişdir.



LAYİHƏ

Sovet hakimiyyəti qurulduqdan sonra Torpaq Komissarlığında müfəttiş, texnikumda müəllim kimi fəaliyyət göstərən N.Vəzirov 1926-cı ildə Şamaxının Çuxuryurd yaylağında tələbələrin çöl təcrübəsi zamanı ürək xəstəliyindən vəfat etmişdir.

> Yaradıcılığının ilk dövrlərində dramaturqu daha çox düşündürən problemlər nə olmuşdur?

Bədii yaradıcılığa XIX əsrin 70-ci illərində başlayan N.Vəzirovun maarifçi-realist dramaturgiyanın inkişafında böyük xidmətləri olmuşdur. Demokratik-maarifçi ideyaların gücləndiyi bir vaxtda ədəbiyyata gələn ədib dərindən müşahidə etdiyi həyati hadisələrdən mövzu seçməklə köhnə, vaxtı keçmiş qaydaların tənqidinə, yeni ideyaların təbliğinə xüsusi önəm vermişdir. İlk əsərlərindən olan *"Ev tərbiyəsinin bir şəkli"* (1875) komediyasında köhnə tərbiyə üsulu tənqid edilmiş, onun dəyişdirilməsinin zəruriliyi ibrətamiz təsvirlərlə diqqətə çatdırılmışdır.

Komediyanın əsas surətlərindən olan Bayraməli bəy övladlarını – Səfdərqulu və Rəsulu hədə və zorakılıqla tərbiyə etməyə çalışsa da, uğur qazanmır. Müəllifə görə, atanın davranış və hərəkətləri ilə oğlanlarına verdiyi nəsihət arasındakı uçurum onun uğursuzluğunun başlıca səbəbidir.

> Ədibin 90-cı illərdə yazdığı pyeslərdə hansı problemlər öz əksini tapmışdır?

Xeyli fasilədən sonra – 90-cı illərdə dramaturq bir-birinin ardınca maraqlı pyeslər yaradır. *"Daldan atılan daş topuğa dəyər"* (1890), *"Sonrakı peşmançılıq fayda verməz"* (1890), *"Adı var, özü yox"* (1891), *"Yağışdan çıxdıq, yağmura düşdük"* (1895), *"Müsibəti-Fəxrəddin"* (1896) ədəbiyyatımızda dəyərli sənət nümunələri kimi qiymətləndirilir. Bu pyeslər obrazlar qalereyası ilə zəngindir. Onlarda mənəviyyatsız mülkədarlar, qudurğan bəyzadələr, acgöz və yalançı tacirlər, saxtakar burjua ziyalıları və b. müəllifin gülüş hədəfinə çevirdiyi mənfi tiplərdir. Bu əsərlər cəmiyyəti düşündürən problemlərlə zəngin olub, konfliktin həyatiliyi ilə diqqəti cəlb edir. Köhnəliklə yeniliyin, zalımlarla məzlumların arasındakı çəkişmə, çarpışma onların hər birində özünü qabarıq göstərir.

> Dramaturqun XX əsrin əvvəllərində yazdığı əsərlərdə hansı yeniliklər diqqəti cəlb edir?

"Müsibəti-Fəxrəddin"dən sonra dramaturqun yaradıcılığında dəyişiklik baş verdi; əsərlərinin mövzusunu daha çox mülkədar həyatından götürən ədib indi burjua-kapitalist mühitinə müraciət edir. *"Pəhləvanani-zəmanə"* (1900), *"Ağakərim xan Ərdəbili"* (1908), *"Vay şələkum-məələkum"* (1909), *"Pul düşkünü Hacı Fərəc lənətullah"* (1914) əsərləri ictimai həyatda baş verən dəyişikliyə təcrübəli sənətkarın münasibətini əks etdirirdi.

"Pəhləvanani-zəmanə" ədəbiyyat tariximizdə neft mövzusunda yazılmış ilk əsərlərdəndir. Bu əsərdə ədib yüngül qazanc əldə etmək istəyən ilk kapitalistlərin dələduz əməllərini maraqlı bədii lövhələrlə əks etdirməklə məhdudlaşmır, onları kəskin tənqid və ifşa edir.

XX əsrin əvvəllərində cəmiyyətdə insanlar arasında münasibətlərin dramatizmi də N. Vəzirovun diqqətindən yayınmamış, "Keçmişdə qaçaqlar", "Təzə əsrin ibtidası" və s. dramlarını yazmışdır.



LAYİHƏ

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) N.Vəzirovun ictimai fəaliyyəti hansı sahələri əhatə etmişdir?

b) Onun dramaturgiyası ədəbiyyatımıza hansı yenilikləri gətirmişdir?

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**Mənbələr**


1. Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2007, səh.5-6.
2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
3. N.Vəzirov. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh. 4-8.


## MÜSİBƏTİ–FƏXRƏDDİN
*(ixtisarla)*

**I dərs • Məzmun üzrə iş | Oxuya hazırlaşın**

**Sualların üzərində düşünün, cavablarını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

| "Tərəqqipərvər" sözünün mənasını necə başa düşürsünüz? | Sizcə, tərəqqipərvər insan hansı qüvvələrə qarşı mübarizə aparmalı olur? | Tərəqqipərvər insanda hansı müsbət cəhətlər olmalıdır? |
|---|---|---|
| | | |

**1. Aşağıdakı qaydalara əməl etməklə əsərdən verilmiş parçanı oxuyun.**

a) Bir səhifə həcmində mətn rollar üzrə oxunur.

b) Müəyyənləşdirilmiş cütlər mətni oxuyanlara növbə ilə suallar verir. Cavablar cütləri qane etməsə, digər şagirdlərin cavabları dinlənilir.

c) Cütlər və mətni oxuyanlar əvəz edilir, sonrakı səhifələrin oxusu da bu qayda ilə davam etdirilir.

**2. Kiçik qruplarda birləşərək hər məclisin məzmunu, tanış olmayan söz və məcazlarla bağlı qənaətlərinizi bölüşün, aşağıdakı sualları da əhatə etməklə təqdimata hazırlaşın.**

– Rüstəm bəy monoloqunda özünü necə təqdim edir?
– Onun haqqında ilk təəssüratınız nə oldu?
– Rüstəm bəyin nökərləri çağırmaqda məqsədi nə idi?
– Ağa-nökər münasibətində diqqətinizi çəkən nə oldu?
– Mahmud bəy atasının qisas almaq təklifinə necə münasibət bəsləyir?
– Səadət xanım sizdə hansı təəssürat yaratdı?
– O, atasının niyyətini biləndə hansı tədbirə əl atır?
– Fəxrəddin bəy gələcək fəaliyyəti, planları barədə nə deyir?
– Fəxrəddin bəy barədə ilk təəssüratınız nə oldu?
– Mələk xanım və Şahmar bəy Fəxrəddin bəyə nə təklif edirlər?
– Fəxrəddin bəyin qan davasına münasibəti necədir?
– Hürü nənənin gətirdiyi xəbər Fəxrəddin bəyə necə təsir edir?
– Fəxrəddin bəy onu əhatə edən mühit haqqında nə deyir?

**4. Gəldiyiniz nəticələri təqdimatlar əsasında müzakirə edin.**



LAYİHƏ

- **Unutmayın:** *Suallar əsərdəki məlumatların hansı səviyyədə öyrənildiyini, əsas fikirlərin necə başa düşüldüyünü, hansı nəticələrin çıxarıldığını aydınlaşdırmağa imkan yaratmalıdır.*

*Əfradi-əhli-məcalis*

F ə x r ə d d i n b ə y – cavan oğlan, darülfünun tamam etmiş
M ə l ə k x a n ı m – onun anası
Ş a h m a r b ə y – cavan oğlan, onun qardaşı
H a c ı, X ə l i l, M u r a d – cavan nökərlər
R ü s t ə m b ə y – böyük mülkədar
M a h m u d b ə y – onun cavan oğlu
S ə a d ə t x a n ı m – onun qızı.
G ü l b a h a r x a n ı m – Mahmud bəyin övrəti, Fəxrəddinin bacısı
Ə h m ə d, V ə l i – Rüstəm bəyin cavan nökərləri
H ü r ü – qoca övrət, qulluqçu
C a h a n g i r bəy – cavan oğlan, mülkədar
F ə r h a d, M ə h ə r r ə m – Cahangir bəyin dostları

## ƏVVƏLİNCİ MƏCLİS

*Vaqe olur Rüstəm bəyin otağında, Avropa qaydasında bəzənmiş, Rüstəm bəy əyləşib səndəli üstə, tək.*

R ü s t ə m b ə y *(tək).* İndiyə kimi tamam ömrümdə düşmən qabağından qaçmamışam, həmişə və hər yerdə düşmənə faiq gəlmişəm, bir Allahdan savayı, heç kimdən qorxmamışam... *(Səktə)* Mən haman Rüstəməm ki, topdağıtmaz Cümşüd bəyin evini xaraba qoydum... Mənə bir təşəxxüs satmaqdan ötrü Kərim xanın yurdun xaraba qoydum, tar-mar elədim, evinə od vurdum, külün havaya sovurdum... İndi mən bir ağzından süd iyi gələn cavandan qorxacağam?! *(Durur ayağa)* Bir at görməmiş, tüfəng əlinə almamış, övrət sifətdə uşaqdan çəkinəcəyəm? Mən, mən Rüstəmi-zəmanə? Heç vaxt. *(Təbəssümlə)* Hmm...

Görək Fəxrəddin atası Heydər bəydən qoçaqmı olacaq ki, əli qılınclı, qabağımda dovşan tazı qabağında qaçan kimi vazıyırdı. *(Səktə)* Özün öldürtdüm, qızın güclən oğluma gətirtdim, qardaşların bu vilayətdən itirtdim...

İndi məgər mən ölmüşəm ki, Fəxrəddin gəlib burada ad alıb, san çıxartsın və mənim oğlum Rəşid bəy, Rəşid kimi oğulun qanı yerdə qalsın? O mən deyiləm. *(Uzun səktə, çağırır)* Əhməd, Vəli!.. Hərgah onu atası yolu göndərməsəm, bu papaq mənə övrət ləçəyi olsun. *(Əlin vurur başına)* Bir tək Fəxrəddin oğlum Rəşidin qanına layiq ola bilər... Mən gərək o evi xaraba qoyam!.. *(Əhməd, Vəli bellərində xəncər-tapança daxil olub baş əyirlər)*

R ü s t ə m b ə y. Fəxrəddin bəy Heydər bəy oğlu, deyirlər, gəlibdir, onu görəniniz varmı? Ölənəcən mənlən əlləşən atası Heydər bəyə bənzəyirmi?



LAYİHƏ

Ə h m ə d. Xeyr, ağa, görməmişik. Ancaq belə söyləyirlər ki, çox qəribə oğlandır; alçaq, mülayim. Əlavə deyirlər ki, öz rəiyyəti üçün mülkündə azarxana və məktəbxana açıbdır, həkim gətirib, mama gətirib.

R ü s t ə m b ə y. Eşitmişəm… Fəxrəddin tamam dünyanın gözü olsa, genə mənim oğlum Rəşidin əvəzi deyil ki, onu Heydər bəy para-para eləmişdi… Nə qədər Fəxrəddin gözəl olsa, nə qədər kamallı, ağıllı olsa, mənə bir elə artıq xoşdur, çünki onu qəza oğlumun qanına layiq əvəz göndərib və mənim üçün məqami-intiqam. (*Səktə*) Əhməd! Vəli!.. *(Səktə)* Rəşidimin yadigarları! O bədbəxt gecə, Rəşid can verən zamanı biz əhd-peyman elədik, öz aramızda əl tutuşduq, o əhd-peyman yadınızdan çıxmayıbdır ki?..

Ə h m ə d. Xeyr, ağa, elə halət, elə məqam yaddan çıxa bilməz, mümkün deyil… Və adın kişi qoyanın sözü bir gərək. Başımızdakı papaqdır, ağa, övrət ləçəyi deyil!

V ə l i . Əvvəl-axır ölümdür. Ağa, qoy can puç olsun, qeyrət yolunda, namus yolunda… Rəşid ağamın müsibətini unutmaq olmaz.

R ü s t ə m b ə y. Mərhəba, mərhəba!.. Cavabınız mərd igidin cavabıdır; çörəyim sizə halal olsun… Əgər sizlən bir yerdə oğlum, biçarə Rəşidim sağ olsaydı, o da mənə belə cavab verərdi… Haradasan, oğul, belimi sındıran oğul? Yaraların yadıma düşəndə dünyavü-aləm başıma aylanır, bədənim od tutub yanır, başımdan tüstü çıxır… Oğul, oğul! Sənin qanını yerdə qoymaram, oğul! Qəbirdə rahat yat… Hərgah meydanda tək də qalsam, genə düşməndən əl çəkməyəcəyəm. *(Əhməd və Vəli baş vurub gedirlər)*

R ü s t ə m b ə y *(tək*). Hərgah mənim oğlum Mahmudda namus, qeyrət olsaydı, mənim nişanələrimin yüzdən biri onda tapılsaydı, o indiyə kimi qardaşının intiqamını almışdı və məni bu dərddən xilas eləmişdi… Heyif sənə, oğul, heyif sənə, Rəşid!.. Of... *(Uzun səktə)* And olsun Rəşid bəyin qəbrinə, hərgah Mahmud övrətin sözünə baxıb, biqeyrətliyi qəbul eləsə, mən onu bir də oğul deyib çağırmayacağam, ölüb, ya itmiş hesab eləyəcəyəm… Mənim oğlum gərək mənim özümə oxşasın, biqeyrət oğul mənə lazım deyil. Rəşid əlimdən getdi, ölmədim, Mahmud gedəndə nə olacaq?.. (*Səktə)* Dünyada ömr eləmə, elədin qeyrəti, namusu əldən vermə, vəssalam.

M a h m u d b ə y *(daxil olub)* Nə buyurursunuz?

R ü s t ə m bəy. Mahmud, sənin məhəbbətin məni vadar elədi, mən də gedib düşmən qızın gətirdim cəbrən və evimdə gəlin elədim və mən öləndən sonra dövlətimə şərik… Demirəm, pisdir, göyçək deyil, ağılsız-kamalsızdır… Amma düşmən qızıdır və bu düşmənçilik ki bu saat bizim aramızda var və həmişə olacaq, Gülbahar mənim evimdə qala bilməz, əlavə, müsibətlən gələn qızı düşmən qapısına geri qaytarmaq özü bir böyük müsibətdir… Gülbahar gərək getsin. *(Səktə)* Qandın ki, tələbim nədir? *(Səktə)* Səndən cavab gözləyirəm, de görüm sözün nədir?!

M a h m u d b ə y. Məni bağışlayın, ata, hərgah məhəbbət, necə ki buyurursunuz, sizi vadar elədi gəlin barəsində cəbrən iş görməyə, ola bilərmi ki, haman məhəbbət mane ola ikinci cəbrə və zülmə?

R ü s t ə m b ə y. Ola bilməz… İkinci təklif: hazırsanmı Heydər bəyin evin tar-mar etməyə, yurdunda bayquş ulatmağa, Rəşid bəyin qanını almağa?



LAYİHƏ

M a h m u d  b ə y. Sahib-ixtiyarısınız... Amma Fəxrəddin bəyin haqqında, doğrusu, insaf yol vermir; çünki o biçarə bitəqsirdir və özü o vaxt burada olmayıb.

R ü s t ə m  b ə y. Hay, hay, hay, hay, Mahmud! Mən elə qabaqcadan bilirdim sənin cavabını... Heyif sənə, Rəşid! Yaraların sübut edirdilər ki, düşmənə asanlıqla can verməmisən. Biçarə oğul, belimi sındıran oğul!..

M a h mu d  b ə y. İnanın, ata, Rəşid bəyin müsibəti necə ki sizə rahatlıq vermir, elə də mənim özümə. Ancaq, ata, Allah xatirinə, məni vadar eləməyin nahaq qan tökməyə və zülm etməyə...

R ü s t ə m  b ə y *(acıqlı)*. Kifayətdir, gedə bilərsən...

M a h m u d  b ə y *(gedə-gedə kənara)*. Belə ki sən başlamısan, öz evində bayquş ulayacaq.

R ü s t ə m  b ə y *(tək)*. Rəşid! Qanını yerdə qoymaram. Yoxsa oturduğum yerdə sinəm partlayıb bağrım çatlar!.. Bir qaranlıq gecədə gədələri götürüb gedərəm, od vuraram evlərinə, tayalarına və çölə çıxanı güllləbaran edərəm. Rəşid! Bilsəm ki, evim tar-mar olacaq, yurdum itəcək, genə sənin qanuvu yerdə qoymayacağam, oğul!.. Evlərini Qars qalası da eləsələr, yüz nəfər adam da orada olsa, genə gərək mən intiqamımı yerdə qoymayam... Mənə iki etibarlı nökərim, Cahangir bəy, yoldaşları kifayətdir... Vay Mahmud, vay Mahmud!.. *(Gedir)*

G ü l b a h ar  x a n ı m *(daxil olub)*. Uy, ay qardaşlarım, uy, yazıq atamın evi!.. Qulaqlarım kar oleydi, bu günə əhvalatı eşitməyəydim... İndi mən neyləyim, Allah? Dərdimi kimə deyim, Allah?.. Kağız yazıb kimlən göndərim? Nə tövr onları xəbərdar eləyim?.. Ağlım çaşır, Allah!.. Mən Fəxrəddinin ölümünə tab eləyə bilmərəm, Allah! *(Ağlayır)* Uy, yazıq qardaşlarım, yetim canım, yazıq canım, qərib canım sizə qurban, ölüm mənimdir, Allah! *(Yıxılır səndəli üstə gözlərin örtüb ağlayır)*

S ə a d ə t  x a n ı m *(daxil olub)* Gülbahar, nə olubdur? Gülbahar! De görüm nə olub?! Səsini çıxart, Allah xatirinə, məni qorxutma?!

G ü l b a h a r  x a n ı m. Müsibət yerdən göyəcən... Səadət, Səadət, canım sənə qurban, bağrım çatlayır, aman günüdür!

S ə a d ə t  x a n ı m . Gülbahar, sən məni həqiqət qorxudursan. Allah xatirinə, tez ol, sözünü de!

G ü l b a h a r  x a n ı m. Səadət, insaf məqamında sənin atan mənim atam ilə düşməndilər, sənin atan mənim əmilərimi nahaqdan diyarbədiyar saldı... Mənim atam sənin qardaşını öldürdü, sənin atan mənim atamı, belədir? Üç qan bunlar elədilər, bir qan mənim atam. Görək bundan sonra Fəxrəddinin taxsırı nədir?! Sən istəyirdinmi ki Fəxrəddini... Oy, dilim-ağzım qurusun, Allah!

S ə a d ə t  x a n ı m. Fəxrəddinin başından bir tük əskik oluncan, mənim iki gözlərim kor olsun! Gülbahar, Allah xatirinə, gödək danış görüm, təzədən qəza başımıza nə gətirmək istəyir?

G ü l b a h a r  x a n ı m. Bu saat mən eşitdim, Allah heç bacılara göstərməsin... Rüstəm bəy nökərlər ilə məsləhət gördülər ki, bir qaranlıq gecədə gedib mənim atamın evini yandırsınlar və çölə çıxanı güllləbaran eləsinlər... Fikirləri Fəxrəddini öldürməkdir...Fəxrəddin üç ay deyil Almaniyadan gəlibdir, mən onu görməmişəm... Belə zülm olarmı ki, bunlar başlamaq istəyirlər?!



LAYİHƏ

S ə a d ə t x a n ı m. Uşaq olma, səbr elə, bu saat. *(Səktə)* Hürü nənə, ay Hürü nənə. *(Çağırır)* Ancaq təvəqqe edirəm, rəftarında təğyir olmasın və özünü arxayın saxlayasan. Eşidirsənmi?

H ü r ü *(daxil olub).* Belə nə var, Hürü nənə sizə qurban?

S ə a d ə t x a n ı m. Hürü nənə, bu saat evdən xəlvət çıxarsan düz Fəxrəddin bəyin yanına. Təkcə özünə deyərsən ki, bizim qırılmışlar sözü bir yerə qoyublar ki, gedib onların evlərini bir qaranlıq gecədə yandırsınlar və çölə çıxanı güllləbaran eləsinlər. Və bu işdən ötrü Cahangir bəyi də köməyə çağırmaq istəyirlər. Fəxrəddindən təvəqqe eləyirəm, bu xaraba vilayətdən baş götürüb getsin, qalmasın bu dağılmışda... O ki qaldı mənə, mənim fikrimi çəkməsin, onun hər yerdə olsa, salamatlığı məndən ötrü kifayətdir, mən ölənəcən bivəfalıq eləməyəcəyəm, nə qədər canım sağdır, bu canımı onun yolunda qoymuşam...

H ü r ü. Bircə bu kişiyə deyən gərək, ay biiman! Bu Fəxrəddin haman Fəxrəddindir ki, qızın Səadəti altı-yeddi il oxudub, tamam vilayətin gözü eləyib, indi bu da onun əvəzidir, ay biiman, a başı batmış?! Hərgah Səadət bu qədər oxumaseydi, o da olardı bizim tayımızın biri. İndi, bax gör ki, Səadət dildən-ağızdan düşmür. Səadəti bu məqama yetirən Fəxrəddin deyil? Tfu! Yox olasan sən, murdar olasan sən! Yandım-töküldüm!..

M a h m u d b ə y *(daxil olub).* Nədir yenə, a Hürü qarı, dərvişlik eləyirsən?!

H ü r ü. Nə olacaq, dəli qudurmuş atan təzədən genə çarxı xoruz kimi girib meydana, qoymaz görək dərdimiz nədir?

M a h m u d b ə y. Əhvalatdan xəbərdaram... Ancaq qorxmaq lazım deyil, mən ölməmişəm ki, qoca təzə müsibət gətirə bilsin bizim başımıza... Elə fikirləri mən pozaram, qoymaram əmələ gələ; arxayın olun.

S ə a d ə t x a n ı m. Qardaş, biz heyvan deyilik, bizə insan deyirlər. İnsan olan kəsdə məhəbbət gərək, insaf gərək, mürüvvət gərək... Atamızın bir ayağı qəbirdədir, lazımdır ki, biz mane olaq onun vəhşi işlərinə. Nə olubdur axır, bəs deyil?!.

M a h m u d b ə y. Mən ölməmişəm ki, siz təşvişə düşürsünüz! Qoca kişidir, danışar, danışar, yorulub oturar yerində. Bəri gəlin, gedək bağçaya. *(Səadəti, Gülbaharı qucaqlayıb aparır, gedirlər)*

*Pərdə*



LAYİHƏ

## İKİNCİ MƏCLİS

*Vaqe olur Fəxrəddin bəyin mənzilində. Gecə Fəxrəddin bəy əyləşib səndəli üstə, qabağında miz, miz üstə bir cüt yanan şam, dəftərlərə baxır.*

Fəxrəddin bəy (*tək*). Mənim ağlım heç kəsmirdi ki, kari-xeyirlər, bizim molla demişkən, bu tezliklə tamam oleydilər. Allah qoysa, bir üç-dörd ilin içində bağ da hazır olar və onun mədaxili məktəbxanaya və azarxanaya kifayət elər; məndən artıq xərc istəməz... Sonra... Səadət xanım qolları çirməkli, dəstə haçar belində, gecə-gündüz əlləşməkdə, cənab Fəxrəddin bəy də özü həmi bağban, həmi dirrikçi, həmi məktəbdə müəllim... Pis ömr deyil, hərgah qəza bivəfalıq etməsə. Görək, Allaha pənah! *(Səktə)* Hacı Murad! *(Çağırır. Hacı Murad daxil olur)*

Hacı Murad. Nə buyurursunuz, ağa?

Fəxrəddin bəy. Nə var, nə yox, Hacı Murad? Həkim mənzilindən razıdırmı? Mollanın kefi necədir?

Hacı Murad. Molla uşaqlarla dərsdən sonra uşaq kimi oynayır. Həkim mənzilindən çox razıdır, ələlxüsus övrəti. İnək də ki gəlibdir; şadlıqlarından bilmirlər nə eləsinlər... Molla çox yaxşı oğlandır.

Fəxrəddin bəy. Çox yaxşı, təhəng çubuqları da ki vüsul oldu.

Hacı Murad. Bəli, ağa, iki ərəbə, çox təmiz çubuqlar.

Fəxrəddin bəy. Çox pakizə. Sübh tezdən hamısını basdırarsan. Nə qədər fəhlə lazım olsa, bağbana deyərsən, gətirsin, əlavə şagirdlərin hamısını çıxardarsan köməyə. Çubuqları artıq saxlamaq yaxşı deyil...

Hacı Murad. Baş üstə, ağa, molla özü hazırlaşıb əlləşməyə. *(Hacı Murad baş vurub gedir)*

Fəxrəddin bəy *(tək)*. Hər iş öz yolundadır, şükür Allaha... İndi bir qalıb Rüstəm bəylə barışmaq. Bilmirəm, onu nə tövr eləyəcəyəm. Dünyanın hər bir işi cəngi-məğlubədir; amma vəhşi nadanlıqla cəng etmək mümkün deyil. Neyləmək? Çünki oldun dəyirmançı, çağır gəlsin dən, Koroğlu...

*Mələk xanım və Şahmar bəy daxil olurlar.*

Mələk xanım. Oğul, atanın canı ağzından çıxanacan “Fəxrəddin, Fəxrəddin” deyib çağırdı. Güllə dəyəndən sonra onun dırnaqları ilə kotan kimi eşdiyi yeri görsəydin, ağzından bir qarış çıxan kömür kimi qaralmış dilin görsəydin!.. Uy Heydər, uy Heydər!.. Məni köməksiz qoyub gedən Heydər! Gözlərim kor oleydi, səni o halda görməyəydi.

Fəxrəddin bəy. Xudaya! Gör biz müsəlman necə bədbəxt, vəhşi, nadan tayfayıq ki, bir nahaq, bimənа işdən ötrü bu mərtəbədə müsibətlər, düşmənçilik bəhəm eləmişik. *(Səktə)* Vallahı, deyirəm, belə hərəkətlərə dürüst fikir verəndə, belə görünür ki, guya biz müsəlman tayfaların üstə göydən lənətnamə yenib ki, işığa çıxa bilməyəcəksiniz, həmişə zülmətdə qalıb, vəhşi nadanlıq gücü ilə bir-birinizi tələf edəcəksiniz... Aşkar görürəm, sübut uzaqda deyil... Mən buraya gələn üç ay deyil, bu üç ayın ərzində iki yüz adam, dəxi də artıq, elə bizim



LAYİHƏ

ətrafda bir-birini tələf ediblər. Məgər bu vəhşi nadanlıqdan deyil? İnsaf yox, mürüvvət, qanacaq, tərbiyət yox, məgər şəriət bizə göstərən yol budur? İnsaf məqamında durun. Anacan, qardaşım, axır mənim atam Rüstəm bəyin cavan oğlunu tikə-tikə eləmişdi! Necə ki atamın müsibəti bizi yandırır, elə də Rəşid bəyin ölümü atasını, qardaşını yandırır... Siz nə insaflan işə bir göz ilə baxırsınız?!

M ə l ə k x a n ı m. Oğul, oğul! Beş il üzü qibləyə namaz qılıb, Allahı çağırıb, yolunu gözləmişəm; indi sən də belə?

F ə x r ə d d i n b ə y. Çox uzun danışdıq, kifayətdir... Mənim axır sözüm budur ki, mən cəllad deyiləm, adam öldürəm, ya öldürtdürəm... Hərgah mənim özümü öldürmək istəyirlər, neyləmək, qoy öldürsünlər, mən bir can borcluyam. O ki qaldı Səadətə, onu məndən bir əcəl ayıra bilər... Sizdən çox təvəqqe eləyirəm ki, Səadət barəsində dəxi artıq bu evdə söhbət olmasın, kifayətdir.

M ə l ə k x a n ı m. Kifayətdir, kifayət olsun, eybi yoxdur. Dur gedək, oğul. *(Şahmar bəyə)* Allah barı səni mənə çox görməsin, dur gedək...

Ş a h m a r b ə y. Bəli, fəziləti-axund məlum şüd!.. Buyur, gedək, ana. *(Gedirlər)*

F ə x r ə d d i n b ə y *(tək)*. Qəribə işə düşmüşəm, and olsun Allaha, bu kəsafətimədə ilən mənə ağıl öyrətmək istəyirlər... Canım, beş gün deyil bu vəhşi tayfanın içinə gəlmişəm, az qalıbdır ki, məni cəllad eləsinlər. Xudaya, gör mən nə dərdi çəkirəm, bunların fikri nədir! Tfu, xaraba qalasan, ölkə! Heyif sənə, gözəl şəriət! Heyif sənə, gözəl islam! *(Hürü kişi libasında daxil olur)*

F ə x r ə d d i n b ə y *(xoflu)* Kimsən, naçisən? Burada nə işin var?

H ü r ü. Qorxma, Hürü nənə sənə qurban! Mənəm, mən. Belə sənin qoca Hürü nənən!

F ə x r ə d d i n b ə y. Gecənin bu vaxtında, bu libasda? Nə olub, Hürü nənə? Allah xatirinə, tez məni hali elə.

H ü r ü. Qorxma, canım sənə qurban, hələ qoy bir nəfəsimi alım... Səndən savay yaxında adam yoxdur ki?

F ə x r ə d d i n b ə y. Heç kim yoxdur. Bircə de görüm Səadət salamatdırmı, nə iş ittifaq düşüb?

H ü r ü. Salamatıq, a başına dönüm... Bizim o mürdəşir üzün yumuş Rüstəm bəy, məlun oğlu məlun, hazırlaşıb sizin evə od vursun gecə vaxtı və çölə çıxanı yanğın işığına güllləbaran eləsin. Bir dəli qudurmuş Cahangir bəy də var, bilmirəm, onu tanıyırsan, ya yox, o da Səadətdən ötrü dəli-divanədir, kişi istəyir, onu da gətirib köməyə, bu evin adamlarını cəmən qırsın... Rüstəm bəyin tədbirini Səadət xanım və Gülbahar xanım bilib təşvişə düşüblər, məni də göndəriblər xəbərə.

F ə x r ə d d i n b ə y. Nahaq təşvişə düşüblər... Rüstəm bəy mənə heç zad eləyə bilməz; ancaq təəccüb burasıdır ki, mən hazırlaşmışdım, gedim Rüstəm bəyin qulluği-şərifinə, bu düşmənçiliyi aralıqdan götürməkdən ötrü... İndi ki belə oldu, neyləmək. Lazımdır sərhesab olmaq... Məni xəbərdar eləməkdə yaxşı iş görmüsüz... Biçarə Səadət, yəqin, əziyyət çəkir.

H ü r ü. Səadət xanım biçarə özünü öldürür, deyir: Fəxrəddin bu vilayətdən baş götürüb getsin, aman günüdür, qoy, deyir: dünyayi-aləmin hər nə müsibəti var, mən çəkim, Fəxrəddinin başından bir tük əskik olmasın.



LAYİHƏ

F ə x r ə d d i n  b ə y. Mən bir işdə çox böyük səhv eləmişəm, Hürü nənə. Gərək Səadəti düz aparaydım Almaniyaya. Qalaydıq orada və bir belə zəhmət çəkməzdik, bu vəhşi tayfanın nahaq, biinsaf, bimürüvvət işlərin görməzdik. İndi görək Allah nə istəyib!

H ü r ü. Fəxrəddin, canım sənə qurban, mənim buraya gəlməyimi gərək heç kim bilməsin, çünki məlun oğlu məlun bizi diri-diri boğar, dar ağacına çəkər. İndi mən gedim, qurban sənə, Səadət xanım təvəqqe eləyirdi ki, burada qalmasın və gedən vaxt məni görməmiş getməsin. *(Hürü gedir)*

F ə x r ə d d i n  b ə y *(tək)*. Rüstəm bəy intiqam almaq istəyir... Neyləmək! Belə vay, ellik ilə gələn vaydır. Rüstəm bəydə günah yoxdur. Elmdə, sənətdə geri qalan millət bizim günümüzə düşər... Ağsaqqal, büzürgüvarımız Rüstəm bəy! Mənim taxsırım nədir ki, məni öldürtmək istəyirsiniz, bitaxsır? Xudaya, mən ölümdən qorxmuram, qüdrət sənin əlindədir, amma rəva deyil ki, mən bir belə zəhmətdən sonra öz mətləbimə çatmamış, arzularıma yetməmiş cavan, bir gədasifət adamın əlində bitaxsır bada gedəm. *(Fikrə gedir)*

*Pərdə*

## Evdə iş

**1. Faciənin ardını – 3-6-cı məclisləri oxuyun.**
**2. Oxuduğunuz hissədə ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**
**3. Tanış olmayan sözlərin mənasını və daha maraqlı hesab etdiyiniz məcazları müəyyənləşdirməyə çalışın.**
**4. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**
**5. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**



LAYİHƏ

## ÜÇÜNCÜ MƏCLİS

*Vaqe olur Cahangir bəyin bağçasında. Cahangir bəy tüfəngə söykənib, bikef durub ayaq üstə.*

C a h a n g i r b ə y. Uf, belə ömür keçirməkdənsə, ölüb qurtarmaq yaxşıdır... Allahın bir bəlasıdır ki, düşmüşəm: yemək yox, içmək yox, bir dəqiqə bir yerdə fərağat oturmaq yox... Mal-dövlət tarac oldu getdi, özüm də düşmüşəm bu günə. Xudaya, mən nə günah eləmişdim ki, sən məni bu hala saldın? *(Səktə)* Nə qədər özümə söz verirəm, Qurana, kitaba and içirəm ki, bundan sonra Səadət adı çəkməyəcəyəm, olmur... Dəli-divanə kimi gecə yarısından keçmiş, atlanıb gedirəm o ətraflarda gəzirəm, gəzirəm, yorulub axır nəfəs geri qayıdıram... Nə qədər fikir eləyirəm, dərdimin əlacı bircə şeydir: gərək Fəxrəddin aralıqdan götürülə, yoxsa ayaqyalın, başıaçıq, dərələrdə, təpələrdə Məcnunam ki, Məcnunam.

*(Fərhad və Məhərrəm daxil olurlar, təəccüblə Cahangir bəyə baxırlar)*

F ə r h a d. Cahangir, nədir? Genə sir-sifətindən qan yağır, suya basılmış toyuğa oxşayırsan?! Yəqin, genə o əhvalatdır səni bu günə salan!

M ə h ə r r ə m. Mən ölüm, Fərhad, bəri gəl, qayıdaq. Cahangiri bu halında görməkdənsə, görməmək yaxşıdır. Sağ olmuş, elə bil ki xanzadələrin borcun bundan almaq istəyirlər.

C a h a n g i r b ə y. Əlbəttə, elə deyəcəksiz... Kotan nə bilir, qayış nə çəkir?

F ə r h a d. Genə başlayıb rəhmətlik oğlu, buyur görək təzədən nə var?

C a h a n g i r b ə y. Məgər siz mənim dərdimi bilmirsiz, dəxi nə lazım soruşmaq.

M ə h ə r r ə m. Bu köhnə söhbətdir, Cahangir, təzədən nə var, onu buyur görək.

C a h a n g i r b ə y. Nə olacaq, Fəxrəddin bəy gəlibdir, ümid yerim kəsilib, vəssalam! Bundan artıq nə istəyirsən?

M ə h ə r r ə m. Ümid yerin kəsilib, sonra nə olsun? Evdə oturub dul arvad kimi zıqqıldamaqdan ələ nə gələr? İnsan gərək dərdinə dərman axtarsın, dərman tapa bilmədi, səbr eləsin, dözsün, dözə bilməz, boğazına bir çatı salsın. Zıqqıldamaqdan iş aşmaz.

C a h a n g i r b ə y. Necə ki mən fikir eləmirəm, dərdimə dərman axtara bilmirəm? Gecə-gündüz belə çevirirəm, elə çevirirəm və nə qədər fikir eləyirəm, bir əlac tapmıram, məgər indi mənim dərdimin əlacı Fəxrəddinin fot olmağı, yəni dərdimin əlacı insan qanıdır. İndi nə deyirsiniz, deyin...

M ə h ə r r ə m. Mən bilsəm ki, sənin dərdinə insan qanı dərman ola bilər, vallahi, mən elə bu saat əzrailliyi qəbul elərəm. Dərd odur ki, mən elə dərmana inanmıram.

F ə r h a d. Cahangir, mən ölüm, doğrusunu de, qızın sənə heç bir az meyli var, ya yox? Onunla bu barədə danışmısanmı? Yoxsa elə uzaqdan-uzağa Məcnun olmusan?

C a h a n g i r b ə y. Nə qədər məgər sifariş eləmişəm... Cavabı həmişə birdir: “Mümkün deyil, məndən inciməsin”. Bir dəfə yolda görmüşəm, cavab verdi ki, zülmə razı olma...



LAYİHƏ

F ə r h a d. İndi biz nə edək? Qız razı deyil, atası razı deyil. Evləri Qars qalası. Bəs nə tövr olsun?

C a h a n g i r b ə y. Aman günüdür, qardaşlar, əgər bacarsanız, müzayiqə eləməyin... Məhərrəm, Məhərrəm. Heç fikrə getmə, sizdən savayı kömək yerim yoxdur.

M ə h ə r r ə m. Sən, Cahangir, qəribə adamsan, vallahi! Mən necə fikrə getməyim ki, Rüstəm bəy evini eləyib bir əlçatmaz qala, Fəxrəddin bəy həmçinin... Əlavə, tutaq ki, elə biz qadir olduq Fəxrəddin bəyi öldürməyə, sonra nə olsun? Cahangir, qardaşım, acığın tutmasın, axır sən elə yerdən tutmusan ki, mümkün olan şey deyil. Səadət xanım deyəndə, bir padşaha layiq qızdır, sənin, mənim tayımız deyil. Axır nə lazım olub, bir bitməyən işin dalına düşək?!

C a h a n g i r b ə y. Bayaq dedim: kotan nə bilir qayış nə çəkir?.. Allah səni mənim günümə saleydi, onda bilərdin mən nə haldayam və nə çəkirəm... Neyləyim?

F ə r h a d. Rəhmətliyin oğlu, Məhərrəm də elə söz danışır ki, guya Fəxrəddin bəyi öldürmək çox çətin işdir. Vallahi, onu elə bu gecə öldürüm! O ki qaldı qıza, sən öləsən, çətini bir ələ keçməsidir, nə qayıracaq? Atılar-düşər, axırı yumşalar.

M ə h ə r r ə m. Fərhad, Fərhad, böyük-böyük danışma! Vallah, bu saat Fəxrəddin bəyin qapısında iki gədə var ki, bizi diri-diri yeyərlər... Nə söyləyirsən? Qız da o sən deyən qızlardan deyil, sən onu tanımırsan, ona yaxın getmək olu?!

C a h a n g i r b ə y. Ay uşaqlar, siz ki məni yaxşı tanıyırsınız. Mənim əlimdən nə gələr, nə gəlməz, heç kim bilməsə də, siz ki görmüşsünüz, siz ki bilirsiniz... Məgər mən özüm Fəxrəddini öldürməkdə aciz qalmışam? Əlim gəlmir, Səadətin əziyyətindən qorxuram, yoxsa mənə nə olub?..

F ə r h a d. Uzun danışmaq lazım deyil. Durun ayağa, gedək rizliyək, bir-iki gündən sonra özümüzü vuraq əjdahalar içinə, ya onlara verən Allah, ya bizə; hər nə ola-ola... Ya Fəxrəddini öldürməyə, ya qızı qaçırmağa, vəssalam!.. Mənim məsləhətim belədir, indi özünüz bilin.

M ə h ə r r ə m. Baş üstə, buyurun gedək...

C a h a n g i r b ə y. Buyurun gedək. *(Gedirlər)*

*Pərdə*



LAYİHƏ

## DÖRDÜNCÜ MƏCLİS

*Vaqe olur qaranlıq gecədə, Fəxrəddin bəyin mənzilinin qabağındakı bağçada. Pərdə qalxandan sonra Şahmar bəy gəlir, əlində tüfəng.*

Ş a h m a r b ə y. Yamanca qaranlıqdır, göz-gözü görmür. *(Ətrafa baxır)* Hacı Murad, Xəlil... *(çağırır)* Birisini diri tuta bilsəydik, nə yaxşı olardı?.. Onda Rüstəm bəydən bir dəfə xilas olardıq. Tutan kimi düz aparıb şəhərdə divan əlinə verərdim. Rüstəm bəyi qarışdırardım işə, necə ki o mənim əmilərimi işə saldı, qulaqları cırıldaya-cırıldaya gedərdi, biryolluq canımız qurtarardı... Hacı Murad! *(Çağırır)*

*Hacı Murad, Xəlil gəlirlər.*

Ş a h m a r b ə y. Uşaqlar, nə var, nə yox?

X ə l i l. Ağa, hələ ki bir şey yoxdur, amma yamanca qaranlıqdır, iki qədəmdə adamı seçmək olmur.

H a c ı M u r a d. Bircə elə hənirtidən bilmək olar ki, yaxında adam var. Allah eləsin ki, bu gecə gəlsinlər.

Ş a h m a r b ə y. Əgər birisini diri tuta bilsəydik, çox yaxşı olardı. Ancaq, Allah xatirinə, özünüzü gözləyin, yoxsa birinizi vursalar, gərək biz papaq qoyub çölə çıxmayaq.

X ə l i l. Ağa, Hacı Rəsulun çəpəri tərəf adamımız yoxdur. Səməd kişinin evi tərəf də qorxuludur.

Ş a h m a r b ə y. O tərəfdən cürət edib gələ bilməzlər, ancaq Hacı Rəsulun çəpərində adam qoymaq gərək.

X ə l i l. Gərək mən özüm orada duram. Hərgah o tərəfdən gələn olsa, çünki dalı çox bərkdir, tuta bilməyəcəyəm, elə ataram qalar yerində.

Ş a h m a r b ə y. Çox yaxşı, dəxi durmaq yeri deyil. Gedin, görək Allah nə istəyib. Sərhesab olun, özünüzü gözləyin. *(Gədələr gedirlər)* Mən Fəxrəddinə deyəndə ki, qardaş, sən bu xarabanın işini bilməzsən, burada müsəlmanlar haqq-nahaq bir-birinin qanın içirlər, mənə inanmırdı, indi özü düşüb əl-ayağa! Bəs necə, oğlan, elə bilirsən ki, biz burada asanlıqla çörək yeyirik? Bizim yer Almaniyadır? Bundan sonra bilərsən ki, bu vilayətdə baş çıxarmaq böyük hünər istər.

F ə x r ə d d i n bəy *(daxil olur, əlində tüfəng)* Xaraba qalasan, vilayət! Mən, Fəxrəddin, tüfəng? Nə eləyəsən? Qudurmuş itlərdən, lazımdır ki, özünü mühafizə eləyəsən... Bir adam ki heyvandan seçilməyə, ondan, əlbəttə, qorxmaq gərək.

Ş a h m a r b ə y *(təbəssümlə)*. Hm! Fəxrəddin bəy, bizim vilayət ilə Almaniya necədir, bir-birinə bənzəyirmi?

F ə x r ə d d i n b ə y. Yalansa, xaraba qalsın sizin vilayət! Hələ bir şey yoxdur ki, ay Ş a h m a r?

Ş a h m a r b ə y. Hələ ki xeyr. Hərgah gələn olsa, kənarda bir gədə qoymuşam, it kimi hürəcək, bizi xəbərdar eləyəcək.

F ə x r ə d d i n b ə y. Qoşunkeşlikdə belə dolanmazlar ki, biz bu neçə gündür dolanırıq. Belə də vəhşi, nadan tayfa olar? Gecə-gündüz yuxusuz, hər bir saatda gözlüyürük, ha budur, evimizi odlayacaqlar, güllləbaran edəcəklər.



LAYİHƏ

Ş a h m a r  b ə y. Bəs biz nə edək ki, tamam ömrümüz belə keçir?.. Darıxma, Fəxrəddin, Allah kərimdir. Ancaq, qardaş, belə işlər sənin işin deyil, sən get arxayın yat.

F ə x r ə d d i n  b ə y. Əlbəttə, gedib yatacam, ancaq buraya gəlməkdə qəsdim səni görüb tapşırmaqdır ki, olmaya-olmaya bir adam yaralana... Hərgah bir adama güllə dəysə, Şahmar, elə bil ki o güllə mənim gözümə dəyib. Bax, Allah xatirinə, qan tökməyin, səy eləyin qaçsınlar, getsinlər.

Ş a h m a r  b ə y. Sən get arxayın yat, qoymaram xəta ola... Elə gördülər ki, biz sərhesabıq, özləri qaçarlar, qorxma, qoymaram adam vurula.

F ə x r ə d d i n  b ə y. Allah amanında... Mən gedirəm, ancaq mən ölüm, Şahmar, tapşır ki, vurmasınlar. Eşidirsənmi, mən ölüm deyirəm ha!..

Ş a h m a r  b ə y. Qorxma, qoymaram, arxayın ol. Gecə yarıdan keçib, get yat.

F ə x r ə d d i n  b ə y. Hərgah yatmaq mümkün olsa. Yaxşı, xudahafiz. *(Gedir)*

Ş a h m a r  b ə y. Xoş gəldin... Birdən elə dəli qudurmuş Rüstəm bəy özü gələ və ələ düşə, nə qəribə iş olar?.. Hər nə desən, çıxar o kişidən, beş vaxt namazdan savay... *(Səktə)* İş bilməmək belə olar a... Yalvarır ki, qoyma adama zəfər yetişə. Bəli, biz onları vurmayaq, onlar bizi qırsınlar... Yaxşı məsləhətdir, vallah... Görək, Allaha pənah. *(Gedir)*

*Şahmar bəy gedəndən bir az sonra Fərhad və Məhərrəm daxil olurlar, xoflu, yavaşdan danışırlar bağçada, əllərində tüfəng.*

F ə r h a d. Keçəl! Şeytanın ağlına gəlməyən iş sənin ağlına gəldi... Nərdivanı harada qoydun?

M ə h ə r r ə m. Çəpərə söykəmişəm... Təpil, təpil! Bax, bax! Fəxrəddin bəy bu özüdür, şamı yandırıb kitab oxuyur, bədbəxt, əcəl girləyir... Mən ölüm, hələ tələsmə, qoy görək nə qayıracaq... Kitab oxuyur, şəklə baxır, yəqin, Səadət xanımın şəklidir.

F ə r h a d. Tamaşa yeri deyil, qardaş! Tutarlar, sən öləsən dərimizi boğazımızdan çıxardarlar, qurtar gedək!..

M ə h ə r r ə m. Bağ içində bizi kim görə bilər? Mən ölüm, bir az səbr elə. Afərin oğlan, pəh, pəh, pəh!..

F ə r h a d. Belə dur görüm aa. Qoy yatırdım gedək, sonra tərif elərsən!

M ə h ə r r ə m. Mən ölüm səbr elə... A gədə, sən nə qorxaqsan?! Belə bağ içində, belə qaranlıqda adam görmək olar, adam tutmaq olar?!

F ə r h a d. Bu canım ölsün ki, ya sən dəli olubsan, ya bizi əcəl girləyib... Bircə fikir elə gör haradasan, məqam nə məqamdır!

M ə h ə r r ə m. Sən nə ağciyər adamsan, Fərhad, qoy bir tamaşa edək, görək Səadət xanımın ruhi-rəvanı necə oğlandır. Maşallah, afərin, həqiqətən, gözəl oğlandır!..

F ə r h a d. Pa-a-a, olmadı ki!.. Bəsdir, rəng-rəng danışma, sən Allah, qoy tamam eləyim, gedək.

M ə h ə r r ə m. Mənim əlim qurusun, əgər belə cavana mənim əlim qalxsa. Heyif deyil? Adam gərək onda Allahsız olsun.

F ə r h a d. Məhərrəm, Allaha bax, bu yer naz-qəmzə yeri deyil.

M ə h ə r r ə m. Mən ata bilmərəm, əlim qurur.



LAYİHƏ

F ə r h a d. Əstəğfürullah! Sən belə dur, gör mən onu necə yatırdıram!

M ə h ə r r ə m. Olmaz, qoymaram heç vaxt! Əllərimi kəssən, dişlərimlə tutub qoymayacağam, vəssalam!

F ə r h a d. Bəs nə üçün məni buraya gətirmisən?! Yəqin ki, mənlən düşmənçiliyin var?

M ə h ə r r ə m. Uzun danışma, Fərhad, ağıllı danış! Sənə deyirəm, qoymaram, qoymaram, vəssalam!

F ə r h a d. Bircə de görüm, Cahangirə nə cavab verəcəksən?

M ə h ə r r ə m. O sənin borcun deyil.

F ə r h a d. Belə məlum olur ki, sən bizə yoldaş deyilsən, bəlkə, hələ…

M ə h ə r r ə m. Baş aparma, Fərhad, adam kimi danış…

*Kənarda tüfəng atəşinin səsi gəlir, Fəxrəddin şamı söndürür, Məhərrəm və Fərhad qaçırlar.*

X ə l i l . Tərpənmə, tərpənmə boynunu sovurram!

Ş a h m a r b ə y. A gədə, qoymayın. Qabaqla! Hara qaçırsan? Qoymayın, ay gədə!

H a c ı M u r a d. Tutun, ay gədə, qoymayın, getdi. *(Tüfəng səsi)*

X ə l i l. Tüfəngi elə atmazlar, al gəldi. *(Tüfəng səsi)*

H a c ı M u r a d. Tutmuşam, gəl, ay gədə! Tərpənmə! Tərpənmə, öldürdüm! Hara tərpənirsən? Öldürrəm bu saat!

X ə l i l. O birisi necə oldu, ay gədə? At qalsın yerində, qoyma qaçdı!

Ş a h m a r b ə y. Qorxma, gəldim… Buraxmayın! Bağla qollarını!.. O birisi necə oldu, ay uşaqlar?..

X ə l i l. O birisini apardılar. *(Tez-tez tüfəng atılır və səs uzaqlaşır)*

Qoymayın, apardılar!

*Pərdə*



LAYİHƏ

## BEŞİNCİ MƏCLİS

S ə a d ə t  x a n ı m. Mənim ağlım kəsmir ki, bu gün Mahmud şəhərə getmiş ola, heç elə gün olmayıb ki, bizim evimiz bu mərtəbə yiyəsiz qala. Gədələrin biri də evdə yoxdur. Qanmıram, bu nə işdir? Deyirəm, yoxsa bu evi yıxılmışlar o tərəfə gediblər?

G ü l b a h a r  x a n ı m. Mən özüm də qanmıram… Mahmud gedəndə mənə dedi ki, şəhərdə işim var, bir-iki gündən sonra qayıdacağam.

H ü r ü. Mən onu bilirəm ki, Rüstəm bəy qaranlıq qovuşandan bir-iki saat sonra tüfəngi götürüb getdi. Deyəsən, elə o bədbəxt uşaqları o tərəfə getdilər.

G ü l b a h a r  x a n ı m. Yavaş bir, ay qız! Bu nə səsdir, ay başına dönüm?

S ə a d ə t  x a n ı m. Bir az sakit ol görüm. *(Səktə)* Siz burada durun, mən görüm bu nə səsdir, bu saat qayıdaram. *(Gedir)*

H ü r ü. Heç belə iş görünməyib ki, sənin evində bir Allah bəndəsi gəlin ola, sən gedəsən onun atası evinə od vurub, qardaşların öldürəsən. Belə yox olasan sən, ay Rüstəm bəy, yox!

G ü l b a h a r  x a n ı m. Allahın qəzəbinə gəlsin görüm onu, evi başına uçsun, tar-mar olsun, Səadətin canından uzaq yerdə.

H ü r ü. Vallah, əgər Səadət olmaya, bu evdə mən bir gün də qalmaram. Deyirəm, nə bilim, bəlkə, Allah rəhm eləyə, bir növ bunlar barışalar. Səadətin işin qurtaraq, çıxaq gedək evimizə.

G ü l b a h a r  x a n ı m. Yox, bu evi yıxılmış Rüstəm bəy farağat oturmayacaq, ölənəcən barışıq da ola bilməz. O elə məlun deyil!

S ə a d ə t  x a n ı m *(tələsik gəlib)*. Hürü nənə! Mahmudun çuxasını, Əhmədin yapıncısını, papaqlarını tez buraya gətir, tez ol, tez! Sual lazım deyil, durma. *(Hürü gedir)* Xudaya, bilmirəm, biz nə günah eləmişik ki, bu qədər müsibətlər bizim başımıza gəlir?.. Gülbahar, titrəmək vaxtı deyil… Bu dəqiqə sən gərək gedəsən, burada artıq qala bilməzsən! Evin yıxılsın ata, evin yıxılsın! Gediblər… Qırğın olub, çoban söyləyir…

G ü l b a h a r  x a n ı m. Canım sənə qurban, Səadət, yoxsa atamın evi yıxılıbdır? Uy Allah, uy Allah, ölüm mənimdir!

S ə a d ə t xan ı m. Ağlamaq yeri deyil. *(Hürü gəlir)* Gey çuxanı, papağı qoy başına. Hürü nənə, sən də. Tez olun, bax, ha belə… İndi Allah amanında, durmayın, Gülbahar, məni yadından çıxartma, gedin, Allah sizə yar olsun! Gedin, yoldan kənar, özünüz də bağçanın dalından çıxın. *(Ağlaşıb öpüşürlər)*

G ü l b a h a r  x a n ı m *(gedə-gedə)* Yazıq canım vay, yurdsuz-yuvasız canım vay! Səadət, Səadət, ölüm yaxşıdır ayrılıqdan.

S ə a d ə t  x a n ı m. Allah kərimdir, gedin, gedin! Görüm mənim başımda nə müsibətlər var!..

*(Səs gəlir. Səadət xanım irəli durub)* Kimsən? Yaxın gəlmə, adını de, yoxsa…

R ü s t ə m  b ə y *(bağçadan)*. Mənəm, Səadət, qorxma!

S ə a d ə t  x a n ı m. Salamatsınızmı, ata? Dəxi məndə can qalmayıb… Belə iş olmaz ki, siz mənim başıma gətirirsiniz.

R ü s t ə m  b ə y. Qorxma, qızım, bir elə artıq iş olmayıb, sən get içəri, yad adam var.



LAYİHƏ

S ə a d ə t x a n ı m. Bir elə iş olmayıb nə deyən sözdür, ata? Bəs Mahmud hanı? Allah məni öldürsün qurtarsın sənin əlindən!

R ü s t ə m b ə y. Sənə deyirəm bir elə iş olmayıb, get, qalmaqal eləmə! Camaatı buraya tökmə! *(Mahmud bəyi Əhməd qoluna girib yavaş-yavaş gətirir)*

S ə a d ə t x a n ı m. Uy, uy, qardaş! Bacın ölsün, ay qardaş!.. Sənə nə olub, ay qardaş?!

R ü s t ə m b ə y. Səadət! Çığırıb-bağırıb aləmi buraya tökmə, Allah xatirinə!..

M a h m u d b ə y *(zəif səslə).* Qorxma, Səadət, qorxma, sənə mən söz verdim, mən deyən olmadı, Allah işidir.

R ü s t ə m b ə y. Bir yastıq! Tez, tez ha! *(Səadət xanım qaçır yastıq gətirməyə)* Qorxma, yassar, mərdanə ol, oturt Əhməd, gir qoltuğuna... Ha belə!

M a h m u d b ə y. Tələsməyin, qoyun bir az dincəlim. *(Səadət yastıq gətirir)* Uf, yavaş, yavaş!

S ə a d ə t x a n ı m. O güllə bacının gözlərinə dəyəydi, ay qardaş, yazıq qardaş! Dincəldinmi, ay ata, dincəldinmi?

R ü s t ə m b ə y. Bir qayçı, tez a! Yara gərək bağlana, bağlanmasa olmaz. Bəlkə xətərli yaradır... qolunu, belə başına dönüm, çıxart, Əhməd!

M a h m u d b ə y. Yavaş-yavaş, tərpətmə! Qoy bir az dincəlim. *(Əhməd yaraya baxır)*

R ü s t ə m b ə y. Qan çoxmu gedib, ay gədə?

Ə h m ə d. Bilmək olmur, ay ağa. İndiyə kimi axdı getdi, qan nə qayırır?

S ə a d ə t x a n ı m *(gəlir, əlində qayçı)* Sən belə dur, Əhməd! Bacın gözlərinə qurban, qardaş!.. Əhməd belə tut, ha belə. Yavaş, tut buradan, çıxart, yavaş-yavaş. Bu saat, canım sənə qurban, çıxart, ha belə.

R ü s t ə m b ə y *(Səadətə)* İndi sən belə dur, özün də buradan get... Əhməd, üsullu böyrü üstə çevir... Yaxşıdır, çox incitmə... Bu yaranı bağlasan, yaxşı deyil.

S ə a d ə t x a n ı m. Elə demə, deyilən ki, evin yıxılıb, vəssalam... O güllə bacının sağ gözünə dəyəydi, ay qardaş!.. Axır sənin nə işin vardı elə yerlərdə, yazıq qardaş, mehriban qardaş? Dincəl ata, evi yıxılmış ata, dincəl!..

R ü s t ə m b ə y. Mahmud, Mahmud... Niyə danışmırsan, ay başına dönüm? Mahmud, Mahmud! Başın bir az dikəlt, ay gədə. Bu Vəli hansı cəhənnəmdə qaldı, bilmirəm!

Ə h m ə d. Ağa, Cahangir bəyi, Vəlini tutdular, yazıqlar şir kimi əlləşirdilər, olmadı!.. Zalım uşaqları guya ki bizim yolumuzu gözləyirlərmiş!..

S ə a d ə t x a n ı m *(Mahmuda baxıb).* Uy, ay qardaş!.. Ata, evin başına uçsun!.. Ata, barı üzünü qibləyə çevir.

R ü s t ə m b ə y. Mahmud, Mahmud... Axır sən Rəşid bəyin qardaşısan, niyə belə yassar olursan? Mahmud, niyə dinmirsən, qoca atan sənə qurban?

S ə a d ə t x a n ı m. Bacın gözlərinə qurban, qardaş! Allahı çağır, salavat çevir, kəlməni de, ürəyinin sözünü de, nakam gedən qardaş!

M a h m u d b ə y *(zəif səslə)* Gülbahar...

S ə a d ə t x a n ı m. Gülbaharı çağırımmı gəlsin?

R ü s t ə m b ə y. Canıma od salma, ciyərimi dağlama, nakam gedən oğul! Taxsır məndədir, ay oğul, mən ölməli idim, mən, mən, mən, mən... mən... mən!..

Ma hmu d b ə y. Gülbaharın xatirinə dəyməyin, incitməyin.



LAYİHƏ

S ə a d ə t  x a n ı m. Qorxma, ay qardaş... Mən ölənəcən qoymaram Gülbahara güldən ağır söz deyilə. Gülbaharın sənə qurban, bədbəxt qardaş!

R ü s t ə m  b ə y. Ay oğul, aman günüdür, mənim evimi yıxma!.. Məni imansız eləmə!..

Ə h m ə d. O güllə dəyəydi mənim sağ gözümə, ay ağa, ay yazıq, fəqir ağa... Elə adam vurmayın deyib yalvarırdın, ay ağa!.. Məzlum ağa!..

R ü s t ə m  b ə y. Bircə səsini çıxart, ay oğul! Malım-dövlətim sənə qurban, ay oğul! Evimə od düşəydi, Mahmud, dilim quruyaydı, Mahmud!

S ə a d ə t  x a n ı m. Sən qardaşımı tufana verdin, ata! Sən yıxdın evimizi! Yurdun dağılsın, ata!.. *(Mahmuda baxıb)* Uy, başınıza dönüm, qardaşım keçinir, üzün qibləyə çevirin. Evi yıxılmış ata, yurdu tar-mar olmuş ata, barı qoyma, qardaşım Quransız keçinə... Uy, Allah, yazıq qardaşım! *(Mahmudu qucaqlayır)*

R ü s t ə m  b ə y *(Mahmuda baxıb)* Əhməd, xalçadan tut, belə çevir. Dilim quruyaydı, oğul! *(Üzünü qibləyə çevirirlər)* Bir az da belə... Səni namus yolunda bada verdim, oğul!.. Əhməd, yüyür molla dalınca!..

Ə h m ə d. Evimiz yıxıldı, ay başına dönüm. Bu şəhidə nə Quran?.. Gecənin bu vaxtında molla nə qayırır, yetirməz... Keçibdir...

S ə a d ə t  x a n ı m *(tez Quranı götürüb)* Ay qardaş, ay qardaş!.. Qulaq as, gör bacın üstündə necə Quran oxuyacaq. *(Quranı açır)* Bismillahirrəhmanir-rəhim... *(Qəşş eləyib yıxılır)*

R ü s t ə m  b ə y *(ayaq üstə, başıaçıq)* Ay gədə, o xəncəri sox mənim ürəyimin başına, atam sənə qurban!.. Məni öldürün, ay camaat, mən biimanı dünyada sağ qoymayın!.. Başınıza dönüm... Mahmud!.. Ev-eşiyimə bu saat od vuracağam, Mahmud! Səndən sonra mənə heç zad lazım deyil, Mahmud!.. Əhməd! Əhməd! Od gətir, küləş gətir, yurdumu gərək xaraba qoyam! *(Gedə-gedə)* Uy, Mahmud, uy Mahmud, belimi sındıran oğul!

Ə h m ə d. Qurtardın, ağa, dünyanın qiylü-qalından. Heyf sənə! Səndən sonra mən bu evə üz döndərmərəm, qanına əvəz eləyib baş götürüb gedərəm, and olsun sənin bu canına!.. Külfətdən əl çəkib, vətəni atıb, yurd-yuvanı dağıdıb, baş götürüb gedəcəyəm... Ta bu ömr olmadı!.. *(Üzündən öpüb)* Özümü sənə qurban dedim, indi get qəbirdə rahat yat, qanına qan elərəm, qorxma! *(Gedə-gedə)* Ağa, mehriban ağa, rəhmli ağa, nakam ağa!..

*Pərdə*



LAYİHƏ

## ALTINCI MƏCLİS

*Vaqe olur Fəxrəddin bəyin mənzilinin qabağında olan bağçada.*

Ə h m ə d *(ətrafa baxa-baxa gəlir)*. Ay bivəfa, puç dünya! Bu az müddətdə gör necə gözəl oğlanlar bada gedib. Rəşid bəy getdi, Mahmud bəy getdi, Vəli kimi əjdaha qalada axırıncı yaradan tələf oldu getdi... Cahangir bəyin yurd-yuvasını dağıtdılar, canı dustaqxanada çürüyür. Rüstəm bəy kimi pəhləvanın beli bükülüb, özü dönüb bir yumağa...

*Tüfəngini sazlayıb gizlənir.*

F ə x r ə d d i n b ə y *(gəlir bağçaya)* Hacı Murad, bu gün gələn qəzetləri gətir buraya!.. Heç belə yorulmamışdım ki, bu gün yorulmuşam; bizim bu camaat ilə məgər iş görmək olar. Günbəgün, saatbasaat nə qədər yaxın bələd oluram bunların xasiyyətlərinə, bir o qədər aşkar görürəm ki, bir gül ilə bahar olmaz. Dəxi məni təngə gətiriblər, ovqatım olub təlx, ələlxüsus biçarə Mahmudun müsibəti məni hər şeydən artıq yandırır... *(Hacı Murad bir səndəli gətirir, bir cüt şam və bir miz)* Hacı Murad, Xəlil necədir, yarası sagalıbdırmı?

H a c ı M u r a d. Yaxşıdır indi, ağa... Gədə az qalmışdı ölsün, qoçaq həkim əcəb kömək elədi. Bir-iki gün olur ki, azarxanadan çıxıbdır.

F ə x r ə d d i n b ə y. Çox şadam... Hacı Murad, səhər tezdən gedərsən Əhməd bəyin yanına və bir araba da aparарsan, təhəng çubuğu verəcək gətirərsən. Əlavə bağbanlara deyərsən ki, aşağı bağı tamam kəlləsər eləsinlər. Özüm də gələcəyəm.

H a c ı M u r a d. Bəli, ağa, baş üstə.

F ə x r ə d d i n b ə y *(qəzetə baxıb)*. Gedə bilərsən. *(Hacı Murad baş vurub gedir)* Vallahi-billahi, doğru yazıblar, haqları var... Bizim kimi vəhşi tayfanın dünya üzündə gərək yeri olmasın... Hara baxırsan, heç bir könül şad edən şey görmürsən... Heyif sənə, gözəl şəriət! Heyif sənə, gözəl islam ki, biz vəhşi olub qədr-qiymətini qanmırıq!

*Tüfəng atılır, Fəxrəddin bəy yıxılıb tez qalxır, Hacı Murad tələsik gəlib onu qucaqlayır.*

H a c ı M u r a d. Ay başınıza dönüm, aman günüdür gəlin... Nə oldu, ay ağa? Nə oldu, başına dönüm?

F ə x r ə d d i n b ə y. Bimürüvvət oğlu, biinsaf oğlu!..

H a c ı M u ra d. Ay dad, ay fəryad! Amandır, gəlin, ay başınıza dönüm! Gəlsənizmi, Şahmar bəy, Xəlil!..

F ə x r ə d d i n b ə y. Məni oturt, həkimi çağır... Xudaya şükür... Qəribə müsibətdir, müsibəti-müsəlmanan! Vəhşilik, elmsizlik, nadanlıq! Bəli, neyləmək, qəza işidir... *(Şahmar bəy əlində tüfəng, Mələk xanım, Gülbahar, Xəlil qolu boynundan asılı tələsik gəlirlər, Hacı Murad Şahmar bəydən tüfəngi alıb qaçır)*

Ş a h m a r b ə y *(Fəxrəddini qucaqlayıb)*. Xəlil! Həkim, tez... Qorxma, başına dönüm, qorxma, canım sənə qurban!



LAYİHƏ

*Hacı Muradın çöldən səsi gəlir.*

H a c ı  M u r a d. Ay namərd oğlu namərd, hara qaçırsan, qanını içəcəyəm. Qaçma, ay gədə, vallah, səndən əl çəkməyəcəyəm! *(Tüfəng atılır)*

M ə l ə k  x a n ı m. Allah, amandır, Allah, amandır. Allah, özün rəhm elə, qorxma, gözlərinə qurban! *(Oturur Fəxrəddinin yanında)* Uy, ay Fəxrəddin, bu nə işdi bir düşdük?!

G ü l b a h a r  x a n ı m *(Fəxrəddinin ayaqlarını qucaqlayıb)* Uy, ay qardaş! Uy, yazıq qardaş!

F ə x r ə d d i n  b ə y. Qorxmayın, qorxmayın... Çıxart (libasın), hərgah ağciyərə dəyməmiş olsa, ümid var...

Ş a h m a r  b ə y. Şahmar adlı qardaşın olmayaydı, Fəxrəddin və belə müsibəti görməyəydi. *(Gülbahar xanım yaylıq və yastıq gətirir)* Qoy buraya, ha belə... Uzan, uzan, canım sənə qurban! *(Yaranı bağlayır)*

F ə x r ə d d i n  b ə y. Həkim necə oldu, nəfəsim darıxır...

G ü l b a h a r  x a n ı m. Darıxan nəfəsinə günüqara, bədbəxt bacın qurban, Fəxrəddin! Uy, yazıq qardaşım...

H ü r ü (*tələsik daxil olur)* Güllə kimə dəyib, a başınıza dönüm?.. Bu nədir, Allah, bu nədir? Fəxrəddin, Fəxrəddin... aman günüdür, Fəxrəddin! Evin yıxılsın, Mələk xanım! Başına əlləmə düşsün, Mələk xanım, dincəldinmi, dincəldinmi?!

M ə l ə k  x a n ı m. Ay camaat, məgər ciyərimdən çıxan tüstünü görmürsünüz!? Yandım, Allah! Dilim lal olaydı, Fəxrəddin! Gözlərim kor olaydı, Fəxrəddin!

G ü l b a h a r  x a n ı m. Uy, Şahmar, bir belə də qan gedərmi? Qoyma başına dönüm, amandı, Allah! Amandı!.. Allah, sən özün rəhm elə, bizə yazığın gəlsin!..

F ə x r ə d d i n  b ə y. Macal vermədi... Bivaxt... Heyif!

G ü l b a h a r  x a n ı m. Ay başına dönüm, həkim necə oldu? Ay ata, ay ata, evinə od düşeydi, ay ana! Yurdun tar-mar olaydı, ay ata! *(Fəxrəddinə baxır)* Həkim necə oldu? Başınıza dönüm... Həkim, həkim, həkim! *(Qaçır çölə)*

Ş a h m a r  b ə y. Ürəyin incidirmi, qardaş? O güllə mənim sağ gözümə dəyəydi, Fəxrəddin!

F ə x r ə d d i n  b ə y. Məktəbxana, azarxana məndən sonra tək nişanədir, dağıtma. Səadətə hörmət eləyin, düşməni bağışlayın...

Ş a h m a r  b ə y. Şahmar adlı qardaşın ölsün, Fəxrəddin. Yaman yerdə evimizi tar-mar elədin!

F ə x r ə d d i n  b ə y. Şahmar!

Ş a h m a r  b ə y. Can Şahmar! Nədir, başına dönüm? Sözünü de!..

F ə x r ə d d i n  b ə y. Səadət...

Ş a h m a r  b ə y. Hürü nənə, canım sənə qurban, Səadət xanım qonşuluqda dayısı evindədir, çağır gəlsin, ciyərim odlanır, Fəxrəddin!

*Hacı Murad, Xəlil daxil olurlar.*

H a c ı  M u r a d. Ağa! Səni bu hala salanı cəhənnəmə vasil elədim; amma heyif sənə, kaş o güllə mənə dəyəydi... Ölüm Allah əmridir, ağa, ancaq... *(ağlamaq qoymur danışmağa)*



LAYİHƏ

F ə x r ə d d i n  b ə y. Əşhədü-ən-lailahə-illəllah, əşhədü-ən Məhəmmədən-rəsuləllah…

S ə a d ə t  x a n ı m *(daxil olur Hürü ilə)* Belə dur. *(Hürüyə).* Oturur Fəxrəddinin yanında. *(Xəlil, Hacı Murad çölə çıxırlar)*

Ş a h m a r  b ə y. Fəxrəddin, bir gözünü aç gör bizə kim gəlibdir!

S ə a d ə t  x a n ı m. Fəxrəddin, mən səni bir yekə pəhləvan hesab eləyirdim, bəs sən belə imişsən?!

F ə x r ə d d i n  b ə y *(Səadətin əlindən tutub)* Ağlama, mərdanə ol, qəza işidir, təzə bağda dəfn eləyin, qan tökmək kifayətdir…

S ə a d ə t  x a n ı m. Mənim bu yanan ciyərimi göz yaşı söndürməz. *(Əlindən öpür)* Fəxrəddin, necə gözəl arzularımız qaldı, Fəxrəddin…Bu dünya necə puç dünya imiş, Fəxrəddin! Heyif sənə, heyif, heyif… Bu pis, murdar ömrü müsəlman qardaş dəxi bədtər eləyib. Bu müsibət məgər nadanlıqdan, elmsizlikdən deyil?!

M ə l ə k  x a n ı m *(dəli sifətində qalxıb)* Yanıram, vallah yanıram, billah, üstümə su tökün, başınıza dönüm!.. Heydər, Heydər… Gəl, gəl, gəl. Şahmar, qoyma, evimizə od düşüb! Ay aman, yandıq! Yandım, yandım, yandım, Allah! *(Qəşş eləyir)*

Ş a h m a r  b ə y *(diqqət ilə baxıb)* Belimi sındırdın, qardaş! Ümid yerimi kəsdin, qardaş. *(Gedir, ağlaya-ağlaya)*

S ə a d ə t  x a n ı m. Hürü nənə, Mələk xanımı apar çölə, biçarə dəli olacaq…

H ü r ü *(Mələk xanımı durquzub aparır)* Dur gedək, yurdu başına uçmuş, xanimanı dağılmış, dur gedək, dur… Öz əlinlən evini yıxdın!

M ə l ə k  x a n ı m. Apar məni sal quyuya, atam-anam sənə qurban, Hürü!.. Fəxrəddin balam vay! Cavan oğlum vay!.. Heydər, gəl, balamın sevgilisi yanındadır, gəl toy elə! Heydər, gəl, gəl, gəl! *(Gedirlər)*

S ə a d ə t  x a n ı m *(tək).* Belə namərdlik olmazdı ki, sən elədin, Fəxrəddin… Uff! Ürəyimə bir dağ çəkdin, ölənəcən yandıracaq, Fəxrəddin!.. Mən səni bu mərtəbədə istəməsəydim, Fəxrəddin, bir dəqiqə bu dünyada sağ qalmazdım. Ölsəm, əziyyətdən xilas ollam, Fəxrəddin, onu istəmirəm… Nə qədər canım sağdır, sənə təziyədar qalacağam, gündə beş vaxt qəbrinin başına dolanıb, azarxanada, məktəbxanada mücavirlik edəcəyəm. Səndən sonra ömrüm uzun ola bilməz! Fəxrəddin, vəsiyyət edəcəyəm, qəbrimizi bir etsinlər… Heyif sənə, Fəxrəddin, bu vəhşi nadanlar sənin qədrini-qiymətini bilmədilər… İndiyə kimi həya qoymayıb əlindən öpüm, amma indi üzündən öpəcəyəm, ayrılıqdır, Fəxrəddin! *(Qucaqlayıb öpür)* Nəfəsim gəlmir… Bismillahirrəhmanir-rəhim… Xudaya! Mən necə bədbəxt yaranmışam ki, gör kimlərin üstündə Quran oxuyuram… Məgər belə müsibət çəkmək olar? Dağlanmış sinəmi parə-parə elədin, Fəxrəddin… Bismillahirrəhmanir-rəhim… Ciyərim dağlandı, Fəxrəddin!

*(Fəxrəddini qucaqlayıb qəşş eləyir)*

Sədayi-qayibanə oxuyur:

Va həsrəta qoydu fələk binəva səni;
Aləmdə dərd çəkməyə gördü rəva səni.
Dünya evində olmadı bir yaxşı gün nəsib,
Övrətlər içrə eylədi bəxtiqara səni.

*Pərdə*



LAYİHƏ

**II dərs • Məzmun üzrə iş | Tapşırığı fərdi olaraq yerinə yetirin**

**1. 3-6-cı məclislərdə ifadə olunmuş mühüm fikirləri cədvəldə qeyd edin.**

| | |
|---|---|
| Üçüncü məclisdə başlıca fikirlər | |
| Dördüncü məclisdə başlıca fikirlər | |
| Beşinci məclisdə başlıca fikirlər | |
| Altıncı məclisdə başlıca fikirlər | |

**2. Suallara cavab hazırlayın.**

a) Mahmud bəylə bağlı təəssüratınıza yeni nə əlavə olundu?
b) Məhərrəmin davranışı, Fəxrəddin bəyə münasibəti sizdə hansı təəssürat yaratdı?
c) Mahmud bəyin ölümünə Rüstəm bəyin münasibəti sizdə hansı hiss və düşüncə yaratdı?
ç) Fəxrəddin bəy öz faciəsinin səbəbini nədə görür? Onunla razısınızmı?
d) Səadət xanımın qərarı onunla bağlı təəssüratınıza yeni nə əlavə etdi?
e) Əsər hansı mənəvi-əxlaqi dəyərlər barədə danışmağa əsas verir?

**5. Kiçik qruplarda birləşin, fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**
**6. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

### Evdə iş

**– Faciədən seçdiyiniz məclisin məzmununu hazırladığınız plan əsasında iki formada – yığcam və yaradıcı danışmağa hazırlaşın.**

**III dərs • Təhlil üzrə iş | Mətni fərdi olaraq oxuyun, ardıcıllığa əməl etməklə tapşırığı yerinə yetirin**

**1. Fəxrəddin obrazını "xarakterlər xəritəsi" əsasında səciyyələndirin.**




**2. Əsərdə qaldırılmış problemlərdən hansılarını daha mühüm hesab edirsiniz?**

| Əsərdə qaldırılmış problemlər | Onlardan daha mühüm olanlar |
|---|---|
| | |

**3. Əsərin konflikti nədir? Fikrinizi əsaslandırın.**

| Əsərin konflikti nədir | Nə üçün belə düşünürsən? |
|---|---|
| | |

**4. Əsərdəki bədii təsvir və ifadə vasitələrinin rolunu izah edin.**

| Bədii təsvir və ifadə vasitəsinin işləndiyi cümlələr | Fikrin təsir gücünün artmasında onun rolu |
|---|---|
| | |



LAYİHƏ

**5. Janr və dil baxımından komediya ilə müqayisə etməklə əsərin faciə janrında olduğunu əsaslandırın.**

| *Hansı cəhətlərinə görə müqayisə edilir?* | *Komediya (nümunə göstərməklə izah edin)* | *Faciə (nümunə göstərməklə izah edin)* |
|---|---|---|
| | | |

**6. Əsərdəki başlıca fikri – ideyanı müəyyənləşdirin. Fikrinizi əsaslandırmaq üçün əsərdən nümunələr göstərin.**

| Əsərin ideyası | Əsərin ideyasını daha qabarıq əks etdirən cümlələr |
|---|---|
| | |

**7. Aşağıdakı fikirlərlə tanış olun. Müzakirədə onlara münasibət bildirin.**

– *"Müsibəti-Fəxrəddin" faciəsində müsbət surətlərin zəngin qalereyası yaradılmışdır. Onlar əməlləri ilə ağlın, xeyirxahlığın qələbəsinə inam oyadırlar. Faciənin əsas qəhrəmanı Fəxrəddin bəydir. O, silahlanıb "qudurmuş heyvan kimi" bir-birini qapan "vəhşi tayfa" üzvlərinin mütərəqqi qütbünü təmsil edir. Fəxrəddin bəy maarifçi yazıçının müsbət idealının ifadəçisidir. O, müəllifin yeni cəmiyyət haqqında düşüncələrini bəyan edir. Buna görə də yazıçının şəxsiyyəti ilə qəhrəmanın şəxsiyyəti birləşir.*

*(Xeyrulla Məmmədov)*

– *Yaşadığı mühitdə özündən nüfuzlu adam görməyən, özünü "Rüstəmi-zəmanə hesab edən Rüstəm bəyin səciyyəvi xüsusiyyətləri özündən razılıq, eqoistlik, təkəbbür və qəddarlıqdır. Rüstəm bəy son dərəcə mürəkkəb, ziddiyyətli bir obrazdır. Faciədə o, ictimai-əxlaqi şərin həm təcəssüümü, həm də qurbanı kimi təqdim olunmuşdur.*

*(Zaman Əsgərli)*

**8. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, ümumiləşdirmə aparın.**
**9. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

Faciə hansı mövzuda yazılmışdır? Əsərdə qaldırılmış problemlər və konflikt üçün əsas olan cəhətlər hansılardır?

Əsərin mövzusu ilə bağlı fərqli fikirlər söylənmişdir. Bəzi tədqiqatçılar onda mülkədar məişətindən danışıldığını iddia etmiş, başqaları isə onu nəsil ədavəti, qan davası haqqında əsər kimi səciyyələndirmişlər. Əslində, pyesin mövzusu daha geniş, onda qoyulan problem daha ciddi və dramatikdir. Faciədə N.Vəzirovun mənəvi azadlıq və humanizmlə bağlı ideyaları, tərəqqiyə, xoşbəxt həyata ciddi maneə olan cəhalət və nadanlığın ifşası ilə bağlı mütərəqqi fikirləri öz əksini tapmışdır. Böyük maarifçi-realist yazıçı kimi N.Vəzirov nadanlıq və cəhalətlə mübarizəni azadlıq, humanizm uğrunda mübarizə hesab edirdi.

Əsərin süjet xəttini cəhalətin hökm sürdüyü cəmiyyətdə yeni yaranmağa başlayan mütərəqqi qüvvələrlə hakim mövqe tutan mürtəce qüvvələr arasında kəskin ziddiyyət, ölüm-dirim mübarizəsi təşkil edir. Mənbələr əsasında aparılan araşdırma bu mətləblərə aydınlıq gətirməyə imkan yaradır.

LAYİHƏ

Faciədəki obrazları xarakter, davranış və əməllərinə görə fərqləndirən başlıca cəhətlər hansılardır?

Əsərdə diqqəti daha çox çəkən Rüstəm bəy və Fəxrəddin bəy surətləridir.

**Rüstəm bəyin** pyesin lap əvvəlindəki monoloqu onun düşüncələrini, həyata baxışını, xarakterindəki mühüm cəhətləri üzə çıxarır, köhnəliklə yeniliyin üz-üzə gələcəyini, hadisələrin kəskin istiqamət alacağını qabaqcadan xəbər verir. Rüstəm bəyin mühafizəkarlığı, qəddarlığı yalnız Fəxrəddinlə, evini viran qoyduğu digər bəylərlə bağlı deyil, bu naqislik oğluna, qızına münasibətdə də özünü büruzə verir. O, mədəni geriliyin nəticəsi olan cəhalət və nadanlığın, qan intiqamı kimi mənfi adətlərin hökm sürdüyü, günahsız insanların qətlə yetirilməsinin qəhrəmanlıq sayıldığı bir mühitin yetirməsidir. Öz xudbin, mənəmlik hislərinə qurban verdiyi övladlarının ölümündən sarsılan Rüstəm bəyin faciəsi, əslində, köhnəliyin faciəsidir. Oğlu Mahmud bəyin ölümündə günahkar olduğunu anlayan Rüstəm bəy "Məni öldürün, ay camaat, mən biimanı sağ qoymayın" deməklə öz məğlubiyyətinin labüdlüyünü etiraf etmiş olur.

Eyni zamanda, Rüstəm bəyin bir ata kimi övladlarına məhəbbəti – qızı Səadət xanımı oxutdurması, təhsilli ziyalı kimi yetişməsinə imkan yaratması, oğullarının ölümündən sarsılması, öz günahını, gec də olsa, dərk etməsi, nökərlərinə öz övladı kimi yanaşması onu ziddiyyətli obraz kimi səciyyələndirməyə əsas verir.

Təhsilini tamamlayıb vətənə dönən **Fəxrəddin** böyük arzularla yaşayır. Xalqının maariflənməsi, ölkəsinin qabaqcıl mədəni ölkələr sırasında yer alması onun ən böyük arzusudur. O, vaxt itirmədən əməli fəaliyyətə başlayır; öz xərci ilə xəstəxana və məktəb açır, təsərrüfatını yenidən qurur, onu gələcəkdə daha da genişləndirməyi planlaşdırır. Yenilik, tərəqqi arzusu, həvəsi onu bir an da olsa, tərk etmir. Lakin ətrafında baş verənlər, eşitdikləri bu gənc maarifpərvəri məyus edir. Avamlığın, cəhalətin hökm sürdüyü, qara qüvvələrin at oynatdığı mühitdə tək olduğunu anlayan bu xeyirxah, humanist gənc "bir gül ilə bahar olmaz" nəticəsinə gəlir. O, "zülmət səltənətində" bir nur kimi parlayıb tez də sönür. Onun faciəli ölümü oxucunu mütəəssir edir, gözəl niyyətlərlə yaşayan bu gənci məhv edən qara qüvvələrə müəllif kimi, o da nifrət edir.

**Səadət xanım** dramaturgiyamızda ilk maarifçi qadın surəti kimi səciyyələndirilir. Fəxrəddinlə həmfikir olan bu nəcib, ağıllı qız onun fəaliyyətini yüksək dəyərləndirir, ona yardımçı olmağı arzulayır. Atasının əməllərini bəyənməyən, işıqlı ideallarla yaşayan Səadət xanım onun qara niyyətini – Fəxrəddini öldürmək istədiyini biləndə hiddətini boğa bilmir, qardaşına öz mövqeyini bildirir: "Qardaş, biz heyvan deyilik ki! Bizə insan deyirlər. İnsan olan kəsdə məhəbbət gərək, insaf gərək, mürvət gərək! Atamızın bir ayağı qəbirdədir, lazımdır ki, biz mane olaq onun vəhşi işlərinə. Nə olubdur, axır, bəs deyil?!.."

Ailələrinin düşmənçiliyi bu iki gəncin məhəbbətinə mane ola bilmir. Onların düşüncə, arzu, həyata baxışları arasındakı yaxınlıq yeni dünya insanının yetişdiyininə işarə idi. Təsadüfi deyildir ki, Fəxrəddini, onun arzu və əməllərini hamıdan çox Səadət xanım duyur, anlayır və qiymətləndirir. Onun təəssüf hissi ilə dediyi sözlər bunu bir daha təsdiq edir: "Heyif sənə, Fəxrəddin, bu vəhşi nadanlar sənin qədrini, qiymətini bilmədilər!.."



LAYİHƏ

Oxucu bu sədaqətli qızın Fəxrəddinin arzularını həqiqətə çevirmək uğrunda çalışacağına inanır. Özü dediyi kimi, Fəxrəddindən sonra onu yaşadan da bu istəkdir.

Dramaturq əsərdə **Mələk xanım, Şahmar bəy, Cahangir bəy, Mahmud bəy, Əhməd, Gülbahar, Hürü nənə** kimi fərdi xüsusiyyətləri ilə seçilən, fərqlənən obrazlar yaratmışdır.

Fəxrəddin bəyin anası **Mələk xanım,** qardaşı **Şahmar bəy** cəhalətin hökm sürdüyü mühitin tipik nümayəndələridir. Onlar Fəxrəddini qan davasına qoşmaq barədə düşünür, onun Səadətlə ailə qurmaq, yeni həyata başlamaq arzusuna qarşı çıxırlar. Nadanlıq mühitinin digər nümayəndəsi – **Cahangir bəy** sevdiyi Səadət xanıma qovuşmağın yolunu günahsız Fəxrəddini öldürməkdə görür. Faciədəki **Mahmud bəy, Gülbahar, Hürü nənə** obrazları da öz fərdi xüsusiyyətləri ilə seçilir, əsərdə az görünmələrinə baxmayaraq, oxucunun yaddaşından silinmirlər.

> Əsərdə bədiiliyi, obrazlılığı təmin edən başlıca vasitələr hansılardır?

"Müsibəti-Fəxrəddin" yüksək bədii keyfiyyətləri ilə təkcə müəllifin yaradıcılığında deyil, ədəbiyyat tariximizdə önəmli yer tutur. Dilinin kamilliyi, səlisliyi onun bədii təsir gücünü qat-qat artırır. Dramaturq monoloq və dialoqların düşündürücü və mənalı olmasına, yığcamlığına xüsusi diqqət yetirmiş, artıq söz və ifadəyə yer verməmişdir. Surətlərin nitqi, işlətdiyi hər söz, ifadələr onların xarakterinə uyğundur. Əsərdəki atalar sözü, məsəllər, obrazlı ifadələr pyesin dilini canlı danışıq dilinə yaxınlaşdırmış, onun emosional təsir gücünü artırmışdır.

Dramaturji tələblərin gözlənilməsi əsərdə bədiiliyi təmin edən mühüm vasitə yerində çıxış edir. Dramatik konflikt əsər boyu zəifləmir, bir-biri ilə sıx bağlı olan hadisələr tamaşaçını, oxucunu gərgin vəziyyətdə saxlayır.

Ədəbiyyat tariximizdə ilk *faciə* olan "Müsibəti-Fəxrəddin" bu janrın tələblərinə cavab verir. Cəmiyyətdə hakim mövqe tutan, hər cür tərəqqiyə, maarifçi ideallara mane olan qayda-qanunlara, adət-ənənələrə qarşı çıxan Fəxrəddin cismən məhv olsa da, köhnəliyin təmsilçisi olan qüvvələrin üzərində mənəvi qələbə qazanır.

> Dramaturqun bu əsəri yazmaqda başlıca niyyəti nə olmuşdur?

Sənətkar əsərdə feodalizmin vaxtı ötmüş qanunları ilə yaşayan cımiyyəti islah edib dəyişmək, insanları yaramaz adətlərin əsarətindən, cəhalət buxovundan xilas etmək niyyətini ön plana çəkmişdir. Maarifçilik ideyasını rəhbər tutan yeni bir cəmiyyət yaradılması uğrunda mübarizə, qan intiqamı kimi zərərli ənənələrin tənqidi, humanizmin təbliği əsərdə mühüm yer tutur.

**Evdə iş** | **Araşdırmanı davam etdirin**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın.**
   a) Monoloqlarına əsaslanmaqla Fəxrəddin bəylə Rüstəm bəyin nitqini müqayisə edin. Müəllifin onlara münasibətini aydınlaşdırın.
   b) "N.Vəzirov Səadət xanım simasında Azərbaycan ədəbiyyatına yeni bir surət gətirmişdir" – fikrini doğru sayırsınızmı? Mövqeyinizi əsaslandırın.
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**



LAYİHƏ

## Mənbələr

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.
2. N.Vəzirov. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh.8-10.

### IV dərs • Tətbiq • Müzakirə • Yaradıcı iş

**1. Mövzulardan birini seçib işləyin.**
b) Müasir həyatda yeniliklə köhnəliyin mübarizəsini nədə görürəm (təhlil xarakterli inşa).
a) Fəxrəddin bəyin arzuları, taleyi məndə hansı düşüncələr oyatdı (nəqli xarakterli esse).
**2. Təqdimatlar əsasında yazılardan nümunələri müzakirə edin.**

## Evdə iş

**1. Sinifdə icra etdiyiniz yazı işlərini təkmilləşdirin.**
**2. Dram, faciə, komediya janrlarının müqayisəsi üzrə təqdimata hazırlaşın.**

## BÖLMƏNİ YEKUNLAŞDIRARKƏN

Aşağıdakı özünüqiymətləndirmə cədvəlini dəftərinizdə çəkin. Hər sütundakı başlıqların tələbinə uyğun qeydlərinizi yazın.

| № | **Bölmə üzrə bilik və bacarıqlarım** | | | |
|---|---|---|---|---|
| | Bölmədən əvvəl | | Bölmədən sonra | |
| | Bilirdim | Bacarırdım | Öyrəndim | Bacarıram |
| | | | | |

Çətinlik çəkdiklərinizi, onları necə aradan qaldıracağınızı qısaca yazıb, müəlliminiz, sinif yoldaşlarınız və valideynlərinizlə müzakirə edin.

| Çətinlik çəkdiklərim | Onları necə aradan qaldıra bilərəm |
|---|---|
| | |



LAYİHƏ

## SEYİD ƏBÜLQASİM NƏBATİ

### Səba, məndən söylə...

Səba, məndən söylə o gülüzarə,
Bülbül gülüstanə gəlsin, gəlməsin?
Bu hicran düşkünü, illər xəstəsi
Qapına dərmana gəlsin, gəlməsin?

Mən qurbanı olum ənbər tellərin,
Qönçə dodaqların, püstə dillərin.
O lalə rüxsarın, mişkin xalların
Oduna pərvanə gəlsin, gəlməsin?

Gözüm çox həsrətdir xumar gözünə,
Günəş camalına, şəkər sözünə,
Utanıram, necə deyim üzünə,
Dərdin xəstə canə gəlsin, gəlməsin?

Nəbati istəməz sənsiz dünyanı,
İzzəti, hörməti, şövkəti, şanı,
Bir zada qalmayıb daha gümanı,
Bu baş o meydanə gəlsin, gəlməsin?



LAYİHƏ

## İFADƏLİ OXUDA İSTİFADƏ EDİLƏN ŞƏRTİ İŞARƏLƏR

| | | | |
|---|---|---|---|
| 1 | \| | Qısa fasilə (bir sayına bərabər) | sətri |
| 2 | \|\| | Orta fasilə (iki sayına bərabər) | sətri |
| 3 | \|\|\| | Uzun fasilə (üç sayına bərabər) | sətri |
| 4 | — | Məntiqi vurğu | sətiraltı |
| 5 | ↗ | Tonun yüksəlməsi | sətirüstü |
| 6 | ↘ | Tonun alçalması | sətirüstü |
| 7 | ..... | Sözün uzadılması, yaxud cümlənin hissəsinin oxu tempinin aşağı salınması | sətiraltı |
| 8 | → | Tempin artırılması (oxunun sürətləndirilməsi) | sətiraltı |
| 9 | ⌒ | Yanaşı gələn sözlərin birnəfəsə deyilməklə oxunması | sətirüstü |
| 10 | ⌒ with \| | Misrada fikir tamamlanmayıb növbəti misraya köçürüləndə qoyulur | sətri |



LAYİHƏ

# LÜĞƏT

**A**

Ağaz – burada: ilk, əvvəl
Ağı – zəhər
Ahü-əfğan – ağlama, fəryad, ah-nalə
Alçaq – təvazökar, sadə ("Müsibəti-Fəxrəddin")
Amit – yer adı
Aznavur – burada: yekəpər

**B**

Başına əlləmə düşsün – başına daş düşsün
Bərxurdar – burada: bələd, tanış
Bəstəri-möhnət – möhnət (qəm, dərd) yatağı
Bidar – oyaq, ayıq
Bikar – işsiz
Bim – qorxu
Bimar – xəstə
Biməsəl – örnəksiz, ibrətsiz
Biş – çox, artıq
Bitəkəlluf – təklif edilmədən, sadə, aydın
Bivayə – Hər şeydən məhrum olan; hamisiz, köməksiz
Bülənd – uca, yüksək
Bünyad – bünövrə
Bürran – kəsən, iti, kəsici, kəskin (qılınc, xəncər)
Büti-ziba – büt: ibadət edilən şey; ziba: bəzəkli, gözəl

**C**

Cəng – dava, müharibə
Cüda düşmək – ayrılmaq, ayrı düşmək
Cünun – dəlilik

**Ç**

Çeşmi-giryan – ağlar göz
Çeşmi-mərdüm – əziz, doğma adamlar
Çovkan – burada: ucu əyri çomaq
Çub – çubuq.  Burada balaban nəzərdə tutulur

**D**

Dam – burada: həbsxana
Dəhri-müxalif – o dünya
Dəmi-İsa – İsa peyğəmbərin nəfəsi
Dəmsaz – burada: həmsöhbət
Dərbar – şahın sarayı



LAYİHƏ

Dərdmənd – dərdli, qüssəli, xəstə
Dəva – dərman-dava, əlac
Dəvayi-dərd – dərdin dərmanı
Dilgir – qəmli
Duş – çiyin
Dürfəşan – burada: inci kimi sözlər danışan

**E**

Ehya qılmaq – canlandırmaq, qüvvət vermək
Etidal – mülayim, orta halda olmaq

**Ə**

Əbləh – axmaq, sarsaq
Ədəm – yoxluq
Əfğan – fəryad, nalə
Əhli-bəsər – görən, anlayan adamlar
Əqdəm – əvvəl
Əqvam – qohumlar
Əndəlib – bülbül
Ənər – nar
Əmval – mal-dövlət
Ənis – munis, dost, yaxın yoldaş
Ərbab – burada: başa düşən adamlar
Ərbədə – dava, qalmaqal
Əsbabı-mənahi – qadağan edilmiş alət
Əqdəm – əvvəl
Əqrəb – göydəki on iki bürcdən biri (“Aldanmış kəvakib”)
Ələmdar  – bayraqdar
Əlhani – gözəl səslər, nəğmələr
Əsrar – sirlər
Əsrari-nihan – gizli sirlər
Əzm etdi – burada: hərəkət etmək

**F**

Faiq – üstün
Farigül-bal – ürəyi asudə, könlü rahat; dinc, qayğısız
Fəsanə – əfsanə
Fasid – pozuq, pozulmuş
Fəvaid – faydalar
Fəzail – fəzilətlər
Fiqh – şəriət məsələlərindən bəhs edən dini elmlərdən biri

**G**

Geyb – gizli, qeybə çəkilmiş, göz önündə olmayan
Gərdən – boyun
Giryan – ağlaya-ağlaya
Gövhər – qiymətli daş, cəvahir



LAYİHƏ

Gövsər – cənnətdə bulaq
Guş qıl – qulaq as
Günə – cür
Gürg – canavar, qurd

**Ğ**

Ğəmzə – naz

**H**

Həbib – sevgili, dost
Həcər – daş
Hədiqeyi-cud – səxavət, comərdlik bağçası
Həqq – Allah
Həqayiqi-raz – sirli həqiqətlər
Həmdəm – dost, yoldaş, sirdaş.
Həmrah – yoldaş
Hərəmxana – şah sarayının qadınlara aid olan hissəsi
Həsənnənə, Həsənbaba, Xaçbulaq – yaylaq adları
Həşəm – qulluqçu və nökərlər
Həvadin – havadan
Huşyar – ağıllı, düşüncəli, şüurlu, dərrakəli

**X**

Xab – yuxu, röya
Xanəbərəndaz – ev yıxan, ev dağıdan
Xeyl – camaat, tayfa
Xəcil etmək – utandırmaq
Xələf – oğul, övlad
Xəmidə – əyri
Xəvas – xasiyyət
Xişm – qəzəb, hiddət
Xoş zəban – xoş dilli, xoş danışıqlı
Xub – burada: gözəl, dilbər
Xuban – burada: gözəllər, göyçəklər
Xürrəm – şad, sevincli, fərəhli
Xudkeş – özbaşına
Xüşk –quru
Xüttə – ərazi, yer

**İ**

İdrak edən – dərk edən, anlayan
İfrat – bir şeyin son həddi
İkən – çox
İxtilat – söhbət
İqtibas – bir sözü, cümləni və ya fikri eynilə, yaxud məzmunca başqasının əsərindən alma, götürmə
İntibah – oyanma, çiçəklənmə, canlanma
İstiğfar qılmaq – üzr istəmək, bağışlanmağı xahiş etmək
İtab – məzəmmət



LAYİHƏ

**J**

Jalə – səhər çiçəyin yarpağı üstündəki şeh, damcı

**K**

Kəlb – it
Kələssər etmək – burada: ağacların ucunu kəsmək
Kəmin(ə) – aciz, həqir
Kəpəz, Murov, Qonur, Qoşqar – dağ adları
Kəvakib – ulduzlar
Kəyan – İran şahlarına verilən ümumi ad
Kütah – qısa

**Q**

Qafil – xəbərsiz
Qəbail – qəbilələr
Qəhr – qəzəb, hirs, hiddət
Qissə – burada: hadisə, əhvalat
Qırqə – qırıntı
Qılman – cənnətdə xidmət edən oğlan. Şair meyi kövsər, saqini isə qılman hesab edir
Qori – imkan verin, qoyun. ("Ey Həbibim, iştə qori mədhim təkrar edəm...")
Qüttaüttəriq – yolkəsən, quldur, qaçaq

**L**

Ləhni-Davud – Davudun gözəl, təsirli səsi
Ləl – qırmızı rəngli qiymətli daş

**M**

Mah – ay (klassik şeirdə gözəlin surətinə işarədir)
Məclisi-ürfan – dərk edənlər məclisi
Mədh – tərif
Mədhuş – heyran, valeh
Məqdur – mümkün olan
Mənhus – nəhs, pis
Məni – məna
Mərdin – "Dədə Qorqud" dastanında coğrafi ad
Mərkəb – minik heyvanı
Mərrix – Mars planeti
Mərufi-tamami-xasü-amız – bütün camaat içində tanınmışıq
Mərz – sərhəd
Məsqətür-rəsi – 1. Anadan olan yer, doğulduğu məkan; "Vətən, yurd"
Minbəd – bundan sonra
Minət – heç, qətiyyən
Miraxur – tövlə başçısı
Mötad – adət edilmiş, vərdiş edilmiş
Murov – keçmiş zamanlarda kənd yerlərində polis vəzifəsini ifa edən hökumət məmuru
Mübn – aydın, əyan, aşkar



LAYİHƏ

Müəssər – təsirli, acınacaqlı
Mükərrər – çox, dəfələrlə
Müqim – sakin, yaşayan, yerləşən
Mül – şərab
Münkir – inkarçı
Mürəxxəs –azad
Müstəcme – toplayan, cəm edən
Müstədam – daimi, əbədi, həmişəlik
Müstövfi – maliyyə naziri
Mütəqəllib – saxta, qəlp, qeyri-səmimi
Müttəle – xəbərdar
Mütəvəcceh olmaq – rəğbət bəsləmək
Müzəkka – zəkalı, ağıllı

**N**

Nabəkar – yaramaz, alçaq
Nalan – nalə edən, ağlayan, inildəyən
Naleyi-zar – xəstə naləsi
Naxun – dırnaq
Nar –od, atəş
Natəvan – tabsız, zəif
Neyrəng – hiylə
Nəqşi-süvər – naxış və surətlər
Nəva – avaz, ahəng, nəğmə
Niknam – adı yaxşılığa çıxmış, yaxşı ad qoymuş
Nikuxah – başqasının yaxşılığına çalışan; xeyirxah
Nisbət etmək – əlaqələndirmək. Burada: tay tutmaq
Növi-cəmadət – cansız əşyalar

**Ö**

Övraq – vərəqlər; yarpaq
Övsaf – vəsflər

**P**

Pak – təmiz, saf
Payan – axır, son, nəhayət
Payi-bəstə – ayağıbağlı
Peyb – gözəl, qəşəng
Peyda olmaq – aşkar olmaq
Peydərpey – bir-birinin ardınca
Peyğam – xəbər, sifariş
Pənbeyi-qəflət – qəflət pambığı
Pəriru – pəri üzlü
Pərtövi-rüxsareyi – sübhan-alqışlanmalı üzün işığı, nuru
Pədərsüxtə – atası yanmış (fars dilində söyüş)
Pünhan – gizli

**R**

Rəxnə – ziyan, zərər



LAYİHƏ

Rəviş (söz rəvişi) – burada: söz meydanında; söz yolunda
Rəyasət – rəhbərlik, başçılıq
Riza – razılıq, istək, iradə, ixtiyar
Rizayi – İranda toxunan bir növ yun qumaş
Rövşən qıl – söylə, bildir
Rüxsar – üz, sifət, yanaq

**S**

Sası – azğın
Seyran – seyr etmə, gəzmə
Səbzə – yaşıl, göyərti
Səktə – sükut, sakitlik
Səlatin – sultanlar
Səmənd – qızılı ilə boz rənglər arasında xüsusi bir rəngdə olan (at haqqında)
Sər – baş
Sərdar – hərbi nazir, baş komandan
Sərəfraz – başı uca
Simü-zər – qızıl, gümüş
Sirişk – göz yaşı
Siyasət – burada: cəza
Suyi-məhbub – burada: məhbubun yanına
Sürahi – su və ya şərab tökmək üçün uzunboğaz şüşə qab

**Ş**

Şatir – böyük adamların qabağında gedib yol açan
Şəhla – tünd-mavi
Şəbi-hicran – ayrılıq gecəsi
Şəhd – bal
Şəhriyar – hökmdar, padşah
Şəmayil – surət, şəkil
Şəms – günəş, gün
Şərm – abır, həya, utanma, xəcalət
Şikəstə – üzgün, əldən düşmüş
Şuridə – aşiq, məftun
Şuriş – qarışıqlıq, çaxnaşma, şuluqluq
Şükufə – çiçək, açılmış gül
Şümar – say, hesab
Şümşad – möhkəm odunu olan həmişəyaşıl ağac

**T**

Tabaq – taxtadan oyulmuş, ağacdan hazırlanan dayaz, girdə, ya uzunsov qab
Təbdil – dəyişdirmə
Tədrici-məbadi – tədrici – yavaş-yavaş, məbadi – başlanğıc
Təallül – bəhanə gətirərək işdən boyun qaçırma
Təəhhüd etmək – öhdəsinə götürmək, boynuna çəkmək
Təhəyyür – heyrət içində, mat-məəttəl
Təqrirat – söhbət, izahat
Təmkin – vüqar, özünü ağır aparma



LAYİHƏ

Tən – tənə, rişxənd
Təşəxxüs satmaq – özünü çəkmək
Tişə – külüng, balta, kərki
Tuti – tutuquşu
Tulu quş – Oğuz tayfalarında müqəddəs sayılan ağ sunqur quşu (şahin)
Türfə – 1. Nadir, görünməmiş; 2. Qiymətli hədiyyə, töhfə

**Ü**

Ülfət – alışma, ünsiyyət
Üyub – eyiblər

**V**

Vaqifi-kar – işləri bilən
Varis – mirasa yiyələnən, vərəsə
Vərdi-həmra – qırmızı qızılgül
Vəsl – vüsal, qovuşma, çatma
Vüsul olmaq – çatmaq, yetişmək

**Y**

Yassar – burada: qorxaq
Yadi – yada salmaq, xatırlamaq

**Z**

Zail – yox olan, heç olan
Zəbanə – şölə
Zəbun – zəif, qüvvətsiz
Zəmzəm – Kəbənin yaxınlığında olan bir quyunun suyu. Müsəlmanlar onun suyunu müqəddəs hesab edirlər.
"Zici-Uluğbəy" – Uluğbəyin (məşhur özbək alimi) tərtib etdiyi astronomiya cədvəli
Ziri-qəm olmaq – qəmə batmaq, qəm dəryasına girmək
Zülf – saç



LAYİHƏ

## QISA ƏDƏBİYYATŞÜNASLIQ TERMİNLƏRİ LÜĞƏTİ

**Ahəng** – eyni ölçülü səslərin növbələşməsi, təkrarlanması və bir-birini izləməsidir. Ölçü, qafiyə, bölgü, rədif şeirdə ahəng yaradan əsas vasitələrdir.

**Alleqoriya** – yunan sözüdür, *rəmzlə danışmaq* deməkdir. Alleqoriyada fikir şəxsləndirilmiş obrazlar: heyvanlar, quşlar, cansız əşyalar, bitkilər və s. vasitəsilə çatdırılır. Məsələn, Füzuli “Söhbətül-əsmar” poemasında bağ, bostan bitkilərini canlandırma yolu ilə mənsəb, şöhrət düşkünü olan insanları tənqid etmişdir.

**Bədii sual** – bəzən əsərdə fikir sual şəklində ifadə olunur. Bu, hər hansı məlumatı öyrənmək üçün qurulan sual cümləsindən fərqli olaraq, emosionallığı artırmaq, fikrin daha qabarıq ifadəsinə nail olmaq məqsədi daşıyır. Bədii sualdan lirik əsərlərdə daha çox istifadə olunur.

**Bədii təsvir vasitəsi** –əsərdə bədii dilin mühüm tərkib hissəsidir. Əşya və haidsələrin oxşarlığı əsasında yaradılaraq məcazi məna daşıdıqları üçün onlara *məcazlar* da deyilir. Epitet, təşbeh, metafor və s. daha çox işlənən bədii təsvir vasitələridir.

**Bədii ifadə vasitəsi** –fikrin bədii təsir gücünü qüvvətləndirən vasitələrdir. Bütöv cümlə ilə ifadə olunduğu üçün onları *poetik sintaksis* və ya *sintaktik fiqurlar* da adlandırırlar. Bədii əsərlərdə tez-tez rast gəlinən təkrir, mübaliğə, bədii sual, bədii təzad, kinayə və s. bədii ifadə vasitələridir.

**Bəhr** – əruz vəznində misra bölümünü, uzun və qısa hecaların ardıcıllığını, fasilələrin yerini təfilələr (fAilAtün, məfAİlün və s.) müəyyənləşdirir. Onlar birləşərək əruzun müxtəlif bəhrlərini (həzəc, xəfif, münsərih və s.) yaradır. Məsələn, M.P.Vaqifin “Bax” qəzəli fAilAtün təfiləsinin 3 dəfə bütöv, 1 dəfə yarımçıq (fAilün) işlənməsi ilə əmələ gəlmiş rəməl bəhrindədir.

**Bənzətmə** – məcazın növlərindən biri. Bədii əsərdə bir əşyanın, hadisənin hər hansı bir əlamətcə özündən daha qüvvətli olan əşyaya, hadisəyə oxşadılmasına deyilir. *Bənzətmə* əvəzinə, ərəb sözü olan, oxşatmaq, bənzətmək mənasını verən *təşbeh* termini də işlənir. *Bənzəyən, bənzədilən, bənzətmə qoşması və bənzətmə əlaməti* təşbehin ünsürləridir. Əgər 2-ci və 3-cü ünsür olmadan yaradılarsa, buna mükəmməl təşbeh deyilir. M.P.Vaqifin “Pəri” qoşmasında belə təşbehlər vardır:

Boyun sürahıdır, bədənin büllur…

**Boy** – dastanın bir qolu, bitkin hissəsidir.

**Beyt** – şeirin iki misradan ibarət olan nisbətən bitkin hissəsinə deyilir.

**Bədii təzad** – əsərdə məzmunca bir-birinə zidd iki anlayış və ya vəziyyətin qarşılaşdırılması bədii təzad yaradır. Bu, fikrin daha qabarıq, təsirli çatdırılmasına səbəb olur. M.Füzulinin aşağıdakı misralarında lirik qəhrəmanın vəziyyəti bədii təzad vasitəsilə daha təsirli ifadə olunmuşdur: *Tutuşdu ğəm oduna şad gördüyün könlüm, Müqəyyəd oldu ol azad gördüyün könlüm.*

**Dastan** – şifahi xalq ədəbiyyatının epik növünün irihəcmli janrıdır. Nağıldan fərqli olaraq, dastan həm nəsr, həm də nəzm hissəsindən ibarət olur. Dastanda nəsrlə nəzm növbələşir, hadisələr nəsr dili ilə nəql edilir, qəhrəmanların hiss və həyəcanları şeir parçaları vasitəsilə verilir. Bu



LAYİHƏ

xüsusiyyətinə görə dastana epik-lirik əsər də deyilir. Şifahi xalq ədəbiyyatımızda qəhrəmanlıq və məhəbbət dastanları geniş yayılıb. Azərbaycan dastanları ozan-aşıq sənətinin məhsuludur. Onlar süjet xəttinin bitkinliyi ilə seçilir.

**Deyişmə** – şairlər, yaxud aşıqlar arasında yarış, müsabiqə məqsədilə keçirilən şeirləşmə. Deyişmədə iki və daha artıq sənətkar iştirak edir.

**Dialoq** – yunanca *söhbət, müsahibə* deməkdir. Bədii əsərdə iki və daha artıq şəxsin bir-biri ilə danışığıdır. Dialoq əsərdəki hadisələrin mahiyyətinin, surətlərin daxili aləminin açılmasında mühüm rol oynayır.

**Dibaçə** – ərəb sözü olub *müqəddimə* deməkdir. Klassik ədəbiyyatda divanların, əlyazma kitabların girişi, ön sözü.

**Dram** – yunanca *fəaliyyət, hərəkət* deməkdir. Dramatik növün janrı olan dramda həm komediya, həm də faciəyə xas əlamətlər özünü göstərir. Dramda konflikt ciddi həyat ziddiyyətləri, güclü xarakterlərin toqquşmasından yaranır. Belə əsərlərdə komediya üçün səciyyəvi olan gülməli epizodlara yer verilir. Lakin dramın bütünlüklə komik, gülməli səhnələr üzərində qurulması mümkün deyil. Dramın qəhrəmanı da faciə qəhrəmanı kimi ciddi münaqişəyə girsə də, faciədən fərqli olaraq, qarşılaşdığı güclü şər qüvvələrə qalib gəlir. Dram janrında əsərlər həm nəsrlə, həm də nəzmlə yazılır.

**Dramaturq** – dramatik növün komediya, dram, faciə janrlarında əsər yazan sənətkarlara deyilir.

**Dramaturgiya** – sənətkarın dramatik əsərlərinin məcmusu. Bütöv bir tarixi dövrün dramatik əsərlərinə də birlikdə *dramaturgiya* deyilir. Məsələn, Cəlil Məmmədquluzadənin dramaturgiyası. XX əsr Azərbaycan dramaturgiyası və s.

**Divan** – fars sözüdür, mənası *toplu, cəm* deməkdir. Şərq ölkələrində bir şairin əsərlərinin məcmuəsinə deyilir. Divanın tərtibində qəsidə, qəzəl, qitə və s. janrlar üzrə sıralanma gözlənilir, sonra həmin şeirlər qafiyənin son hərfi əsas götürülməklə əlifba sırası ilə düzülür.

**Epik-lirik növ** – epik-lirik əsərlərdə *təhkiyə* və *tərənnüm* kimi həyatı əksetdirmə üsulları qovuşur. Dastan və poemada həm əhvalatların nağıl edilməsinə, təhkiyə və təsvirə, həm də hadisələrin doğurduğu hiss-həyəcanların ifadəsinə yer verilir. Füzulinin "Leyli və Məcnun" əsəri epik-lirik poemadır. Burada şair qəhrəmanın daxili aləminə, hiss-həyəcanlarına nisbətən hadisələrin təsvirinə, təhkiyəyə daha geniş yer vermişdir. Lirik-epik poemalarda isə qəhrəmanın daxili aləmi, hiss-həyəcanlarının ifadəsi hadisələrin təsviri, təhkiyəsinə nisbətən ön planda durur, daha qabarıq verilir.

**Epitet** – məcazın növlərindən biridir, yunanca *əlavə* deməkdir. Bədii əsərdə sözün təsir gücünü artırmaq üçün ona artırılan məcazi mənalı təyinedici sözdür (sifətdir). Epitetə *bədii təyin* də deyilir. *Şirin meyvə* birləşməsində *şirin* sözü məcazi mənada işlənmədiyindən epitet deyil, *şirin* söz ifadəsində isə bu söz məcazi məna qazandığından epitet sayılır.

**Epos** – yunanca *danışmaq, söyləmək, nağıl etmək, fikri təhkiyə əsasında çatdırmaq* mənasında işlənir. Şifahi xalq ədəbiyyatında epos qəhrəmanlıq dastanlarına da deyilir. Məsələn, "Koroğlu" eposu və s.

**Ədəbi qəhrəman** – təsvir olunan hadisələrin mərkəzində duran və yazıçının irəli sürdüyü ideyanın əsas ifadəçisinə çevrilən surətə deyilir. Bədii əsərin qəhrəmanı müsbət olduğu kimi, mənfi də ola bilər.

**Ədəbi növ və janrlar** – bədii əsərlər üç ədəbi növə ayrılır: epik, lirik və dramatik növ. Epik əsərlərdə təhkiyə, təsvir, lirik əsərlərdə tərənnüm, dramatik əsərlərdə göstərmə əsas, aparıcı əlamətlərdir. Hər bir ədəbi növün müxtəlif şəkilləri vardır ki, onlara ədəbi janrlar deyilir. Məsələn, epik əsərlərin əfsanə, nağıl, dastan, təmsil, hekayə; lirik əsərlərin rübai, qəzəl, bayatı,



LAYİHƏ

gəraylı, qoşma; dramatik növün isə dram, komediya, faciə janrları vardır. Dramatik janrlara pyes də deyilir.

**Ədəbi məclis** – dünyagörüş, yaradıcılıq baxımından yaxın olan yazıçıların birliyi. Ədəbi məclislərdə sənətkarların öz əsərləri, ədəbiyyatşünaslığa dair nümunələr oxunur, müzakirə edilir, ədəbi hadisələrə, yeniliklərə münasibət bildirilir.

**Ənənə** – ərəb sözüdür. Tarixən meydana gələrək nəsildən-nəslə keçən adət, əxlaq normaları, görüşlər, zövqlər və s. Söz sənətində əvvəlki ədəbi hadisə ilə yeni ədəbi hadisə arasında ardıcıl varislik əlaqəsi *ənənə* adlanır. Ənənə bir və ya bir neçə yazıçının yaradıcılığına xas olan ideya-sənətkarlıq xüsusiyyətlərinin sonrakı sənətkarlar tərəfindən öyrənilməsi və inkişaf etdirilməsidir. Məsələn, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, M.Ə.Sabir realizminin ideya-bədii kökləri M.F.Axundzadə və Q.Zakirin yaradıcılıq ənənələri ilə üzvi surətdə bağlıdır.

Latınca *yenilik* mənası verən **novatorluq** ənənə ilə sıx bağlıdır. Həyatda baş verən hadisələrlə, insanların arasında yaranan yeni münasibətlərlə əlaqədar bədii ədəbiyyatda özünü göstərən keyfiyyət dəyişikliyi *novatorluq* adlanır. Novatorluq ənənələrin üzərində yaranaraq, onları inkişaf etdirərək yeni ənənələrin meydana gəlməsinə zəmin olur.

**Əruz vəzni** – ərəb şeirinin əsas vəznidir. Ədəbiyyatda *əruz* sözü *şeir haqqında elm* mənasında işlənir. Bu vəzn VIII əsrdə ərəb alimi Xəlil ibn Əhməd tərəfindən yaradılmış və sistemə salınmış, sonralar digər müsəlman ölkələrinə, o cümlədən Azərbaycana da yayılmışdır. Əruzda əsas şərt misrada hecaların sayca bərabər olması yox, uzun və qısa hecaların bir qayda ilə düzülməsidir. Bəzən əruzla yazılan şeirin birinci misrasında 10, ikinci misrasında 11 heca ola bilər. Belə olduqda ahəng hecanın uzanması və qısalması hesabına yaranır.

**Faciə** – Faciə ərəb sözü olub *müsibət, bədbəxtlik* deməkdir. Dramatik növün janrlarından olan faciədə konflikt fəlakətlə bitən kəskin, barışmaz həyati ziddiyyətlər üzərində qurulur, əksər hallarda qəhrəmanın ölümü ilə nəticələnir. Faciənin konfliktinin əsasında duran problemlər, ziddiyyətlər fərqli məzmunda olur. Mahiyyət etibarilə faciədə mənəvi-əxlaqi, siyasi problemlər, kəskin fəlsəfi, ideya, dünyagörüşü toqquşmaları, müxtəlif ictimai təbəqələr arasında qarşıdurma, ailə-məişət zəminində barışmaz ziddiyyətlər həyati konfliktə çevrilir.

Mənəvi-əxlaqi faciələrdə konfliktin əsasında cəmiyyətdə hakim olan, ictimai tərəqqi yolunda maneəyə çevrilən qayda-qanunlara, adət-ənənələrə qarşı cəmiyyəti yeni əxlaqi meyarlar əsasında qurmaq istəyən qüvvələrin barışmaz mübarizəsi durur. Belə faciələrin humanist prinsiplərlə yaşayan, ictimai tərəqqi üçün mübarizə aparan qəhrəmanları tamaşaçının, oxucunun qəlbində yüksək hiss, həyəcan, yaradıcı fəaliyyət, böyük mənəvi ideallar uğrunda mübarizə aparmaq istəyi doğurur. Faciə çox zaman qəhrəmanın ölümü ilə bitir. “Misibəti-Fəxrəddin” faciəsində qəhrəman – böyük arzularla, ümidlərlə yaşayan, tərəqqipərvər qüvvələri təmsil edən Fəxrəddin cismən məğlub olsa da, ona qarşı çıxan, köhnə adət-ənənələrin təmsilçisi olan qüvvələr üzərində mənəvi qələbə qazanır.

Azərbaycan ədəbiyyatında faciənin klassik nümunələrini N.Vəzirov, Ə.Haqverdiyev, H.Cavid kimi görkəmli sənətkarlar yaratmışlar.

**Fəxriyyə** – qəsidənin bir növü. Bu janrda yazılmış əsərlərdə müəllif öz şairlik qüdrətindən fəxrlə söz açır.

**Gəraylı** – aşıq şeirinin geniş yayılmış janrlarındandır. Gəraylının hər bəndi 4 misradan, hər misrası 8 hecadan ibarət olur. Bəndlərin qafiyə quruluşu abvb; cccb; qqqb şəklindədir. Son bənddə şair təxəllüsünü söyləyir.

**Hürufilik** – bu fəlsəfi cərəyanın adı hüruf (hərflər) sözündən götürülmüşdür. Hürufilər ərəb əlifbasının 28 hərfini Allahın təzahür forması sayaraq onları müqəddəsləşdirirdilər. Onlara görə, insanın üzündə “Allah” sözü yazılıb.



LAYİHƏ

Hürufiliyin fəlsəfi əsasını maddiliklə ilahiliyin vəhdəti təşkil edir. Yəni Allah təbiətdən, insandan kənarda deyil, onun mahiyyətindədir. Nəsimi, Xətayi kimi şairlərin yaradıcılığında hürufi ideyalarının bədii əksi mühüm yer tutur.

**Xəlqilik** – xalqla bağlı olma, xalqın arzu və əməllərini, əhvali-ruhiyyəsini ifadə etmə.

**İdeya** – seçilmiş mövzu, təsvir edilən surətlər, hadisələr vasitəsilə yazıçının oxucuya çatdırmaq istədiyi başlıca fikir, müəllif niyyətidir.

**İnversiya** – latın sözüdür, mənası *yerdəyişmə* deməkdir. Bədii ifadə vasitəsi olan inversiya əsərdə fikrin təsir gücünü artırmaq üçün sözlərin qrammatik ardıcıllığının sənətkar tərəfindən qəsdən pozulmasına deyilir. Dilimizin qrammatik normasına görə, xəbər cümlənin sonunda gəlməlidir. Lakin sənətkar bədii əsərdə, xüsusən nəzm əsərində söz sırasını məqsədli şəkildə pozaraq inversiya yaradır.

**Komediya** – dramatik növün janrlarından biridir, yunan dilində *şən mahnı, nəğmə* deməkdir. Komediyada konflikt komik xarakter daşıyır, müsbət ideya ilə mənəvi eybəcərliyin qarşılaşması, aralarındakı ziddiyyət gülüş doğurur. Bu gülüş həm yumor, həm də satira səciyyəli ola bilər.

**Kompozisiya** – bədii əsərdə həyat hadisələrinin bir-biri ilə əlaqələndirilməsinə və müəyyən bir sistemdə qurulmasına deyilir. Əsərin ideya-məzmununun açılmasında onun quruluşu, tərkib hissələrinin düzülüşü, surətlərin əlaqə və münasibətlərinin təşkili, hadisələrin təsviri mühüm rol oynayır. Yazıçı əsərdə surətləri, hadisələri hansı ardıcıllıqla, necə təqdim edəcəyinə, süjetin inkişaf tərzinə xüsusi diqqət yetirir. Sənətkarın kompozisiyanın qurulmasında istifadə etdiyi vasitələr rəngarəngdir. *Epiqraf, proloq, epiloq, lirik haşiyə, peyzaj* kompozisiyanın ünsürləridir.

**Konflikt** – bədii əsərdə süjetin inkişafının, iştirak edənlərin mübarizəsinin əsasını təşkil edən münaqişə, toqquşmadır. Bədii əsərin qəhrəmanlarının xarakteri konflikt vasitəsilə açılır.

**Kinayə** – bədii ifadə vasitəsinin növlərindən biri olub, fikrin ifadə tərzinin onun əsil mənasına qarşı qoyulmasına deyilir. *Kinayə* əvəzinə, istehza mənasını verən *ironiya* termini də işlənir. Kinayədə əsərin qəhrəmanının mənfi cəhəti müsbət mənalı sözlərlə pərdələnərək tənqid olunur. Məsələn, qorxaq adama "igid", tənbəl adama "zəhmətkeş" deyilməsi kinayə yaradır.

**Qafiyə** – nəzm əsərində tələffüzcə, səs tərkibi etibarilə bir-birinə yaxın olan sözlərdir. Məsələn: *bahar, laləzar*.

**Qəsidə** – lirik növün janrıdır. Daha çox ictimai mövzularda, təntənəli, təmtəraqlı üslubda yazılır, ən azı 15 beytdən, yəni 30 misradan ibarət olur. Qafiyə quruluşu qəzəldəki kimidir: aa, ba, ca, ça, da və s. Qəsidənin *minacat, nət, mədhiyyə, fəxriyyə, mərsiyə* kimi növləri var.

**Qəzəl** – lirik növün janrıdır. Daha çox məhəbbət mövzusunda yazılan qəzəl 5-10 beytdən ibarət olur. İlk beyti – mətlə beyt həmqafiyə olur: aa. Digər beytlərin birinci misrası sərbəst, ikinci misrası birinci beytlə həmqafiyə olur. ba, ca, ça, da və s. Qəzəlin son beyti məqtə beyt, ən güclü beyti şah beyt adlanır.

**Qitə** – ərəbcə *parça, hissə* deməkdir. Qitə ictimai-siyasi, fəlsəfi məzmunda yazılır. Həcmcə üç beytdən iyirmi beş beytəcən olan qitə ab, cb, db şəklində qafiyələnir. Qitədə mətlə beyt qafiyələnmir, son beytdə şairin təxəllüsü verilmir. M.Füzulinin "Padişahi-mülk" qitəsi bu janrın ən yaxşı nümunələrindəndir.

**Qol** – dastanın bitkin bir hissəsidir.

**Qoşma** – lirik növün geniş yayılmış janrlarından biri. Hər bəndi dörd misradan, hər misrası 11 hecadan ibarət olur. Bəndlərin qafiyə quruluşu abvb;



LAYİHƏ

cccb; qqqb şəklindədir. Son banddə sənətkar öz təxəllüsünü söyləyir. Qoşmada bəndlərin sayı tək (3, 5, 7) olur.

**Lirika** – şairin hiss və həyəcanlarını şeir şəklində ifadə edən ədəbi əsər növlərindən biri.

Lirik əsərdə şairin hadisəyə, ətrafda baş verənlərə müsbət münasibətini əks etdirən tərənnümə geniş yer verilir. Tərənnüm ətraf aləmdə baş verənlərin (əşya və hadisələr, təbiət gözəllikləri) təsiri ilə lirik qəhrəmanda yaranan xoş hislərin, sevincin, fərəhin, müsbət fikir və arzuların obrazlı, ahəngdar ifadəsidir. Məsələn, Aşıq Ələsgər "Yaylaq" şeirində doğma yurdun gözəl təbiətini tərənnüm edir, məhəbbət, vurğunluq hislərini çatdırır. Lirik əsərlərdə müəllifin duyğu və düşüncələrindən, hiss və həyəcanlarından yaranan emosionallıq mühüm yer tutur. Lirika mövzu və məzmunca iki əsas qrupa bölünür: *məhəbbət lirikası, ictimai-siyasi lirika*. Məhəbbət lirikasında qadına məhəbbət, lirik qəhrəmanın sevgilisinə bəslədiyi səmimi hislər mühüm yer tutur. Vaqifin "Pəri" qoşması qadın gözəlliyinə emosional münasibət ön plana çəkildiyi üçün məhəbbət lirikası nümunəsi sayılır. İctimai-siyasi lirikada sənətkarın ictimai-siyasi hadisələrə, ictimai quruluşa münasibəti, azadlıq, qəhrəmanlıq, vətəndaşlıq borcu və s. məsələlər öz əksini tapır. Təbiət mövzusunda olan əsərlər təbiət, peyzaj lirikası sayılır.

**Lirik qəhrəman** – şairin yaratdığı bütün lirik əsərləri əhatə edən şərti termindir. Lirik qəhrəmanın daxili aləmi hadisələr, hərəkətlər vasitəsilə deyil, müəyyən şəraitdə keçirdiyi hislər, həyəcanlar, ruhi vəziyyət vasitəsilə açılır. Lirik qəhrəmanla şairin şəxsiyyəti arasında sıx bağlılıq olsa da, bunları eyniləşdirmək olmaz. Lirik qəhrəmanın fikir və həyəcanlarını həmişə mütləq şairin özünün fikir və həyəcanları kimi qəbul etmək doğru deyil.

**Litota** – yunanca *kiçiltmə* deməkdir. Təsvir olunan predmet və ya hadisənin ölçüsünün, qüvvəsinin, əhəmiyyətinin əslində olduğu kimi yox, kiçildilmiş şəkildə təqdim olunması *litota* adlanır.

**Metafor** – bədii təsvir vasitəsidir, *köçürmə* deməkdir. Metaforda müəyyən əşyanın əlaməti müqayisə əsasında digər əşyanın üzərinə köçürülür. Məsələn, *təbiət oyandı* cümləsində insanın oyanmaq əlaməti təbiətin üzərinə köçürülmüşdür. Metafor təşbehə bənzəsə də, aralarında fərq vardır. Təşbehdə həm bənzəyən, həm də bənzədilən işlənilir: *Buludlar insan kimi göz yaşı tökdü.* Bu nümunədə təbiət bənzəyən, insan bənzədilən olduğu üçün təşbehdir. Metaforda isə bənzəyən (təbiət) var, bənzədilənin isə özü yoxdur, ancaq əlaməti (göz yaşı tökmək) köçürülür: *Buludlar göz yaşı tökdü.*

**Məcaz** – sözün məcazi mənası əsasında yaranan bədii təsvir vasitələrinə – epitet, təşbeh, metafor, metonimiya, simvola deyilir.

**Mədhiyyə** – klassik poeziyada lirik növün janrı. Qəsidənin bu növündə hökmdarlar, yüksək rütbəli şəxslər təntənəli, dəbdəbəli üslubda təriflənir.

**Məclis** – ərəb sözüdür, mənası *yığıncaq* deməkdir. Bədii əsərin bitkin hissələridir. Məsələn, N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi məclislər şəklində yazılıb.

**Məqtə** – şeirin (xüsusən qəzəl və qəsidələrin) son beytinə deyilir.

**Məliküş-şüəra** – Yaxın və Orta Şərq ölkələrində hökmdarların sarayda yaratdığı şairlər məclisinin başçısı olan söz ustadı.

**Mənzum roman** – nəzm şəklində yazılmış irihəcmli əsər. Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əksər poemalar mənzum roman da adlanır.

**Mərsiyə** – ərəbcə *matəm şeiri* deməkdir. Qəsidənin klassik ədəbiyyatımızda geniş yayılmış bu növündə daha çox görkəmli şəxsiyyətlərin – müqəddəslərin, hökmdarların, qəhrəmanların, sənətkarların ölümündən doğan qəm, kədər hisləri əks olunur.



LAYİHƏ

**Məsnəvi** – misraları aa, bb, cc şəklində qafiyələnən, Şərq ədəbiyyatında geniş yayılmış şeir formasıdır. Məsnəvinin hər beyti bitkin bir fikri ifadə edir. Bu formada yazılan əsərlər mövzu cəhətdən müxtəlif, həcmcə qeyri-məhdud olur. Nizaminin "Xəmsə"si, Xətayinin "Dəhnamə" əsəri məsnəvi formasındadır.

**Mətlə** – şeirin (xüsusən qəzəl və qəsidələrin) ilk beytinə deyilir.

**Minacat** – klassik ədəbiyyatda Allahın tərifinə həsr olunan şeir janrı, qəsidənin bir növü. Klassik poemanın başlanğıcında verilən minacatda şair Allahı tərifləyir, ondan kömək istəyir.

**Misradaxili bölgü** – ifada misraların daxilində fasilələrin yaranmasıdır:

İxtilatın şirin,/ sözün məzəli,
Şəkər gülüşündən /canlar təzəli,
Ellər yaraşığı, /ölkə gözəli,
Nə gözəl doğubsan/ anadan, Pəri!

**Monoloq** – bədii əsərdə qəhrəmanın digər surətlərə, yaxud özünə müraciətlə söylədiyi nitqdir. Dramatik əsərdə bəzən monoloq qəhrəmanın tamaşaçılara müraciəti şəklində olur. Monoloq vasitəsilə yazıçı obrazın daxili aləmini, fikir və düşüncələrini əks etdirir. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsində Rüstəm bəyin əsərin başlanğıcındakı monoloqu onun dünyagörüşünü, daxili aləmini ifadə edir.

**Mövzu** – yazıçının bədii əsərdə diqqət mərkəzinə çəkdiyi əsas həyati məsələlər, səciyyəvi hadisələrdir. Mövzu əsərin ideyası ilə sıx əlaqəlidir.

**Müxəmməs** – ərəbcə *beşqatlı* deməkdir. Lirik növün bu janrında bəndlər beş misradan ibarət olur. İlk bənddə bütün misralar həmqafiyə olur: aaaaa. Sonrakı bəndlər bbbba, cccca şəklində qafiyələnir. Son bənddə sənətkarın təxəllüsü verilir. Müxəmməs həm əruz, həm də heca vəznində yazılır. Heca vəznində olan müxəmməsin hər misrası 15 və ya 16 hecalı olur. Vaqifin məşhur "Görmədim" şeiri müxəmməs janrında yazılıb.

**Mülənmmə** – ərəb sözüdür, mənası *rəngbərəng, bəzəkli* deməkdir. Hər beyti bir dildə olan şeir formasıdır. Azərbaycan şairlərinin mülənmmələri, adətən, üç dildə – Azərbaycan, ərəb, fars dillərində yazılırdı. Mülənmmə, əsasən, qəzəl və məsnəvi formasında olur.

**Mürəbbe** – ərəbcə *dördlük* deməkdir. Lirik növün bu janrı, adətən, ictimai-siyasi və məhəbbət mövzularında olur. Mürəbbe 5–7 bənddən, hər bənd dörd misradan ibarət olur. İlk bənd aaaa şəklində, sonrakı bəndlər isə bbba, ccca şəklində qafiyələnir. Sonuncu bənddə müəllifin təxəllüsü verilir.

**Müsəddəs** – *altılıq* deməkdir. Hər bəndi altı misradan ibarət olur. İlk bənd aaaaaa şəklində, sonrakı bəndlər bbbbaa, ccccaa şəklində qafiyələnir.

**Nəsr** – ədəbi yaradıcılığın iki əsas formasından (nəsr, nəzm) biridir. Nəsrin vahidi cümlədir. Nəsrlə yazılan əsərlər cümlələr və abzaslar şəklində formalaşır. Bu cümlələr ədəbi dil normaları əsasında qurulur, onlarda sözlərin qrammatik sıralanmasının pozulmasına az təsadüf olunur. Nəsrin şeirdən fərqli özünəməxsus ahəngi vardır. Nəsr əsərlərində yazıçı insanların gündəlik həyatını bütün mürəkkəb çoxcəhətliliyi ilə dərk və əks etdirməyə çalışır. Nəsrdə süjet, hadisələrin inkişafı daha çox yer tutur.

**Nət** – Peyğəmbərin qüdrətindən və müqəddəsliyindən bəhs edən şeir janrı, qəsidənin bir növü. Klassik poemalarda minacatdan sonra nət gəlir.

**Nəzirə** – başqa bir yazıçının əsərinin təsiri altında yaradılan əsərə deyilir.

**Nəzm** – ərəb sözüdür, mənası *nizam-intizam* deməkdir. Bədii əsərin yazılma formalarından (nəzm, nəsr) biridir. Nəzmlə yazılmış əsərlərdə fikir adi danışıq formasından fərqli, emosional şəkildə, misra, beyt, bəndlərdə ifadə edilir. Nəzm əsərlərinin bir xüsusiyyəti də misralarda söz sırasının pozulması hallarının



LAYİHƏ

(inversiyanın) geniş yayılmasıdır. Nəzmin əsas əlamətləri bunlardır: ahəng, ölçü, qafiyə, rədif, bölgü və s.

**Ölçü** – ədəbiyyatşünaslıqda buna *vəzn* də deyilir. Ölçü və ya vəzn dedikdə şeirdəki misraların həcmi nəzərdə tutulur. Misraların həcmcə və ahəngcə bərabərliyinin gözlənilməsi vəznin əsas tələbidir.

**Peyzaj** – bədii əsərdə təbiət təsvirinə deyilir. Məsələn, Xətayi "Bahariyyə"də təbiətin bahar fəslində aldığı gözəlliyi təsvir etmişdir.

**Poema** – bədii ədəbiyyatın epik-lirik təsvir növlərindən biridir. Poemada həyat hadisələri, obrazların taleyi geniş təsvir edilir. Bəzi poemalarda hadisələrin şairdə doğurduğu hiss və duyğulara daha geniş yer verilir. Belə olanda həmin əsər lirik-epik poema adlandırılır. Bəzən isə, əksinə, əhvalat və hadisələrin təsviri üstünlük təşkil edir, müəllifin hiss və duyğularının ifadəsi arxa plana keçir. Belə əsərlər isə epik-lirik poema hesab edilir. Klassik poeziyamızda poema əvəzinə, *məsnəvi, dastan, mənzumə* terminlərindən istifadə olunub.

**Portret** – bədii əsərdə surətlərin zahiri görünüşünün təsvirinə deyilir. Portret insan obrazlarının canlı verilməsinə, onların xarakterinin daha yaxşı açılmasına kömək edir.

**Povest** – epik növün janrlarından biri. Rus dilindəki "*povestvovanie*" sözündəndir, mənası *təhkiyə*, *nəqletmə* deməkdir. Həcm və məzmun tutumuna görə hekayədən böyük, romandan isə kiçik olur. Povestdə bir neçə əhvalatdan bəhs olunur. Romandan fərqli olaraq, burada hadisələr sürətlə inkişaf etməli, onların bir-biri ilə əvəzlənməsi çevik olmalıdır. Bu cəhəti nəzərə alan yazıçı süjet xəttinin əsasını təşkil edən elə həyati hadisə seçməlidir ki, mahiyyətcə sürətli inkişafa zəmin yaratsın və povest çərçivəsinə sığışsın. M.F.Axundzadənin "Aldanmış kəvakib" əsəri bu janrın kamil nümunəsidir.

**Realist metod** – sənətkarın bədii əsər yazarkən istifadə etdiyi yaradıcılıq metodlarından biridir. Latınca *realis* sözündəndir, mənası *olduğu kimi*, *həqiqət* deməkdir. Realist metodun əsas tələbi həyat hadisələrini olduğu kimi təsvir etməkdir. Bu metodda real hadisələrin təsviri əsas yer tutur.

**Realizm** – müəyyən dövrdə realist metodla yazıb-yaradan sənətkarları birləşdirən ədəbi cərəyan. XX əsrin əvvəllərində tənqidi realizm bədii metodunun nümayəndələri (C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev və b.) "Molla Nəsrəddin" jurnalının ətrafında birləşmişdilər.

**Remarka** – dramatik əsərdə iştirak edən şəxslərin zahiri görkəmi, yaşı, səhnəyə gəlməsi və getməsi, davranışı, hisləri, hərəkətləri, səhnədəki vəziyyət və s. haqqında müəllifin verdiyi izahatdır. Remarka çox zaman mötərizə içərisində verilir, pyesi tamaşaya qoyan rejissor, rolları ifa edən aktyorlar üçün bir göstəriş rolunu oynayır. Remarka pyesi oxuyan oxucular üçün də məlumat, izahat mənbəyi olur.

**Replika** – əsərdə bir obrazın başqasına cavabı. Dramatik əsərdə aktyorun bu və ya başqa səhnədə söylədiyi son sözlərə də *replika* deyilir. Bu replikadan (son sözdən) sonra digər aktyor öz rolunun sözlərini deməyə başlayır.

**Rədif** – misraların sonunda qafiyədən sonra təkrar olunan sözlərdir. Məsələn, M.Ə. Sabirin "Əkinçi" satirasında misralarda qafiyədən sonra gələn "əkinçi" sözləri rədifdir:

Məzlumluq edib başlama fəryadə, əkinçi!
Qoyma özünü tülkülüyə, adə, əkinçi!

**Roman** – fransız sözüdür, vaxtilə roman dillərindən birində yazılmış əsərlərə deyilib. Epik növün irihəcmli janrı olan roman təhkiyə əsasında yazılır, mürəkkəb həyat hadisələri əhatəli, süjet və surətlər sistemi geniş bədii lövhələrlə əks etdirilir. Romanda təsvir edilən hadisələr zaman baxımından



LAYİHƏ

geniş bir dövrü əhatə edir, qəhrəmanların sayı çox olur, surətlərin həyat yolu geniş təsvir edilir. Roman, əsasən, nəsrlə yazılır, lakin nəzmlə yazılan romanlar da vardır. Bunlara *mənzum roman* deyilir.

**Romantizm** – latınca *romanlarda olduğu kimi* deməkdir. Bu yaradıcılıq metodu ilə yazılan əsərlərdə sənətkar həyatda mövcud olanı deyil, arzu olunanı təsvir edir. O, arzuladığı, xəyalında yaratdığı həyatı, müstəsna şəraitdə fəaliyyət göstərən xəyali surətləri təsvir etməklə həyatı dəyişdirib yeniləşdirməyə can atır. Azərbaycan ədəbiyyatında Nizaminin "Xəmsə"sinə daxil olan mənzum romanlar romantizm metodu ilə yazılmış əsərlərin klassik nümunəsidir.

**Rübai** – lirik növün cəmi dörd misradan ibarət olan, ictimai-əxlaqi, fəlsəfi məzmun daşıyan janrıdır. aaba şəklində qafiyələnir. Həcmcə kiçik olmasına baxmayaraq, dörd misrada bitkin, məna və ideyaca dərin fikir ifadə edilməlidir. Bəzi rübailərdə misraların dördü də həmqafiyə olur. Rübai əruz vəzninin həzəc bəhrində yazılır. Klassik ədəbiyyatımızda Məhsəti Gəncəvi rübainin böyük ustadı sayılır.

**Satira** – müxtəlif ədəbi növ və janrlarda (hekayə, şeir, dram və s.) ictimai həyatdakı mənfilikləri qəzəblə ittiham edən, kəskin surətdə ifşa edən əsərlərə deyilir. Satirada ifşaedici, öldürücü gülüş əsas yer tutur, sənətkar həyatın eybəcər tərəflərini qəsdən qabardır, mübaliğəli təsvir edir. O, həmin mənfiliklərin insan həyatına, mənəvi dəyərlərə zidd olduğunu göstərməklə oxucunu düşünməyə, mənfi hallara qarşı mübarizə aparmağa sövq edir. *Yumor* isə islahedici gülüşdür, oxucuda tənqid hədəfinə mərhəmət hissi doğurur.

**Sarkazm** – yunan sözüdür, *acı, istehzalı gülüş, rişxənd* deməkdir. Cəmiyyətdə, insan xarakterində və əməllərindəki nöqsanlara münasibətini sənətkar açıq, satirik mahiyyətli kəskin gülüşlə ifadə edir. Sarkazm komik məzmunlu bədii vasitə kimi istehzaya çox yaxındır, lakin istehzadan fərqli olaraq, sarkazmda yüksək emosional münasibət, inkarçı mövqe, qəti etirazın yüksək pafosla ifadəsi əsasdır.

**Sufizm** – orta əsrlər islam Şərqində geniş yayılmış dini təriqət, mənəvi-əxlaqi düşüncə və davranış sistemidir. Sufi ərəb sözü olub qaba yundan hazırlanmış *parça* mənası verir. İlk sufilər zənginlikdən uzaq sadə həyat yaşadıqlarını, başqalarından fərqli qrup olduqlarını göstərmək üçün yun paltar geyinirdilər. Onlar nəfsə uymamağı, dünya nemətlərindən uzaqlaşıb mənəvi təmizlənmə yolu ilə Allaha qovuşmağı öz məqsədlərinə çevirmişdilər. Orta əsrlər Azərbaycan klassik ədəbiyyatında sufizm ideyaları geniş əks olunmuşdur.

**Süjet** – bədii əsərdə hadisələrin müəyyən xətt üzrə inkişaf etdirilməsinə deyilir. Süjet fransız sözü olub, əsərdə təsvir olunan mahiyyət və hadisə deməkdir. Süjet xəttinin inkişafında beş əsas mərhələ var:

1. Ekspozisiya – (bədii müqəddimə, bədii zəmin, giriş) gələcəkdə baş verəcək hadisələrin təməli qoyulur. Hadisənin başvermə şəraiti aydınlaşdırılır.
2. Zavyazka (düyün) – vəziyyətin getdikcə mürəkkəbləşməsini, hadisələrin inkişafında maneə, düyün yarandığını göstərir.
3. Kulminasiya (zirvə nöqtəsi) – hadisələrin, ziddiyyətlərin ən yüksək inkişaf nöqtəsinə çatdığını göstərir.
4. Razvyazka (açılış) ziddiyyətlərin tədricən aradan qalxdığını, hadisələrin, düyünün açılmağa doğru getdiyini göstərir.
5. Final – (bədii sonluq) hadisələrin müəyyən sonluğa çatmasıdır.

**Tarixi mənzumə** – mövzusu tarixdən götürülmüş əsər. Nəzmlə yazılan süjetli lirik və ya epik şeir.

**Təcnis** – ərəb sözüdür, mənası *eynicinsli* deməkdir. Lirik növün bu janrının qafiyə sistemi qoşmadakı kimidir. Birinci bəndi abvb, sonrakı bəndlər cccb dddb



LAYİHƏ

şəklində qafiyələnir. Lakin qoşmadan fərqli olaraq, təcnisdə qafiyələr cinaslardan – fonetik tərkibinə, səslənməsinə görə eyni, mənaca müxtəlif olan sözlərdən ibarət olur. Cinas qafiyələr fikri daha təsirli, emosional çatdırmağa imkan verir. Təcnisin müxtəlif növləri var. Cığalı təcnisdə hər bir bəndin içində dörd misralıq bayatı verildiyi üçün bənddəki misraların sayı səkkiz olur. Ayaqlı təcnisdə bəndlərin sonuna "ayaq", "artırma" adlanan beş-altı hecalıq misra əlavə olunur. Dodaqdəyməz təcnisdə b, p, m – qoşa dodaq samitləri işlədilməyi üçün dodaqlar bir-birinə dəymir.

**Təhkiyə** – epik əsərlərdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) hadisə oxucuya təhkiyə (danışmaq, söyləmək, nağıl etmək) yolu ilə çatdırılır. Əsərdəki hadisələr ya müəllifin, ya da qəhrəmanın dilindən nağıl edilə bilər.

**Təkrir** – bədii əsərdə eyni sözün, söz qrupunun, ifadənin məqsədli şəkildə təkrar olunmasına deyilir. Təkririn iki növü var: anafora və epifora; **anafora** – misranın, cümlənin əvvəlində işlənən təkrirdir; **epifora** – misranın, cümlənin sonunda işlənən təkrirdir.

**Tərcibənd** – lirik növün bu janrı qafiyələri müxtəlif olan bir neçə bənddən ibarət olur. Birinci bəndin sonundakı beyt digər hissələrin də sonunda təkrar işlədilir.

**Tərənnüm** – bədii əsərdə hadisələrin, qəhrəmanın hərəkətlərinin, təbiət gözəlliklərinin yaratdığı xoş hislərin, müsbət arzu və istəklərin obrazlı, ahəngdar ifadəsidir.

**Tərkibbənd** – klassik şeir formalarından biridir. Tərkibbənddə hər bəndin sonunda misraları həmqafiyə olan beyt verilir. Hər bəndi altı misradan iyirmi və daha çox misrayadək olan tərkibbəndlər var. Qafiyələnmə qaydası müxtəlifdir. Bəndlərdəki beytlər aa bb cc dd və ya aa ba ca da şəklində qafiyələnə bilir.

**Təsvir** – bədii əsərdə hadisənin, qəhrəmanın, əşyanın, təbiət mənzərəsinin əlamətlərinin sözlə ifadəsidir.

**Tuyuq** – türkcə duyğu, duymaq sözündəndir. Hikmətamiz məzmun daşıyan tuyuq dörd misradan ibarət olur, aaba şəklində qafiyələnir. Əruzun rəməl bəhrində yazılır. Klassik ədəbiyyatımızda Qazi Bürhanəddin öz tuyuqları ilə məşhurdur.



LAYİHƏ

## OXUMAĞI MƏSLƏHƏT GÖRÜRÜK[1]

**“Azərbaycan şifahi xalq ədəbiyyatı”**
bölməsi üzrə:

“Kitabi-Dədə Qorqud” dastanı. (Boy müəllimin tövsiyəsi ilə seçilə bilər.)
“Daşdəmirin nağılı”.

**“Qədim Azərbaycan ədəbiyyatı”** (ən qədim zamanlardan XIII əsrə qədər) bölməsi üzrə:

*Xaqani Şirvani*. “Həbsiyyə”, “Mədain xərabələri”.
*Məhsəti Gəncəvi*. Rübailər.
*Nizami Gəncəvi*. “Sirlər xəzinəsi”, “Yeddi gözəl”.

**“Orta dövr Azərbaycan ədəbiyyatı”** (XIII–XVI əsrlər) bölməsi üzrə:

*Qazi Bürhnəddin*. Tuyuqlar.
*İmadəddin Nəsimi*. “Dilbəra, mən səndən ayrı”, “Ayrılır” qəzəlləri.
*Şah İsmayıl Xətayi*. “Kərəm eylə” gəraylısı, “Nəsihətnamə” məsnəvisi.
*Məhəmməd Füzuli*. “Əql yar olsaydı” qəzəli, “Padişahi-mülk” qitəsi.

**Yeni dövr Azərbaycan ədəbiyyatı.**
**I mərhələ.** XVII–XVIII əsrlər bölməsi üzrə:

“Koroğlu” dastanı. Tərtibçi M.Təhmasib. (Qol müəllimin tövsiyəsi ilə seçilə bilər).
*Molla Pənah Vaqif*. “Bəri bax” qoşması, “Görmədim” müxəmməsi, “Bax” qəzəli.
*Molla Vəli Vidadi*. “Ağlarsan” qoşması.

**Yeni dövr Azərbaycan ədəbiyyatı.**
**II mərhələ.** XIX əsr bölməsi üzrə:

*Abbasqulu ağa Bakıxanov*. “Nəsihətnamə”.
*Mirzə Fətəli Axundzadə*. “Hekayəti-mərdi xəsis” komediyası.
*Xurşidbanu Natəvan*. “Qərənfil” qəzəli.

[1] Tövsiyə siyahısı Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamı əsasında Azərbaycan dilində latın qrafikası ilə çap olunaraq məktəb və rayon kitabxanalarına yayılmış kitablar əsasında tərtib edilmişdir.



LAYİHƏ

*Mənbələr*


1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I cild, Bakı: Elm, 2004.
2. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, II cild, Bakı: Elm, 2007.
3. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, III cild, Bakı: Elm, 2009.
4. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, IV cild, Bakı: Elm, 2011.
5. Araslı H. Böyük Azərbaycan şairi Füzuli, Bakı, 1958.
6. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII–XVIII əsrlər). Bakı: Elm, 2014.
7. Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977.
8. Dadaşzadə A. XVIII əsr Azərbaycan lirikası. Bakı: Elm, 1980.
9. Əliyev P.B. Ümumtəhsil məktəblərində poetikanın tədrisinin nəzəri və praktik problemləri. Bakı: Nurlan, 2000.
10. Ərəb-fars sözləri lüğəti. I-II cild. Bakı: Şərq-Qərb, 2005.
11. Əliyev S. Füzuli. Bakı, 1996.
12. Əsgərli Z. Poetika. İzahlı sözlük. Bakı: Elm, 2014.
13. Əsgərli Z. N.Vəzirovun “Müsibəti-Fəxrəddin” faciəsi. Bakı: Maarif, 1985.
14. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992.
15. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007.
16. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1974.
17. Qarayev Y. Faciə və qəhrəman. Bakı: EA-nın nəşriyyatı, 1965.
18. Quluzadə M. Böyük ideallar şairi. Bakı: Gənclik, 1973.
19. Mir Cəlal, P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1988.
20. Məmmədov Ə. Şah İsmayıl Xətayi. Bakı: Uşaqgəncnəşr, 1961.
21. Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979.
22. Həsənli B.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016.
23. Həsənli B., Abdullazadə N. İfadəli oxu. Bakı: Müəllim, 2015.
24. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı: ADPU, 2009.
25. Hüseynoğlu S. İfadəli oxunun əsasları. Bakı: ADPU-nun nəşri, 2009.
26. Hüseynoğlu S. Yeni təlim texnologiyaları və ədəbiyyat dərslikləri. Azərb. dili və ədəb tədrisi. 2015, № 2, s.25–32.
27. Köçərli F. Azərbaycan ədəbiyyatı. I-II cild. Bakı: Elm, 1981.
28. Səfərli Ə.,Yusifli X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Ozan, 1998.
29. Veysova Z.A. Fəal/interaktiv təlim. Bakı, 2007.
30. Yusifov F.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: ADPU-nun nəşri. 2010.




LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

**ƏDƏBİYYAT – 10**
*Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün*
*Ədəbiyyat fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Soltan Hüseyn oğlu Əliyev**<br>**Bilal Ağabala oğlu Həsənov**<br>**Aynur Cəfər qızı Mustafayeva** |
| Redaktor | **Kəmalə Abbasova** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssamlar | **Məzahir Hüseynov, Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |


**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2017-086)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 9,3. Fiziki həcmi: 13 çap vərəqi.
Formatı: $70\times100^{1}/_{16}$. Səhifə sayı: 208.
Şriftin adı və ölçüsü: Məktəb qarnituru 9-11 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı – 2022.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 03.07.2017**

Nəşriyyat:
**"Bakınəşr"** (Bakı, H.Seyidbəyli küç., 30)

Çap məhsulunu istehsal edən:

LAYİHƏ

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



LAYİHƏ